**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQROEMAL SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

Elmlər doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş
**DİSSERTASİYA**

**İddiaçı:_________________i.f.d., dosent Yunus Musa oğlu Sadıqov**

**Bakı - 2024**

MÜNDƏRİCAT

**GİRİŞ**....................................................................................................4

**I FƏSİL. AQROEMAL SAHƏSİNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. Aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsinin mahiyyəti, nəzəri əsasları və inkişaf tarixi....................................................................................14

1.2. Aqroemal sahəsinin dövlət tənzimlənməsinin metodları və prinsipləri....................................................................................................27

1.3. Aqroemal sahəsinin dövlət tənzimlənməsi sahəsində beynəlxalq təcrübə..........36

**II FƏSİL. AZƏRBAYCANDA AQROEMAL SAHƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Aqroemal sahəsinin xammal bazasının mövcud durumunun təhlili....................................................................................................47

2.2. Aqroemal sahəsinin mövcud inkişaf meyllərinin qiymətləndirilməsi................60

2.3. Aqroemal sahəsinin müəssisələri ilə təchizatçılar və istehlakçılar arasında münasibətlərin transformasiyası ........................................................................99

2.4. Aqroemal sahəsinin müəssisələrinin fəaliyyətinin ölkənin kənd təsərrüfatının inkişafına təsirinin riyazi-statistik qiymətləndirilməsi............................................109

**III FƏSİL. AQROEMAL SAHƏSİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÖVCUD İQTİSADİ MEXANİZMLƏRİNİN FORMALAŞDIRILMASI PRİNSİPLƏRİ**

3.1. Aqroemal məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi mexanizmləri və tənzimlənməsi prinsipləri............................................................127

3.2. Aqroemal məhsullarının satış bazarında rəqabət mühiti mexanizminin təkmilləşdirilməsi..........................................................................................140

3.3. Aqroemal sahəsinin innovasiya potensialının səmərəli istifadə edilməsi istiqamətləri.......................................................................................................152

3.4. Aqroemal sahəsinin ölkənin yüngül və yeyinti sənayesinin intensiv inkişafındakı mövqeyinin gücləndirilməsi........................................................................168

**IV FƏSİL. AQROEMAL SAHƏSİNİN İQTISADİ İNKIŞAFININ QLOBAL İNKİŞAF MEYLLƏRİNƏ UYĞUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

4.1. Aqroemal sahəsinin səmərəli idarəetmə mexanizminin formalaşdırılması və təkmilləşdirilməsi...................................................................................................193

4.2. Aqroemal sahəsinin inkişafının maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi.................................................................................................... 212

4.3. Aqroemal sahəsinin dayanıqlı inkişafının təmin edilməsinin dövlət tənzimlənməsi.......................................................................................................224

**NƏTİCƏ**.........................................................................................................244

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**.............................................259

**ƏLAVƏLƏR**....................................................................................................279

**İXTİSAR VƏ ŞƏRTİ İŞARƏLƏRİN SİYAHISI**............................................279

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Qloballaşan dünyada beynəlxalq meyarlara uyğun güclü cəmiyyət və dövlət olmaq yalnız azad rəqabətlilik olan bir mühitdə və daim müsbət dəyişikliklərə gedən açıq bir iqtisadi sistemin şəffaf idarə olunması ilə mümkün ola bilər. Başqa sözlə, ölkədə iqtisadi inkişaf tempi, o cümlədən, sənaye, aqrar-sənaye kompleksi və xidmət sahələrindən ibarət olan iqtisadi sistemin düzgün və şəffaf idarə edilməsi nəticəsində ölkə iqtisadiyyatının yüksək inkişafı əldə edilə bilər.

Son yarıməsrlik bir dövr ərzində kənd təsərrüfatı məhsullarının sənaye texnologiyası vasitəsilə emalı bir sıra iqtisadi əlaqələrin yaranmasına təkan vermişdir. Ölkə iqtisadiyyatlarının müxtəlif inkişaf mərhələlərində iqtisadi əlaqələrin özü daim müxtəlif dəyişikliklərə uğramışdır.

Azərbaycan müstəqillik əldə etdiyi illərdə siyasi, sosial və iqtisadi böhranlarla üzləşmişdir. 1990-cı illərdə baş vermiş bu böhranlar ölkə iqtisadiyyatına, o cümlədən, kənd təsərrüfatına pis mənada ciddi təsir göstərmişdir. Həmin illərdə iqtisadiyyat zəifləmiş, istehsal kəskin azalmış, ev gəlirləri və həyat səviyyəsi aşağı düşmüş, alıcılıq qabiliyyəti azalmışdır ki, bu da tələbatın azalmasına səbəb olmuşdur. Belə vəziyyətdə kənd təsərrüfatında iqtisadi göstəricilərin pisləşməsi ilə bağlı tədbirlərin görülməsi prosesi zərurət kimi meydana çıxmışdır.

Bazar iqtisadiyyatına keçid və dövlət müəssisələrinin özəlləşdirilməsi ölkə iqtisadiyyatının, o cümlədən, kənd təsərrüfatının inkişafı üçün kifayət deyildir. Ona görə bazar iqtisadiyyatına keçid zamanı dövlətin bazar münasibətlərinə müdaxiləsi olmalıdır və zəruridir.

Hər bir ölkədə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət etməkdən ibarətdir. Ölkədə aparılan ümumi iqtisadi islahatlar fonunda bütünlükdə iqtisadiyyat və eyni zamanda iqtisadiyyatın mühüm bir sahəsi kimi aqrar və aqroemal sahəsi də inkişaf edir. Ölkədə bazar münasibətlərinin tədricən təkmilləşməsi və inkişafının daha da genişləndirilməsi ön plana çıxmışdır. İqtisadiyyatda, o cümlədən, aqroemal sahəsində dövlət tənzimlənməsinin bütün istiqamətlərdə ardıcıl olaraq

həyata keçirilməsi nəticəsində torpağın və müxtəlif xarakterli müəssisələrin özəlləşdirilməsi başa çatmış, özəl sektor bütövlükdə iqtisadiyyatda həlledici mövqe tutmuşdur. İnkişaf etməkdə olan ölkələrdə aqrar iqtisadiyyatı və əsasən də onu inkişaf etdirən aqroemal sahəsini inkişaf etdirmədən, yüksək inkişaf etmiş iqtisadiyyata nail olmaq qeyri-mümkündür. Eyni zamanda dünyada və ayrı-ayrı ölkələrdə bu vəzifə həm də ətraf mühit və təbii sərvətlərdən səmərəli istifadə problemi ilə əlaqədardır.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin və idxaldan asılılığın əhəmiyyətli sürətdə azaldılmasını, yerli aqroemal məhsullarının həcminin yüksəldilməsini şərtləndirən əsas məsələlərdən biri də 2020-ci ildə işğaldan azad edilmiş ərazilərimizdə iqtisadiyyatın yenidən qurulması, infrastrukturun və iqtisadi subyektlərin yaradılaraq və ya bərpa edilərək yenidən iqtisadi dövriyyəyə qatılması perspektividir. Ölkədə aqroemal məhsullarının kəmiyyət və keyfiyyətinin yüksəldilməsində, idxaldan asılılığın azaldılmasında, bir sözlə, ərzaq təhlükəsizliyinin təmin edilməsində işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşması, vaxtilə mövcud olmuş aqroemal müəssisələrinin yenidən və müasir texnologiya əsasında bərpa edilməsi, yenilərinin yaradılması çox böyük rol oynayacaq.

Qeyd etdiyimiz kimi, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsində və əhalinin yerli ərzaq təminatında aqrar-sənaye kompleksinin mühüm sahəsi olan aqroemal sahəsinin əhəmiyyəti çox böyükdür. Son dövrlərdə bu problemlər çox aktuallaşdığından hazırda bütün ölkələrin hökumətləri kənd təsərrüfatı məhsullarının istehsalına və emalına xüsusi diqqət verməyə məcbur olmuşlar. Buna görə də aqroemal sahəsinin dövlət tənzimləməsi müasir zamanda çox aktualdır və daim dövlətin diqqət mərkəzindədir.

Artıq müstəqilliyini bərpa etmiş Azərbaycanda aqrar və aqroemal sahəsinin inkişafı və bu prosesdə dövlət tənzimlənməsinin rolu məsələləri geniş şəkildə tədqiq edilməyə başlanmışdır. Müasir Azərbaycanın tanınmış iqtisadçı alimlərindən Ə.X.Nuriyev, İ.H.Alıyev, A.İ.Məmmədov, V.H.Abbasov, İ.H.İbrahimov, İ.S.Qarayev, B.X.Ataşov, H.B.Allahverdiyev, H.A.Xəlilov, S.V.Salahov, T.H.Hüseynov, R.K.İsgəndərov, A.T.Əhmədov, A.A.Rüstəmov, M.C.Hüseynov,

R.Ə.Balayev, E.A.Quliyev, M.A.İbrahimov, V.Ə.Qasımlı və başqaları dövlət tənzimlənməsi ilə əlaqədar müxtəlif istiqamətlərdə tədqiqatlar aparmış, problemin nəzəri və praktiki aspektlərini tədqiq etmişlər.

Tanınmış klassiklərdən F.Kene, C. Keyns, A.Smit, müasir xarici iqtisadçı alimlərindən M.Porter, İ.Şumpeter, P.Druker, S.Y.Qlazev, V.A.Medvedev, E.Q.Yasin, E.A.Karpov və başqalarının əsərlərində dövlət və iqtisadiyyat münasibətləri, dövlətin iqtisadiyyatı tənzimləmə səviyyələri ilə əlaqədar fikirlər öz əksini tapmışdır.

Ölkədə aqroemal sahəsinin məhsullarına daim yüksək və sabit tələbat var ki, bu da onu daim investisiya üçün cəlbedici edir. Ona görə də dövlət üçün bu sahə daim ən önəmli və prioritet sahələrdən sayılır və bu sahənin qarşısında duran konkret vəzifələrin xüsusiyyətlərini nəzərə almaqla daha da inkişaf etdirilir. Aqroemal sahəsinin dövlət tənzimlənməsinin daim təkmilləşməyə ehtiyacı vardır və bu təkmilləşmə prosesi yeni tədqiqatların aparılmasını zəruri edir.

Bütün bunlar dissertasiya işinin aktuallığını və onun məqsəd və vəzifələrini şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycan Respublikasında xammal və bazarlarla birlikdə, mülkiyyət formasından asılı olmayaraq aqroemal sahəsinin təsərrüfat subyektlərini əhatə edir.

Tədqiqatın predmetini isə aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsi prosesində yaranan təşkilati-iqtisadi və sosial münasibətlər, yeni elmi yanaşmalar və qanunauyğunluqlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Kənd təsərrüfatı məhsullarının emalı sənayesinin formalaşması, inkişafı və səmərəliliyinin artırılması ilə bağlı elmi və nəzəri məsələləri araşdırmaq, mövcud vəziyyəti təhlil etmək və problemlərin aradan qaldırılması ilə bağlı prioritetləri müəyyən etmək, eyni zamanda, aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsinin tətbiqinin səmərəliliyinin artırılması istiqamətində elmi-praktik tövsiyə və təkliflərin işlənib hazırlanmasıdır.

Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- aqroemal sahəsində mövcud dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin zəruriliyini labüd edən səbəblərin müəyyənləşdirilməsi;

- aqroemal sahəsinin inkişafında dövlət tənzimlənməsinin daim dəyişən bazar konyunkturasına uyğun mütəmadi olaraq müasirləşdirilməsinin zəruriliyinin sübut edilməsi;

- beynəlxalq təcrübədə aqroemal məhsullarının istehsalının müasir vəziyyətinin araşdırılması və inkişaf meyllərinin göstərilməsi;

- ölkəmizdə aqroemal məhsullarının istehsalı və satışı sahəsində mövcud vəziyyətin təhlil edilməsi;

- aqroemal sahəsinin inkişafında dövlət tənzimlənməsinin mövcud vəziyyətinin səmərəliliyinin qiymətləndirilməsi;

- bazar şəraitində kənd təsərrüfatı məhsullarının emalı sahəsinin müasir şəraitdə hədəflərinin göstərilməsi;

- aqroemal sahəsinin maliyyələşdirmə ilə bağlı bəzi mexanizmlərinin təkmilləşdirilməsi ilə əlaqədar tövsiyələrin verilməsi;

- kənd təsərrüfatına investisiya qoyuluşlarının aqroemal sahəsinə təsirinin təkmilləşdirilməsi yollarının göstərilməsi;

- dövlət tənzimlənməsi səmərəliliyinin yüksəldilməsi istiqamətində aqroemal sahəsinin inkişafı üçün perspektivli təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqat metodları:** Tədqiqat metodu kimi məntiqi ümumiləşdirmələr, statistik təhlil, sorğu, müşahidə, müqayisəli və sistemli təhlil, qruplaşdırma, iqtisadi-riyazi təhlil və riyazi ölçmələr (reqressiya, korrelyasiya) kimi üsullardan istifadə edilmişdir.

İnformasiya bazası kimi Azərbaycan Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) faktiki materialları və hesabatları, o cümlədən, müvafiq sahələrin idarəetmə orqanlarının və əlaqədar elmi tədqiqat müəssisələrinin statistik məlumatları, hesabatları və tədqiq

olunan aqroemal sahələri müəssisələrindən toplanmış faktiki materiallar və internet məlumatlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Aqroemal sahəsinin dayanıqlı inkişafını təmin etmək üçün dövlət tənzimlənməsi sisteminin xammal və məhsul istehsalı üzrə əsas strateji hədəflərinin müəyyən edilməsinə ehtiyac duyulur;

2. Ölkədə bir çox ərzaq məhsullarının idxaldan asılılığının çox olması aqroemal sahəsinin inkişafını və bazarın qorunması alətlərindən istifadə edilməsi zəruriliyini ortaya qoyur;

3. Aqroemal sahəsinin davamlı inkişafının təmin edilməsi sahibkarlıq mühitinin və rəqabət qabiliyyətliliyinin yüksəldilməsini tələb edir;

4. Kənd təsərrüfatına ayrılan subsidiyaların son nəticəyə görə, daha doğrusu, əmtəəlik məhsula görə verilməlidir ki, bu da məhsuldarlığın və keyfiyyətin artması istiqamətində güclü stimul yaradar, aqroemal müəssisələrinin xammal üzrə idxaldan asılılığını qismən azaldar. Azərbaycanda faktorinq krediti və vençur investisiya sisteminin formalaşdırılması, inkişafı və onların aqroemal müəssisələrində tətbiqi zərurəti günün tələbinə çevrilmişdir;

5. 2020-ci ildə işğaldan azad edilmiş Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları ölkənin kənd təsərrüfatını və aqroemal sahəsini inkişaf etdirmək baxımından böyük potensiala malikdir. Azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətini stimullaşdırmaq üçün hökümət tərəfindən bir çox həvəsləndirici tənzimlənmə tədbirlərinin görülməsi və torpaq islahatının aparılması zəruridir;

6. Regional və sektorial klasterlərin yaradılması ölkədə kənd təsərrüfatı və aqroemal sahəsinin inkişafı üçün ən əhəmiyyətli vasitələrdən biridir. Ona görə də dövlət səviyyəsində klasterlərin inkişafı ilə əlaqədar dövlət proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac duyulur;

7. Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmalıdır və bu üzvlük milli iqtisadiyyatın qlobal dünyaya inteqrasiyasına və ticarətin liberallaşdırılmasına, ümumilikdə ölkə iqtisadiyyatına, o cümlədən, aqroemal sahəsinin inkişafına çox güclü təkan olacaqdır;

8. Ölkədə aqroemal sahəsinin inkişafı və dövlət tənzimləmələrinin daha da optimallaşdırılması üçün təklif və tövsiyələr.

**Tədqiqatın elmi yeniliyi:**

- Azərbaycanın aqroemal sahəsinin və müəssisələrinin vəziyyətinin təhlili aparılmış, ölkənin aqroemal sahəsində istehsal həcminin azalmasına və bəzi sahələrdə hələ də davam edən durğunluğun səbəblərinə aydınlıq gətirilmiş, həmçinin, yerli müəssisələrin səmərəliliyinin artırılmasının elmi-praktiki istiqamətləri formalaşdırılmış və inkişaf perspektivləri müəyyən edilmişdir;

- Aqroemal sahəsinin və bütövlükdə aqrar-sənaye kompleksinin mövcud vəziyyətinin inkişaf yollarının təhlili aparılıb, onun nəticələri kənd təsərrüfatı məhsullarının emalı sənayesinin dövlət dəstəyinə ciddi ehtiyacı olan yarımsahələrini müəyyən etməyə imkan verib;

- Aqroemal sahəsinin məhsullarının daxili bazarda və eyni zamanda ixracı zamanı dünya bazarlarında rəqabətqabiliyyətliliyinin təmin edilməsinin zəruriliyi mövcud dünya iqtisadi konyunkturasına adekvat olduğu sübut edilmiş, mövcud problemlərin kompleks həll olunmasının yolları və zəruriliyi göstərilmişdir;

- Aqroemal müəssisələrinin innovasiya-investisiya modelinə uyğun olaraq maddi-texniki bazasının modernləşdirilməsi, rəqabət qabiliyyətli məhsul istehsalı və inkişafının yüksəldilməsinə yönəldilmiş tövsiyələr və təkliflər hazırlanmışdır.

- Azərbaycanın kənd təsərrüfatının inkişafı üçün hazırda mövcud olan xammal-ixrac modelinin ölkənin aqrar-sənaye sahəsinin inovativ-investisiya modelinə uyğun və yüksək rəqabət qabiliyyətinə malik məhsulların istehsalına və ixracına istiqamətləndirilməsi strategiyasının daha məqsədəuyğun olması sübut edilmişdir.

- Ölkənin aqroemal sahəsi müəssisələrinin rəqabət qabiliyyətinin inkişafında problem və maneələr göstərilmiş, bu sahənin inkişafı üçün strateji istiqamətlər müəyyənləşdirilmiş və bu istiqamətlər üzrə əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

- Kənd təsərrüfatı məhsullarının həcminin aqroemal müəssisələrinin dayanıqlı fəaliyyətini xarakterizə edən göstəricilərə təsirinin riyazi-statistik modeli qurulmuşdur.

- Aqroemal müəssisələrinin innovativ və yüksək riskli layihələrinin həyata keçirilməsində digər investisiya mənbələri ilə müqayisədə mülkiyyətçilərin və investorların maraqlarını ən yaxşı şəkildə təmin edən mənbə kimi vençur kapitalından istifadənin prioritetliyi irəli sürülür.

- Aqroemal müəssisələrinin dövriyyə kapitalının gücləndirilməsi üçün faktorinq xidmətinin göstərilməsinin zəruriliyi ortaya qoyulmuş və faktorinq maliyyələşməsinin maliyyə vəziyyətləri zəif olan müəssisələrin geniş spektri üçün satış həcmlərinin artırılmasında ən yaxşı resurs mənbəyi olması əsaslandırılmışdır.

- Ölkənin aqroemal sahəsinin səmərəliliyinin və rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində klasterlərin rolu, inkişaf perespektivləri və tətbiqinin zəruriliyi əsaslandırılmışdır.

- Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olması ölkə iqtisadiyyatının inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiyası, birbaşa xarici investisiyaların cəlb edilməsi məsələlərində çox önəm daşıması göstərilmiş və ölkənin bu təşkilata daxil olması zəruriliyi elmi-praktik cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Ümumilikdə tədqiqatın nəzəri və praktiki əhəmiyyəti aqroemal sahəsinin dövlət tənzimlənməsinin istər idarəetmə mexanizminin, istər maliyyə-kredit mexanizminin və istərsə də digər tənzimlənmə mexanizmlərinin təkmilləşdirməyə imkan verəcək əsas istiqamətlərin və konkret tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Tədqiqatın nəzəri əhəmiyyəti aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsinin təkmilləşdirilməsini zəruri edən konkret səbəblərin sistemləşdirilməsindən və onun təkmilləşdirilməsi üsullarının işlənib hazırlanmasından ibarətdir.

Praktiki əhəmiyyəti odur ki, əldə edilmiş nəticələr elmi müəssisələr tərəfindən aqroemal sektorunun inkişaf proqramlarının işlənib hazırlanmasında, dövlət tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsinə aid qərarların hazırlanmasında, eyni zamanda, rəqabət qabiliyyətinin yüksəldilməsi, idxalın yerli istehsal ilə əvəz edilməsi istiqamətində fəaliyyətin gücləndirilməsi və aqroemal sahəsinin innovasiya-investisiya modelinə uyğun inkişafı üçün metodoloji vasitə kimi istifadə etmək olar.

- Azərbaycanda aqroemal sahəsinin inkişaf strategiyalarında sektorial klaster subyektlərinin konseptual modellərinin və proqramların işlənib hazırlanmasında perspektiv istiqamət kimi istifadə etmək olar;

- ÜTT-yə üzv olmaq kontekstində aqroemal sahəsinin inkişafının perspektivlərini və əsaslandırılmış uzunmüddətli ssenarilərini müəyyən etmək üçün istifadə etmək olar.

- dissertasiyada faktorinq krediti və vençur investisiya sisteminin formalaşdırılmasına dair işlənib hazırlanmış təkliflər aqrar-sənaye müəssisələri, banklar və vençur investisiya institutları tərəfindən təcrübədə istifadə oluna bilər.

Dissertasiyada yer alan tövsiyələr və nəticələr aqroemal sahələrində dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi proseslərində gələcək inkişaf üçün baza kimi istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi:** Dissertasiyanın əsas nəzəri müddəaları, praktik nəticələr və tövsiyələri aşağıdakı beynəlxalq və respublika konfranslarına təqdim edilmiş və həmin konfransların materiallarında çap edilmişdir:

Azərbaycanda torpaq islahatı-20 “Nailiyyətlər və perspektivlər” mövzusunda ümumrespublika elmi-praktik konfransı (Bakı 2016)

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri” mövzusunda elmi-praktik konfrans (Bakı 2018)

“Azərbaycan iqtisadiyyatı qlobal dünya iqtisadiyyatında dəyişikliklər dövründə” mövzusunda elmi konfrans (Bakı 2019)

“Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” mövzusunda respublika elmi konfransı (Naxçıvan 2020)

“Science and Global Studies” (Elm və Qlobal Tədqiqatlar) VII Beynəlxalq elmi konfrans (Praqa, Çexiya 2020)

“Science and Global Studies” (Elm və Qlobal Tədqiqatlar) VIII Beynəlxalq elmi konfrans (Praqa, Çexiya 2021)

“Modern directions of scientific research development” (“Elmi tədqiqatların inkişafının müasir istiqamətləri”) VII Beynəlxalq elmi-praktik konfrans (Çikaqo, ABŞ 2021)

“İnternational scientific innovations in human life” (“İnsan həyatında beynəlxalq elmi yeniliklər”) (Mançester, Böyük Britaniya 2022)

“Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri” Beynəlxalq Elmi konfransı (Gəncə 2022)

“İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər” Respublika elmi-praktik konfrans (Bakı, Qərbi Kaspi Universiteti 2022)

“Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi” Beynəlxalq elmi-praktiki konfrans (Bakı, Bakı Biznes Universiteti 2022)

Tədqiqatın mövzusu üzrə resenziyalı elmi jurnallarda ümumilikdə 16 məqalə, o cümlədən, Scopus beynəlxalq bibliometrik məlumat bazasında indeksləşdirilmiş jurnallarda 1 məqalə, Web of Science beynəlxalq bibliometrik məlumat bazasında (РИНЦ) 1 məqalə, həmçinin 1 fərdi və 1 kollektiv monoqrafiya dərc edilmişdir. Beynəlxalq və respublika elmi konfranslarda 10 çıxış, məqalə və tezislərlə iştirak etmiş və konfrans materiallarında çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Elm və Təhsil Nazirliyi İqtisadiyyat institutu

**Dissertasiyanın struktur bölmələrinin və işinin həcmi:** Tədqiqatın məntiqinə uyğun olaraq dissertasiya işi cəmi 422933 işarədən, o cümlədən, giriş (16623 işarə), dörd fəsil (1-ci fəsil 58203 işarə, 2-ci fəsil 117417 işarə, 3-cü fəsil 110190 işarə, 4-cü fəsil 90700 işarə), nəticə (29800 işarə), istifadə edilmiş ədəbiyyat siyahısından, əlavələrdən, ixtisar və şərti işarələrin siyahısından ibarətdir. Dissertasiya işində ümumilikdə 49 cədvəl, 6 qrafik və 25 şəkil tərtib edilib.

# I FƏSİL. AQROEMAL SAHƏSİNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Aqroemal sahəsinin inkişafının tənzimlənməsinin mahiyyəti, nəzəri əsasları və inkişaf tarixi

Dövlətçilik və idarəetmə yaranandan dövlətin iqtisadiyyata müdaxiləsi az, ya çox dərəcədə daim olubdur. Hər bir dövlətin qarşısında duran əsas vəzifəsi cəmiyyətin yüksək rifah halına yönləndirdiyi sosial siyasətidir. Ona görə də iqtisadiyyatın dövlət tənzimlənməsi həm sosial və həm də iqtisadi siyasətinin həyata keçirilməsi üçün zəruri olduşdur. İqtisadiyyatın tənzimlənməsini tamamilə bazarın öhdəsinə buraxmaq çox zaman lazımi effekti vermir. Əksəriyyət hallarda bazar iqtisadi proseslər zamanı baş verən böhran hadisələrinin öhdəsindən gələ bilmir və belə hallarda dövlət müdaxiləsinin zəruriliyi ortaya çıxır. Dövlət müdaxiləsinin zəruriliyi nəzərə alınaraq bu kimi halların qarşısının vaxtında alınması üçün görülən tədbirlərə haqq qazandırılır və əsaslandırılır.

Məlumdur ki, bütün ölkələrdə iqtisadiyyatın normal fəaliyyətinin və inkişafının təmin edilməsində dövlət əsas rol oynayır. Ona görə də iqtisadiyyatın tənzimlənməsində dövlətin iqtisadiyyata müdaxiləsinin səviyyəsi, optimal nisbəti və bu müdaxilənin hüdudlarının müəyyənləşdirilməsi əsas problem hesab olunur. Məhz, “dövlətin iqtisadiyyata müdaxiləsi hansı həddə qədər olmalıdır?” sualı dünya iqtisadçıları qarşısında bir çox fikir ayrılıqları ilə nəticələnmişdir. Ona görə də iqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi daim yenilənən bir prosesdir. Bütün iqtisadi sistemlərdə dövlət, az və ya çox dərəcədə iqtisadiyyata müdaxilə edir və bu müdaxilə, bir qayda olaraq, bazarın çatışmazlıqlarının aradan qaldırılması məqsədinə xidmət edir.

İqtisadi liberalizm konsepsiyasının əsasını qoymuş A.Smitin nəzəriyyəsi dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılmasının zəruriliyini ortaya qoymuş,

dövlətin işinin ancaq asayişi qorumaq, xüsusi mülkiyyəti və rəqabəti müdafiə etmək olduğunu göstərmişdir [141].

V. Ouken də bu yanaşmanı inkişaf etdirərək hesab edirdi ki, *"dövlət iqtisadi qaydanı təmin etmək üçün lazımdır, lakin bu, iqtisadi prosesləri planlaşdırmamalı və tənzimləməməlidir"* [136,s.84].

Monetar iqtisadi nəzəriyyənin banisi Milton Fridman iqtisadiyyata dövlət müdaxiləsi məsələsində daha sərt mövqe ortaya qoymuşdur. O, dövlətin iqtisadiyyata müdaxiləsini sərbəst bazara təhdid hesab edərək, bu müdaxiləni tamamilə rədd etmişdir. Onun bu yanaşmaları müəllifi olduğu «Kapitalizm və azadlıq» [147] və «Seçmək azadlığı: mövqeyimiz» [148] kitablarında şərh edilmişdir.

M. Fridman və onun tərəfdarları azad və sərbəst bazar iqtisadiyyatının fəaliyyət göstərməsini daha məqbul, iqtisadi proseslərə dövlət müdaxiləsinin səviyyəsini isə maksimum məhdudlaşdırmağı zəruri hesab edirlər.

Ancaq U.Çörçill dediyi kimi, *"həyatda ideal bazar yoxdur və bazar iqtisadiyyatının çoxlu çatışmamazlıqları var, lakin nə etmək olar, hələki bundan yaxşı bir şey fikirləşməyiblər"* [152, s.56]. Buna görə də hal-hazırda bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin müəyyən hüdudlaradək zəruri olması haqqında heç kəs mübahisə etmir.

İqtisadiyyatın dövlət tənzimlənməsi məsələlərində M.Feldşteynin, C.Qilderin [164], A.Lafferin [168], neoklassik nəzəri tədqiqatlarından da istifadə edilmişdir. Bu iqtisadçılar liberal iqtisadiyyatın tərəfdarlarıdırlar və belə hesab edirdilər ki, dövlət tənzimlənməsində vergi siyasəti sahibkarlığın stimullaşdırılması üçün ən vacib amildir.

İctimai seçim nəzəriyyəsinin müəllifi olan, Nobel mükafatı laureatı, amerika iqtisadçısı Ceyms Byükenenin əsas ideyası isə ona əsaslanır ki, dövlət məmuru əsasən siyasi fəaliyyətlə məşğul olduğundan, iqtisadi sferanın hər hansı bir məsələsinin həllində cəmiyyətin içtimai maraqlarını heç də həmişə rəhbər tutmayacaqlar. Bu məmurların, əksinə, siyasi bürokrat institutunun formalaşmasında maraqlı olacaqlarını və öz iqtisadi və fərdi qazanc maraqlarının həllinə daha çox çalışacaqlarına əsas gətirir. Belə bir fəaliyyət nəticəsində lobbizm (bir qrup insanların

ictimai qərarların verilməsində öz xeyirlərini həll edirlər) və loqrollinq (bir qrup insanların qarşılıqlı biri-birinin xeyrinə dəstək verməklə qərarın çıxarılması) elementləri özünü büruzə verir. Bu nöqteyi-nəzərdən, ictimai seçim nəzəriyyəsinin nümayəndələri ölkə iqtisadiyyatının tənzimlənməsində çıxış yolunu bazar münasibətlərinin müstəqil və azad inkişafında görürlər. Buna görə də bu nəzəriyyəni neoliberalist nəzəriyyəsinin davamı kimi də hesab etmək olar [155].

Qlobal iqtisadiyyatda 1929-33-cü illərdə baş verən tənəzzül və iqtisadi böhran neoklassiklərin nəzəri təlimini alt-üst etdi. Nəticədə bu dövrdə Keyns elmi təlimçilərinin nəzəri təlimi məşhurlaşdı. Keynsçilər bazar proseslərinin makro iqtisadi səviyyədə stabilliyin təmin olunmasında müstəqil korporativ idarə edilmə ilə yanaşı dövlət tənzimlənməsini irəli sürürdülər.

Keynsçilər bu yanaşmanı əsas götürülər ki, *“məhz dövlət maşını maliyyə sistemindən istifadə edərək çatışmayan alıcılıq qabiliyyətini “yaratmalı” və onun iqtisadi dövriyyəyə “yolunu açmalıdır”* [145]. Bu nəzəriyyənin əsası ondan ibarətdir ki, bazar öz-özünün tam iqtisadi sabitliyini təmin etmək iqtidarında deyil. Buna görə də dövlət iqtisadiyyatın tənzimlənməsində öz aktiv rolunu göstərməlidir. Həm iqtisadi böhran illərində və həm də sonrakı dövrlərdə Keyns nəzəriyyəsi, praktiki cəhətdən böyük müvəffəqiyyətlə həyatda fəaliyyət göstərməyə başladı.

Ümumiyyətlə, müasir azad bazar sistemi iki makroiqtisadi konsepsiya: Keyns və monetarist konsepsiyası əsasında formalaşır.

R. Qrinberq və digər müasir iqtisadçı alimlər qarışıq iqtisadi siyasətə üstünlük vermişlər. Bu o deməkdir ki, həm dövlət tənzimlənməsi və həm də liberal bazar iqtisadiyyatına birgə keçidin zəruriliyi daha düzgün mövqedir. R.Qrinberqin yanaşmasına görə, “*dövlət tənzimlənən və sosial yönümlü bazar iqtisadiyyatı əsasında real sektorun dinamik inkişafını təmin etməlidir”* [125, s.16].

**Cədvəl 1.1.1 İqtisadiyyatın dövlət tənzimlənməsi haqqında fikirlər**

| | |
|---|---|
| M.Blauq [121, c.34] | *“Dövlət idarəçiliyinin əsas funksiyası, sosial-iqtisadi sabitliyə nail olmağa istiqamətlənərək, milli rəqabət üstünlüklərinin təmin və müdafiə edilməsi, eyni zamanda, müdaxilə bazar mexanizminin real dəyişən təsərrüfat şəraitinə uyğunlaşdırılması olmalıdır”.* |

| | |
|---|---|
| E.Quliyev [70, s.36] | *"Aqrar-sənaye istehsalının dövlət tənzimlənməsi dedikdə dövlətin istehsal, təkrar emal və kənd təsərrüfatı məhsulları və ərzağın satışının təşkili, həmçinin istehsal texniki xidmətə və ASK-*nin maddi-*texniki təminatına iqtisadi təsiri başa düşülür".* |
| Abalkin L. İ. [118. s.605] | *"Dövlət orqanlarının birbaşa və ya dolayı təsirinin məqsədi makroiqtisadi tarazlığa nail olmaq və iqtisadiyyatın ümumi normal fəaliyyətini təmin etmək məqsədilə cəmiyyətdə iqtisadi proseslərin düzgün idarə edilməsidir".* |
| I.H.Alıyev [1,s.288] | *"Aqrar sahənin dövlət tənzimlənməsi onu nəzərdə tutur ki, mühüm strateji əhəmiyyətli ərzaq və digər kənd təsərrüfatı məhsullarının istehsalında aqrar bölmə işçilərini maddi cəhətdən maraqlandırmalı, həmin məhsullar üzrə müəyyən olunmuş qaydada sifariş verməlidir".* |
| Xarçenko E.V, Vertakova Ю.B. [151] | *"İqtisadiyyatın tənzimlənməsi Ictimai ehtiyac və maraqların, cəmiyyətin ümumi məqsəd və iradəsinin həyata keçirildiyi cəmiyyətin, onun ayrı-ayrı qruplarının fəaliyyətinə dövlət institutlarının şüurlu təsiridir".* |
| M.A.Əhmədov A.C.Hüseyn [55, s.8] | *"Bazar iqtisadiyyatında dövlət tənzimləmə vasitələrinə üstünlük verərək ölkənin sosial iqtisadi inkişafını proqnozlaşdırır; iqtisadiyyatın strukturunun yenidən qurulmasını həyata keçirir; özəlləşdirmə yolu ilə mülkiyyətin çoxnövlülüyünü reallaşdırır; antiinhisar tənzimləmə tədbirlərini tədbiq edir; əlverişli investisiya mühiti formalaşdırır və bütün bu proseslərin hüquqi bazasını yaradaraq təkmilləşdirir".* |
| Oktay Məmmədli Mürsəl İsmayılov Fazil İsmayılov [80, s. 29] | *"Beləliklə, bütün bunlar belə fikir söyləməyə əsas verir ki, cəmiyyətdə gedən iqtisadi və sosial proseslərə dövlətin müdaxiləsi zəruridir və bunun heç bir sübuta ehtiyacı yoxdur".* |
| H.B.Allahverdiyev K.S.Qafarov Ə.M.Əhmədov [2, s.29] | *"Azad bazar iqtisadiyyatının inkişafı nə qədər özünün tənzimləmə mexanizminə malik olsa da, ona dövlətin müdaxiləsi zəruridir. Lakin dövlət öz funksiyasının sərhədini keçməməli, iqtisadiyyatda öz iştirakını minimuma endirməlidir".* |

Mənbə: alimlərin fikirləri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 1.1.1-də göstərilən mənbələr əsasında iqtisadçı-alimlərin mülahizələri və yanaşmaları ümumiləşdirilərək göstərilmişdir.

Dövlətin iqtisadiyyata müdaxiləsinin səviyyəsini tədqiq edən bir çox iqtisadçı-alimlər var ki, onlar iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdürlər. 1994-cü ildə Con Xarsani, Con Neş, Raynxard Zelten [178], 1996-cı ildə Ceyms Mirrlis, Uilyam Vikri [179] və 2001-ci ildə Corc Akerlof, Maykl Spens və Cozef Stiqlis [180] bu mükafata layiq görülmüş tədqiqatçılardır. Bu alimlər tam liberal bazar iqtisadiyyatnı tədqiq edərək onun çatışmamazlıqlarını aşkar etmişlər və müasir bazar iqtisadiyyatı problemlərinə yeni yanaşmanı ortaya qoymuşlar.

Iqtisadiyyatın idarə edilməsi problemlərində, xərc və nəticə müqayisəsi əsasında müəyyən edilməsi neoklassik məktəbinin banisi, ingilis iqtisadçısı Alfred Marşall 1890-cı ildə qələmə aldığı "Ekonomiksin prinsipləri" əsərində göstərmişdir. Təhlil əsasında belə nəticəyə gələrək qeyd edirdi: *„Biznesmen öz kapital qoyuluşunun ehtiyatla istehsalın bütün sahələri üzrə elə yönəltməlidir ki, zaman müddətində biznesmenə güman edilən qədər mənfəətin əldə edilməsinə imkan versin və hər yeni vəsait qoyuluşu onun xərclərinin əvəzini ödəyə bilsin,, iqtisadi idarə etmədə bu əsas götürülməlıdir* [132, s. 84].

Beləliklə, yuxarıda adları qeyd olunan və olunmayan iqtisadçı alimlərin fikir və yanaşmalarını ümumiləşdirərək iqtisadiyyatın dövlət tənzinlənməsini belə şərh etmək olar: - **İqtisadiyyatın dövlət tənzimlənməsi** – dövlət orqanları tərəfindən ölkənin iqtisadi subyektlərinin inkişafını təmin etmək və cəmiyyətin rifahının yüksəldilməsi məqsədilə həyata keçirilən əhatəli fəaliyyət sistemidir.

Azərbaycanın aqroemal sektorunda yaranmış mövcud vəziyyət bütün istehsal və istehlak prosesi üzrə aktiv dövlət müdaxiləsini tələb edir. Yuxarıda qeyd edildiyi kimi, iqtisadiyyata təsir edən amillər sabit və statik olaraq qala bilməzlər. Bəzən kənd təsərrüfatının və aqroemal sektorunun inkişafına müsbət təsir göstərən bəzi amillər müəyyən müddətdən sonra əks effekt verə bilər.

İqtisadiyyata dövlət müdaxiləsi prosesində konkret hədəflər müəyyənləşməlidir. Bu hal bir çox alimlərin tədqiqatlarında tövsiyə edilir. Məsələn, Rusiya alimləri A.V.Aqıbalov və O.S.Kaptsova görə, ümumilikdə kənd təsərrüfatına dəstək və xüsusilə kənd təsərrüfatı sahəsində dövlətin qarşısında duran aşağıdakı əsas problemlər həll olunmalıdır:

- *"idxalı əvəz etməyə yönəlmiş kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ölkəyə mal gətirən təchizatçıların sayının azaldılması".*

- *"İnfrastrukturun inkişafı yolu ilə məhsulların saxlanması, daşınması və marketinqi üçün imkanların yaradılması";*

- *"emal seqmentinin böyüməsinə yönəlmiş yüksək əlavə dəyərə malik məhsulların payının artırılması, sənayenin kapitallaşmasının və investisiya cəlbediciliyinin artırılması"* [119, s. 74].

Azərbaycanda müstəqillik qazanılandan sonra aqrar sahənin inkişafı iki mərhələdən keçib:

1)ilk illərdə baş vermiş iqtisadi böhran və bununla əlaqədar istehsalın kəskin azalması;

2) bazar iqtisadiyyatı şəraitinə inteqrasiya və adekvat olaraq istehsalın artması.

Kənd təsərrüfatı ilə aqroemal sahəsi bir-biri ilə çox sıx bağlı olduğu üçün kənd təsərrüfatı məhsullarının istehsalının inkişafı aqroemal sahəsinin inkişafını zəruri etmişdir. Aqroemal sahəsi kənd təsərrüfatı istehsalının inkişafında aparıcı rol oynayır. Məhz aqroemal sahəsinin inkişafı kənd təsərrüfatı sahəsinin inkişafı üçün əsas və önəmli şərait yaradır.

*"Aqrar-sənaye müəssisələri dedikdə tərkibində kənd təsərrüfatı məhsullarını emal edən sənaye istehsalının olduğu kənd təsərrüfatı müəssisələri başa düşülür. Bu cür inteqrasiya ən çox tez xarab olan, pis daşınan meyvələr, giləmeyvələr, tərəvəz və süd məhsulları üzrə istehsal və emal müəssisələrinin inteqrasiyasından ibarətdir. Digər bir tərəfdən kənd təsərrüfatı müəssisələri çoxlu həcmdə qeyri-standart məhsullar əldə edirlər. Bağçılıqda və tərəvəzçilikdə standarta uyğun gəlməyən məhsullar ümumi yığımın 25%-ni təşkil edir. Ona görə də, bu məhsulların emalı üzrə sexlərin və zavodların yaradılması istehsalın iqtisadi səmərəliliyinin diqqətə çarpacaq dərəcədə artırılmasına imkan verir"* [25. s.90].

Aqroemal sahəsi xammal və texnologiyadan istifadə baxımından müxtəlif mürəkkəb struktura malikdir. Hesab edirik ki, bu struktur iki qrupa, ərzaq və qeyri-ərzaq qruplarına bölünməli və hər qrupa daxil olan konkret fəaliyyət növləri göstərilməlidir. Bunu aşağıda tərtib etdiyimiz cədvəl şəklində vermək olar.

**Cədvəl 1.1.2 Aqroemal sahəsinin əsas məhsullarının qruplaşdırılmış təsnifatı**

| Aqroemal sahəsinin əsas məhsulları | |
|---|---|
| Ərzaq məhsulları | Qeyri-ərzaq məhsulları |
| Qida məhsulları istehsalı o cümlədən: | Tütün məmulatları istehsalı |
| Kolbasa məmulatları | Toxuculuq sənayesi üçün ilkin emal |
| Süd məmulatları | Geyim istehsalı üçün ilkin emal |
| Dondurma | Dəri və dəri məmulatları, ayaqqabı istehsalı üçün ilkin emal |
| Pendir və kəsmik | Ağac emalı və ağacdan məmulatların istehsalı üçün ilkin emal |
| Kərə yağı | |
| Balıq məhsulları (konservlə birlikdə) | |
| Meyvə və tərəvəz konservləri | |
| Makaron məmulatları | |
| Bitki yağları | |
| Marqarin yağları | |
| Şəkər və qənnadı məmulatları | |
| Çörək və un məmulatları | |
| Çay | |
| Qida duzu | |
| Yem | |
| Alkoqollu və alkoqolsuz içki məhsulları | |

Mənbə: müəllif tərəfindən tərtib edilib

Cədvəl 1.1.2-də aqroemal müəssisələrinin istehsal etdiyi məhsullar mümkün qədər ümumiləşdirilmişdir. Əslində isə bu sahə əhalinin gündəlik tələbatını minlərlə müxtəlif çeşidli məhsullarla təmin edir. Eyni zamanda, məhsulların çeşidləri mütəmadi olaraq yenilənir və yeni istehlak keyfiyyətlərini qazanır.

Qeyri-ərzaq məhsulları istehsalında aqroemal müəssisələri əsasən yüngül sənaye üçün yarımfabrikat hazırlamaqla fəaliyyətləri məhdudlaşır. Məsələn, trikotaj və geyim sənayesində yunun, pambığın ilkin emalı (təmizlənmə, növlərə ayrılma, mahlıc istehsalı, iplik hazırlanma, boyanma və s.) prosesləri həyata keçirilir. Bu yarımfabrikatlardan müxtəlif istehlak mallarının hazırlanması isə (paltar, xalça, ayaqqabı və s.) artıq yüngül sənaye strukturunun fəaliyyəti hesab edilir. Bu strukturların sərhədlərini müəyyən etmək bəzən çox çətinlik yaradır və buna görə də DSK-nin hesabatlarında bütün bu kateqoriyalar "emal" başlığı altında birləşdirilir.

Aqroemal müəssisələri çox böyük həcmdə istehlak məhsulları istehsal edirlər və daim həmin məhsulların kiçik həcmdə qablaşdırılmasına, etiketləşdirilməsinə və s. ehtiyacı olur. Beləliklə bu sahə həm də şüşə, kağız, metal, polimer, poliqrafiya məhsullarının əsas istehlakçısına çevrilir. Eyni zamanda, qablaşdırma üçün müxtəlif

qablaşdırıcı maşınlara və avtomatik texnologiyalara, qablaşdırılma zamanı yüksək keyfiyyətli poliqrafiya məhsullarına da ehtiyac yaranır və sənayenin bu sahəsinin də əsas alıcısı olur. Göründüyü kimi, aqroemal sahəsinin inkişafı həm də bir çox sahələrin inkişafına gətirib çıxarır.

### 1.1.1. Azərbaycanda aqroemal sahəsinin inkişaf tarixi

Kənd təsərrüfatında istehsalın təmərküzləşməsinin əsas təkanverici qüvvəsi XIX əsrin ortalarında sənayenin güclü inkişafı olmuşdur. Sənayenin inkişafı aqroemal sahəsinin yaranmasına, inkişafına və zaman-zaman kənd təsərrüfatının inkişafında aparıcı bir mövqedə qərarlaşmasına zəmin yaratdı. Bir müddət sonra kənd təsərrüfatında istehsal olunan bütün istehlak mallarının müxtəlif fəaliyyətlərinin, yəni istehsal, emal, xidmət, satış və s. inteqrasiyalaşması prosesi baş verdi. Bütün bu proseslər son məhsul istehsalının daha səmərəli və rəqabətqabiliyyətli olması uğrunda idi ki, istehsal ilə emal sahələri arasında daha sıx əlaqələr formalaşmağa başladı.

Ölkəmizdə aqroemal sahəsinin yaranması tarixi əsasən son 100-120 ildən o tərəfə keçmir. Elə kənd təsərrüfatı məhsulları var ki, (xüsusilə də texniki bitkilər) istehsalı ilə yanaşı onun ilkin emalı müəssisələri də qurulmalıdır. Pambıq, çay, tütün, barama və s. bunlara misal göstərmək olar.

Pambıq istehsalına nəzər salsaq görərik ki, istehsal ilə yanaşı ən azından pambıq təmizləmə zavodlarının mövcudluğu labüddür. T. Ə. Əzizov "Azərbaycan XX əsrin əvvəllərində" əsərində göstərmişdir ki, hələ 1912-ci ildə Yelizavetpol (indiki Gəncə) quberniyasında 28, Bakı quberniyasında 22 pambıq təmizləmə zavodu var idi. Azərbaycanlı milyonçu-sahibkar H.Z.Tağıyev tərəfindən XX əsrin əvvəllərində Bakının Zığ kəndində iri toxuculuq fabriki tikilib istifadəyə verilmişdir. Bu bütün Qafqazda ilk və ən iri pambıq-parça toxuma müəssisəsi idi. Fabrikdə təxminən 1400 nəfər işçi çalışırdı. Müəssisə əksəriyyəti xaricdən alınıb gətirilmiş, o dövrün müasir texniki avadanlıqları ilə təchiz olunmuşdur. Əslində bu müəssisə çox böyük istehsal kompleksi idi.

Azərbaycanda tütünçülük XIX əsrin ortalarında kənd təsərrüfatında yeni bir sahə kimi meydana gələrək inkişaf etməyə başladı. Tütün plantasiyaları əsasən Zaqatala, Quba və Şəki qəzalarında yerləşdirilmişdir. Bu qəzaların iqlim şəraiti tütünçülük üçün çox əlverişli idi. Xaricdən gətirilən tütünün üzərinə yüksək gömrük qoyulması bu sahənin yerlərdə inkişafına böyük təkan vermişdir. Təbii ki, paralel olaraq tütün fermentasiya fabrikləri qurulmalı idi və tütün fabriki o vaxtlar Bakı şəhərində qurulmuşdur. Plantasiyalardan yığılan tütün Bakı və eyni zamanda Rusiyanın digər şəhərlərindəki tütün fabriklərinə göndərilirdi.

Həmin dövrdə Azərbaycanda baramaçılıq da inkişaf etməyə başladı. Baramaçılıq o zamanlar kənd təsərrüfatında böyük qazanc gətirən bir sahəyə çevrildi. Şəki qəzası baramaçılığın əsas mərkəzi idi və Azərbaycanda yetişdirilən baramanın çox hissəsi buranın payına düşürdü. Bildiyimiz kimi, həmin vaxtlar baramaçılıq dünyada ən çox Fransanın Lion şəhərində inkişaf etmişdir. Şəkini də o dövrdə "Qafqazın Lionu" adlandırırdılar. Ölkəmizdə istehsal edilən xam ipəyin əksəriyyət hissəsi Rusiyanın ipək-toxuculuq fabriklərinə göndərilir, bir hissəsi də xarici ölkələrə ixrac olunurdu. O vaxtlar "Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti" adlı təşkilat fəaliyyət göstərirdi və bu qurum Fransadan yeni və daha məhsuldar barama toxumları sortunu Azərbaycana gətirər və baramaşılıq təsərrüfatlarına yayardı.

XIX əsrin axırlarında Azərbaycanda üzümçülük də sürətlə inkişaf etməyə başladı. Üzümçülüyün inkişafına adekvat olaraq şərab zavodları da çoxalmağa başladı. Üzüm bağlarının əksəriyyət hissəsi Şamaxı, Göyçay və Yelizavetpol qəzalarında yerləşirdi. Yığılan məhsulun əsas hissəsi emal edilərək Qafqazın və Rusiyanın daxili quberniyalarındakı bazarlara çıxarılırdı.

Rusiyanın tərkibində olduğumuz bütün dövrlərdə (o cümlədən, SSRİ tərkibində) olduğu kimi, o dövrdə də Azərbaycanda müstəmləkə siyasəti yeridilirdi və kənd təsərrüfatı istehsalı tamamilə Rusiyanın iqtisadi maraqlarına tabe edilmişdi. İnkişaf etdirilən kənd təsərrüfatı sahələri, ilk növbədə, rus sənayesinin xammala olan tələbatının ödənilməsinə yönəldilmişdir. Ancaq bununla yanaşı texniki bitkilər istehsalının sürətlə artması yerlərdə xammalın ilkin emalı müəssisələrinin yaranması və inkişafına da imkan verirdi.

Azərbaycanda aqroemal sahəsi, əsasən, İkinci Dünya müharibəsindən sonra inkişaf etməyə başladı. Keçən əsrin ortalarından başlayaraq ölkə iqtisadiyyatı dirçəlməyə başlamış, eyni zamanda, kənd təsərrüfatı və sənaye istehsalının inteqrasiyası sürətlə inkişaf etməyə başlamışdır.

*"Aqrar-sənaye kompleksi (ASK) istehsal, emal, bölgü, mübadilə və kənd təsərrüfatı məhsullarının istehlakı ilə əlaqədar bir-biri ilə iqtisadi münasibətlərdə olan xalq təsərrüfatı sahələrinin məcmusudur. Buraya kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və satışının həyata keçirilməsi, ASK üçün istehsal vasitələri istehsal edən sahələr daxildir"* [70, s.32].

Beləliklə, kənd təsərrüfatı məhsulları istehsalı inkişaf etdikcə, məhsul istehlakçıya çatmamışdan öncə emal mərhələsindən daha çox keçir, eyni zamanda emal sənayesi inkişaf etdikcə, kənd təsərrüfatının emala getməyən məhsullarının ümumi həcmi tədricən azalır.

Ancaq Azərbaycan müstəqillik qazanandan sonra bütün sahələrdə olduğu kimi aqroemal sahəsində də böhran yaranmağa başladı. Böhranın əsas səbəbi Rusiya və SSRİ-nin tərkibində olan digər respublikalarda yaranmış iqtisadi əlaqələrin qəfil kəsilməsi, bu sahənin maddi-texniki təminatının dayanması, ənənəvi istehlak bazarlarının itirilməsi olmuşdur. Bu səbəbdən də daxili bazarda anoloji idxal məhsulları dominantlıq etməyə başladı. Müstəqillikdən sonra ölkə iqtisadiyyatı bazar münasibətləri əsasında qurulmağı hədəf götürdü və bazar islahatlarının ilkin dövründə aqroemal sahəsinin məhsullarının məlum böhran vəziyyəti ilə əlaqədar rəqabət qabiliyyətinin zəif olması mühüm və simvolik fakt kimi ortaya çıxdı. Ona görə də müstəqilliyin ilk illərində yerli aqroemal məhsulları anoloji idxal məhsulları ilə rəqabətdə çox zəif idi. Həmin zamanlar Azərbaycanda idxal olunan aqroemal məhsulları bazarda dominantlıq edirdi. Azərbaycanın aqroemal məhsulları bazarlarını kəmiyyət və keyfiyyətcə dolduran idxal mallarının əhəmiyyətli axını hökümətin yerli istehsal strukturuna yenidən baxılmasına və islahatların aparılmasına vadar etdi. Çünki ölkənin aqroemal bazarının idxal malları ilə doldurulması onun doyması illüziyası yaradır və yerli aqroemal sahəsinin inkişafına diqqəti zəiflədir, onu texniki geriliyə və rəqabətədavamsızlığa məhkum edir. Ancaq bir məsələ daim nəzərə

çarpırdı ki, əmtəə bazarlarını dolduran xaricdən gətirilən məhsulların keyfiyyəti bir çox cəhətdən yerli istehsal olunan qidaların keyfiyyətindən aşağı olurdu və istehlakçılar yerli məhsullara üstünlük verirdilər.

SSRİ vaxtlarında əsas ərzaq məhsullarının adambaşına orta istehlak səviyyəsi həmişə statistik manipulyasiya yolu ilə süni şəkildə şişirdilirdi. Bu ondan irəli gəlirdi ki, "kommunizmə doğru iri addımlarla irəliləyən" sosialist iqtisadiyyatında aqrar-sənaye kompleksinin "böyük nailiyyətlərini" sübut etmək lazım idi. Bunun da əsas səbəbi inkişaf etmiş Qərb ölkələri ilə olan daimi ideoloji rəqabətdən irəli gəlirdi. Ona görə də Sovet Ittifaqında əsas ərzaq məhsullarının adambaşına orta istehlak norması daim yüksək inkişaf səviyyəsində təyin olunurdu. Ancaq Sovet imperiyasının dağılmasından öncəki hadisələr göstərdi ki, aqrar-sənaye kompleksi məhsullarının adambaşına istehlak normalarının yüksək olması ölkənin bu kompleksi üçün çox məhdud iqtisadi imkanlarının olması ucbatından reallığı əks etdirmirdi. Bütün bunlar SSRİ-nin siyasi rəhbərliyinin iddialı fantaziyalarından başqa bir şey deyildir.

Azərbaycan müstəqillik qazanandan sonra həyata keçirilməyə başladılan bazar islahatları Sovet dönəmində iqtisadiyyat üçün qeyri-mümkün və qəbuledilməz olanı həyata keçirməyə başladı. Torpaq islahatları, dövlət müəssisələrinin özəlləşdirilməsi proqramları iqtisadiyyata tamamilə yeni yanaşma verdi. Ölkə mərhələli sürətdə bazar iqtisadiyyatına keçid prosesinə başladı.

Azərbaycanın kənd təsərrüfatı və emal sahələrində həyata keçirilən islahatlar müəssisə və təşkilatların fəaliyyətinin iqtisadi, maliyyə və hüquqi şərtlərində köklü dəyişikliklərə səbəb olmuşdur. Ölkədə mövcud kolxoz və sovxozlar ləğv edildi, torpaqlar özəlləşdirilərək, əhaliyə paylandı, fərdi və fermer təsərrüfatları yaranmağa başladı. Aqroemal müəssisələri demək olar ki, hamısı özəlləşdirildi və yenidən qurulmağa başlandı. Ölkədə sahibkarlıq zümrəsi yaranmağa, kənd təsərrüfatında çoxukladlı iqtisadiyyat formalaşmağa başlandı.

Müstəqilliyin ilk illərində yerli bazarın qorunması məsələlərində bir çox səhvlər buraxılmışdır ki, bunun da nəticəsində istehlak bazarında daha çox idxal məhsulları hegemonluq etməyə başladı. Bəzi idxal məhsulları üzərində məmur himayəsi vəziyyəti daha da qəlizləşdirdi. Yerli məhsullar bu və digər səbəblərdən yerli

bazarlardan sıxışdırıldı və nəticədə yerli aqroemal məhsullarının istehsalı kritik səviyyələrə düşməyə başladı.

Dissertasiyanın sonunda verilmiş əlavə 1-dəki cədvəldən də göründüyü kimi, aqrar emal məhsullarının istehsalında müstəqilliyimizin ilk illərində, böhran ilə əlaqədar kəskin azalma baş vermişdir. 1990-1995-ci illər aqrar istehsal həcmlərinin sürətlə azalması ölkənin aqrar-sənaye kompleksinin, o cümlədən, aqroemal müəssisələrinin maliyyə vəziyyətinə çox pis təsir etmişdir. Ölkədə 1997-1998-ci illərə qədər elə bir vəziyyət yaranmışdı ki, bu müəssisələrin gəlirləri onlara heç bir yenidənqurma və genişləndirilmiş təkrar istehsalı həyata keçirmək imkanı vermirdi. Bütün bunlara baxmayaraq, ölkədə bazar iqtisadiyyatına keçid dövründə adambaşına istehlakın real artımı baş verdi. Bunu, ilk növbədə, istehsala mane olan, sovetdən qalma ideoloji amillərin aradan qalxması, eyni zamanda, tamamilə yeni yaranan sahibkarlar təbəqəsinin yaranması, formalaşması və iqtisadi fəallığı ilə izah etmək lazımdır. Sahibkarlar bazar potensialının reallaşdırılmasının həyata keçirilməsində aktiv iştirak etməyə başlamışdılar.

Əlavə 2-də verilmiş cədvəl göstərir ki, Azərbaycanda həyata keçirilən bazar islahatları aqroemal sahəsində müəyyən qədər nəticələrini verməyə başlamışdır. Tədricən aqroemal müəssisələrinin iqtisadi göstəriciləri yaxşılaşmağa başlamışdır [4].

Azərbaycanda aqrar sektorda aparılan islahatlar “Aqrar islahatların əsasları haqqında” qanunla müəyyənləşdirilir [5]. Bu qanunla mülkiyyət sahəsində yeni münasibətlər yaranmış, istehsal əlaqələrini inkişafı və təkmilləşdirilməsi yeni istiqamətə yönləndirilmişdir.

Artıq ölkəmiz emal müəssisələrinin özəlləşdirilməsi üzrə çoxillik təcrübəyə malikdir. “Torpaq islahatı” haqqında qanunun qəbul edilməsi aqrar sektorda yeni iqtisadi münasibətlərin və müasir təşkilati formaların yaranmasına təkan olmuşdur. Kolxozlar və sovxozlar ləğv edilərək özəlləşdirilmiş, onların mülkiyyəti yerli bələdiyyələrə və kəndlilərə əvəzsiz olaraq paylanmış, o çümlədən, yeni kooperativ koollektiv birlikləri, fermer təsərrüfatları və s. kənd təsərrüfatı və aqroemal subyektləri yaranmışdır [108].

Ölkənin aqrar sektorunda ən vacib normativ-hüquqi sənədlər "Aqrar islahatların əsasları haqqında"[5], "Sovxoz və kolxozların islahatı haqqında" [107] və "Torpaq islahatı"[108] haqqında qanunlardır. *Bu qanunlar aqrar bölmədə islahatın aparılmasının təşkilati-hüquqi və sosial-iqtisadi əsasını müəyyənləşdirmək, bazar iqtisadiyyatına uyğun müxtəlif təsərrüfat formaları yaratmaq, kənd yerlərində azad sahibkarlığı inkişaf etdirmək və torpaq üzərində yeni mülkiyyət münasibətlərini formalaşdırmaqdan ibarətdir. Həmin qanunların qəbul edilməsində məqsəd göründüyü kimi, aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir [64, s.98].*

*Aqrar-sənaye istehsalının dövlət tənzimlənməsi dedikdə dövlətin istehsal, təkrar emal və kənd təsərrüfatı məhsulları və ərzağın satışının təşkili, həmçinin, istehsal, texniki xidmət və ASK-nın maddi-texniki təminatına iqtisadi təsiri başa düşülür [70, s.36].*

Artıq aqroemal sahəsi çoxtərəfli bir sistem kimi formalaşmışdır. Bu sahənin dinamik inkişafı həm də heterojen münasibətlər sisteminin formalaşması ilə əlaqədardır. Heterojen münasibətlər sisteminə kənd təsərrüfatının əkinçilik bölməsi ilə aqroemal sənayesinin səmərəli qarşılıqlı fəaliyyətini göstərmək olar. Əkinçilik emal sənayesində iqtisadi əlaqələrin əksəriyyət hissəsini təşkil edir. Bildiyimiz kimi, aqrar-sənaye kompleksi sahəsi iqtisadiyyatın digər sahələrinə baxanda tamamilə fərqli bir sahədir və özünəməxsus spesifik sahələri və spesifik xüsusiyyətləri vardır. Bu sahələrin fəaliyyətindən asılı olaraq dəyişir. Qeyd etmək lazımdır ki, aqrar-sənaye kompleksi daxilində olan istehsal sahələrinin iqtisadi əlaqələri kənd təsərrüfatının daxili kommunikasiyası hesabına alınır. İstehlak mallarına olan real tələbat kənd təsərrüfatının iqtisadi əlaqələrinin formalaşmasını özündə ehtiva edir.

Keçmiş SSRİ-nin tərkibindən ayrılmış respublikalar arasında Azərbaycan ilk olaraq torpaq islahatına başladı. Həmin vaxtlar bu çox cəsarətli və riskli bir addım idi. Sonradan iqtisadi proseslər göstərdi ki, torpaq islahatları, yəni kolxoz, sovxozların ləğv edilərək torpaqların əhaliyə paylanması çox uğurlu nailiyyətlərə səbəb oldu. Kənddə iqtisadi münasibətlər kökündən dəyişdi. Torpaqların, paralel olaraq emal müəssisələrin özəlləşdirilməsi kənd təsərrüfatı istehsalı ilə emal sahəsinin

inteqrasiyasına bazar münasibətləri kontekstində yenidən baxılmasını zəruri etdi. Artıq bu inteqrasiya bazar qanunları ilə uyğunlaşmalı olan bir sistemin formalaşmasını tələb edirdi.

Ölkə üzrə özəlləşdirmə başa çatdırıldı və bazar münasibətlərinə uyğun yeni idarəetmə strukturları formalaşmağa başladı. Kənd təsərrüfatı sektorunda ayrı-ayrı məhsullar üzrə qəbul edilmiş qanunlar aqroemal sahəsinin inkişafına güclü təkan oldu. Bunlara 2000-ci ildə "Taxıl haqqında" [112], 2001-ci ildə "Tütün və tütün məmulatları haqqında" [113], 2002-ci ildə "Çayçılıq haqqında" [53], "Üzümçülük və şərabçılıq haqqında" [114], 2010-cu ildə "Pambıqçılıq haqqında" [85] qəbul edilmiş qanunları göstərmək olar. Eyni zamanda Ölkə Prezidentinin sərəncamı ilə 2016-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlər, o cümlədən, kənd təsərrüfatı məhsullarının emalı sektorunda nəzərdə tutulan tədbirlər üzrə konkret hədəf indikatorları müəyyən edilmişdir [6, s.49].

ASK[1]-nın inkişaf yoluna nəzər salanda bu qənaətə gəlmək olar ki, dövlətin iqtisadiyyata heç bir müdaxilə etmədən, tənzimləmədən tamamilə kənarlaşdırılması kənd təsərrüfatını, o cümlədən, aqroemal sahəsini mənfi nəticələrə gətirib çıxarar və böhrana səbəb ola bilər.

## 1.2 Aqroemal sahəsinin dövlət tənzimlənməsinin metodları və prinsipləri

Kənd təsərrüfatı və emalı sahəsində dövlət orqanlarının tənzimləmə fəaliyyətinin sistemli şəkildə analiz və təhlilinə daim ehtiyac var və bu aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi üçün vacib şərtlərdən biridir. Məhz buna görə də

[1] Bəzi iqtisadçı alimlər ASK məfhumunu qəbul etmirlər və onlar bunu ölkədə belə strukturun olmaması ilə izah edirlər. Bu izahla razı deyilik və tədqiqatda bu məvhum dəfələrlə işlənmişdir. ASK iqtisadi məvhumdur, mezo iqtisadiyyata aiddir və makroiqtisadiyyatın yarımsistemi kimi, bir-biri ilə sıx bağlı olan sahələr kompleksi kimi başa düşülməlidir. Aqrar-sənaye kompleksində kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, maddi-texniki baza ilə təmin edən xidmət və istehsal, kənd təsərrüfatı məhsullarının daşınması, tədarükü, ticarəti, sahənin kadrlarla, elmi innovasiyalarla təmin edilməsi, infrastruktur və aqrar-tikinti sahələrinin qarşılıqlı əlaqəliliyi əsas götürülür.

tənzimləmə fəaliyyətinin öyrənilməsi üçün forma və metodlar ciddi əhəmiyyət kəsb edir.

Dövlət tənzimlənmələrinin əsas vəzifəsi, əslində, ölkə daxilində məcmu təkliflə məcmu tələbin tarazlığını yaratmaqdan ibarətdir. Məcmu tələb dedikdə (ing. aggregate demant- AD) bütün istehlak xərclərinin, ümumi yığımın, mal və xidmətlərin ixracının məcmu dəyəri başa düşülür. Əmtəə və xidmətlərin dəyər ölçüsündə toplanmasının əsas səbəbi iqtisadiyyatda olan bütün məhsul və xidmətlərin fiziki olaraq toplamaq mümkün olmamasıdır. Bu şərt həmçinin məcmu təklifə də aiddir. Məcmu təklifə isə ÜDM, mal və xidmətlərin idxalının məcmu dəyəri aiddir.




**Qrafik 1.2.1 Məcmu təklif ilə məcmu tələbin illər üzrə hərəkət dinamikası mln.man.**
Mənbə: DSK "Azərbaycan rəqəmlərdə" 2023 s.103.
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatlarından istifadə etməklə müəllif tərəfindən tərtib olunmuşdur.

Qrafik 1.2.1-dən də göründüyü kimi, ölkə üzrə 2020-ci ilədək məcmu tələb daim məcmu təklifi üstələmiş və 2022-ci ildə bu göstəricilər bərabərləşmişdir.

Qrafikdəki xəttlərin 2005-2020-ci illər ərzində kəsişdiyi nöqtə yoxdur və bu da onu göstərir ki, ölkədə məcmu təklif ilə məcmu tələb həmin illər ərzində heç vaxt tarazlaşmamışdır. 2005-2020-ci illərin orta göstəricisi ilə məcmu tələb ilə məcmu təklif göstəricilərini müqayisə etsək, məlum olar ki, 12% məcmu tələbin çatışmamazlığı mövcud olmuşdur. Nəhayət, 2021-ci ildən bu çatışmamazlıq aradan qalxmış və son iki ildə məcmu tələb ilə məcmu təklif tarazlaşmışdır.

Biz iqtisadi təlimlərdən, o cümlədən, Keyns nəzəriyyəsindən bilirik ki, məcmu təklifin və məcmu tələbatın tarazlığı bazar iqtisadiyyatının tənzimlənməsində əsas rol oynayan ən vacib amillərdəndir. Onların birinin digərindən az və ya çox olması

sosial-iqtisadi inkişafa hər hansı bir şəkildə mütləq öz mənfi təsirini göstərir. Bunun əsas səbəbi ondadır ki, məcmu təklif ilə məcmu tələb arasında tərs mütənasiblik mövcuddur. Dövlət tənzimləmələrinin əsas məqsədi də, bu tərs mütanasibliyi tarazlaşdırmaq və ya balanslaşdırmaqdır. Məcmu tələbin məcmu təklifi üstələməsi xərc inflyasiyasının artmasına səbəb olur ki, bu da öz növbəsində istehsal xərclərinin artmasına səbəb olur. Nəticədə satış qiymətlərini üstələməklə istehsal-təsərrüfat fəaliyyətlərinin ziyan nöqtəsindən çıxmağa imkan verməməklə istehsalın inkişafına mənfi təsir göstərir. Belə vəziyyət xüsusilə kənd təsərrüftı istehsalında özünü biruzə verir.

Dövlət aqrar sektoru inzibati-təşkilati və iqtisadi metodlar ilə tənzimləyir. İnzibati metodlar birbaşa təsir amillərinə malikdir, inzibati xarakter daşıyır və aqrar sektorun subyektləri üçün məcburidir. İnzibati medodların icraçıları əsasən dövlət orqanlarıdır və qəbul edilmiş qanun və göstərişlərə riayət edilməsinə nəzarət edir. Bundan başqa, aqrar sektorda subsidiyaların, güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin müəyyən vergilərdən azad olunması da birbaşa inzibati dövlət tənzimlənməsinə aiddir.

Tənzimlənmənin iqtisadi metodlarını isə, həm də dolayı metodlar adlandırmaq olar. Bu metodlar vasitəsi ilə dövlət müəyyən iqtisadi mühit yaratmaqla təsərrüfat subyektlərinə təsir göstərir. Burada subyektlər məcbur edilmir, öz mənfəətləri naminə dövlətin aqrar siyasətinə uyğun qərar verməyə sövq edilirlər. İqtisadi tənzimləmə mütləq təsərrüfat subyektlərinin fəaliyyəti üçün sərfəli şəraiti diqtə etməli, onların maraqlarını təmin etməlidir, əks təqdirdə bu siyasət reallaşmayacaqdır. Bunlara bazar qiymətlərinin tənzimlənmələrini, gömrük tariflərini, vergi güzəştlərini, kənd təsərrüfatı məhsullarının dövlət satınalmalarını, ixracın təşviqini və sairəni misal göstərmək olar. Bu metodların tətbiqi nəticəsində aqroemal məhsullarının ölkə daxilində tələb və təklif mexanizmləri tənzimlənir, əhalinin təminatı ödənilir. Ümumiyyətlə, aqrar və aqrar emal sahəsinin dövlət tənzimlənməsi ölkə daxilində məcmu təkliflə məcmu tələbin tarazlığının təmin edilməsinə fokuslanır.

İqtisadi tənzimlənmələr bazar mexanizmini dəyişmir, ancaq mənfi cəhəti ondan ibarətdir ki, bu tənzimlənmələr tətbiq ediləndən müəyyən zaman keçəndən sonra

təsirini göstərir. İnzibati tənzimlənmələrin isə iqtisadiyyata təsiri daha operativ baş verir.

Dövlət tənzimlənmələrinin inzibati metodları ölkədə iqtisadi sabitliyin bərqərar olmasına xidmət edir ki, bu da qanun və mülki hüquqlardan qaynaqlanır. Bunlara antiinhisar qanunları, mülkiyyətin qorunması qanunları, rəqabət hüquqlarının qorunması haqqında qanunlar və sair qanun və qərarları göstərmək olar. Bu metodlar dövlətin gücünə əsaslanır və dövlət orqanları tərəfindən birbaşa göstərişlər və qadağalarla həyata keçirilir.

Dövlətin tənzimləmə üsulları kənd təsərrüfatı və aqroemal sektoru üçün əlverişli sahibkarlıq, biznes, rəqabət və hüquqi mühitin yaradılmasına istiqamətləndirilərək, onların davamlı inkişafını təmin edir.

Dünya təcrübəsi göstərir ki, inzibati və iqtisadi tənzimlənmə üsulları liberal bazar iqtisadiyyatının inkişafından çox asılıdır. Belə ki, liberal bazar iqtisadiyyatı çox inkişaf etmiş ölkələrdə iqtisadi tənzimlənmələr daha hökmran mövqedə olur. Əksinə az inkişaf etmiş ölkələrdə isə qarışıq metodlara, bəzən isə inzibati təsir metodlarına daha çox üstünlük verilir. Ümumiyyətlə, inzibati üsullar ölkələrin iqtisadi böhran vəziyyətlərində daha çox istifadə edilir. Məlum olduğu kimi böhran vəziyyətlərdə iqtisadi ahəng pozulur, istehlak mallarının tələb-təklif tarazlıqlarında diskriminasiya baş verir. Belə hallarda iqtisadi metodların səmərəliliyi də əhəmiyyətli dərəcədə azalır.

Əslində inzibati və iqtisadi üsullar bir-birini tamamlayırlar, ona görə də kənd təsərrüfatının tənzimlənməsi sahəsində fəaliyyətin ən optimal həyata keçirilməsinə yalnız bu metodların vəhdəti ilə nail olmaq olar.

*“Göstərmək lazımdır ki, aqrar sahənin tənzimlənməsində aqrar proteksionizm şərtlərinin səmərəli tətbiqi, əsasən dövlət tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi vasitəsilə baş verir. Aqrar proteksionizmin kompleks şəkildə həyata keçirilməsi bütövlükdə aqrar sahənin səmərəli fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır*” [87, s.418].

Ölkəmiz müstəqillik qazanandan bu günədək keçən müddət göstərdi ki, inzibati-amirlik sisteminin bazar iqtisadiyyatına transmormasiyası prosesində kənd

təsərrüfatının müəyyən spesifik xüsusiyyətləri nəzərə alınmamışdır. Hər şeydən öncə qeyd etməliyik ki, ölkə üzrə məşğul əhalinin kənd təsərrüfatında fəaliyyət göstərənlərin xüsusi çəkisi yüksəkdir, müxtəlif illər üzrə ortalama 36% təşkil edir ki, bu da məşğul əhalinin təxminən 1,7 mln. nəfərini təşkil edir. Bu səbəbdən əhalinin maddi rifah halının çox hissəsi bu sahənin inkişaf səviyyəsindən asılıdır. Kənd təsərrüfatında məhsul istehsalı təbii-iqlim şəraitindən asılıdır və istehsal mövsümi xarakter daşıyır, bir çox məhsullar tez xarab olandır. Aqrar istehsalın daha az mobil olması da bu sahənin spesifik xüsusiyyətlərindəndir ki, bu da bazar şəraitində öz təsirini çox göstərir. Mobilliyin az olması o deməkdir ki, bazar tələbatından asılı olaraq istehsal olunan məhsulun çeşidi qısa müddətdə dəyişdirilə bilmir. Bundan başqa, təbii iqlim şəraitindən asılı olaraq ölkənin ərazisində, xüsusilə də dağətəyi zonalarında qərarlaşmış əkinçilik strukturu mövcuddur ki, onları dəyişdirmək çox çətindir. Dövlətin həm inzibati və həm də iqtisadi tənzimlənmələrində bu xüsusiyyətlər nəzərə alınmalıdır.

Bu səbəbdən də hətta inkişaf etmiş ölkələrdə belə kənd təsərrüfatı, o cümlədən, aqroemal sektoru dövlətin xüsusi nəzarəti və müdafiəsi altında olan ayrıca bir sahədir.

Aqrar sektorun tənzimlənməsinin müxtəlif üsulları var ki, bunlar məhsulun istehsalına, daşınma, saxlanma əməliyyatlarına, emal edilməsinə və nəhayət bazar - satış mexanizminə tətbiq edilir.

Bazar tənzimlənmələri əsasən qiymət siyasəti ilə baş tutur və düzgün qiymət siyasəti kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasında əhəmiyyətli yer tutur. Qiymətlərə müdaxilə kənd təsərrüfatı məhsullarının daxili qiymətlərinin tənzimlənməsi, idxal və ixrac rüsumları, kvotalar, tariflər və s. ilə həyata keçirilir.

Təəssüf ki, son illər enerji tarifləri artmış, bu da kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması, daşınması və istehlakı ilə əlaqədar xərclərin artmasına səbəb olmuşdur. Bunlar bazar tənzimlənmələrinə təsir göstərir və tənzimlənmələrə yenidən baxılmasını zəruri edir.

Dövlət tənzimlənmələrini üç qrupa ayırmaq olar. Bu fikirlər rus alimlərindən Frolova, Bessonova və Petrovaya məxsusdur.

1.Birbaşa büdcə ödəmələri:

- material-texniki resurslara görə subsidiyalar;
- kredit faizlərinə görə verilən subsidiyalar;
- məhsulun sığortalanması üçün çəkilən xərclərin bir hissəsinin subsidiyalaşması;

2. Stimullaşdırıcı xarakterli büdcə vəsaitlərinin ayrılması:

- dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının satın alınması;
- məhsul və alış qiymətləri ilə ərzaq bazarının tənzimlənməsi;
- bazarda milli istehsalçıların mənafelərinin müdafiəsi;

3. Təşkilati-iqtisadi tədbirlər:

- kənd təsərrüfatı istehsalçılarının büdcə borclarının restruktrizasiyası
- kənd təsərrüfatı istehsalçıları üçün güzəştli vergi rejimi;
- "Aqrolizinq" SC-nin nizamnamə kapitalının dövlət hesabına formalaşdırılması; [149, s.31].

Kənd təsərrüfatının istehsalının və emalının tənzimlənməsini dövlət bir çox vasitələrlə həyata keçirir. Bunlar:

- kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən satın alınması;
- subsidiyalar və dotasiyalar;
- yerli və birbaşa xarici investisiyaların cəlb edilməsi üçün əlverişli iqtisadi mühitin yaradılması;
- güzəştli kreditlərin verilməsi;
- vergi güzəştlərinin və vergi tətillərinin tətbiq edilməsi;
- infrastruktur layihələrinin dövlət tərəfindən həyata keçirilməsi və s.

Əslində dövlətin aqrar sahənin tənzimlənməsi siyasəti bazar mühitinin formalaşmasına xidmət edən bir prosesdir. Ona görə də istənilən ölkədə formalaşan bazar özünə uyğun strukturun formalaşmasını təmin edir. Buna uyğun olaraq dövlətin tənzimlənmə siyasəti formalaşır.

Dünya təcrübəsi göstərir ki, bazar strukturunun formalaşmasında və inkişafında investisiyaların əhəmiyyəti çox yüksəkdir. Ona görə də investisiyalar mütəmadi və davamlı olmalıdır.

Elm və texnologiya inkişaf etdikcə, aqroemal sahəsinin müəssisələri səmərəliliyi artırmaq məqsədilə yeni innovasiyalara, daha əlverişli və müasir texnologiyalara və daha məhsuldar avadanlıqlara investisiya qoymaq zərurətini hiss edirlər. Çünki, bu zərurət müəssisənin kompleks şəklində dayanıqlı və inklüziv inkişafını təmin edir, rentabelliyi artırır və məhsul bazarda daha rəqabətə davamlı olur. Ona görə də aqroemal müəssisələrinin inkişafı və məhsullarının daha çox rəqabətə davamlı olmasını görmək istəyiriksə, o zaman, bu sahənin əsas strategiyası innovativ inkişaf və müasir texnologiyaların tətbiqi olmalıdır.

İctimai tələbat artdıqca daim istehsal məhsullarının həcm və keyfiyyəti dəyişir. Çox vaxt tələbatların kəmiyyət artımları resurs və torpaqların hesabına olur ki, bu da təbii məhdudluq çərçivəsindən kənara çıxa bilmir, ancaq məhsuldarlıq, səmərəlilik, rəqabətqabiliyyətlilik və keyfiyyət artımı isə texnoloji bazanın keyfiyyət dəyişikliyi ilə, yəni yeni innovasiyaların tətbiqi ilə mümkündür.

Aqroemal müəssisələrinin fəaliyyətində səmərəlilik əsas şərtlərdəndir. Səmərəlilik iki amil ilə ölçülür:

1.Resurs səmərəliliyi

2. İstehsal səmərəliliyi.

Resurs səmərəliliyi istehsalın həcmini müəyyən edir. İstehsal səmərəliliyi isə bu həcmin daha az xərclə daha effektli istehsalının qurulmasını tələb edir.

Aqrar sahədə dövlətin tənzimlənmə siyasətində mühüm amil resurs səmərəliliyinin artırılmasıdır ki, bu da artan ictimai tələbatın təminatının formalaşmasına xidmət edir.

İstehsalın səmərəliliyində dövlət və özəl sektorun birlikdə iştirakı zəruridir. Burada dövlətin üzərinə düşən əsas vəzifə əlverişli iqtisadi mühitin yaradılmasıdır. Əlverişli iqtisadi mühit son nəticədə istehsal xərclərinin azaldaraq, istehsalın səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Azad rəqabət mühiti, tenologiyaların müasirləşdirilməsi üçün güzəştli kreditlərin verilməsi, xarici və yerli investisiyaların cəlb edilməsi üçün optimal mühitin yaradılması əlverişli iqtisadi mühitin əsas atributlarıdır. Bu cür əlverişli mühitin yaradılmasının qarşılığında, zaman-zaman artan tələbat və güclənən rəqabət şəraitində aqroemal sahəsinin sahibkarları öz

məhsullarını daim təkmilləşdirməli, bazarda idxal məhsulları ilə rəqabətə davamlı olmalıdırlar. Burada dövlət isə müəssisələrdə yeni innovasiyaların tətbiqi və texnoloji modernləşdirilməsinə stimulyativ iqlim yaratmalıdır.

Aqroemal məhsulları bazarının dövlət tənzimlənməsinin müxtəlif üsullarından istifadə problemlərin ayrıca nəzərdən keçirilməsini tələb edir.

Aqroemal məhsullarının bazar qiymətlərinə müdaxilə dövlətin əsas tənzimlənmə üsullarından biridir. Səbəbi isə odur ki, bu məhsullarının bazarları daha rəqabətlidir və istehlakçıların gündəlik tələbat mallarıdır. Gündəlik tələbat malları olduğu üçün də təkliflərin həcmi daim çoxluq təşkil edir. Azərbaycanın yerli məhsullarının qiymətləri idxal məhsullarının qiymətləri ilə uyğunlaşaraq vahid milli valyuta ilə ifadə olunur. Bu da dövlətin bazarlara müdaxiləsi nəticəsində baş verir.

*"Qiymət iqtisadiyyatda mütənasibliyin və tarazlığın qorunması üçün şərait yaradır. Əgər qiymət aşağı düşüb məhsul vahidinin maya dəyərinə yaxınlaşırsa, əmtəə istehsalçıları ya məsrəfləri azaltmaq üçün tədbirlər görür, ya da istehsal imkanlarından başqa mallar istehsal etmək üçün istifadə edir, və ya müəssisəni bağlayır"* [146. s.9].

Dövlət gömrük tarifləri, müxtəlif mallar üzrə idxal və ixrac kvotaları, bəzən daxili bazar qiymətlərinə birbaşa müdaxilə və digər tənzimlənmə üsulları ilə daxili bazarda aqroemal məhsullarının optimal qiymətini formalaşdırır. Optimal qiymət dedikdə, əgər dövlət daxili bazarda qiymət artımını təmin edərsə, bu zaman aqrar istehsalçıların daha səmərəli istehsalına nail olar, ancaq qiymət artımı eyni zamanda istehlakçıların marağına cavab vermir və alıcılıq qabiliyyətinin azalmasına gətirib çıxara bilər. Əksinə qiymət tənzimlənmələri daxili bazarda qiymətlərin aşağı düşməsinə gətirib çıxararsa, bu zaman istehsal olunan malların rentabelliyinin və istehsalın səmərəliliyinin azalmasına səbəb ola bilər ki, bu da son nəticədə məhsul istehsalına mane ola bilər. Qiymət tənzimlənmələri elə qurulmalıdır ki, istehsalçılar ilə istehlakçıların maraqları arasında ən uyğun və optimal variant seçilsin. Əksəriyyət hallarda qiymətlərin dövlət tənzimlənmələri zamanı istehlak mallarının qiymətləri müəyyən qədər qalxır ki, bu da nəticədə istehlakçılar və bəzən də vergi ödəyicilərinin əlavə xərclərin ödənilməsinə səbəb olur.

Bundan başqa kənd təsərrüfatının dövlət tənzimlənməsinin digər metodları da mühüm əhəmiyyətə malikdir: inandırma, icazələr, inam, birbaşa təlimat metodu, tövsiyə və s. kimi metodlar.

Dövlət tənzimlənmələrindən ən geniş yayılanı yüksək təşkilatçılıq və intizamın təmin edilməsi məqsədilə tərbiyə, izah və təşviqləndirmə vasitələri ilə ictimai münasibətlərə təsir göstərən inandırma metodudur. Bu metodun əsasını təsərrüfatların fəaliyyətində təkmilləşmə və müstəqillik, ixtisaslı kadrların əhəmiyyətli dərəcədə artırılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının əmək məhsuldarlığının yüksəldilməsi təşkil edir. Bu metodun əsas mahiyyəti ondan ibarətdir ki, dövlət orqanları kənd təsərrüfatı müəssisələrinə konkret məsələni həll etmək hüququnu özlərinə verirlər. Bunlara təsərrüfat-istehsalat fəaliyyətində subyektin rəhbərlik etdiyi, heç bir qanun və normativlərdən kənarlaşmaya yol verməyən konkret davranışı göstərən aktlar daxildir. İnandırma üsulu müəssisələrin rəhbər heyətinin, mütəxəssislərin, kənd təsərrüfatı işçilərinin fəal iştirakı ilə tətbiq edilir və imperativ xarakter daşıyır.

Dövlət tənzimləməsinin hüquqi metodunun mahiyyəti dövlətin aqrar siyasətinin, hüquqi normalarının konkret fəaliyyət şəraitində müxtəlif üsullardan istifadə etməklə, məcburi həyata keçirilməsindən qaynaqlanır. Hüquqi tənzimlənmə metodları operativ və yaradıcıdır, konkret olaraq, iqtisadiyyatda baş verən bütün şəraiti nəzərə almaqla təşəbbüskarlıq, fəallıq, problemlərin həllində məqsədyönlülük tələb edir.

Bunlardan başqa dövlət tənzimləmələrinin təşkilati metodları da var ki, bu tədbirlərin məqsədi kənd təsərrüfatının və aqrar-sənaye kompleksinin bir-birinə yaxın əlaqəli sahələrinin aydın və səmərəli fəaliyyətini təmin etməkdir.

Aqrar-sənaye kompleksində dövlət tənzimlənməsi mexanizminin bütün formaları bir-birindən asılıdır, yalnız onlardan kompleks şəklində istifadə edildiyi zaman kənd təsərrüfatı məhsullarını emal edən müəssisələr qarşısında duran problemləri optimal həll etməyə, mövcud hüquqi üsullardan rasional istifadə etməyə imkan yaranır.

Bazarda qiymət tənzimlənmələrini daim nəzarətdə saxlamaq üçün dövlətin ehtiyat fondlardan istifadə etməsi təcrübəsi də mövcuddur. Məsələn, əgər hər hansı məhsul üzrə bazar qiyməti tənzimlənmiş qiymət həddindən yuxarı qalxarsa, bu zaman ehtiyat fondundan bazara həmin məhsul buraxılır, təklif artırılır və qiymət yenidən əvvəlki, tənzimlənmiş həddə düşür və ya əksinə.

Qeyd edilənlənlərdən belə qənaətə gəlmək olar ki, dövlətin iqtisadiyyata müdaxilə üsulları ölkənin inkişaf səviyyəsindən şox asılıdır. Belə ki, hər hansı bir ölkədə bazar münasibətləri və rifah yüksək inkişaf etmişdirsə, həmin ölkədə tənzimlənmənin iqtisadi metodları daha çox tətbiq edilir, inzibati üsullar isə sıxışdırılıb aradan qalxır. Bu hal əsasən inkişaf etmiş ölkələrə aiddir. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə isə həm iqtisadi və həm də inzibati üsulların eyni vaxtda, qarışıq tətbiqi daha effektli olar.

## 1.3. Aqroemal sahəsinin dövlət tənzimlənməsi sahəsində beynəlxalq təcrübə

Artıq 30 ildən çoxdur ki, ölkə iqtisadiyyatı, o cümlədən aqroemal sahəsi bazar münasibətləri şəraitində fəaliyyət göstərir. Ona görə də bu sahənin inkişafı düzgün qurulmuş dövlət tənzimlənmələrindən, o cümlədən, maliyyə, kredit və vergi siyasətinin effektli təşkilindən asılıdır. Dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində aqrar sektorun dövlət tənzimlənmələrində yanaşmalar müxtəlifdir.

Aqrar və aqroemal istehsalçıları ilə dövlət arasında olan qarşılıqlı əlaqənin forma və üsullarında hər bir ölkənin özünəməxsus yanaşması vardır. Bildiyimiz kimi, Avropa İttifaqı (Aİ) ölkələri 1960-cı ildə vahid aqrar siyasət yeritmək barədə razılıqlara gəlmişdirlər, ancaq buna baxmayaraq aqrar-sənaye komplekslərinin dövlət tənzimlənmələrində fikir ayrılıqları var və hər bir ölkənin öz yanaşması var.

İnkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi zamanı inzibati metodlardan demək olar ki, istifadə edilmir. Əsasən qiymət, kredit siyasəti, vergi, subsidiyalar, o cümlədən, dövlət subsidiyaları kimi iqtisadi rıçaqlardan istifadə olunmaqla böyük

iqtisadi və maliyyə dəstəyi verilir. Bu ölkələrin hamısı kənd təsərrüfatının dövlət tənzimlənmələrini iqtisadi metodlar vasitəsi ilə həyata keçirmələrinə baxmayaraq, sosial vəziyyətlərinə, tarixi, mədəni, coğrafi xüsusiyyətləri ilə əlaqədar bir-birlərindən fərqlənirlər. Məsələn, ABŞ-da kənd təsərrüfatı istehsalı və emalı sektorunda fəaliyyət göstərən istehsalçılar üçün, sabit gəlir səviyyəsini təmin etmək məqsədi ilə dövlət tərəfindən müəyyən edilmiş hədəf qiymətlərindən istifadə olunur. Eyni zamanda əmlak vergisi hesablanarkən əmlakın dəyərinin aşağı həddi istifadə olunur, həmin həddən aşağı isə ümumiyyətlə vergi tutulmur. Fermerlərə verilən kreditlərin zəmanəti və əlçatan olması ilə əlaqədar Fermer Krediti Sistemi Sığorta Korporasiyası yaradılıb [163].

Bununla yanaşı dövlətin aqrar siyasəti birdəfəlik qəbul edilmiş qanun və proqramlardan ibarət deyil, daim müxtəlif zamanlarda bazar konyunkturasına uyğun olaraq kifayət qədər əlavələr və düzəlişlər edilir ki, bu da aqrar və aqrar emal sektorun inkişafı üçün çox önəmlidir.

Aqrar-sənaye kompleksi üçün çox əhəmiyyətli olan, iri həcmli və böyük maliyyə tələb edən bir çox problemlər var ki, dövlət bunları öz boynuna götürür. Bunlar ölkə üzrə ümumi məsələlərdir ki, bunlara seleksiya və damazlıq işlərinin aparılması, suvarma üçün su anbarlarının yaradılması, aran zonalarına suvarma kanallarının çəkilməsi, yaylaqların səhralaşmasına və əkinə yararlı torpaqların şoranlaşmasına qarşı görülən tədbirlər, dağətəyi zonalarda kənd təsərrüfatına yararlı torpaqları qorumaq məqsədilə çaylara çəkilən bəndlər və s. göstərmək olar.

Öncə qeyd etməliyik ki, Amerika, Avropa və Asiyanın inkişaf etmiş ölkələrində kənd təsərrüfatının inkişafındakı uğurlar ilk növbədə yüksək texnologiyaların və müasir məhsuldar kənd təsərrüfatı texnikaları kompleksinin geniş tətbiqi və güclü maddi-texniki bazanın olması ilə xarakterizə olunur. Elm və innovasiyalara böyük büdcə ayrılır.

Müasir aqroemal sahəsində tətbiq edilən müasir texnika və yüksək texnologiyaların idarə edilməsi üçün yüksək təhsilə, geniş biliyə və xüsusi hazırlıq səviyyəsinə malik olan kadrlara ehtiyac yaranmışdır. Buna görə də innovasiyaların

idarə edilməsinin öhdəsindən gəlmək üçün dövlət fermerlər üçün kurslar, xüsusi ədəbiyyatlar və kitabçalar və s-nin hazırlanmasını təmin edir.

İnkişaf etmiş ölkələrdə aqrar istehsalın dəstəklənməsi siyasətində proteksionizm formaları mühüm yer tutur. Aİ ölkələrində istehsalçılara verilən subsidiyalar maya dəyərinə ekvivalent olaraq 75%, ABŞ və Kanadada 50%, Yaponiyada 87% təşkil edir.

Aİ ölkələrində kənd təsərrüfatı məhsullarının istehsalçılarına dəstək məqsədilə bir çox tənzimlənmələr həyata keçirilir ki, bunlara yüksək daxili qiymətlərin sabit saxlanması, əhalinin tələbatından artıq məhsulların ixracının subsidiyalaşdırılması aiddir.

Bu məqsədlə Aİ ölkələrində aqrar sektor üzrə rəqabətin təmin edilməsi üçün iki əsas qayda müəyyən edilmişdir:

1. ölkəyə idxal olunan məhsulların yerli istehsalçıların istehsal etdiyi analoji məhsullardan, yəni ölkənin daxili bazarının qiymətindən aşağı qiymətə satılması qadağandır;

2. İttifaq ölkəsinə məhsul idxal edən ölkə marjinal qiymətlə dünya bazarındakı qiymət arasındakı fərqi gömrükdə Aİ büdcəsinə ödəməlidir. Bu fərq ticarət üzrə ödəniş adlanır.

*"Ümumiyyətlə, ABŞ-dakı kənd təsərrüfatı müəssisələri ilə müqayisə etsək görərik ki, Aİ-dəki müəssisələr orta hesabla daha kiçikdir və bu səbəbdən də daha az səmərəlidir. Buna görə də son nəticədə daha yüksək istehsal xərcləri olur və buna adekvat olaraq istehsal etdikləri məhsulların qiymətləri də daha yüksək olur. Burada kənd təsərrüfatı ilə məşğul olan müəssisəyə düşən orta torpaq sahəsi 2016-cı ilin göstəricilərinə görə 16,5 hektardır. Lakin ABŞ-da bu rəqəm 178,9 hektardır ki, bu da Aİ-dən 10 dəfə çoxdur. Türkiyədə kənd təsərrüfatı müəssisələrinin sahələrinin sahəsi təqribən 6,0 hektara, yəni Aİ-nin təxminən üçdə birinə bərabərdir. 2018-ci ildə Aİ-nin kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 365,5 mld. avro olmuşdur ki, bunun da 14.5%-ni süd, 8,7%-ni ət, 12%-ni dənli bitkilər təşkil etmişdir. Faktiki olaraq Aİ ölkələri yerli istehsalçıların xeyrinə süd, ət və taxıl bazarlarına ciddi şəkildə müdaxilə edirlər"* [117, s.85].

Bu ölkələrdə fermerlərə dəstək göstərilməsi bütün fermerlərə deyil, yalnız ölkə ərazisində həmin dəstəyin alınması üçün müəyyən şərtləri yerinə yetirənlərə aid edilir. Məlum məsələdir ki, hər bir ölkənin ərzaq məhsullarının istehsalı və ətraf mühitin qorunması ilə əlaqədar standartları mövcuddur. Aİ ölkələrində dövlət dəstəyini əldə etmək üçün fermerlər bu standartlara əməl etməlidirlər.

*"Aİ-də ölkələr istehsal olunan əsas məhsulların həcminə və məhsuldarlığına görə bir-birilərindən fərqlənirlər. 2017-ci ilin məlumatlarına görə, buğda istehsalında Aİ ölkələri arasında Fransa, Almaniya, İngiltərə və Polşa xüsusilə mühüm yer tutur və bu dörd ölkə Aİ-də buğda istehsalının 62%-ni istehsal edirlər. Digər tərəfdən hər inəkdən sağılan süd göstəricisinə görə 8717 kq. ilə İsveç, 8529 kq. ilə Danimarka və 8098 kq. ilə Finlandiyadır. Amma Avropa İttifaqında ən çox süd istehsal edən ölkələr Almaniya, Fransa, İngiltərə, Polşa, Hollandiya və İtaliyadır. 2017-ci ilin məlumatlarına görə, bu altı ölkə Aİ-də ümumi südün 69%-ni istehsal edir. İrlandiya və Lüksemburqda mal əti üzrə məhsuldarlıq ən yüksək olduğu halda, əsas mal əti istehsal edən ölkələr ümumi mal ətinin 60%-ni istehsal edən Almaniya, Fransa, İtaliya və İngiltərədir"* [117, s.76].

Almaniyada aqroemal sənayesinin strukturunda kiçik və orta sahibkarlıq üstünlük təşkil edir. Bu sektorda fəaliyyət göstərən müəssisələrin 90%-nin işçisi 250 nəfərdən azdır. Bu da 5800 müəssisə deməkdir ki, burda işləyənlərin sayı 540 min nəfərdir, yəni bu rəqəm Almaniyada ümumi məşğul əhalinin 9%-ni təşkil edir. Təbii ki, emal sənayesi müəssisələrinin istehsal güclərinin ölçüləri istehsal prosesinə, o cümlədən, məhsulun maya dəyərinə təsir göstərir.

Eyni zamanda aqroemal sahəsində məhsul istehsalının avtomatlaşdırılma səviyyəsi də mühüm rol oynayır. Avtomatlaşdırmanı emal sektorunun bütün sahələrinə tam tətbiq etmək mümkün deyil. Məsələn, ətin emalı ilə məşğul olan müəssisələr ilə müqayisədə süd məhsulları, içkilər, çörək məhsulları istehsalında avtomatlaşdırma səviyyəsi daha yüksəkdir. Avtomatlaşdırma səviyyəsinin müxtəlif olması xammalın fiziki xüsusiyyətlərindən asılıdır. Avtomat maşınlar maye xammalları daha rahat emal edə və qablaşdıra bilirlər. Ancaq ət kimi sümüyü, əzələsi, submərhsulları olan və standart forması olmayan məhsulların emal edilməsi xeyli

çətindir. Nəticədə məcburiyyətdən bahalı əl əməyindən daha çox istifadə edilir ki, istehsal gücü kiçik olan müəssisələri də investisiya qoymaqdan çəkindirən bu problemlərdir. Buna görə də aqroemal sahəsində standartlaşdırılmamış xammal üçün texnologiyanın qismən çatışmazlığı problemi mövcuddur. Xammal itkisini minimum səviyyəyə endirmək və maya dəyərinin yüksəlməsinin qarşısını almaq üçün toxunma ilə idarəetmə texnologiyasının olması vacibdir. Ancaq bu texnologiyalar çox baha başa gəlir və bu səbəbdən də yalnız böyük müəssisələr üçün daha uyğundur. Gələcəkdə aqroemal sahəsində kiçik müəssisələr üçün optimal gücdə olan maşın və avadanlıqların istehsal edilməsi həlli vacib olan problemlərdəndir. Burada məqsəd istehsal xərclərinin azaldılması, avadanlıqların səmərəliliyinin artırılması və yeni texnologiyaların tətbiqidir. Hələlik kiçik istehsal gücünə malik müəssisələrdə bu problemlər həllini tapmayıb.

Almaniyanın qida sənayesində şərabçılıq və pivə istehsalı əsas yer tutur. Burada təxminən 4000 sortda pivə istehsal olunur və pivə istehsalının ümumi həcminin üçdə biri ixrac olunur. Buna görə də Almaniya “pivə ölkəsi” kimi tanınır. Ancaq buna baxmayaraq ölkədə şərab istehlakı pivəni üstələyir. “Alman Şərab İnstitutu”nun məlumatına görə 2015-ci ildə Almaniyada 18 mln. hektolitr şərab istehlak edilmişdir. İstehlak edilmiş şərabın strukturunda 40% yerli şərablar, 13% Fransa şərabları, bundan daha az hissə isə İspaniya şərabları təşkil edir. Şərabçılıq Almaniyanın Reyn vadisində daha çox inkişaf etmişdir. Keçən əsrin əvvəllərində Reyndə şərab istehsalına qoyulan investisiyalar bu məhsulun həm kəmiiyətcə və həm də keyfiyyətcə artımına səbəb olmuşdu. Xüsusilə də, son 40 ildə qırmızı şərab istehsalına dana çox üstünlük verilməyə başlandı [176].

İnkişaf etmiş ölkələrdə aqrar-sənaye kompleksi sferasında istehsalçıların normal fəaliyyətlərini təmin etmək üçün ölkə daxilində bazarların qorunması mexanizmləri yaradılır və həyata keçirilir. Bu mexanizm yerli istehsalçı və istehlakçıların qorunması məqsədini daşıyır və vahid kənd təsərrüfatı siyasətinin formalaşmasının əsasını təşkil edir. Məlumdur ki, kənd təsərrüfatı məhsullarının istehlak qiymətləri dünyanın müxtəlif ölkələrində müxtəlifdir. Bu səbəbdən də inkişaf etmiş ölkələr yerli istehsalçıların xeyrinə daxili bazarları qorumaq üçün, daha dəqiq desək yüksək daxili

və aşağı dünya qiymətləri arasında fərqi bərabərləşdirmək üçün gömrük rüsumları və kompensasiya ödənişlərindən istifadə edərək tənzimlənmələr aparırlar. Burada əsas məqsəd yerli sahibkarlara məxsus müəssisələrin gəlirliyini təmin etməkdir. Bəzi məhsullar üzrə idxal tarifləri o qədər yüksək olur ki, həmin ölkəyə məhsul idxal etmək çox çətinləşir. Məsələn Avropa İttifaqı üzrə mal ətinin idxal tarifi 213%, ərzaq buğdası üzrə iə 168%-dir. [177]. ABŞ-da da bu rəqəmlər çox yüksəkdir. Məsələn, süd üçün idxal tarifi 83%, şəkər üçün isə 244%-dir.

Postsovet ölkələrində bu rəqəmlər çox aşağıdır. Azərbaycanda bütün növ ətlərin idxal tarifləri-15%, süd-15%, buğda-5%, çay-15% və s. təşkil edir.

İnkişaf etmiş ölkələrdə, xüsusilə də, Aİ ölkələrində kənd təsərrüfatına dövlət dəstəyi yüksək səviyyədə həyata keçirilir. Qeyd etdiyimiz kimi, ölkənin daxili bazarının ucuz kənd təsərrüfatı məhsullarından qorumaq üçün idxal vergisi tətbiq edilir, ixrac olunan məhsullara görə isə müxtəlif təşviqləndirici tədbirlər görülür, o cümlədən, subsidiyalar ödənilir.

ABŞ-da kənd təsərrüfatı ilə bağlı dövlət tənzimlənmələri böhran dövrü kimi tanınan 1930-cu illərdə başladı. Əslində hökumət müdaxilələri daha əvvəllər, müstəmləkəçilik dövründə ortaya çıxmışdı. Yəni hələ ölkəyə böyük immiqrasiya dövrlərində torpaqların bölüşdürülməsi başlanmışdır. Həmin zamanlarda ölkənin 607 mln. hektar torpaq sahəsinin 567 mln. hektarı dövlət mülkiyyətində idi. O vaxtlar dövlət təkcə torpaqların bölüşdürülməsi ilə kifayətlənmədi, həm də 19-cu əsrdə və 20-ci əsrin əvvəllərində kənd təsərrüfatına aid bir çox qanunlar qəbul etdi. Bu qanunlar ABŞ-ın kənd təsərrüfatı sektorunun idarə edilməsində əsaslı rol oynamışdır.

Hələ 1916-cı ildə ABŞ Konqresi kənd təsərrüfatının kreditləşməsi ilə əlaqədar fermerlərə dövlət borcları haqqında qanun qəbul etdi. Bu qanunun qəbulundan sonra kənd təsərrüfatında bir dönüş yarandı və inkişaf edərək böyüməyə başladı. Kənd təsərrüfatı məhsulları istehsalçılarının kredit resurslarına çıxışı genişləndi, maliyyə bazarında rəqabət qabiliyyətliliyi artdı. Eyni zamanda, Konqres bu məqsədlərə daha tez çatmaq üçün kənd təsərrüfatının inkişafına kömək məqsədilə dövlət nəzarətində olan federal agentliklər və təşkilatlar yaratdı.

Kənd təsərrüfatı istehsalçılarına faiz dərəcəsi 4%-dən də az olan uzunmüddətli güzəştli kreditlər verilməyə başlandı. Bu kreditlər əsasən ferma, texnika, toxum, mal-qara, heyvan yemi, quş almaq üçün verilirdi. Satılan məhsullar üçün texniki yardım proqramları yaradılmış, ayrıca Bazara Çıxış Proqramı təsdiq edilmiş və bunun üçün və beynəlxalq standartların hazırlanması üçün büdcə ayrılmışdır. İxracın təşviqi proqramı ilə bağlı stimullaşdırıcı tədbirlər artırılmışdır.

Hal-hazırda ABŞ dünyada kənd təsərrüfatına ən çox dəstək verən ölkələr sırasındadır. Məhz dövlətin göstərdiyi dəstək hesabına kənd təsərrüfatı sektoru iqtisadiyyatın səmərəli sahələrnin birinə çevrilib. ABŞ-ın bu təcrübəsi aqrar-sənaye kompleksi sektorunun dövlət tənzimlənməsi mexanizminin səmərəli tətbiqini göstərir.

**Cədvəl 1.3.1 ABŞ-ın kənd təsərrüfatı proqramları və büdcə ayırmaları (2014-2018)**

| | Proqramlar | Büdcə (mld.$) | Cəmi (%-lə) |
|---|---|---|---|
| 1. | Əlavə ərzaq dəstəyi proqramı | 760 | 77% |
| 2. | Bitkiçilik məhsullarının sığortalanmasına dəstək | 87 | 9% |
| 3. | Məhsul üçün dəstək proqramları | 68 | 7% |
| 4. | Mühafizə proqramları | 64 | 6% |
| 5. | Digər proqramlar | 10 | 1% |
| | Cəmi | 989 | 100% |

Mənbə: BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı https://www.fao.org/documents/card/ru/c/cb4477en/ məlumatlarından istifadə etməklə müəllif tərtibatı

Cədvəl 1.3.1-dən göründüyü kimi, ərzaq dəstəyi və məhsul sığortası ABŞ-ın kənd təsərrüfatına dəstək siyasətində ən mühüm iki istiqamətdir. Kənd Təsərrüfatının İnkişafı Aktı 20 dekabr 2018-ci ildə Konqres tərəfindən qəbul edilib [154] və qanun qüvvəyə minib. Bu, ümumiyyətlə, əvvəlki 2014-cü il Kənd Təsərrüfatı Qanununun yeni və daha mütərəqqi forması idi. Bu qanunda büdcə paylarının 76%-i ərzaq, 9%-i məhsul sığortası, 7%-i dəstək, 7%-i mühafizə, 1%-i isə digərləri üçün ayrılıb. [160]

ABŞ-da kənd təsərrüfatının dövlət müdaxiləsi və kənd təsərrüfatı siyasətinin tarixini nəzərdən keçirəndə zaman-zaman məqsədlərin dəyişdiyinin şahidi oluruq.

*“Məqsədlərdəki bu dəyişikliyi bu ardıcıllıqla göstərə bilərik: 1.Ailə biznesinin qorunması; 2.Təchizat nəzarəti; 3.Torpağın mühafizəsi; 4.Ərzaq təminatı; 5.Daxili tələbat; 6.Qida, yem və lif tədarükü”*

*“Tarixi prosesdə növbəti kənd təsərrüfatı qanununda ehtiyatların qorunması, ətraf mühitin mühafizəsi və ətraf mühitin keyfiyyətinin yüksəldilməsi siyasəti daha qabarıq şəkildə özünü büruzə verdi”*. [160, s.106.]

Hal-hazırda ABŞ-da 300 mln. əhali yaşayır və Amerika fermerləri onları ərzaq ilə təmin edirlər. Hər il orta hesabla bir amerikalı 120 kq. ət və ət məhsulları, 270 kq. süd və süd məhsulları, 250 ədəd yumurta, 60 kq. kartof, 126 kq. tərəvəz, 110 kq. meyvə, 103 kq. çörək istehlak edir ki, bu da Ümumdünya Səhiyyə Təşkilatının normativlərindən bir qədər çoxdur. Müqayisə üçün deyək ki, ÜST normasına görə ət və ət məhsullarının istehlak norması təxminən 72 kq-dır. Azərbaycanda bu rəqəm ABŞ-dan təxminən 3 dəfə azdır, yəni ildə bir azərbaycanlı bir amerikalıdan 3 dəfə az ət və ət məhsulları istehlak edir.

ABŞ-da kənd təsərrüfatının uğurlu inkişafı göstərir ki, qanunvericilik aktlarında təsbit olunmuş dövlət dəstəyi prinsipləri səmərəli və effektli nəticəyə hesablanmışdır. Hazırda ABŞ-ın aqrar-sənaye kompleksi dünya ərzaq bazarlarında uğurla rəqabət aparmaqda davam edir.

Aqroemal sahəsinin tənzimlənməsində dövlətin dəstəyi müxtəlif inkişaf etmiş ölkələrdə fərqlidir. Fransada aqroemal sahəsində fəaliyyət göstərən müəssisələrin 98%-i kiçik və orta müəssisələrdir. Işçi qüvvəsi on nəfərdən az olan müəssisələr isə 75% təşkil edir. Çörəkbişirmə sahəsində kiçik ailə çörəkbişirmə sexləri üstünlük təşkil edir. Fransada aqroemal sahəsində, xüsusilə də, ərzaq məhsulları istehsalı ilə məşğul olan müəssisələrdə xammalın mənbəyi çox önəmlidir və daim ciddi nəzarətdədir. Burada orqanik məhsullara daha üstünlük verilir. Eyni zamanda, müasir texnologiya və innovasiyalardan geniş istifadə edilir. Ən böyük sektorlar ət və süd məhsulları, içkilər (şərab və spirtli içkilər daxil olmaqla), heyvan yemi, çörək və qənnadı məmulatları, emal edilmiş tərəvəz və meyvələr, heyvan və bitki mənşəli yağlar, un və dənli bitkilər, emal olunmuş balıq və dəniz məhsulları, souslar, ədviyyatların istehsalıdır. Ən mühüm ixrac məhsulları şərablar, spirtli içkilər və

pendirlərdir. Son illər Fransa hökuməti texnoloji platformaların təşviqi siyasətini həyata keçirərək innovasiyaların stimullaşdırılması ilə fəal şəkildə məşğul olmuşdur. Strateji məqsəd müvafiq layihələrin həyata keçirilməsində ən mühüm maraqlı tərəflərin (dövlət, biznes, elm) səylərini birləşdirməklə yüksək nəticə əldə etməkdir. Aqrar sektor Fransada dövlətin ən çox nəzarət etdiyi sahədir. Kənd təsərrüfatı istehsalına görə Fransanın Aİ-də payı 25%-dir ki, bu da Qərbi Avropada birinci yer deməkdir. Fransanın əsas səciyyəvi xüsusiyyətlərindən biri odur ki, kənd təsərrüfatı və aqroemal məhsullarının ixracının həcmi daxili istehlakdan daha çoxdur. Bu o deməkdir ki, aqrar emal məhsulları üzrə Fransa Avropada əsas ixracatçı ölkələrdən biridir.

Dünya arenasına baxanda görərik ki, ət istehsalının əsas regionu Asiyadır. Sonrakı yerlərdə Avropa, Şimali və Cənubi Amerikadır. Avropa qitəsində ət istehsalında azalmalar qeydə alınır ki, bu da əhalinin ət məhsulları istehlakını azaltmaları və sağlam pəhrizə keçmələri ilə əlaqələndirmək olar.

Hal-hazırda (2020-ci il) dünya üzrə ət istehsalı ildə 310 mln. ton təşkil edir. Ətin növlərinə gəldikdə isə görürük ki, dünya üzrə ən böyük həcm, yəni ümumi ət istehsalının 39,1% donuz əti istehsalıdır, sonrakı yerləri isə ardıcıl olaraq quş əti 29,3%, mal əti 25%, qoyun əti 4,8% və 1,8% başqa ət növləri tuturlar.

Dünyada ən çox ət istehsalı ardıcıl olaraq Çin, ABŞ və Braziliyanın payına düşür. [138]

Süd və süd məhsulları istehsalına normallaşdırılmış süd, yağ, pendir və digər məhsullar aiddir. Dünya üzrə regional strukrura baxsaq, bu məhsulların istehsalında Asiya liderlik edir. İl ərzində dünyada 768 mln. ton süd istehsal olunur. Dünya süd istehsalında liderlik edən ölkələr:

1. ABŞ
2. Hindistan,
3. Çin
4. Braziliya
5. Almaniya

Dünyada il ərzində 19 mln. ton pendir istehsal olunur. Dünya istehsalında pendir istehsalının kərə yağı istehsalını get-gedə üstələməsi müşahidə olunur. Pendir istehsalında lider ölkələr ardıcıl olaraq bunlardır:

1. ABŞ
2. Almaniya
3. Fransa
4. İtaliya
5. Niderland

Dünya üzrə heyvan mənşəli yağ istehsalında liderlik edən ölkələr:

1. ABŞ
2. Yeni Zelandiya
3. Almaniya
4. Fransa
5. Rusiya

İl ərzində dünyada 180 mln. ton şəkər istehsal olunur. Məlum olduğu kimi şəkərin əsas xammalı şəkər çuğunduru və şəkər qamışıdır. Dünyada istehsal olunan şəkərin təxminən 65%-nin xammalı şəkər qamışı təşkil edir. Şəkər çuğundurundan alınan şəkər tozunun təmizliyi 99,75% təşkil edir ki, bu səbəbdən də Avropa ölkələri daha çox şəkər çuğunduruna üstünlük verirlər.

Şəkər istehsalı üzrə lider ölkələr aşağıdakılardır:

1. Braziliya
2. Hindistan
3. Çin
4. Tailand
5. ABŞ [120]

Ümumiyyətlə, dünyanın müxtəlif ölkələrində və siyasi sistemlərdə ölkə iqtisadiyyatında sambalına görə emal sənayesinə mühüm və əhəmiyyətli iqtisadi güc kimi baxılır. Bu sahə yüksək ixtisaslı mütəxəssisləri ilə fərqlənir və dövlətin texniki güc mənbəyi kimi çıxış edir. Bu seqmentin inkişaf səviyyəsinin aşağı düşməsini və fəaliyyət miqyasının daralmasını ölkənin iqtisadi geriləməsinin əlamətləri kimi

xarakterizə etmək olar. Artıq inkişaf etmiş ölkələrdə emal sənayesi təkcə məşğulluğun miqyaslı artımının mənbəyi deyil, həm də əmək məhsuldarlığının, innovasiyanın və beynəlxalq ticarətin artımını təmin edir. Belə ki, inkişaf etmiş ölkələrdə ETTKİ-ə (Elmi-Tədqiqat və Təcrübə-Konstruktur İşləmələr) özəl investisiyanın 90%-i, qlobal ticarətin 70%-i emal sənayesi sahələrinin payına düşür. [131]

Yüksək texnologiyaların inkişafı dünya bazarının strukturunu dəyişmişdir ki, bu da müxtəlif ölkələrin elmi-texniki siyasətinin prioritetlərini əks etdirir. Emal sənayesi məhsullarının ixracında lider ölkələr kimi ABŞ, Yaponiya, Avropa ölkələri çıxış etsə də, son dövrlərdə vəziyyət xeyli dəyişmişdir. Belə ki, müasir dövrdə Çindən başqa, Hindistan kimi yeni sənaye ölkələri də artıq lider ölkələr qrupuna daxil olmuş və dünya ixrac bazarının mənzərəsini xeyli dəyişmişdir. Çin emal sənayesinin məhsullarının bütün maddələri (aşağı, orta və yüksək texnoloji məhsullar) üzrə dünya ixracında 5 lider ölkələr sırasında mövqe tutmuşdur. Dünya emal sənayesi məhsullarının istehsalında Avropa ölkələrinin payı 30% hüdudunda tərəddüd edir. [129]

Azərbaycanda kənd təsərrüfatı müəssisələri Amerika və Avropa ölkələrinin müəssisələri ilə müqayisədə daha az səmərəlidir. Bunun bir çox səbəbləri vardır. Hər şeydən öncə qeyd etməliyik ki, aqrar sektora dövlət dəstəyinin səviyyəsi ölkəmizə nisbətən daha yüksəkdir. Təsərrüfat subyektlərinə verilən subsidiyalar, bazarın mühafizəsi məqsədilə idxala məhdudiyyətlər, istehsal fondlarının müəyyən hissəsinin kompensasiya edilməsi və s. Aİ ölkələrində aqrar subyektlərin səmərəliliyinin yüksəlməsinə çox kömək edir. Eyni zamanda istehlakdan artıq qalan məhsulun satın alınması, bazarın yerli sahibkarların xeyrinə çox ciddi qorunması, sabit və yüksək qiymətlər daim bu subyektlərin dayanıqlı inkişafını təmin edir.

Aqroemal sahəsinin tənzimlənmələrində Azərbaycan inkişaf etmiş xarici ölkələrin təcrübələrindən kifayət qədər yararlanmalıdır. Bu məqsədlə də xarici təcrübələr diqqətlə öyrənilməli, ölkə üçün iqtisadiyyatına, inkişafına, büdcə imkanlarına, milli və coğrafi xüsusiyyətlərə və s-yə görə kənd təsərrüfatının istehsalının inkişafının stimullaşdırılması istiqamətində ən optimal variantlar

seçilməli, dövlət tənzimlənməsi ilə azad bazar münasibətlərinin ağlabatan birləşməsinə əsaslanan səmərəli bir sistem yaradılmalıdır.

# II FƏSİL. AZƏRBAYCANDA AQROEMAL SAHƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Aqroemal sahəsinin xammal bazasının mövcud durumunun təhlili

Ümumiyyətlə, kənd təsərrüfatı sahəsi həmişə daha çox risk faktorlarının təsirinə məruz qalır və bununla bərabər, ölkənin ərzaq təhlükəsizliyi üzrə məqsəd və proqramlarının həyata keçirilməsində əsas iştirakçıdır. Eyni zamanda bu sahə iqtisadiyyatın başqa sahələri üçün, o cümlədən, aqroemal sektoru üçün mühüm xammal və məhsulların bazasıdır. Ölkənin milli gəlirinin formalaşması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, əlavə dəyərlərin yaranması və idxalın əvəz edilməsinin həyata keçirilməsi kənd təsərrüfatının davamlı inkişafından çox asılıdır. Eyni zamanda kənd təsərrüfatı ölkənin maddi resurslarının əsas istehlakçısıdır.

*"Hər bir ölkədə ərzaq təhlükəsizliyi probleminin həlli ölkədə yoxsulluğun azaldılmasına, ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin yüksəlməsi ilə bağlıdır"* [92, s.72].

Kənd təsərrüfatı tarix boyu, bütün zamanlarda, hər bir dövlətin təbii, iqtisadi, insani və etnik-mədəni potensialına təsir göstərən ən mühüm sahələrdən biri olub və olaraq da qalır. Azərbaycanın Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərləri istisna olmaqla qalan bütün bölgələri aqrar xarakter daşıyır. Kənd yerlərində hələ də həllini tapmamış bir çox problemlər mövcuddur və bu səbəbdən də kənd əhalisinin həyat səviyyəsi və eyni zamanda, həyat keyfiyyəti şəhərlərdəki həyat səviyyəsindən və keyfiyyətindən əhəmiyyətli dərəcədə geri qalır.

Azərbaycan kənd təsərrüfatına yararlı torpaqlarla zəngindir. Ölkənin təbii, iqtisadi və sosial şəraiti çox müxtəlifdir. Kənd təsərrüfatı sektoru Azərbaycanın aqrar-sənaye kompleksinin əsas sahəsidir və ölkənin ərzaq təhlükəsizliyi sisteminin əsas dayaq amillərindən biri kimi çıxış edir. Eyni zamanda, yerli aqrar bazarın formalaşmasında, kənd yerlərinin əmək və məskunlaşma potensialının yaradılmasının əsasını təşkil edir. Azərbaycanda məşğul əhalinin ən böyük qrupu, yəni 35,8%-i,

(2022-ci il) kənd təsərrüfatında fəaliyyət göstərir. Bir sözlə, bu sahə ölkənin ərzaq və iqtisadi təhlükəsizliyini təmin edir.

Azərbaycanda kənd təsərrüfatının ümumi istehsal həcmi 2022-ci ildə cari qiymətlərlə 11,0 mld. (6,5 mld.$.) manat təşkil edib. Kənd təsərrüfatı sektoru məşğul əhalinin sayına görə ölkədə birinci yerdədir. Burada 1,75 mln. nəfər adam çalışır ki, bu da məşğulluğun 35,8%-i deməkdir, bununla bərabər, kənd təsərrüfatı ÜDM-in 4,8 %-ni təşkil edir.

Azərbaycanda kənd təsərrüfatı sektorunu təhlil edərkən müstəqillik qazanılan ildən, yəni 1991-ci ildən bu günədək olan dövrü ümumilikdə nəzərdən keçirmək lazımdır. Çünki məhz bu dövr ərzində ölkə iqtisadiyyatının planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidi başlanmış, iqtisadiyyatda liberal xətt əsas götürülmüş, bir sıra iqtisadi islahatlar, o cümlədən, torpaq islahatı aparılmış, torpaqlar paylanmış, qiymətlər və ticarət liberallaşmış, dövlət mülkiyyətləri kütləvi sürətdə özəlləşdirilmişdir. Demək olar ki, iqtisadi mühit bütövlükdə dəyişmişdir. Bu da kənd təsərrüfatı sektorunun yeni istiqamətdə inkişafını zəruri etmişdir. Bununla bərabər dövlətin iqtisadiyyatda rolu və müdaxilə dərəcəsi də dəyişmişdir. Müstəqillikdən öncə, ölkə SSRİ-nin tərkibində olduğu zamanlar dövlət iqtisadiyyatın bütün sahələrinə müdaxilə edirdi. Bütün istehlak mallarına qiymətqoyma, resursların və istehlak mallarının bölüşdürülməsi, istehsal həcminin müəyyən edilməsi və s., bir sözlə, iqtisadiyyatın bütün funksiyalarını dövlət yerinə yetirirdi. İstehlak mallarının qiymətləri, bazara çıxan həcmləri, keyfiyyəti bazarın tələb-təklif ptinsipi əsasında deyil, dövlət tərəfindən həyata keçirilirdi. Hər hansı bir mağazaya hansı malın və hansı həcmdə verilməsini də dövlət həll edirdi.

Sonralar, iqtisadiyyatda liberal xətt əsas götürüləndən sonra dövlətin iqtisadiyyatda rolu azalmağa başladı və yerini bazar tənzimlənmələrinə verməyə başladı. İqtisadiyyatın dövlət tənzimlənmələrinin əsası da bu dövrdən, yəni müstəqillik qazandığımız dövrdən qoyuldu. Son otuz ildə dövlət tənzimlənmələri zaman-zaman dəyişmiş, təkmilləşmiş və inkişaf etdirilmişdir.

Buna görə də ölkə iqtisadiyyatında, o cümlədən, kənd təsərrüfatı sektorunda 1990-cı il tədqiqatlar üçün müqayisə bazası kimi qəbul edilməsi daha düzgün olardı

və bu müqayisə ilə bazar islahatlarının səmərəliliyini qiymətləndirmək olar, konkret sahənin səviyyəsini islahatlardan əvvəlki dövr ilə müqayisə etmək olar.

Əkinə yararlı torpaqların mövcudluğu ərzaq təhlükəsizliyi problemlərinin əsas həlli deməkdir. Azərbaycanda ölkə əhalisini ərzaq malları ilə təmin etmək üçün kifayət qədər torpaq ehtiyatları mövcuddur. 1990-cı ildən sonra kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin həcmində müəyyən struktur dəyişiklikləri olmuşdur. Xüsusilə, texniki bitkilərin əkin sahələri əhəmiyyətli dərəcədə azalmış, dənli və dənli-paxlalı bitkilərin əkin sahələri isə artmışdır.

Dissertasiyanın əlavələr hissəsində verilmiş əlavə 3-dən də göründüyü kimi, kənd təsərrüfatı bitkilərinin sahələri 2022-ci ildə 1990-cı ilə nisbətən 161,5 min hektar, yəni 11% artmışdır. Ancaq 2000-ci ildə vəziyyət daha pis olmuşdur. Belə ki, həmin ildə 1990-cı ilə nisbətən 421 min hektar az, yəni 29% az əkin sahəsi əkilmişdir. 2000-ci ildən sonra kənd təsərrüfatının əvvəlki əkin sahələri bərpa edilmiş və nəhayət 2022-ci ildə ölkənin kənd təsərrüfatı tarixində ən yüksək göstəricisinə nail olunmuşdur. Bu artım əsasən dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin genişlənməsi hesabına əldə edilmişdir. 2022-ci ildə taxıl sahəsi 1990-cı ilə nisbətən 402,3 min hektar artmışdır ki, bu da 170% artım deməkdir.

Təəssüf ki, bu artım gəlirliyi daha çox olan texniki bitkilərin əkin sahələrinin azaldılması hesabına baş vermişdir. 2022-ci ildə əkilən pambıq sahələri 1990-cı ildən 159,6 min hektar, yəni 2,6 dəfə az olmuşdur. 2015-ci ildə pambıq üzrə vəziyyət daha acınacaqlı olmuşdur, belə ki, həmin ildə 1990-cı ilə nisbətən pambığın əkin sahələri 15,2 dəfə azalaraq cəmi 18,7 min hektara düşmüşdür. Son 5 ildə bu bitki altında olan sahə artırılaraq, 2022-ci ildə 104,3 min hektara çatdırılmışdır.

Eyni vəziyyəti tütün sahələrinə də aid etmək olar. Vaxtilə, 1990-cı ildə ölkədə 14,8 min hektar tütün əkilirdi. Sonradan, tütünün satışı ilə əlaqədar yaranmış problemlərə görə bu sahəyə maraq azalmış, bu səbəbdən də əkin sahələri azalmağa başlamışdır. 2015-ci ildə əkin sahəsi 1990-cı ilə nisbətən 10,2 dəfə azalaraq 1,4 min hektara çatdı. 2015-ci ildən sonra bu sahə inkişaf etməyə başlamış və 2020-ci ildə əkilən sahə 3,1 min hektara çatdırılmış, ancaq 2022-ci ildə yenidən azalaraq 2,4 min hektar olmuşdur.

Üzümçülükdə və çayçılıqda da vəziyyət ürəkaçan deyil. Üzüm sahələri 2022-ci ildə 1990-cı ilə nisbətən 11,6 dəfə azalaraq 15,7 min hektar olmuşdur. Onu da qeyd etməliyik ki, üzüm plantasiyaları 2020-ci ilə nisbətən də 2022-ci ildə 400 ha. azalmışdır. Nəzərə alsaq ki, 1984-cü ildə Azərbaycanda üzüm əkini sahələri daha çox, yəni 284 min hektar olmuşdur, onda ölkənin potensialı haqqında təsəvvür etmək olar. Qeyd etməliyik ki, Ermənistan tərəfindən Dağlıq Qarabağ və ətrafındakı rayonların işğal edilməsi nəticəsində həmin ərazilərdə mövcud olan 40 min hektar üzüm plantasiyaları məhv olaraq əkin dövriyyəsindən çıxmışdır. Adekvat olaraq ölkədə şərab istehsalı da dəfələrlə azalmışdır. Hal-hazırda əkilən üzüm sahələrinin mütləq əksəriyyəti süfrə sortudur və birbaşa istehlaka yönəldilir. Şərabçılıq üçün əkilən texniki sort üzüm plantasiyaları isə çox azdır. Onu da qeyd etməliyik ki, səmərəliliyinə görə bir hektar üzüm sahəsinin məhsulunun gəlirliliyi digər kənd təsərrüfatı məhsullarını, o cümlədən, taxıl məhsullarını dəfələrlə üstələyir.

Çay plantasiyaları 2022-ci ildə 1990-cı ilə nisbətən 13,3 dəfə azalmış, 1,0 min hektara çatmışdır. Bu məhsul da çox gəlirlidir. Ancaq əkiləndən 8 il sonra məhsul verməyə başlaması bu sahəni fermerlər üçün maraqsız etmişdir. Ona görə də fermerlərin məhsul istehsalına çatmaları üçün olan dövrdə, mütləq dövlət dəstəyi olmalıdır.

Dissertasiyanın sonunda əlavə 3-də verilmiş cədvəldən aydın olur ki, son 20 ildə dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin artımı əsasən texniki bitkilərin, o cümlədən, üzüm, tütün və çay plantasiyalarının azalması hesabına baş vermişdir. Azərbaycanda 1990-2022-ci illər ərzində kənd təsərrüfatı məhsullarının istehsal həcmini və adambaşına düşən məhsulun dinamikası cədvəli dissertasiyanın əlavələr hissəsində əlavə 4-də verilmişdir. Həmin cədvəldən göründüyü kimi, müstəqilliyin ilk illərində baş vermiş istehsal həcmlərinin azalması sonralar əksər məhsul növlərinin istehsal həcmlərinin artması ilə əvəz olunmağa başlanmışdır. 2022-ci ildə 1990-cı ilə nisbətən taxıl istehsalı 2,2 dəfə, buğda istehsalı 1,8 dəfə, kartof istehsalı 5,8 dəfə, ət istehsalı 2,1 dəfə, süd istehsalı 2,3 dəfə, yumurta istehsalı 2 dəfə artmışdır. Şəkər çuğunduru ölkədə yeni sahə kimi 2005-ci ildən yetişdirilməyə başlanmış, 2022-ci ildə illik istehsal 211 min tona çatdırılmışdır. Qeyd etməliyik ki, son illər kənd təsərrüfatı

məhsullarının istehsalının artım səviyyəsi qeyri-sabitdir. Taxıl istehsalı 2022-ci ildə 2019-cu ilə nisbətən 461 min ton, buğda istehsalı isə 484 min ton azalmışdır. Şəkər çuğunduru istehsalı 2017-ci ildə daha yüksək 410 min ton olmuşdur. 2022-ci ildə isə bu məhsul 2017-ci ilə nisbətən 1,9 dəfə azalaraq 210,6 min ton olmuşdur.(bax əlavə 4-ə)

Heyvandarlıq məhsullarının istehsalında artım dinamikası demək olar ki, sabitdir. 1995-ci ildən sonra hər il mütəmadi olaraq bu məhsulların istehsalı artır. Bunun əsas səbəbi həm ekstensiv inkişaf, yəni heyvandarlıq sürülərinin baş sayının artırılması, eyni zamanda, intensiv inkişaf, yəni sürü tərkibinin daha məhsuldar cins mal-qaranın xeyrinə dəyişdirilməsi olmuşdur. Ölkədə heyvandarlıq sürülərinin cins tərkibinin yaxşılaşdırılması prosesi son vaxtlar daha böyük vüsət almışdır. Bu məsələni dövlət daim diqqət mərkəzində saxlayır, müxtəlif təşviqləndirici və stimullaşdırıcı tədbirlər həyata keçirir. Məsələn, süni mayalanmadan doğulan hər baş buzov üçün dövlət 100 manat subsidiya ödəyir. Bu da maldarlıqla məşğul olan kənd əhalisini və fermerləri çox maraqlandırmış və süni mayalanmanın intensiv olaraq həyata keçirilməsini təmin etmişdir. Nəticədə, həm ət istehsalı və həm də süd istehsalında ilbəil artım dinamikasına nail olunur.

Meyvə istehsalında da vəziyyət yaxşıdır, belə ki, 1995-ci ildən etibarən meyvə istehsalı artan dinamika ilə inkişaf edir. Ölkədə fəaliyyətdə olan meyvə emalı və şirə zavodları bu artımda böyük rol oynayır. Meyvəçiliklə məşğul olan fermerlər məhsullarının daimi alıcısı olan şirə zavodlarının tələbatı olduğu üçün bu sahəyə maraqları artmışdır. Həm şirə zavodları və həm də fındıq zavodlarının olması fermerlər üçün bazar problemini demək olar ki, həll etmişdir. Eyni zamanda, ölkənin şəhərlərinin əhalisinin, yəni, istehlakçıların yerli ənənəvi meyvə sortlarına daha çox üstünlük verməsi, ölkəyə idxal olunan geni dəyişdirilmiş meyvə məhsullarına daha könülsüz yanaşması da yerli meyvə istehsalının artımında müsbət rol oynayır.

Bostan-tərəvəz məhsullarında da artım dinamikası mövcuddur. Əlavə 2-yə nəzər salsaq görərik ki, ən çox artım 1995-ci il ilə 2000-ci illər arasında qeydə alınmışdır, belə ki, bu illər ərzində bostan məhsullarının istehsal həcmi 3,7 dəfə artmışdır. Ancaq, 2016-cı ildən istehsalda azalmalar müşahidə olunur. Ölkə üzrə

2022-ci ildə 2015-cı ilə nisbətən bostan məhsullarının istehsalında 3% azalma qeydə alınmışdır. Bunun əsas səbəblərindən biri dövlət tərəfindən təbii qazın satış qiymətlərinin artırılması və nəticədə istixana təsərrüfatlarında məhsul istehsalının maya dəyərinin artması və satışının çətinləşməsi ilə əlaqələndirmək olar. Təbii ki, digər səbəblər də vardır, xüsusilə də, ənənəvi Rusiya bazarlarına bostan məhsullarının daşınmasında yaradılan süni əngəllər, ölkəyə idxal olunan daha ucuz bostan məhsullarının rəqabətdə üstün olması və s.

Təəssüf ki, son 32 illik dövr ərzində kənd təsərrüfatının digər sahələrində olan artım dinamikasını texniki bitkilərə şamil etmək olmur. Belə ki, 2022-ci ildə 1990-cı ilə nisbətən pambıq istehsalı 1,7 dəfə, üzüm istehsalı 5,6 dəfə, tütün istehsalı 10,4 dəfə, çay istehsalı isə 30,7 dəfə azalmışdır. Onu da qeyd etməliyik ki, adlarını çəkdiyimiz məhsullar daha gəlirlidir və bu nöqteyi nəzərdən onların istehsalı artırılmalı və 1990-cı il səviyyəsinə çatdırılmalıdır.

Qeyd etməliyik ki, görülən tədbirlər nəticəsində son 10 ildə bu məhsulların istehsalı sürətlə artmağa başlamışdır. 2010-cu ilə nisbətən 2022-ci ildə pambıq istehsalı 8,4 dəfə, üzüm istehsalı 1,6 dəfə, tütün istehsalı 1,6 dəfə, çay istehsalı isə 1,8 dəfə artmışdır. Son 10 ilin dinamikası onu deməyə əsas verir ki, artıq həm dövlətin və həm də sahibkarların bu sahəyə marağı ciddi sürətdə artmışdır. Ancaq bu göstəricilər ölkənin potensialı müqabilində çox azdır. [21]

Qeyd etdiyimiz kimi, pambıqçılıq üzrə son 30 ilin rəqəmlərinə diqqət etsək görərik ki, müstəqillikdən sonra pambıq istehsalı sürətlə azalmışdır. Hansı ki, bu məhsulun ölkə iqtisadiyyatında rolu böyükdür. Əməktutumluğuna görə, yüngül sənayenin xammal bazası olduğuna görə və ölkəyə valyuta gətirən mühüm sahə olduğu üçün əhəmiyyəti çox böyükdür.

*"Pambıqçılıq rayonlarının torpaqlarının mövcud vəziyyəti, təbii iqlim şəraiti, su ehtiyatları, əmək resursları və aqrotexniki servis xidmətinin səviyyəsi bir sıra bölgələrdə pambıq əkininin həyata keçirilməsinə imkan verir"* [93, s.82].

Məlum olduğu kimi, tütün hər bir iqlim şəraitində yetişmir. Bunun üçün xüsusi iqlim şəraiti və torpaq lazımdır ki, bu da Azərbaycanda mövcuddur. Tütün məhsulu rentabelli və səmərəsi daha çox olan məhsuldur. İqtisadi əhəmiyyətinə görə,

Azərbaycanda pambıqçılıqdan sonra ikinci texniki bitki sayılır. Gəlirli sahə olduğu üçün bir vaxtlar ölkənin 21 rayonunda tütün yetişdirilməsi ilə məşğul olurdular.

**Cədvəl 2.1.1 Azərbaycanda tütün istehsalı və idxal-ixrac dinamikası. min tonla**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022artım 2015-ə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tütün istehsalı | 3,5 | 3,6 | 5,3 | 6,3 | 6,0 | 6,9 | 6,4 | 5,1 | 1,5 dəfə |
| Tütün xammalının ixracı | 1,9 | 2,2 | 4,6 | 4,2 | 6,5 | 4,8 | 5,3 | 6,9 | 3,6 dəfə |
| Tütün xammalının idxalı | 3,1 | 1,6 | 2,6 | 3,5 | 6,3 | 5,8 | 5,9 | 6,4 | 2,1 dəfə |

Mənbə: DSK: "Azərbaycanın kənd təsərrüfatı", "Azərbaycanın xarici ticarəti" 2023 https://www.stat.gov.az/source/trade/, https://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [27]

Cədvəl 2.1.1 vasitəsilə son 8 ilin dinamikasına baxsaq görərik ki, ölkədə istehsal olunan tütün, əsasən, xammal şəklində ixrac olunur, ancaq yerli siqaret istehsalı üçün lazım olan tütün xammalı isə idxal olunur.

Ölkədə üzüm istehsalı 2022-ci ildə 1990-cı ilə nisbətən 5,6 dəfə azalmışdır. 1990-cı ildə 1196,4 min ton üzüm istehsal olunmuşdur ki, bunun da 95%-i şərab sortlu üzüm idi və mövcud şərab zavodlarına təhvil verilirdi. 1985-ci ildə bu rəqəm daha yüksək idi, yəni 1790 min ton. Üzüm istehsalının 1985-1990-cı illər arasında kəskin azalmasının əsas səbəbi 1985-ci ildə, o vaxtki SSRİ rəhbərliyinin "Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri" adlı bədnam qərarı nəticəsində ölkəmizdə üzüm bağlarının kütləvi sürətdə ləğv edilməsi olmuşdur [135]. Nəticədə, minlərlə hektar üzümçülük üçün çox əlverişli torpaq sahələri ləğv edilərək, taxıl və digər kənd təsərrüfatı məhsullarının əkini ilə əvəz edilməyə başladı. Nəticədə xammalsız qalan şərab zavodları sıradan çıxmağa başladı. Azərbaycanda üzüm istehsalının və şərabçılığın böhranı həmin illərdən başlanmışdır və sonradan müstəqillik qazanılandan sonra da davam edir. Eyni zamanda təxminən 40 min hektar üzüm plantasiyaları Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə məhv oldu. Hələlik ənənəvi Rusiyanın şərab bazarının itirilməsi, mövcud yerli şərab zavodlarının köhnələrək sıradan çıxması, ümumi iqtisadi vəziyyətin gərginliyi və s. üzümçülüyün və şərabçılığın əvvəlki şöhrətinə qayıtmasına imkan vermir. Ona görə də yerli mövcud şərab zavodları demək olar ki, yerli bazarla kifayətlənmişdirlər. Hal-hazırda

istehsal olunan üzümün əsas hissəsi süfrə sortudur və emal edilmədən, qablaşdırılaraq birbaşa istehlaka göndərilir.

*"Həqiqətən də, ölkənin ənənəvi üzümçülük və şərabçılıq sahəsində gələcəkdə istifadə edə biləcəyimiz böyük potensial mövcuddur. Üzümçülük aqrar sektorda gəlirinə görə əsas sahələrdən biridir. Tarixən bu ərazidə xalq seleksiyası yolu ilə yaradılan 300-dən çox yerli, 200-ə qədər ayrı-ayrı ölkələrdən gətirilən üzüm sortları artıq bizim milli sərvətlərimizə çevrilmişdir. Ölkənin meşələrində, dağ ətəklərində yayılan yabanı üzümün mövcudluğu da sübut edir ki, bizim ərazilər dünyada üzümün yaranma mərkəzlərindən biri olmuşdur. Nəticədə, ölkənin Dağ Şirvan, Qarabağ-Mil, Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Qazax, Qarabağın dağlıq hissəsi, Lənkəran və Naxçıvan bölgələrində, həmin iqlimlərə məxsus üzüm sortlarının zəngin genofondu yaranmışdır. Ona görə də üzümçülüyün əkin sahələrini artırmaqla bu sahənin həcmini 1985-ci il səviyyəsinə, yəni 220 min hektara çatdırmaq olar. Bu potensial ölkədə mövcuddur"* [94, s.172].

Çayçılıq üçün Azərbaycanda olduqca əlverişli şərait var və xüsusilə də cənub bölgəsində yetişən çay yarpaqları öz tərkibindəki göstəricilərə görə dünyanın ən keyfiyyətli çayları ilə müqaisə oluna biləcək səviyyədədir.

Təəssüf ki, bu sahədə son 32 ildə yaranmış böhran hələ də aradan qaldırılmayıb. Çay plantasiyalarının sahəsi 2022-ci ildə 1990-cı ilə nisbətən 12,2 dəfə azalaraq 1,1 min hektar, istehsalı isə 31 dəfə azalaraq 1,0 min ton olmuşdur. Bu rəqəmlərdən məlum olur ki, çayın məhsuldarlığı da əhəmiyyətli sürətdə azalmışdır. Nəticədə ölkə əhalisinin çay təminatı əsasən idxal hesabına ödənilir.

*"Çaycılıqda böhran vəziyyətindən çıxmaq üşün çay plantasiyalarının sahəsi artırılmalı və bununla əlaqədar dövlətin təşviqləndirmə siyasəti olmalıdır. Çay əkildikdən 7-8 il sonra məhsul verməyini nəzərə alaraq, dövlət həmin müddət ərzində fermerlərə yaşayış minimumu həcmində kompensasiya ödəməlidir"* [95].

Azərbaycanda şəkər çuğunduru istehsalı yeni sahə sayılır, yəni 2005-ci ildən başlayaraq istehsal edilməyə başlamışdır və 2006-cı ildə İmişli şəkər zavodunun istifadəyə verilməsi bu sahənin inkişafına təkan olmuşdur. Şəkər çuğunduru gəlirli sahədir və istehsalını artırmaq üçün ölkədə, xüsusilə də, aran rayonlarında iqlim

şəraiti çox əlverişlidir. Ancaq bu sahədə də imkanlardan tam istifadə edilmir. Bu məhsulun istehsalı 2017-ci ildə 410 min tona çatdırılmışdır, ancaq sonradan istehsal azalmağa başlamış 2022-ci ildə 2017-ci ilə nisbətən 1,9 dəfə azalaraq 210,6 min tona düşmüşdür. İmişli şəkər zavodunda şəkər istehsalında yerli xammalın çəkisi çox aşağıdır və zavod əsasən hər il ortalama 200 mln. dollar vəsait sərf edərək xaricdən aldığı xammal hesabına fəaliyyət göstərir.

Ölkədə son 32 ildə buğda istehsalında da inkişaf qeydə alınmışdır. Belə ki, bu sahədə 2022-ci ildə 1990-cı ilə nisbətən 1.9 dəfə, 2000-ci ilə nisbətən 1,4 dəfə, 2010-cu ilə nisbətən 1,3 dəfə artım əldə edilmiş və illik istehsal 2022-ci ildə 1687,5 mln. tona çatmışdır. Ölkə əhalisinin ərzaq buğdasına tələbatı təxminən 1,6 mln. tondur. Ancaq təəssüflə demək lazımdır ki, ölkəyə ərzaq buğdasının idxalı da yüksək səviyyədədir. Hər il orta hesabla buğda idxalı üçün 350 mln. dollar valyuta sərf edilir.




**Qrafik 2.1.1 Azərbaycanda buğda istehsalı və idxalının dinamikası**
Mənbə: DSK "Azərbaycanın ərzaq balansları" 2023 1.3.
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı.

Qrafik 2.1.1-dən göründüyü kimi, ərzaq buğdasının idxalı 1995-ci ilə nisbətən çox artmışdır, hansı ki, bu illər ərzində istehsal da artmışdır. Son 6 ildə ərzaq buğdasının ortalama idxalı əhalinin bu məhsula olan tələbatının 82%-ni təşkil edir. Ölkədə istehsal olunan buğda isə əsasən toxum, mal-qara və quş yeminə, o cümlədən, sair ərzaq və qeyri-ərzaq mallarının istehsalına sərf olunur. Bunun səbəblərindən biri ölkədə istehsal olunan buğdanın bərk sort olmasıdır. Bərk sortlu buğdaların müasir dəyirmanların üyütməsində problemlər yaranır. Ona görə də adətən unüyütmə sənayesində idxal olunan yumşaq sortlu buğdadan istifadə olunur. Dəyirmanlarda üyüdülən zaman yerli bərk sortlu buğda yumşaq buğdanın tərkibinə 10% qatıla bilər.

Onu da qeyd etməliyik ki, son 25 ildə ölkəyə ərzaq buğdasının idxalı 16 dəfə artmışdır. Paralel olaraq həmin dövrdə buğda istehsalı 3 dəfə artmışdır. Ancaq əhali artımı bu məhsulun istehsal və idxal artımına adekvat deyil. Belə nəticəyə gəlmək olar ki, ölkə əhalisinin ərzaq buğdasına olan tələbatı əsasən idxal hesabına təmin edilir, yerli istehsal isə yem və qeyri-ərzaq təyinatlı məhsul istehsalına sərf edilir. Ölkədə bərk buğda sortlarını yumşaq sortlu ərzaq buğdaları ilə əvəz etməklə, ölkənin ərzaq buğdasına olan tələbatını yerli istehsal ilə ödəmək olar. Onu da nəzərə almalıyıq ki, hər il ərzaq buğdasının alınmasına orta hesabla 350 milyon dollar vəsait sərf edilir. Ölkənin ərzaq buğdasına olan tələbatının, əsasən, idxal hesabına təmin olunmasının əsas səbəblərindən biri də istehsal olunan buğdanın ərzaq üçün yararsız olmasıdır. Bu səbəbdən əhalinin ərzaq buğdasına olan tələbatı ödənilə bilmir.

Əhali sayının və məhsul istehsalının artması ilə eyni vaxtda əhalinin ərzaq məhsulları ilə təminatı da dəyişmişdir, çünki bu göstəricilər əsasən bir-biri ilə çox sıx bağlıdırlar.

Ümumilikdə götürsək kənd təsərrüfatında əldə edilmiş gəlirlilik aşağı olduğu üçün aqrar biznesin intensiv inkişafına maraq azalır və son nəticədə davamlı istehsal funksiyaları tam yerinə yetirilə bilmir. Bütövlükdə, Azərbaycanda kənd təsərrüfatının gəlirliliyi 2003-2022-ci illərdə 190 dəfə artaraq, 2022-ci ildə rentabellik 37,9%-ə çatmışdır. Baxmayaraq ki, son 20 ildə rentabellik bu qədər artmış, ancaq onu da nəzərə almalıyıq ki, kənd təsərrüfatı ildə bir dəfə məhsul verir.




**Qrafik 2.1.2 Kənd təsərrüfatında ümumi rentabellik səviyyəsi. %-lə**
Mənbə: DSK. İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2023 1.53. https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Qrafik 2.1.2-dən göründüyü kimi, 2022-ci ildə kənd təsərrüfatında ümumi rentabellik səviyyəsi 2003-cü ilə nisbətən 190 dəfə artmışdır. 2003-cü ildə ümumi rentabellik səviyyəsi cəmi 0,2%, yəni sıfıra yaxın olmuşdur. Eyni zamanda, qrafikdən

aydın olur ki, 2013-cü ildən sonra da rentabellik səviyyəsi stabil deyildir, qrafikdəki göstərici xətti ziqzaq formasında gah enir, gah da qalxır. Bu da onu göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalı müəyyən stress hallarına qarşı dayanıqlı və stabil deyil, belə vəziyyətlərdə məhsulların səmərəliliyi də müxtəlif olur. Bu rəqəm son iki ildə əhəmiyyətli sürətdə artmışdır. Belə ki, kənd təsərrüfatında ümumi rentabellik 2022-ci ildə 2020-ci ilə nisbətən təxminən 2 dəfə artmışdır.

Onu da qeyd etməliyik ki, kənd təsərrüfatında işləyən muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 2010-2022-ci illər ərzində 2,5 dəfə artaraq, 840 manat olmuşdur.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı sektorunda dayanıqlı inkişafa nail olmaq, son nəticəyə hesablanan işgüzar mühitin yaradılması, aqrar biznesin, sahibkarlığın formalaşması və s. inkişaf məsələlərinin təmin edilməsi investisiya qoyuluşlarından və onun həcmindən çox asılıdır. Ölkəmiz müstəqillik qazanandan sonra torpaqlar özəlləşdirilmiş və ona görə də investisiya qoyuluşların məzmunu dəyişmişdir. Artıq aqrar sektora investisiya qoyuluşlarında əsasən torpaq sahibləri, sahibkarlar və özəl biznes subyektləri iştirak edirlər.




**Şəkil 2.1.1 Kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyaların dinamikası. mln. manat**

Mənbə:DSK. İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2023 1.7., 1.8. https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Şəkil 2.1.1-dən göründüyü kimi, kənd təsərrüfatında əsas vəsaitə qoyulan investisiya dinamikası 2003-cü ildən etibarən hər il artmışdır. 2019-cu ildə bu sektora ən çox investisiya qoyulmuşdur ki, bu da 2003-cü ildən 21 dəfə çoxdur. Ancaq 2020-ci ildən sonra bu rəqəm azalmağa doğru meyllənmişdir. 2020-ci ildə 2019-cu ilə nisbətən 32%, 2021-ci ildə 2,3 dəfə, 2022-ci ildə isə 47% azalmışdır. 2020-ci ildən başlayaraq 2022-ci ilədək investisiyanın azalmasının əsas səbəbi bütün dünyanı, o

cümlədən, Azərbaycanı bürümüş pandemiya ilə əlaqədar olmuşdur ki, nəticədə, dünyanın bütün ölkələrinin iqtisadiyyatlarında əhəmiyyətli sürətdə geriləmələr müşahidə edilmişdir.

*"Apardığımız hərtərəfli kompleks araşdırmalar göstərir ki, istehlak malları istehsal edən qeyri-neft sənaye sahələrinin və aqrar sektorun investisiya üçün özlərinin resursları çox məhduddur. Belə şəraitdə ümid dövlət investisiyalarına qalır. Onların hesabına sənayenin qeyri-neft sahələri və aqrar sektorun maddi-texniki bazası möhkəmləndirilməli və yeni texnologiyalar tətbiq edilməlidir"* [59. s.414].

İnvestisiya qoyuluşlarının müsbət dinamikası aqrar sektorun əsas fondlarının artmasına gətirib çıxarmışdır ki, bu da ən əhəmiyyətli göstəricilərdən biridir. 2022-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə əsas fondların dəyəri 2003-cü ilə nisbətən 11 dəfə artmışdır [31].

Əsas fondların müsbət dinamika ilə artımı təbii ki, son nəticədə də öz sözünü deməli idi. Aşağıdakı şəkildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının son 20 ildə faktiki dəyərinin dinamikası göstərilmişdir.




**Şəkil 2.1.2 Kənd təsərrüfatında ümumi məhsul faktiki qiymətlərlə. mln. manatla**
Mənbə:DSK. İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2023 1.9. https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Şəkil 2.1.2-dən göründüyü kimi, son 20 ildə qoyulmuş investisiyanın müsbət nəticəsi olmuşdur, belə ki, məhsul istehsalı pul ifadəsində stabil artan dinamika ilə inkişaf etmiş, 2022-ci ildə 2003-cü ilə nisbətən 8,5 dəfə artım qeydə alınmışdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, qeyd olunan əhəmiyyətli artım istehsal həcmlərindəki artımla bərabər, bu müddət ərzində baş vermiş inflyasiya amili hesabına da təmin edilmişdir. Təkcə 2015-ci ildə Azərbaycanda bir dollar 0,78 manatdan 1,70 manata sıçrayış etmiş və bazarda kənd təsərrüfatı məhsullarının faktiki satış qiymətləri də adekvat olaraq qalxmışdır.

Əgər ölkədə müstəqilliyin ilk illərində kənd təsərrüfatında baş vermiş böhran vəziyyətinin göstəricilərini çox aşağı, sıfıra yaxın hesab eləsək, artıq sıfır başlanğıcından başlanan artım modeli demək olar ki, özünü tükəndirib. Artıq kənd təsərrüfatı sektorunun artım tempini davam etdirmək üçün investisiya mühitinin yaxşılaşdırılmasına, investisiyaların cəlb edilməsinə və innovasiya-investisiya modelinə keçid etmək lazımdır.

Ölkədə pambıqyığan kombaynların dinamikasında azalmalar müşahidə olunur. 2022-ci ildə 1990-cı ilə nisbətən 7,1 dəfə azalma olmuşdur. Azalmaların müəyyən hissəsi pambıq əkin sahələrinin azalmalarına adekvat olaraq baş vermişdir. Buna baxmayaraq, hər 1000 hektara düşən pambıqyığan kombaynlar 1990-cı il ilə müqayisədə 2,8 dəfə azdır. Belə nəticəyə gəlmək olar ki, hal-hazırda pambıqçılıqda əl əməyi, daha doğrusu əl ilə pambıq yığımı 30 il əvvələ nisbətən 3 dəfə çoxdur. Təbii ki, bu vəziyyət pambığın maya dəyərinin artmasına və rentabelliyin azalmasına səbəb olur. Son nəticədə gəlirli bir sahə olan pambıqçılığın səmərəliliyi azalır.

Şəkər çuğunduru istehsalında çuğunduryığan kombaynların əhəmiyyəti çox böyükdür. 2020-ci ildə bu kombaynların sayı 1990-cı ilə nisbətən 23 dəfə artmasına baxmayaraq, məhsulun yığılması problem idi və əl əməyindən geniş istifadə edilirdi. Çünki həmin ildə ölkədə hər 6800 ha. çuğundur sahəsinə bir çuğunduryığan kombayn düşürdü. Artıq bu problem müəyyən qədər həllini tapmış, son 2 ildə ölkəyə 107 ədəd çuğunduryığan kombayn gətirilərək, sayı 141 ədədə çatdırılmışdır. Hər hektardan 60-90 ton çuğundurun əl ilə yığılması, nəqliyyata yüklənməsi ağır fiziki əmək tələb edirdi. Ölkədə çuğundur əkini sahələrin azalmasının əsas səbəblərindən biri də kombaynların çatışmaması, ağır əl əməyindən istifadə edilməsi olmuşdur. Bu problem artıq həllini tapmaq üzrədir.

*"Kənd təsərrüfatı istehsalının bir çox sahələrində məhsuldarlıq səviyyəsi hələ də aşağı olaraq bütövlükdə aqrar sahədə əmək məhsuldarlığının yüksəldilməsinə imkan vermir ki, bu da bir sıra vacib bitkiçilik və heyvandarlıq məhsullarının emalolunma səviyyəsinin zəifləməsi ilə nəticələnərək emal müəssisələrinin istehsal güclərindən istifadənin aşağı düşməsinə səbəb olmuşdur"* [26. s.130].

*"Beləliklə, aparılmış tədqiqatın nəticələrini ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, Azərbaycanda istehsal edilmiş aqrar məhsullarının kiçik bir hissəsi emal müəssisələrində son məhsula çevrilmişdir. Şübhəsiz ki, bunun əsas səbəblərindən biri aqrar-sənaye inteqrasiyasının dünya təcrübəsində uğurla tətbiq olunan mexanizmləri kimi kooperativlərin, müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalının, aqrar-sənaye müəssisələrinin ölkəmizdə lazımi səviyyədə inkişaf etməməsidir"* [60. s.196].

Azərbaycanın aqrar sektorunda mövcud enerji istehlakının artım səviyyəsi məhsul istehsalının artımına adekvat deyildir.

"*Azərbaycan Respublikasının kənd təsərrüfatında ilkin enerji resurslarının istehlakının artması uzunmüddətli dövrdə məhsul istehsalının adekvat artımı ilə müşayiət olunmamışdır. Nəticədə aqrar sektorda enerji tutumluğunun nisbətən yüksək səviyyəsi qərarlaşıb. Bu, əkinçilik və heyvandarlıq məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsini ləngidən amillərdən birinə çevrilmişdir"* [62, s.68].

Ümumiyyətlə, 1990-2022-ci illər ərzində ölkənin kənd təsərrüfatını təhlil edərkən belə nəticəyə gəlmək olar ki, aqrar sahənin inkişafında müəyyən müsbət dəyişikliklər olsa da, texniki bitkilərin istehsalının əhəmiyyətli dərəcədə azalmasının öhdəsindən gəlmək mümkün olmamış və ayrı-ayrı sahələrdə problemlərin mövcudluğu hələ də aqrar sahənin dünya tendensiyalarından geri qalmasını əks etdirir.

## 2.2. Aqroemal sahəsinin mövcud inkişaf meyllərinin qiymətləndirilməsi

Qeyd etdiyimiz kimi, aqroemal sektoru Azərbaycan iqtisadiyyatının, o cümlədən, kənd təsərrüfatının inkişafında aparıcı sahələrdən biridir. Ona görə də bu sahənin inkişafı ilə əlaqədar dövlət tərəfindən daim müəyyən tədbirlər görülür və görülməkdədir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri" adlı sənəd Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə

təsdiq edilmişdir. Sənəddə növbəti (2021-2030) onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritetin reallaşdırılması qarşıya qoyulmuşdur:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi [44].

Bu hədəflərin hər birinin alt hədəfləri müəyyən edilmişdir. Bu hədəflərə uyğun olaraq qarşıda gələn on il ərzində ölkənin davamlı və inklüziv inkişafının təmin edilməsi üçün möhkəm iqtisadi baza yaradılması nəzərdə tutulmuşdur. Rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı, idxaldan asılılığın azaldılması, qeyri-neft sektorunda ixracın artırılması, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi, ölkədə yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi əsas məqsədlər kimi nəzərdə tutulur. Aqroemal sahəsi həm kənd təsərrüfatının inkişafındakı roluna görə və həm də əmək tutumluğu yüksək olduğu üçün bu məqsədlərin həyata keçirilməsində əsas həlqələrdən sayılır.

Eyni zamanda "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı aqroemal sahəsinin inkişafı üçün yeni üfüqlər açır. Fərmanda deyilir: *"Ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir*" [43].

Milli iqtisadiyyatın hər hansı bir sahəsinin ən mühüm xarakteristikası həmin sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin mövcud vəziyyətidir. Bu vəziyyət iki parametrlə ifadə olunur: müstəqil qurumların sayı və onların təşkilati-hüquqi xüsusiyyəti. Aqroemal sahəsində mövcud müəssisələrin dinamikasına baxaq.

**Cədvəl 2.2.1 Aqroemal sahəsi üzrə müəssisələrin göstəriciləri**

| Göstəricilər. | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Qida məhsulları istehsalı ilə məşğul olan müəssisələr əd.<br>O cümlədən:<br>dövlət<br>qeyri-dövlət<br>Fərdi sahibkarların sayı nəfər | 409<br><br>14<br>395<br>2431 | 382<br><br>18<br>364<br>4079 | 393<br><br>7<br>386<br>4754 | 449<br><br>9<br>440<br>5252 | 487<br><br>9<br>478<br>6042 | 540<br><br>9<br>531<br>6623 | 587<br><br>7<br>580<br>6924 |
| İçki istehsalı ilə məşğul olan müəssisələr<br>O cümlədən:<br>dövlət<br>qeyri-dövlət<br>Fərdi sahibkarların sayı nəfər | 110<br><br>4<br>130<br>189 | 120<br><br>3<br>117<br>224 | 120<br><br>1<br>119<br>228 | 126<br><br>1<br>125<br>235 | 131<br><br>1<br>130<br>260 | 146<br><br>1<br>145<br>255 | 165<br><br>1<br>164<br>241 |
| Tütün məmulatları ilə məşğul olan müəssisələr<br>O cümlədən:<br>dövlət<br>qeyri-dövlət<br>Fərdi sahibkarların sayı nəfər | 12<br><br>-<br>8<br>2 | 7<br><br>-<br>7<br>1 | 10<br><br>-<br>10<br>2 | 11<br><br>-<br>11<br>3 | 13<br><br>-<br>13<br>3 | 17<br><br>-<br>17<br>5 | 18<br><br>-<br>18<br>6 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2023. s.37
https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.1-dən göründüyü kimi, aqroemal sahəsinin aparıcı sektorlarında, xüsusilə də, qida məhsulları istehsal edən müəssisələrin sayı artan dinamika ilə inkişaf edir. Eyni zamanda bu sahə ilə məşğul olan fərdi sahibkarların da sayında artım müşahidə edilir. Aqroemal sahəsi üzrə fəaliyyətdə olan müəssisələrin böyük əksəriyyəti özəl sektora aiddir, belə ki, qida məhsulları istehsal edən müəssisələrin 98%-i, içki istehsalı ilə məşğul olan müəssisələrin 99%-i, tütün məmulatları istehsalı ilə məşğul olan müəssisələrin isə 100%-i, yəni hamısı qeyri-dövlət sektoruna aiddir [28].

Aqroemal sənayesi müəssisələrinin fəaliyyətinin inkişafının ən mühüm parametri ərzaq ehtiyatlarının və çeşidlərinin artması ilə yanaşı, həm də yeni iş yerlərinin artması, işsizliyin azalmasıdır. Bu parametr həm də sənayenin səmərəliliyinin meyarı və ya göstəricisi kimi çıxış edə bilər.

Ölkədə aqrar sektorun sənayeləşdirilməsi, o cümlədən, yeni innovasiya və texnologiyalarla təmin edilməsi çoxlu miqdarda investisiya tələb edir. Ümumiyyətlə, investisiyalar ölkənin aqroemal sahəsinin rəqabət qabiliyyətinin artırılmasında, emal sektoru iqtisadiyyatının modernləşdirilməsi və kənd təsərrüfatı məhsullarının bazar, satış problemlərinin həllində həlledici rol oynayır. Cəlb edilmiş investisiyaların həcmi aqroemal sahəsinin investisiya cəlbediciliyi və təsərrüfat subyektlərinin

investisiya fəallığı ilə sıx əlaqələndirilir. Ona görə də dövlət aqroemal sahəsinin inkişafı üçün qanunvericilik və icra hakimiyyəti səviyyəsində ölkədə əlverişli investisiya mühitinin yaradılmasında maraqlı olmalıdır.

**Cədvəl 2.2.2 Aqroemal sahəsində əsas kapitala yönəldilən investisiyalar mln. manat**

| Göstəricilər | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Qida məhsulları istehsalı üzrə | 27,1 | 87,9 | 196,6 | 140,4 | 225,1 | 197,8 | 206,5 |
| o cümlədən: | | | | | | | |
| xarici investisiyalar | 1,1 | - | 16,5 | 13,0 | 18,8 | - | - |
| daxili investisiyalar | 26,0 | 87,9 | 180,1 | 127,4 | 206,3 | 197,8 | 206,5 |
| İçki istehsalı üzrə | 12,1 | 23,7 | 39,3 | 21,3 | 39,4 | 39,1 | 45,4 |
| o cümlədən: | | | | | | | |
| xarici investisiyalar | - | - | - | - | - | - | 3,7 |
| daxili investisiyalar | 12,1 | 23,7 | 39,3 | 21,3 | 39,4 | 39,1 | 41,7 |
| Tütün məmulatları istehsalı üzrə | 32,5 | - | 60,7 | 35,1 | 4,3 | 2,2 | 1,1 |
| o cümlədən: | | | | | | | |
| xarici investisiyalar | - | - | - | - | - | - | - |
| daxili investisiyalar | 32,5 | - | 60,7 | 35,1 | 4,3 | 2,2 | 1.1 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2016, 2021, 2023 s.37.
https://www.stat.gov.az/source/industry/ əsasında müəllif tərtibatı

Cədvəl 2.2.2-dən göründüyü kimi, qida məhsulları üzrə əsas kapitala yönəlmiş investisiyalarda müsbət dinamika var. Bu sahəyə qoyulan vəsait ilbəil mütəmadi olaraq artır. 2022-ci ildə qoyulmuş vəsait 2010-cu ilə nisbətən 7,6 dəfə artmışdır. Eyni zamanda Azərbaycanda bu sahəyə xarici investorların da marağı böyükdür. Son 12 ildə qida sənayesinə 49,4 mln. manat xarici investisiya cəlb edilmişdir [28]. Son 2 ildə xarici investisiyaların olmamasını dünyanı bürümüş pandemiya ilə əlaqələndirmək olar.

İçki istehsalında da investisiya son 12 ildə 3,7 dəfə artmışdır. Ancaq bu sahəyə xarici investisiya qoyulmamışdır.

Tütün emalı sahəsində də xarici investisiyaların olmamasına baxmayaraq daxili investisiyalar kifayət qədərdir. Son 12 ildə bu sahəyə 136 mln. manat vəsait qoyulmuşdur.

2000-ci ildə "Evropean tobako" şirkəti tərəfindən Bakı tütün fabrikinin yenidən qurulmasına, 2006-cı ildə Naxçıvanda "Cahan Tobacco" şirkəti tərəfindən, 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyəti

tərəfindən yeni siqaret fabriklərinə investisiyalar qoyulmuş və bu müəssisələr fəaliyyətə başlamışdırlar.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarında bəzi aqroemal məhsulları emal sənayesi bölməsinə aid ümumi göstəricilər (məsələn, işçilərin sayı, müəssisələrin sayı, əsas fondlara yönəlmiş investisiyalar və s.) hesabatına deyil, xammalı olduğu başqa sənaye sahəsinin hesabatına daxil edilmişdir. Məsələn, ölkədə gön-dərinin ilkin emalının ümumi göstəriciləri ayaqqabı və qalantereya sənayesinə, pambığın ilkin emalının göstəriciləri isə trikotaj sənayesinə daxil edilmişdir. Bu səbəbdən də aqroemal sahəsinə aid olan həmin məhsulların ilkin emalında fəaliyyət göstərən müəssisələrin və işçilərin sayı, cəlb olunan investisiyalar, maya dəyəri, rentabellik və bu kimi başqa iqtisadi göstəriciləri əldə etmək mümkün deyil. Bu göstəriciləri ayrı-ayrı təsərrüfat subyektlərinin timsalında göstərmək olar ki, bu barədə sonrakı fəsillərdə bəhs ediləcək.

*“Qida məhsulları sahəsi öz növbəsində aşağıdakı alt kateqoriyalara ayrılır:*

*Ət və süd məhsullarının istehsalı*

*Çay istehsalı*

*Şəkər istehsalı*

*Un, çörək və makaron istehsalı*

*Şirniyyat istehsalı*

*Balıq məhsulları istehsalı*

*Meyvə-tərəvəz konservlərinin istehsalı*

*Duz istehsalı*

*Alt kateqoriyalar özləri də ayrı-arılıqda bir çox çeşid məhsullara bölünür”* [92, s.9]

Azərbaycanda əhalinin ərzaq təminatının özünütəminetməsi baxımından mühüm əhəmiyyət kəsb edən əsas sahələrdən biri ət və ət məhsulları istehsalı sektorudur. Ət və ət məhsulları bazarının mövcud vəziyyəti əhalinin ərzaq təminatı və sağlam qidalanma, habelə, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas göstəricisi hesab olunur. Sağlam insan həyatı üçün onun rasion üzrə yetərli miqdarda protein,

yağ, karbohidrat istehlak etməsi çox vacibdir. Mütəxəssis araşdırmalarına əsasən deyə bilərik ki, insanın norma üzrə qidalanması üçün bədən çəkisinin hər bir kiloqramı müqabilində təqribən 0.8-1.4 qram arası protein qəbul etməlidir. Bu mənada heyvan mənşəli proteinin mühüm mənbəyi kimi ət və ət məhsulları çox önəmli hesab olunur.

Digər mallarla müqayisədə ət yüksək istehsal xərcləri və bazarda yüksək məhsul qiymətləri ilə xarakterizə olunur.

**Cədvəl 2.2.3 Bütün növ ət və ət məhsullarının istehsal dinamikası.**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsullarının istehsalı min ton. | 108,7 | 198,0 | 244,9 | 298,6 | 326,0 | 335,7 | 346,0 | 357,6 | 368,2 |
| O cümlədən: | | | | | | | | | |
| mal əti | 54,0 | 95,9 | 112,4 | 129,8 | 135,6 | 137,9 | 143,1 | 145,0 | 148,6 |
| qoyun keçi əti | 36,1 | 53,7 | 70,0 | 70,1 | 80,8 | 85,3 | 87,1 | 87,7 | 89,0 |
| quş əti | 17,0 | 46,3 | 61,7 | 97,2 | 109,1 | 112,0 | 115,4 | 124,4 | 130,1 |
| donuz əti | 1,6 | 2,1 | 0,8 | 0,7 | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,5 |
| Bütün növ ət və ət məhsullarının idxalı min ton. | 33,0 | 31,4 | 36,0 | 17,6 | 68,9 | 72,3 | 63,6 | 56,9 | 61,5 |
| O cümlədən: | | | | | | | | | |
| mal əti | 0,8 | 4,3 | 3,9 | 12,4 | 23,8 | 22,4 | 20,7 | 12,8 | 11,3 |
| qoyun keçi əti | - | - | - | 0,5 | 1,7 | 2,1 | 2,4 | 1,6 | 2,7 |
| quş əti | 23,3 | 26,7 | 13,5 | 1,4 | 35,1 | 39,0 | 30,8 | 32,6 | 37,1 |
| donuz əti | - | - | - | 3,3 | 8,3 | 8,9 | 9,7 | 9,9 | 10,3 |
| Ərzaq məhsulu kimi istifadə edilib min ton | 138,9 | 204,3 | 277,3 | 314,2 | 390,5 | 403,8 | 406,7 | 413,2 | 424,6 |
| Ondan: Ərzaq məhsullarının istehsalına istifadə edilmişdir. | 1,6 | 2,8 | 3,7 | 11,9 | 19,0 | 21,6 | 27,9 | 24,7 | 29,3 |
| Kolbasa məmulatlarının istehsalı min ton | 2,3 | 1,9 | 2,1 | 5,0 | 16,4 | 19,3 | 25,8 | 26,7 | 30,0 |
| Kolbasa məmulatlarının idxalı min ton | 2,3 | 2,4 | 1,2 | 1,1 | 2,8 | 3,4 | 4,7 | 5,6 | 5,2 |
| Adambaşına düşən ət istehsalı kq. | 13,7 | 15,8 | 26,9 | 30,8 | 32,6 | 33,2 | 34,3 | 36,0 | 36,0 |
| Adambaşına düşən ət istehlakı kq. | 17,4 | 29,4 | 31,5 | 33,5 | 39,8 | 40,8 | 40,8 | 41,0 | 42,0 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın ərzaq balansı" 2016, 2021, 2023 https://www.stat.gov.az/source/industry/ və https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.3-dən göründüyü kimi, ət və ət məhsullarının istehsalı son 22 ildə əhəmiyyətli dərəcədə, yəni 3,4 dəfə artmışdır. Quş əti istehsalı xüsusilə fərqlənir, belə ki, bu məhsulun istehsalı 2022-ci ildə 2000-ci ilə nisbətən 7,6 dəfə artmışdır. Kolbasa məmulatlarının istehsalı da bu dövr ərzində 13 dəfə artmışdır. İstehsalın artması ilə paralel olaraq anoloji məhsulların idxalı da artmışdır, belə ki, son 22 ildə ət və ət məhsullarının idxalı 1,9 dəfə, kolbasa məmulatlarının idxalı da 2,3 dəfə artmışdır. Eyni zamanda, bu illər ərzində adambaşına düşən ət və ət məhsulları istehsalı 2,6 dəfə artaraq 36 kq.-a çatmışdır. Ət və ət məhsullarının istehlakında da artım böyükdür, belə ki, 2000-ci ildə bir Azərbaycan vətəndaşı orta hesabla bir ildə 17,4 kq. ət istehlak edirdisə, 2022-ci ildə bu rəqəm 2,4 dəfə artaraq 42 kq. səviyyəsinə qalxmışdır [29].

Ət və ət məhsullarının hər üç mövqeyi üzrə idxal rəqəmləri sabit olaraq artmışdır. Xüsusilə də quş əti idxalında bu rəqəm daha böyükdür. Belə ki, 2015-ci ilə nisbətən 2022-cu ildə quş əti idxalı 26 dəfə artmışdır. Başqa sözlə, 2015-ci ildə 6,2 mln. dollar məbləğində quş əti idxal edirdiksə, 2022-ci ildə bu rəqəm 8,8 dəfə artaraq 54,6 mln. dollara çatmışdır. Bu həm də onunla müşayət olunur ki, idxal olunan quş ətinin məhsul vahidinə ödənilən məbləğ 39% artmışdır. İsxal olunan məhsul vahidinə ödənilən məbləğ artımı mal və donuz ətində də müşahidə olunur.

*“2019-cu ildə ət və ət məhsullarının idxalı üçün ümumilikdə 83 mln. dollar vəsait ödənilmişdir. Ümumiyyətlə, dünyada təkcə ət və ət məhsullarının deyil, ərzaq mallarının qiymət artımı müşahidə edilir və proqnozlara görə bu qiymət artımları 2021-2022-ci illərdə də davam edəcəkdir”* [96, s.20].

Onu da qeyd etməliyik ki, 2022-cu ildə ölkəyə idxal olunan iribuynuzlu diri heyvanların gətirildikləri ölkələri və idxal qiymətlərini analiz edərkən məlum olur ki, bu heyvanların əksəriyyəti damazlıq məqsədi ilə deyil, bir müddət saxlanıb ət kəsimində istifadə edilmək üçün gətirilmişdir. DSK-nın məlumatına əsasən, 2022-cu ildə ölkəyə 49,9 min baş iribuynuzlu diri heyvan idxal olunmuşdur. Bu rəqəm əvvəlki illərdə, orta hesabla, 100 min başdan yüksək olub. İdxalın təxminən 3-4%-i damazlıq məqsədilə gətirilmiş, qalan heyvanlar isə müəyyən müddət bəslənilərək ət kəsimində istifadə edilmişdir. Son 5 ildə (2018-2022) ölkəyə 400,2 min baş diri iribuynuzlu

mal-qara idxal olunmuşdur. Diri mal-qara idxalında Gürcüstan əsas tərəfdaşımız rolunu oynayır. (bax əlavə 8)

Azərbaycanda adambaşına düşən ət və ət məhsullarının istehsalı qənaətbəxş deyil, belə ki, başqa ölkələrlə müqayisə ediləndə bu mənzərə tam üzə çıxır.

**Cədvəl 2.2.4 MDB ölkələri üzrə ət istehsalı göstəriciləri (2021-ci il)**

| | Ölkələr | Cəmi ət istehsalı min tonla | Adambaşına düşən ət istehsalı kq.-la |
|---|---|---|---|
| 1 | **Azərbaycan** | **358** | **36** |
| 2 | Ukrayna | 2438 | 59 |
| 3 | Özbəkistan | 1689 | 48 |
| 4 | Qazaxıstan | 1231 | 65 |
| 5 | Moldova | 117 | 45 |
| 6 | Qırğızıstan | 235 | 37 |
| 7 | Ermənistan | 111 | 37 |
| 8 | Rusiya | 11346 | 78 |
| 9 | Tacikistan | 179 | 18 |
| 10 | Belarus | 1250 | 134 |

Mənbə: DSK İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2023 cədvəl 3.9.
https://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.4-dən göründüyü kimi, MDB ölkələri arasında Azərbaycan hər nəfərə düşən ət istehsalına görə təkcə Tacikistandan irəlidədir. 2022-ci ildə də bu rəqəm dəyişməmişdir. Ölkədə adambaşına ət istehsalının az olmasının əsas səbəbi mövcud sürüdə az məhsuldar olan yerli cinsdən olan heyvanların üstünlük təşkil etməsidir [140, s.119].




**Şəkil 2.2.1 Bəzi MDB ölkələrində adambaşına illik ət və ət məhsulları istehlakı. kq.-la 2021-ci il**

Mənbə: DSK "Azərbaycanın kənd təsərrüfatı" 2023 s.690.
https://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.1-dən göründüyü kimi, ət və ət məhsulları istehlakı üzrə Azərbaycanın MDB ölkələri arasında tutduğu mövqeyi heç də ürəkaçan deyil. Belarusiya və Rusiya vətəndaşları Azərbaycan əhalisindən təxminən 2 dəfə çox ət və ət məhsulları istehlak edirlər. MDB ölkələri arasında bu göstərici üzrə yeganə Tacikistandan irəlidəyik.

Qeyd etməliyik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmiş minimum istehlak səbəti üzrə ərzaq normalarına əsasən əhali üzrə orta hesabla bir nəfər üçün ət və ət məhsullarının minimum istehlak norması 31,5 kq səviyyəsində hesablanmışdır [19].

Ümumdünya Səhiyyə Təşkilatı bir nəfərə ət və ət məhsullarının istehlak normasını 72 kq səviyyəsində bəyan etmişdir. Əgər Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ət və ət məhsulları rasionu üzrə illik istehlak normativini (72 kq.) əsas götürsək, bu gün Azərbaycanda 720 min ton ət istehlak edilməlidir. 2021-ci ildə ət və ət məhsullarının istehlakı bu normativdən 1,7 dəfə az olmuşdur [126].

Hal-hazırda ölkəmizdə ət və ət məhsullarının istehsalı və emalı ilə əlaqədar irili-xırdalı 20-dək firma fəaliyyət göstərir. Onların 4-ü Naxçıvan MR-da yerləşir.

Azərbaycanda kolbasa və kolbasa məmulatları istehsalı sektorunda fəaliyyət göstərən firmalar əsasən aşağıdakılardır:

1. ”M&T” LTD firması (Hacı Turqay şirkəti) - 100-dək çeşiddə kolbasa və kolbasa məmulatları istehsal edir. Məhsulları əsasən Bakı şəhərində və ölkənin digər bölgələrində “Sevimli Dad” brendi adı ilə realizə edilir. Bakı şəhərində yerləşir.

2. “Ovçular ət və ət məhsulları” MMC - 1992-ci ildən ət məhsullarının emalı üzrə ixtisaslaşmış müəssisə kimi fəaliyyət göstərir. Bakı şəhərində yerləşir.

3. "Hakan Foods Azerbaijan Trading Co Ltd" MMC - 2001-ci ildən "Kral" brendi altında kolbasa və digər kolbasa məmulatları istehsal edir. Bakı şəhərində yerləşir.

4. "Orxan-SS" müəssisəsi ("C.F.-Kristal" kolbasa istehsalı). Kolbasa və kolbasa məmulatları istehsal edir. Bakı şəhərində yerləşir.

5. “AL-SANA” MMC - 2014-cü ildən fəaliyyət göstərir. Məhsulları “Payım” brendi ilə satılır. Bakı şəhərində yerləşir.

6. “Səhliyalı” kiçik müəssisəsi - 1996-cı ildən fəaliyyət göstərir. “1000 bərəkət, halal nemət” ət və ət məhsullarını, o cümlədən, kolbasa məmulatlarını istehsal edir. Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşir.

7. “Halal Dad” MMC - 2010-cu ildən fəaliyyət göstərir. Ət və ət məhsulları, o cümlədən, kolbasa istehsalı ilə məşğuldur. Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşir.

8. “Zəhmət-Ruzi” MMC-nin “Sab” brendi altında kolbasa və kolbasa məhsulları və həm də süd məhsullarının istehsalı ilə məşğuldur. Abşeron rayonunda yerləşir.

9. "Ay-Min" MMC - "Flaqman" brendi ilə ət məhsulları istehsal edir. Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşir.

10. “Elba” MMC - 1999-cu ildən fəaliyyət göstərir. Ət və ət məhsullarının istehsalı ilə məşğul olur. Şirkətin bir neçə rayonda filialları, o cümlədən, Daşkəsəndə kəsim sexi var. Gəncə şəhərində yerləşir.

11. “Halal Qida” MMC - 2008-ci ildə yaradılıb. Ət və ət məhsullarının istehsalı üzrə ixtisaslaşıb. Gəncə şəhərində yerləşir.

12. “Hilal” ət və ət məhsulları istehsalı müəssisəsi. Ət və ət məhsullarının emalı üzrə ixtisaslaşıb. Naxçıvan bölgəsində yerləşir və məhsulları, əsasən, Naxçıvan MR-nın ərazisində satılır.

13. “Bərəkət Ət Məhsulları Kompleksi” “Gəmiqaya Holdinq” Şirkətlər qrupuna daxildir. Ət və ət məhsullarının emalı, o cümlədən, kolbasa istehsalı üzrə ixtisaslaşıb. Naxçıvan MR-da fəaliyyət göstərir.

14. “M/M” kolbasa məmulatları müəssisəsi - Fiziki şəxsə məxsus müəssisədir. Naxçıvan bölgəsində yerləşir.

Bu firmaların istehsal həcmləri, bazar payları haqqında məlumatları əldə etmək mümkün olmadı. Ona görə də ölkənin kolbasa və kolbasa məhsulları bazarındakı firmalararası rəqabətin real vəziyyətini qiymətləndirmək mümkün olmur. [96]

Ölkənin ət və ət məhsulları bazarında qiymətlərin tənzimlənməsi məqsədilə dövlət müəyyən güzəştlər tətbiq edir. Belə ki, 2019-cu ildə Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən 2020-ci ilin yanvarından etibarən Azərbaycanda heyvan ətinin satış dövriyyəsi 4 il müddətində ƏDV-dən azad olunub. Bu dəyişikliklər kəsilmiş və dondurulmuş ətlər istisna olmaqla, emal edilən qalan ət məhsullarına aid deyil [32].

Süd emalı məhsulları Dövlət Statistika Komitəsinin hesabatlarında yağlılıq dərəcəsi 1-3% olan süd, yağlılıq dərəcəsi 6-29% olan süd, pendir və kəsmik, xama, kərə yağı və s. kimi istehlak malları qrupları şəklində göstərilmişdir. DSK-nin məlumatlarını əsas götürsək süd və süd məhsulları əhalinin özünütəminetmə

səviyyəsi 2022-cu ildə 83,3% olmuşdur və onun dinamikasına nəzər salsaq məlum olar ki, son illər bu rəqəm azalmağa doğru meyllənmişdir.

**Cədvəl 2.2.5 Süd emalı məhsullarının istehsalının əsas göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Kərə yağı min t. | 5,0 | 14,2 | 20,9 | 23,9 | 23,6 | 25,3 | 25,8 | 27,0 | 25,9 |
| Pendir və kəsmik min t. | 29,8 | 33,5 | 43,3 | 48,5 | 50,1 | 51,4 | 53,5 | 59,3 | 57,9 |
| Yağlılığı 1-3% olan süd min t. | 172,7 | 494,0 | 812,8 | 857,4 | 911,3 | 945,4 | 946,4 | 965,1 | 929,1 |
| Yağlılığı 6-29% olan qaymaq t. | 675,9 | 1608,0 | 4230,0 | 5132,0 | 6947,0 | 8808,0 | 7742,2 | 8981 | 8192 |

Mənbə: DSK. İqtisadi statistika "Sənaye" 2023. 17. https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.5-dən göründüyü kimi, son 22 ildə bu məhsulların istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2020-ci ildə kərə yağı istehsalı 5,2 dəfə, pendir və kəsmik istehsalı 1,9 dəfə, yağlılıq dərəcəsi 1-3% olan süd 5,4 dəfə, yağlılıq dərəcəsi 6-29% olan qaymaq istehsalı isə 12,1 dəfə artmışdır. Ancaq son 4 ili götürsək məlum olar ki, həm kərə yağı istehsalında və həm də pendir və kəsmik istehsalında ciddi bir artım olmamışdır. Nəzərə almalıyıq ki, bu məhsulların içərisində kərə yağı insan orqanizmi üçün ən lazımlı və qiymətli qida məhsuludur.




**Şəkil 2.2.2 Adambaşına süd məhsullarının istehlakı. kq-la**
Mənbə: DSK. İqtisadi statistika "Ərzaq balansları" 2023 5.4
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.2-dən göründüyü kimi, süd və süd məhsullarının istehlakı son 10 ildə müəyyən dəyişikliklərə məruz qalıb. Belə ki, yağlılığı 1-6% olan süd və qaymaq məhsulunun adambaşına istehlakı 2012-ci ildə 89,6 kq. təşkil edirdisə, bu rəqəm 2022-ci ildə 2% artaraq 91,8 kq. olmuşdur, ancaq əvvəlki ildən 5% azalmışdır. Bu

dövr ərzində yağlılığı 6%-dən çox olan qaymaq 60% artaraq adambaşına 0,8 kq., bütün növ pendir 16% artaraq adambaşına 6,4 kq. istehlak edilmişdir. Ölkədə 2012-ci ildə adambaşına illik kərə yağı istehlakı 4,7 kiloqram təşkil etmiş, ancaq bu rəqəm 2022-ci ildə 4 kiloqrama düşmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi minimum istehlak səbətinin tərkibində bir ildə minimum istehlak norması kərə yağı üzrə 6,5 kq. qəbul edilmişdir [19]. Deməli, 2022-ci ildə adambaşına faktiki kərə yağı istehlakı minimum istehlak normasından da 1,6 dəfə azdır. Eyni zamanda qeyd etməliyik ki, ÜST-nın tərtib etdiyi qida normasına görə, sağlam inkişafı təmin etmək üçün bir nəfər il ərzində 7,2 kiloqram kərə yağı istehlak etməlidir. Bu isə o deməkdir ki, Azərbaycan əhalisi ÜST-nın normasından 1,8 dəfə az kərə yağı istehlak edir. Bu illər ərzində ölkədə süd istehsalının və idxalının artması fonunda adambaşına kərə yağının istehlakının aşağı düşməsi başa düşülən deyil.

Ölkədə 50-yə yaxın süd emalı müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələr əsasən Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Xırdalan, Şamaxı, Salyan, Siyəzən, Qəbələ, Bərdə, Zərdabda yerləşir. “Atena”, “Palsüd”, “Milla”, “Azərsüd” və s. süd və süd məhsulları istehsalında artıq ölkədə tanınmış brendlər sayılırlar.

Ölkəmizdə süd və süd məhsullarının istehsalının və paralel olaraq südün məhsuldarlığının aşağı səviyyədə olmasının əsas səbəbi mal-qara sürüsündə aşağı məhsuldarlığa malik yerli cinsdən olan mal-qaranın xüsusi çəkisinin çox olmasıdır. Müşahidələr də göstərir ki, şəxsi təsərrüfatlarda mövcud olan mal-qara sürüsünün mütləq əksəriyyətini yerli cinsdən olan inəklər təşkil edir [97].

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının (FAO) 2020-ci il hesabatına görə İspaniyada cəmi 844,8 min baş inək mövcud olmuş, illik süd istehsalı isə 8,7 mln.ton olmuşdur. Azərbaycanda isə sürüdə inək və camışların sayı 1278 min baş, süd istehsalı isə 2,2 mln. ton olmuşdur. Yüksək məhsuldarlığa malik inəklərin iqtisadi cəhətdən nə qədər səmərəli olduğunu və ölkədə istifadə olunmayan böyük potensialı bu misaldan aydın görmək olar [162. s.184].

Azərbaycanda heyvandarlıq üzrə mal-qaranın sürü tərkibində yerli və az məhsuldar heyvanların əksəriyyət təşkil etməsi bu vəziyyətin yaranmasının əsas

səbəblərindən biridir və sürünün cins tərkibinin yaxşılaşdırılması dövlətin qarşısında duran təxirəsalınmaz məsələlərdən biridir.

Azərbaycanda iqlim şəraitinə görə çayçılıq üçün olduqca münbit şərait vardır. Ələlxüsus də, ölkənin cənub bölgəsində yetişən çay tərkibindəki göstəricilərə görə dünyanın keyfiyyətli çayları ilə müqaisə oluna bilər. *"Azərbaycan çayının tərkibində 28-30 % çayda əsas keyfiyyət göstəricisi olan tanin, 5-6 % kofein, 46-50 % ekstratlı maddələr var ki, bunlar yüksək keyfiyyət göstəriciləri sayılır"* [86, s.36].

**Cədvəl 2.2.6 Çay istehsalı, idxal və ixracının dinamikası. min t.**

| Göstəricilər | 1990 | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 30,7 | 1,1 | 0,7 | 0,540 | 0,580 | 0,870 | 0,930 | 0,930 | 1,18 | 1,0 |
| İxrac | x | 1,2 | 5,2 | 8,1 | 4,3 | 1,4 | 1,5 | 1,4 | 1,1 | 0,9 |
| İdxal | x | 2,7 | 7,7 | 8,5 | 7,5 | 13,0 | 14,1 | 14,0 | 14,0 | 14,4 |

Mənbə: DSK İqtisadi statistika "Sənaye" və "Ticarət" 2023 https://www.stat.gov.az/source/industry/, https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.6-dan göründüyü kimi, 2022-ci ildə çay istehsalı 1990-cı ilə nisbətən 31 dəfə azalmışdır. Ölkə əhalisinin çaya olan tələbatının, ortalama, 93%-i idxal hesabına təmin edilir. Əhalini quru çay məhsulu ilə təmin etmək üçün hər il 15000 ton quru çaya tələbat var. Bu tələbat idxal hesabına təmin edildiyi üçün hər il ortalama 50-52 mln.dollar vəsait sərf edilir, hansı ki, bu tələbatı ödəmək üçün ölkənin potensial imkanları böyükdür. 1990-cı ildə ölkədə 30,7 min ton çay istehsal edilməsi bunu təsdiqləyir və həmin illər ölkədə istehsal edilmiş çay nəinki əhalinin tələbatını ödəmiş, eyni zamanda, böyük həcmdə ixrac edilmişdir.

Azərbaycanda "Azərsun Holdinq" ən böyük çay istehsalçılarından biridir. Onun ilk investisiya layihəsi 1994-cü ildə Bakıda fəaliyyətə başlamış "Sun Tea" çay fabriki olmuşdur. "Sun Tea" hazırda Azərbaycanda satılan məşhur çay markalarının istehsalçısıdır və qara, yaşıl və meyvəli çayların istehsalı ilə məşğuldur. Müəssisə illik ortalama 15000 ton istehsal gücünə malikdir. Şirkətlər qrupunun Lənkəran və Astarada paketləmə müəssisələri də fəaliyyət göstərir. Azərbaycanın ən seçilmiş keyfiyyətli çay yarpaqlarını emal edərək "Azerçay" brendi ilə dünya bazarına təqdim edir [175].

"Astaraçay" MMC 2010-cu ildə təsis edilmişdir. Bu MMC-də quru çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı plantasiyalardan tədarük olunur [66].

Bunlardan başqa, “Yaşıl çay” MMC, "Gilan" çay fabriki, Astarada "İlyasçay" MMC çay istehsalı ilə məşğuldur.

Ancaq görülən işlər Azərbaycanda çayçılığın əvvəlki şöhrətini bərpa etmək müqabilində çox azdır.

Çay uzun ömürlü bitki olduğuna görə, onun gəlir gətirməsinə də çox vaxt tələb edilir. Çay bitkisi əkildikdən 7-8 il sonra məhsul verir. “*Sahibkarın 8-9 ildən sonra əldə edəcəyi çayı satıb, krediti ödəyəcəyi vədi banklar tərəfindən ciddi qarşılanmır. Ona görə də bu sahənin bərpası üçün dövlətin dəstəyi lazımdır. Çayçılıq uzun müddətli investisiya tələb edən sahədir. Kiçik fermerlərin maliyyə vəziyyəti imkan vermədiyi üçün bu sahəyə investisiya qoya bilmirlər, çünki investisiya qoyub 7-8 il gözləmək mümkün deyil. Bu sahəyə yalnız maliyyə vəziyyti buna imkan verə bilən, iri şirkətlər investisiya qoya bilirlər. Gec məhsul verməsinə baxmayaraq, çay bitkisi 50 il durmadan məhsul verə bilir”* [95, s.50].

Ölkəmizdə şəkər çuğunduru sahəsi əsasən 2006-cı ildə İmişli şəkər zavodu istifadəyə veriləndən sonra inkişaf etməyə başlamışdır. Bu zavodun istifadəyə verilməsi fermerlər üçün yeni bazar imkanlarını təmin etmiş, bu sahəyə maraq artmağa başlamışdır. Məhz həmin ildən də şəkər çuğundurunun əkin sahəsi ilbəil artmağa başlamışdır.




**Şəkil 2.2.3 Şəkərin istehsal, idxal və ixrac dinamikası. min tonla**
Mənbə: DSK. İqtisadi statistika “Ərzaq balansları” 2023 3.19, 3.20.
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.3-dən göründüyü kimi, ölkədə şəkər istehsalında qeyri-sabitlik var və istehsal 2019, 2020-ci illər azalmış, son iki ildə yenidən artmışdır. 2022-ci ildə bu məhsulun istehsalı 2010-cu ilə nisbətən 14% artmışdır. İdxal olunan xam şəkərin həcmində də qeyri sabitlik hökm sürür və bu göstəricidə 2019-2020-ci illər azalma müşahidə edilmiş, sonrakı illər yenidən əvvəlki səviyyəyə qalxmışdır. Xam şəkər idxalında 2022-ci ildə 2010-cu ilə nisbətən 3% azalma qeydə alınmışdır. Qeyd etməliyik ki, şəkər çuğundurunun istehsalı da bu illər ərzində əhəmiyyətli sürətdə azalmışdır.

Paralel olaraq şəkər ixracı da azalmışdır, belə ki, 2022-ci ildə şəkər ixracı 2010-cu ilə nisbətən 3,6 dəfə azalaraq 62,8 min ton olmuşdur.

Bütün bu azalmaların müqabilində adambaşına şəkər istehlakı artmışdır. Bunu aşağıdakı şəkildən görmək olar.




**Şəkil 2.2.4 Adambaşına şəkər istehlakı. kq-la**
Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 5.4.
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.4-dən göründüyü kimi, şəkər istehlakı son 10 ildə adambaşına 29% artaraq 27,3 kq. olmuşdur. Bu dövr ərzində şəkər ixracının təxminən 3 dəfə azalması və istehlakın isə artması onu göstərir ki, şəkər istehsalçısı daxili bazara daha çox üstünlük verir.

İmişli şəkər zavodu şəkər istehsalı ilə məşğul olan yeganə istehsalçıdır və məhsulları "Azərşəkər" markası ilə buraxılır [30].

Hər il İmişli şəkər zavodu, ortalama, 120-130 mln. dollar ödəyərək xaricdən xam şəkər alır, hansı ki, ölkədə zavodun xammal tələbatını təmin etmək üçün imkanlar vardır. Son illərdə şəkər istehsalının azalma səbəblərini təhlil edəndə məlum olur ki, problem İmişli şəkər zavodunun fəaliyyətindədir. Görünür burada həm

fermerlərlə və həm də xarici xammal təchizatçıları ilə münasibətlər düzgün qurulmamışdır.

*“Azərbaycanda şəkər çuğunduru istehsalı ən rentabelli aqrar fəaliyyət növlərindəndir.2020-ci ildə Azərbaycanda hər hektardan 51 ton şəkər çuğunduru yığılmışdır. Zavod həmin məhsulun hər tonunu 60-70 manata təhvil alır ki, bu da hər hektardan 3500 manatdan çox gəlir deməkdir. Bu göstərici pambıqdan təxminən 3 dəfə, taxıldan isə 6-7 dəfə yüksək mənfəət deməkdir. Üstəlik, hazır məhsulu satmaqda problem olmamalıdır, emalçı zavod İmişli rayonunda yerləşir və heç bir maneə yaratmadan hazır məhsulu satın ala bilər”* [92, s.24].

Un üyütmə-yarma müəssisələri taxıl məhsullarının emalını həyata keçirir. Çörəkbişirmə və makaron istehsalı sahələri isə ilkin emaldan keçirilmiş yarımfabrikatları son məhsula çevirir. Taxıl, un, çörək strateji məhsullar sayılır və əhalinin qida rasionunun əsasını təşkil edir.

**Cədvəl 2.2.7 Un, çörək və makaron istehsalının əsas göstəriciləri. min tonla**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Buğda unu | 1157 | 1374,0 | 1320,2 | 1507,4 | 1603,1 | 1806,1 | 1855,3 | 1498,2 | 1365,1 |
| Un idxalı | 22,9 | 3,8 | 8,3 | 5,8 | 2,1 | 2,8 | 2,9 | 3,5 | 27,7 |
| Un ixracı | x | x | 6,3 | 3,0 | 4,7 | 5,3 | 7,0 | 5,9 | 9,3 |
| Makaron istehsalı | 0,4 | 3,5 | 13,0 | 9,2 | 4,2 | 4,1 | 11,3 | 20,0 | 26,3 |
| Makaron idxalı | 14,9 | 7,4 | 4,1 | 9,1 | 11,2 | 13,3 | 17,3 | 16,0 | 16,9 |
| Makaron ixracı | x | x | x | 0,9 | 0,7 | 0,9 | 1,8 | 1,2 | 2,3 |
| Çörək və çörək bulka məmulatı | 675,5 | 985,5 | 1162,0 | 1197,6 | 1235,0 | 1256,4 | 1294,6 | 1278,1 | 1245,9 |

Mənbə: DSK “Azərbaycanın sənayesi” 2016, 2021, 2023
https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.7-dən göründüyü kimi, buğda unu istehsalı mütəmadi olaraq artmış, paralel olaraq ölkəyə un idxalı da artmışdır. Buğda unu istehsalı 2022-ci ildə 2010-cu ilə nisbətən, yəni son 12 ildə 18% artmışdır.

Makaron istehsalı son 3 ildə 2 dəfədən çox artmışdır. Adekvat olaraq bu məhsulun idxalı son yeddi ildə, yəni 2015-ci ilə nisbətən 91%, 2 dəfəyə yaxın artmış, son 3 ildə isə azalmağa doğru meyllənmişdir.

Azərbaycanda makaron istehsalı ilə məşğul olan 10-a yaxın şirkət vardır. Onlar da istehsalda nədənsə yerli xammala yox, idxal xammalına üstünlük verirlər. Makaron istehsalı üçün lazım olan bərk buğda, əsasən, Qazaxıstandan gətirilir.

Çörək və çörək məmulatlarının istehsalı 2022-ci ildə 2000-ci ilə nisbətən 1,8 dəfə, 2010-cu ilə nisbətən isə 7% artmışdır. Buğda unu istehsalının son 12 ildə 45 min ton artımı müqabilində çörək və çörək bulka istehsalı 7% artmışdır.

Makaron istehsalının 65%-ə qədəri idxal olunur, başqa sözlə ümumi istehlakın 40%-i idxal hesabına ödənilir.




**Şəkil 2.2.5 Adambaşına un və un məmulatlarının istehlakı kq-la**
Mənbə: DSK. İqtisadi statistika "Ərzaq balansları" 2023 5.4.
https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Şəkil 2.2.5-dən məlum olur ki, son 10 ildə makaron məmulatları üzrə adambaşına istehlak artmış, un və təzə çörək məhsulları üzrə isə azalmışdır. Belə ki, 2022-ci ildə 2012-ci ilə nisbətən adambaşına un istehlakı 9%, təzə çörək istehlakı 3% azalmış, makaron və makaron məmulatının istehlakı isə 2.2 dəfə artmışdır. Təzə çörək və un məhsulunun adambaşına istehlakında azalma 2020-ci ildən müşahidə olunmağa başlanmışdır, belə ki, adambaşına un istehlakı 2020-ci ilə nisbətən 44%, təzə çörək istehlakı isə 5% azalmışdır.

İstehsal edilmiş buğda unu əsasən idxal buğdası hesabına istehsal edilmişdir. Son beş ildə idxal olunan ərzaq buğdasından asılılıq, ortalama 85% civarındadır.

DSK-nin məlumatına əsasən 1996-cı ildə ölkəyə 143 min ton ərzaq buğdası idxal olunmuşdur, ancaq 24 il sonra, yəni 2020-ci ildə bu rəqəm təxminən 10 dəfə artaraq 1365 min ton, 2022-ci ildə isə 1293 min ton olmuşdur. Nəzərə alsaq ki, buğda istehsalı da dəfələrlə artmışdır, onda buğda istehsalı statistikasına şübhə ilə yanaşmaq olar.

Çörəkbişirmə sənayesində əsasən yüksək şüşəvariliyə, kifayət qədər zülali maddələrə və keyfiyyətli kleykovinaya (yapışqanlıq) malik olan yumşaq buğda sortlarından istifadə edilir. Hal-hazırda Azərbaycanda yalnız bir neçə rayonda yetişdirilən taxılın yüksək keyfiyyəti var. Cəlilabad, Bərdə və Şəkidə istehsal olunan taxılın əksəriyyətinin yapışqanlılıq qabiliyyəti (kleykovina) normal səviyyədədir. Digər bölgələrdə istehsal olunan taxılın əksəriyyəti çörəkçilik üçün yaramır. Belə ki, bu taxıldan hazırlanan çörək məhsullarında bir-iki gündən sonra kif göbələyi yaranır. Həmin məhsul makaron sənayesində istifadə üçün də yaramır. Ona görə də Dövlət Taxıl Fondu ancaq saxlanma qabiliyyətinə malik olan taxılları qəbul edir.

"*Ümumilikdə aparılan araşdırmalar onu deməyə əsas verir ki, hazırda yerli taxıldan hazırlanan una tələbat olduqca aşağı səviyyədədir, çünki yerli taxıldan hazırlanan undan istifadə zamanı sahibkarlar bir sıra problemlərlə üzləşirlər. Nəticədə istehlakçıların yerli undan hazırlanan çörəyə tələbatı azalır. Ona görə də çörəkbişirmə sexləri olan sahibkarlar əsasən xarici markalı undan istifadəyə üstünlük verirlər"* [98,s.102].

Ölkədə fəaliyyət göstərən "Gəncə Taxıl Elevatoru", "Səngəçal Taxıl Elevatoru", "Abşeron Taxıl" MMC, "Dəvəçi-Dəyirman MMC", "Karat-Holdinq" Xırdalan, "Karat-Holdinq" MMC-nin Şəki bölməsi, "Karmen" MMC, "Gəncə-Dəyirman" MMC, "N.Quliyev adına Bakı-Taxıl" ASC, "Muğan" ASC, "Aveta" MMC, "Xaçmaz-Taxıl" MMC, "Xırman" MMC, "SAF Ekspress Aqro" MMC müasir keyfiyyətlərə cavab verən un istehsalı ilə məşğuldurlar. Bu dəyirmanların məhsulları birbaşa çörək və çörək məhsullarının istehsalı ilə məşğul olan müəssisələrə daşınır [98, s.98].

Azərbaycanda şirniyyat biznesi kiçik və orta sahibkarlığın geniş yayıldığı sektorlardan biridir. Rəsmi informasiyalar təsdiq edir ki, şirniyyat məmulatlarının

coğrafiyası geniş deyil və əsasən ölkənin iri şəhərlərində təmərküzləşib. Ona görə ki, bu məmulatları istehsal edən müəssisələrin əsasən istehlakçıların sıx yaşadığı şəhərlərdə qurulması daha səmərəlidir. Bu baxımdan ölkənin qənnadı fabrikləri əsasən Bakı, Gəncə və Sumqayıt şəhərlərində fəaliyyət göstərir. Bu məhsulların bəzi göstəricilərinə diqqət yetirək.




**Qrafik 2.2.1 Qənnadı məmulatlarının istehsalı və idxalı. min tonla**
Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 3.7.
https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Qrafik 2.2.1-dən göründüyü kimi, son 22 ildə hər iki məhsul üzrə artım müşahidə edilir. Qənnadı məhsullarının istehsalı üzrə son 22 ildə 3.5 dəfə artım qeydə alınmış, ancaq əvvəlki ilə nisbətən 2% azalmışdır.

Bu məhsulların idxalında da artım müşahidə edilir. 2022-ci ildə idxal 2000-ci ilə nisbətən 7,6 dəfə artmışdır. Ancaq buna baxmayaraq qənnadı məhsulları bazarında yerli mallar dominantlıq edirlər.

Şirniyyat məmulatları sahəsində milli istehsalla yanaşı anoloji idxal məhsulları da mühüm paya malikdir. Bu həm də daxili istehsal üçün böyük potensialın mövcudluğunun göstəricisidir.

Xammal və istehsal texnologiyasından asılı olaraq qənnadı məmulatlarını 2 əsas qrupa, şəkərli qənnadı məmulatları və unlu qənnadı məmulatlarına bölmək olar. Bu sahədə mövcud mənzərənin aydınlaşması üçün ayrı-ayrı qruplar üzrə baxmalıyıq.

**Cədvəl 2.2.8 Suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatlarının əsas göstəriciləri. tonla**

| Göstəricilər | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022-ci ilin 2010 ilə nisbət |
|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 4399 | 5386 | 4786 | 8092 | 10515 | 12771 | 14219 | 3,2 dəfə |
| İdxal | 17188 | 10808 | 16377 | 18522 | 17412 | 21328 | 23143 | 35% |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin istehlakı | 22164 | 14206 | 19061 | 22665 | 24301 | 28494 | 31644 | 43% |
| Ixrac | 820 | 252 | 609 | 636 | 1210 | 1487 | 2009 | 2,5 dəfə |

Mənbə: DSK "Ərzaq balansları" 2023 3.5. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.8-dən göründüyü kimi, son 12 ildə istehsal 3,2 dəfə artmışdır. Buna baxmayaraq bu qrup məhsullar üzrə idxaldan asılılıq böyükdür. Son 10 ildə əhali tərəfindən istehlak olunan məmulatların ortalama 77%-i idxal hesabına ödənilmişdir. İdxaldan bu dərəcədə asılılıq onu göstərir ki, bu qrup məhsulların istehsalının artırılması üçün tələbat və potensial mövcuddur və bu sahədə əməli işlər görülməlidir.

**Cədvəl 2.2.9 Tort və şirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları. tonla**

| Göstəricilər | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2010 nisbət |
|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 34497 | 40980 | 42682 | 47243 | 46018 | 56707 | 52993 | 54% |
| İdxal | 14703 | 20723 | 12243 | 15281 | 14231 | 17202 | 18351 | 25% |
| Əhalinin istehlakı | 48797 | 61362 | 55646 | 61099 | 59362 | 71662 | 69491 | 42% |
| İxrac | 325 | 189 | 207 | 241 | 326 | 356 | 1142 | 3,5 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 3.6. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.9-dan aydın olduğu kimi, bu qrup malların istehsalı son 12 ildə 54% artmışdır. İdxalın dinamikasında isə müəyyən qeyri-sabitlik olsa da, hər il mütəmadi olaraq artır. 2022-ci ildə idxal əhalinin cəmi istehlakının 26%-ni təşkil edir. Müxtəlif illərdə bu rəqəm cüzi dəyişir. Son 10 ildə əhalinin bu mal qrupuna olan tələbatı əhəmiyyətli dərəcədə artmışdır, yəni istehlak bu müddət ərzində 42% artmışdır. İxrac isə 2021-ci ilədək müəyyən qədər sabit qalmışdır, 2022-ci ildə isə əvvəlki ilə nisbətən 3,2 dəfə artaraq 1142 ton olmuşdur.

**Cədvəl 2.2.10 Kakao, şokolad, şəkərli-unlu qənnadı məmulatları. tonla**

| Göstəricilər | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2010 nisbət |
|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 4615 | 3633 | 7553 | 9677 | 11275 | 14361 | 10747 | 2,3 dəfə |
| İdxal | 17317 | 19484 | 23675 | 25313 | 27264 | 30311 | 28987 | 67% |
| Əhali istehlakı | 20642 | 22755 | 26905 | 29612 | 33794 | 38005 | 35157 | 66% |
| İxrac | 1735 | 2685 | 1725 | 2520 | 1835 | 2647 | 4591 | 2,7 |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 3.7.
https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 2.2.10-dan məlum olduğu kimi, bu qrup malların istehsalı son 12 ildə 2,3 dəfə artmışdır. Ancaq paralel olaraq idxal məhsulları da son 12 ildə 67% artmışdır. Bu qrup məhsullar üzrə idxaldan asılılıq yüksəkdir, belə ki, 2022-ci ildə əhalinin istehlakında idxal 83% təşkil edir. Son 12 ildə idxaldan asılılıq, ortalama, 82% olmuşdur. Göründüyü kimi bu sahənin inkişaf etdirilməsinə ehtiyac çoxdur.

*"Hər üç kateqoriya məhsullarını təhlil edəndə məlum olur ki, istehsalın artımında müsbət dinamika olmasına baxmayaraq, əhalinin tələbatı əsasən idxal hesabına ödənilir. Tələbatın idxaldan asılılığını azaltmaq üçün dövlət tərəfindən milli istehsalı artırmaq məqsədi ilə müəyyən stimullaşdırıcı tənzimlənmələr aparılmalı, tədbirlər görülməlidir"* [92, s.44].

Azərbaycanda balıqçılıq əsasən Xəzər dənizinə və Kür çayına əsaslanır. Xəzər dənizi keyfiyyətli və zəngin balıq ehtiyatına malik qapalı hövzədir və ən qiymətli balıq növü olan nərə balığının əsas məskənidir.

**Cədvəl 2.2.11 Balıq və balıq məhsullarının əsas göstəriciləri. min t.**

| Göstəricilər | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2010 nisbət |
|---|---|---|---|---|---|---|---|---|
| Balıq və balıq məhsullarının istehsalı min t. | 45,3 | 51,2 | 61,9 | 63,1 | 61,2 | 59,5 | 59,9 | 32% |
| İdxal min t. | 14,1 | 14,8 | 13,1 | 14,3 | 14,5 | 17,2 | 18,9 | 34% |
| İstehlak edilib min t. | 58,9 | 67,1 | 72,8 | 75,3 | 73,2 | 74,5 | 76,5 | 30% |
| İxrac ton | x | x | 522 | 583 | 779 | 669 | 716 | x |
| Balıq və balıq məhsullarının adambaşına istehlakı kq. | 5,7 | 7,0 | 7,4 | 7,6 | 7,3 | 7,4 | 7,5 | 33% |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 2.8.
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.11-dən göründüyü kimi, balıq və balıq məhsullarının istehsalında artım var, belə ki, 2022-ci ildə 2010-cu ilə nisbətən 32% istehsal artmışdır. Bu illər ərzində idxal da artmışdır və bu artım 34% təşkil edir. Ölkədə əhali tərəfindən istehlak edilən balıq və balıq məhsullarında 30% artım var. Adambaşına istehlak edilən məhsul 2010-cu ilə nisbətən 33% artaraq 7,6 kq.-a çatmışdır. Ancaq Azərbaycanda adambaşına istehlak edilən balıq və balıq məhsulları çox azdır. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatı bu məhsul üzrə illik istehlak normasını 21 kq.

təyin etmişdir. Baxmayaraq ki, ölkə əhalisinin çox hissəsi Xəzər dənizi sahillərində yaşayır, ölkədə iki böyük çay və bir neçə sututarlar mövcuddur, ancaq adambaşına istehlak ÜST-in normativindən təxminən 3 dəfə azdır. Əslində istehsal edilən məhsullar tələbatı ödəmir, ona görə də balıq məhsullarının qiymətləri əhalinin orta gəlirlərinə adekvat deyil, bahadır, bütün əhali qrupları üçün əlçatan deyil.

Beynəlxalq ekspertlər çox maraqlı fakt bildirirlər: yeməyində dəniz məhsullarından daha çox istifadə edənlər balıq yeməyənlərdən 5-10 il çox yaşayırlar. Təkcə bu fakt balıq məhsullarının insan üçün nə qədər faydalı olduğunun göstəricisidir.

Ölkədə ÜST-in tövsiyə etdiyi istehlak normasına çatmaq üçün imkanlar çox böyükdür. Xəzər dənizi ilə 500 km.-dən çox olan təmas xətti, eyni zamanda, ölkə ərazisindən axan Kür və Araz çayları, Mingəçevir, Sarıgöl, Şəmkir su anbarları bu potensialın mövcudluğundan xəbər verir.

Təəssüf ki, ölkədə balıqçılığa münasibət azalmağa başlamışdır. Bunu son beş ildə körpə balıqların yetişdirilib təbii su hövzələrinə və su anbarlarına buraxılması prosesinin dinamikasından aydın görmək olar.




**Şəkil 2.2.6 Vətəgə əhəmiyyətli balıq körpələrinin təbii su hövzələrinə və anbarlarına buraxılması. mln. ədədlə**

Mənbə: DSK “Azərbaycanın kənd təsərrüfatı” 2023 s.116

https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Şəkil 2.2.6-dan göründüyü kimi, balıq artırılması üçün çox vacib olan körpə balıqların yetişdirilib su hövzələrinə buraxılması işi demək olar ki, tamamilə tənəzzülə uğramışdır. Belə ki, 2022-ci ildə bu rəqəm, cəmi beş il öncədən, yəni 2017-ci ilə nisbətən 99 dəfə, son 22 ildə isə 121 dəfə azalmışdır. Bu hal əhalinin balıq təminatında özünü büruzə vermiş və verəcəkdir.

Ölkədə ən böyük balıq və kürü istehsalçısı 2001-ci ildə yaradılmış "Caspian Fish Co. Azerbaijan" şirkətidir. Eyni zamanda Banka balıq kombinatı, Mingəçevir, Hacıqabul və Xıllı balıq zavodları fəaliyyət göstərirlər. Bunlardan başqa, Lənkəran balıq zavodu, Nərimanabad balıq kombinatı, Xudat balıq kombinatı, Hövsan balıq kombinatı, H.Z.Tağıyev qəsəbəsində yerləşən balıq zavodu fəaliyyət göstərən əsas balıqçılıq müəssisələridir. Kür çayının mənsəbində yerləşən Neftçala rayonunun ərazisində də bir çox balıq zavodları yerləşir.

Meyvə və tərəvəzçilik Azərbaycanın kənd təsərrüfatının ixtisaslaşmış və gəlirli sahələrindəndir. *Azərbaycanın ən iri meyvəçilik rayonu Qubadır. İstehsal olunan meyvənin 2/3-ni Quba-Xaçmaz zonası verir"* [92, s.35].

**Cədvəl 2.2.12 Meyvə-tərəvəz konservlərinin və şirələrinin əsas göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2000 nisbət |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Meyvə-tərəvəz konservləri min t. | | | | | | | | | | |
| İstehsal | x | 23,2 | 137,1 | 134,8 | 136,3 | 157,8 | 161,0 | 175,8 | 183,9 | x |
| İdxal | 2,4 | 8,3 | 15,1 | 22,2 | 21,3 | 23,9 | 23,6 | 28,5 | 33,3 | 13,9d |
| İxrac | 3,2 | 5,1 | 4,7 | 3,1 | 6,9 | 7,3 | 7,4 | 9,1 | 10,2 | 3,3dəfə |
| Meyvə-tərəvəz şirələri min t. | | | | | | | | | | |
| İstehsal | x | x | x | 20,8 | 28,6 | 31,4 | 39,5 | 44,0 | 53,9 | x |
| İdxal | 1,5 | 19,2 | 10,3 | 4,2 | 3,2 | 3,3 | 2,6 | 3,1 | 2,7 | 1,8d |
| İxrac | 1,9 | 26,9 | 18,7 | 6,7 | 7,5 | 9,9 | 11,9 | 12,7 | 11,2 | 5,9dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 17.
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı
x-*DSK-nın hesabatlarında bu məlumatlar yoxdur.*

Cədvəl 2.2.12-dən göründüyü kimi, həm meyvə-tərəvəz konservlərinin istehsalında və həm də meyvə-tərəvəz şirələrinin istehsalında müsbət dinamika mövcuddur. Son 22 ildə meyvə-tərəvəz konservlərinin ixracı 3,3 dəfə, meyvə-tərəvəz şirələrinin ixracı isə 5,9 dəfə artmışdır. Paralel olaraq meyvə-tərəvəz konservlərində idxal 13,9 dəfə, şirələrdə isə 1,8 dəfə artmışdır.




**Şəkil 2.2.7 Adambaşına meyvə-tərəvəz konservləri və şirələrinin istehlakı. kq-la**
Mənbə: DSK "Azərbaycanın ərzaq balansı" 2023 s.84
https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Şəkil 2.2.7-dən göründüyü kimi, son 10 ildə meyvə və tərəvəz konservlərinin adambaşına istehlakı 136%, şirə istehlakı isə 130% artmışdır.

Onu da qeyd etməliyik ki, ölkədə istehsal edilən meyvənin təxminən 65%-i üç meyvənin – alma, xurma və narın payına düşüb. Digər meyvələr isə meyvə şirəsi, mürəbbə, kompot və meyvə qurusu istehsalında daha çox istifadə edilir ki, bunlara ərik, şaftalı, heyva, gilas, armud, albalı, gavalı, alça və sairəni göstərmək olar. Bu meyvələr birlikdə ölkə əhalisinin rasionunda hər bir insana cəmi 14 kq. təşkil edir ki, bu da çox azdır. Az olduğu üçün də sənaye sektoru meyvə şirəsi və nektarı üçün püre və konsentrantının müəyyən hissəsini xaricdən idxal etməyə məcbur qalır.

Ölkənin ən böyük zavodu olan "Azərsun" holdinqə məxsus "Qafqaz" konserv zavodu [74] və "Gilan" holdinqə məxsus Qəbələ konserv zavodu [75] bu sahədə aparıcı müəssisələrdir. Qəbələ konserv zavodu "Jalə", "Bağdan", "Zolotoy sad", "Aycan" brendləri altında meyvə şirələri istehsal edir. Bu zavodun məhsulları əsasən yerli bazarlarda dominantlıq edir, müəyyən hissəsi isə ABŞ, Rusiya, Ukrayna, Belarusiya, Yunanıstan, Almaniya, Latviya, Gürcüstan, Estoniya və s. ölkələrə ixrac olunur.

Bundan başqa, Xaçmaz, Quba, Qusar, Xudat, Ordubad, Qax, Lənkəran, Göyçay rayonlarında da konserv və şirə zavodları fəaliyyət göstərir.

Azərbaycanda duz istehsalı 2010-cu ildə "Azərsun" holdinq tərəfindən Abşeron rayonunun ərazisində duz zavodu açılandan sonra artmağa başlamışdır. Bu inkişafı statistik məlumatlardan da görmək mümkündür.

**Cədvəl 2.2.13 Duz istehsalı, idxalı, ixracı. min tonla**

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2005 nisbət |
|---|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 4,2 | 8,5 | 36,5 | 64,4 | 74,7 | 74,3 | 69,5 | 75,5 | 19 dəfə |
| İdxal | 17,8 | 25,9 | 13,6 | 16,2 | 16,9 | 16,0 | 15,2 | 11,9 | -35% |
| İxrac | x | x | 2,7 | 18,1 | 24,6 | 23,6 | 18,3 | 23,0 | + |

Mənbə: DSK "Azərbaycanın ərzaq balansı" 2023 s.84
https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 2.2.13-dən göründüyü kimi, duz istehsalı son 17 ildə 19 dəfə artaraq 75,5 min tona çatmışdır. İstehsal ilə paralel olaraq bu məhsulun ixracı da əhəmiyyətli sürətdə artmışdır. Yodlaşdırılmış duz istehsalının həcmi ümumi duz istehsalı həcmi ilə təxminən eynidir və eyni dinamika ilə artmışdır.

Nəticə etibarilə, bu inkişaf əhalinin duz məhsulları ilə özünütəminetmə səviyyəsinin tam təmin olunmasına gətirib çıxarmışdır.

Qeyd edək ki, hal-hazırda duz istehsalı ilə Masazır duz rafinasiya zavodu ("Azərsun" holdinq), "Naxçıvan duz istehsalı" MMC və fiziki şəxs (Tehran Rəşidov) məşğul olurlar.

Bitki yağları ən çox istehlak olunan mallar sırasındadır. Bu yağlar get-gedə kərə yağlarını üstələməyə başlamışdır. Avropa ölkələrində, o cümlədən, Türkiyədə bitki yağları heyvan mənşəli yağlardan çox istehlak edilir ki, bu da həm sağlamlıq baxımdan və həm də ekoloji baxımdan vacib və önəmli sayılır.

**Cədvəl 2.2.14 Bitki yağlarının əsas göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2000 nisbəti |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İstehsal m. t. | 11,2 | 64,1 | 88,7 | 106,7 | 71,1 | 75,1 | 75,1 | 72,9 | 68,0 | 6 dəfə |
| İdxal min t. | 14,7 | 68,5 | 101,2 | 115,2 | 130,0 | 141,5 | 139,6 | 130,1 | 142,5 | 9,7dəfə |
| İxrac min t. | 5,3 | 18,1 | 27,9 | 23,5 | 10,8 | 8,2 | 14,0 | 15,1 | 12,1 | 2,3 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 3.10.
https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.14-dən göründüyü kimi, son 22 ildə bitki yağlarının istehsalı əhəmiyyətli sürətdə artmışdır. 2022-ci ildə istehsal 2000-ci ilə nisbətən 6 dəfə artmışdır. Ancaq bu artım, əsasən, 2015-ci ilədək davam etmiş və sonradan istehsal

azalmağa başlamışdır. Belə ki, istehsal 2022-ci ildə 2015-ci ilə nisbətən 36% azalmışdır.

Eyni zamanda bitki yağlarının idxalı da mütəmadi olaraq artmağa başlamışdır. İdxal son 22 ildə 10 dəfə, son 5 ildə isə 10% artmışdır.

Bitki yağlarının ixrac həcmi son 22 ildə 2,3 dəfə artaraq 12,1 min ton təşkil etmişdir. Onu da qeyd etməliyik ki, bu məhsulun ixracı son iki ildə azalmağa başlamışdır. 2022-ci ildə ixrac əvvəlki ilə nisbətən 20% azalmışdır.

Göründüyü kimi, bitki yağlarının təminatında da idxaldan asılılıq həcmi böyükdür. Bu asılılıq təxminən 65% təşkil edir.




**Şəkil 2.2.8 Adambaşına bitki yağları istehlakı. kq-la**
Mənbə: DSK "Azərbaycanın ərzaq balansı" 2023 s.84.
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.8-dan məlum olur ki, 2022-ci ildə adambaşına istehlak 2012-ci il ilə təxminən bərabərdir. Azərbaycan vətəndaşları adambaşına 2019-cu ildə 16,1 kq., yəni 2022-ci ildən 1,9 dəfə çox bitki yağı istehlak etmişdirlər. Əhalinin adambaşına istehlakında həm bitki yağının və həm də kərə yağının azalmasını əhalinin alıcılıq qabiliyyəti ilə də bağlamaq olar, çünki bunların əvəzində ucuz marqarin yağının adambaşına istehlakı son 4 ildə 2 dəfə artmışdır.

Ölkədə bu məhsul üzrə idxaldan asılılığı əhəmiyyətli sürətdə azaltmaq üçün potensial mövcuddur, xüsusilə də, işğaldan azad edilmiş torpaqlarımızın yenidən əkin dövriyyəsinə qatılması bu imkanları daha da artıracaq.

Alkoqollu içkilərə şərab, arağ, pivə, viski, konyak, şampan, spirt və s. daxildir. Şərabçılıq aqroemal sektorunda ən rentabelli və ən qədim sahələrdən biridir. Şərabçılıq vaxtilə ölkə iqtisadiyyatının inkişafına böyük töhfə vermiş və ən aparıcı sahələrdən biri olmuşdur.

Azərbaycanda alkoqollu içkilərin istehsalına nəzər salaq

**Cədvəl 2.2.15 Alkoqollu içkilər istehsalı. min dkl.**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Üzüm şərabı: | | | | | | | | | |
| Istehsal | 623,2 | 400,5 | 1169,7 | 1035,0 | 1574,3 | 1019,0 | 895,0 | 1011,6 | 1080,0 |
| İdxal | 2,8 | 253,9 | 201,5 | 23,1 | 73,1 | 40,4 | 37,8 | 47,0 | 55,8 |
| İxrac | 213,9 | 49,4 | 223,9 | 194,5 | 657,6 | 532,3 | 227,3 | 263,4 | 300,6 |
| Pivə: | | | | | | | | | |
| İstehsal | 711,0 | 2490,0 | 3771,0 | 4196,5 | 4662,0 | 5083,3 | 5466,5 | 4707,3 | 4683,5 |
| İdxal | 845,2 | 118,3 | 182,8 | 203,1 | 472,1 | 491,7 | 547,3 | 373,7 | 358,3 |
| İxrac | x | x | x | x | x | x | x | x | x |
| Arağ: | | | | | | | | | |
| İstehsal | 450,4 | 484,3 | 884,9 | 770,7 | 860,1 | 2387,4 | 1718,7 | 1783,8 | 1609,1 |
| İdxal | 24,7 | 97,7 | 26,7 | 86,5 | 56,1 | 64,0 | 58,6 | 74,5 | 85,4 |
| İxrac | x | x | x | x | x | x | x | x | x |
| Viski, konyak: | | | | | | | | | |
| İstehsal | 386,1 | 17,5 | 81,4 | 3,8 | 16,5 | 24,9 | 50,8 | 33,5 | 95,9 |
| İdxal | x | x | x | x | x | x | x | x | x |
| İxrac | x | x | x | x | x | x | x | x | x |
| Şampan şərabı: | | | | | | | | | |
| İstehsal | 150,4 | 61,8 | 27,9 | 4,5 | 3,1 | 0,5 | 0,4 | 0,4 | 0,5 |
| İdxal | x | x | x | x | x | x | x | x | x |
| İxrac | x | x | x | x | x | x | x | x | x |
| Spirt: | | | | | | | | | |
| İstehsal | - | - | - | - | 359,5 | 872,5 | 726,1 | 980,9 | 824,2 |
| İdxal | 217,5 | 151,7 | 135,6 | 70,1 | 92,0 | 164,4 | 182,9 | 176,3 | 188,9 |
| İxrac | x | x | x | x | x | x | x | x | x |

Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın xarici ticarəti" 2023 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatları əsasında müəllif tərtibatı

x - *ayrılıqda viski, arağ, konyak və şampan şərabları mal qruplarının idxal-ixrac məlumatları DSK və DGK-nin məlumatlarında əks olunmamışdır.*

Cədvəl 2.2.15-dən göründüyü kimi, üzüm şərabı istehsalında 2000-ci ilə nisbətən artım müşahidə edilir. Ancaq 2018-ci ildən sonra istehsal azalmağa meyllənmişdir. 2022-ci ildə istehsal 2018-ci ilə nisbətən 31% azalmışdır.

Şərab ixracında son 22 ildə bir qədər artım olsa da, son 5 ildə bu rəqəm əhəmiyyətli sürətdə azalmağa başlamışdır. Belə ki, şərab ixracı 2022-ci ildə 2018-ci ilə nisbətən 2,2 dəfə azalmışdır.

Paralel olaraq 2018-ci ildən şərab idxalında mütəmadi olaraq azalma müşahidə edilir, belə ki, 2022-ci ildə 2018-ci ilə nisbətən 23% idxal azalmışdır. Son 5 ildə ixracın və idxalın azalması onu göstərir ki, yerli istehsalçılar yerli bazarla kifayətlənməyə daha çox meyllidirlər.

Buradan belə nəticə çıxır ki, əhalinin şərab məhsullarına olan istehlak marağı azalmışdır ki, bunu əhalinin gəlirləri ilə izah etmək olar.

Alkoqollu içkilər içərisində ən çox ticarət dövriyyəsi olan məhsullardan biri də arağdır. Ölkəmizdə bu məhsulun istehsalı son 22 ildə mütəmadi olaraq artmışdır. Belə ki, bu müddət ərzində arağ istehsalı 3,6 dəfə artmışdır. Son 5 ildə də şərab istehsalının azalmasının əksinə olaraq arağ istehsalı 1,9 dəfə artaraq 2022-ci ildə 1609,1 min dkl. olmuşdur. Ancaq əvvəlki ilə nisbətən 2022-ci ildə istehsal 10% azalmışdır.

Pivə istehsalı son 22 ildə mütəmadi olaraq müsbət dinamikaya malik olmuşdur. 2022-ci ildə istehsal 2000-ci ilə nisbətən 6,6 dəfə artmışdır. Eyni zamanda bu məhsulun idxalı həmin dövr ərzində 2,4 dəfə azalmışdır. Bu məhsul üzrə istehlak tələbi yerli istehsal ilə tamamilə ödənilir.

Viski və konyak istehsalı son 5 ildə artmağa başlamışdır, belə ki, 2022-ci ildə istehsal 13,4 dəfə artaraq 50,8 min dkl.-ə çatmışdır. Ancaq bu rəqəm 22 il əvvələ nisbətən çox aşağıdır. 2000-ci ildə viski və konyak istehsalı 386,1 min dkl. olmuşdur ki, bu da indiki istehsaldan 4 dəfə çox deməkdir.

Şampan şərabı istehsalında vəziyyət çox acınacaqlıdır. 2022-ci ildə istehsal cəmi 500 dkl. olmuşdur. Bu rəqəm 2005-ci ildəki istehsaldan 155 dəfə az deməkdir. 2015-ci ildə 61.8 min dkl. şampan şərabı istehsal edilmiş, sonrakı illər istehsal mütəmadi olaraq azalmış və bu günkü vəziyyətə gəlib çıxmışdır.

Alkoqollu içkilərin adambaşına istehlakı bu məhsulların durumu haqqında daha düzgün məlumat verərdi. Ancaq təəssüf ki, DSK-nin hesabatlarında alkoqollu içkilərin ayrı-ayrı kateqoriyaları üzrə adambaşına istehlakı haqqında məlumat yoxdur. Ona görə də biz məcbur olaraq belə bir metodologiyaya əl atmışıq. Belə ki, illik istehsalın üzərinə həmin il ölkəyə idxal olunan anoloji məhsulu gəlmişik və onu həmin dövrdə olan əhalinin sayına bölmüşük. Burada ilin axırına mövcud olan mal qalığı nəzərə alınmayıb. Səbəbi həmin mal qalıqları haqqında DSK-nin hesabatlarında məlumatların olmamasıdır. Eyni zamanda, hesab etmişik ki, mal qalığı özündən əvvəlki ilin mal qalığı ilə təxminən eyni ola bilər və fərq olsa da cüzi olar. Ona görə də alkoqollu içkilərin adambaşına istehlakının hesablanmasının bu qaydada

aparılmasını daha düzgün hesab etmişik. Təbii ki, bu cür hesablamalarda xətalar mümkündür və müəyyən qədər yayınmalar ola bilər. Bu metodologiya əsasında aşağıdakı şəkildəki diaqram tərtib olunub.




**Şəkil 2.2.9 Adambaşına alkoqollu içkilərin istehlak dinamikası. litrlə**
Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın demoqrafik göstəriciləri" https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatları əsasında müəllif tərəfindən hesablanaraq tərtib edilib

Şəkil 2.2.9-dan göründüyü kimi, son 17 ildə hər üç məhsul üzrə adambaşına istehlakda artım müşahidə edilir. Üzüm şərabının adambaşına istehlakı 2022-ci ildə 2005-ci ilə nisbətən 0,987 litr və ya 2,4 dəfə, arağ 0,916 və ya 2,4 dəfə, pivə 1,605 və ya 53% artmışdır.

Alkoqollu içkilər istehsalı çox rentabelli bir sahədir. 1990-cı illərdə bu sektorda istehsal həcmi daha yüksək idi. Təkcə, üzüm şərabı 6 mln. dkl. istehsal olunurdu ki, bu da 2022-ci ildən 6 dəfə çox idi. İstehsal olunan şərab məhsullarının əsas satış bazarı Rusiya idi və milli istehsal bu ölkədə yüksək populyarlıq qazanmışdır. Arağ istehsalı da 1990-cı ildə 2020-ci ilə nisbətən 6% çox idi. Şampan şərabının istehsal həcmi 1990-cı ildə çox yüksək idi. Həmin il 1,3 mln. dekalitr istehsal mövcud idi. Bu məhsulun istehsalı hal-hazırda demək olar ki, tənəzzülə uğramışdır. Eyni vəziyyət viski və konyak istehsalında da movcuddur. 1990-cı ildə 1,2 mln. dekalitr konyak istehsal olunurdu, bu rəqəm 2022-ci ildə 12,5 dəfə azalaraq 96 min dekalitr olmuşdur.

Ölkədə üzüm plantasiyalarında istehsal olunan məhsulun cəmi 44%-i emal müəssisələrinə yönəldilir. İstehsalın əsas hissəsi birbaşa əhalini istehlak tələbatının təmin edilməsinə sərf edilir, eyni zamanda, hər il ortalama 24 min ton üzüm emal olunmadan satış üçün idxal olunur.

Ölkədə hələ ümumi iqtisadiyyatımızın böhran vaxtında, yəni, 1995-ci ildə 2,6 mln. dekalitr şərab, 692 min dekalitr şampan şərabı və 478 min dekalitr konyak ixrac olunurdu. Təəssüf ki, 2022-ci ildə bu rəqəmlər dəfələrlə aşağı səviyyəyə düşmüşdür. Təkcə, həmin illərin alkoqollu içkilər istehsalını saxlamaq mümkün olsaydı, bu sahədə idxaldan ölkəyə böyük həcmdə valyuta gətirmək olardı.

Alkoqolsuz içkilərə limonadlar, şərbətlər, müxtəlif qazlı və qazsız sular, mineral sular və s. daxildir.




**Şəkil 2.2.10 Alkoqolsuz ickilərin, mineral və qazlı suların istehsal dinamikası. mln.dkl.**
Mənbə: DSK İqtisadi statistika "Sənaye" 2023 17.
https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Şəkil 2.2.10-dan göründüyü kimi həm mineral və qazlı suların istehsalında və həm də alkoqolsuz içkilər istehsalında ildən-ilə artım tempi müşahidə olunur. Ancaq 2022-ci ildə mineral və qazlı suların istehsalının əvvəlki ilə nisbətən kəskin sürətdə, yəni 2,4 dəfə azalmışdır ki, səbəbini müəyyən etmək mümkün olmadı. Mineral sular əsasən müalicə əhəmiyyətli sulardır. Bunlarla əlaqədar Şahbuzda və Naxçıvanda "Badamlı", "Sirab" kimi istehsal müəssisələri fəaliyyət göstərir. Naxşıvan şəhərində yerləşən "Badamlı" zavodu 1949-cu ildə, "Sirab" zavodu isə 1976-cı ildə istismara buraxılmışdır.

Ölkənin digər bölgələrində də bir çox kiçik sudoldurma müəssisələri fəaliyyət göstərirlər. İşğal altında olan torpaqlarımızın azad edilməsi ilə əlaqədar tezliklə Kəlbəcərin məşhur "İstisu" mineral suyu da istehsala başlayacaqdır və bu suya ölkədə böyük tələbat vardır.

Aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılıq əməktutumluluğuna və ümumi məhsul buraxılışının həcminə görə

yüksək göstəriciləri ilə fərqlənir. *"Eyni zamanda, torpaqların mövcud vəziyyəti, təbii iqlim şəraiti, su ehtiyatları, əmək resursları və aqrotexniki servis xidmətinin səviyyəsi bir sıra bölgələrdə pambıq əkininin həyata keçirilməsinə imkan verir"* [93, s.82].

**Cədvəl 2.2.16 Pambıq emalı məhsullarının əsas göstəriciləri**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Pambıq (lif) mahlıcının istehsalı min t. | 37,7 | 56,0 | 11,4 | 6,6 | 61,0 | 85,0 | 71,6 | 92,5 | 91,0 |
| Pambıq iplik istehsalı min t. | x | 17,7 | 7,6 | 9,1 | 24,7 | 34,8 | 11,7 | 22,5 | 14,7 |
| Pambıq(lif) mahlıcının ixracı min t. | 40,6 | 47,1 | 3,3 | 4,6 | 52,5 | 86,2 | 97,6 | 123,0 | 75,1 |
| Pambıq ipliyinin ixracı min t. | x | 3,3 | 6,5 | 8,4 | 9,5 | 12,8 | 9,0 | 18,4 | 8,6 |

Mənbə: DSK Iqtisadi statistika "Sənaye" "Ticarət" 2023
https://www.stat.gov.az/source/industry/ və https://www.stat.gov.az/source/trade/
məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.16-dan göründüyü kimi, 2000-ci il ilə müqayisədə 2022-ci il müddətində bu məhsulların həm istehsalında və həm də ixracında dinamika sabit deyildir. Belə ki, pambıq mahlıcının istehsalı 2022-ci ildə 2000-ci ilə nisbətən 2,4 dəfə artmışdır. Pambıq iplik istehsalı isə 2005-ci ilə nəzərən (2000-ci il statistik hesabatında başqa qrup məhsullar ilə birləşdirilmişdir) 18% azalmışdır.

2022-ci ildə pambıq mahlıcının ixracı 2000-ci ilə nisbətən 1,8 dəfə artmış, ancaq əvvəlki ilə nisbətən 39% azalmışdır. Pambıq ipliyin ixracı 2000-ci ildə qeydə alınmamışdır. 2022-ci ildə isə 8,6 min ton xarici ölkələrə iplik satılmışdır ki, bu da əvvəlki ildən 2,1 dəfə azdır.

Qeyd etməliyik ki, 1990-cı ildə pambıq üzrə emal göstəriciləri daha yüksək idi. Belə ki, həmin ildə pambıq istehsalı 543 min ton, yəni 2022-ci ildəkindən 1,7 dəfə, mahlıc istehsalı isə 178 min ton, yəni 2022-ci il istehsalından 2 dəfə çox istehsal olunurdu. Onu da qeyd etməliyik ki, ölkədə 1981-1985-ci illər pambıq istehsalı, ortalama olaraq, ildə 700 min tondan çox istehsal olunurdu.

Emal zavodlarının pambıqdan əldə etdiyi gəlirləri təxminən hesablayaq, çünki dəqiq rəqəmlər almaq mümkün deyil. Nəzərə alaq ki, 2.5 ton xam pambıqdan 1 ton pambıq lifi, təxminən 1.2 ton çiyid alınır. Öz növbəsində, 2.5 ton xam pambığın emalı üçün müəssisələrin bütün xərcləri orta hesabla 170-180 manat intervalında dəyişir. Beləliklə, 2.5 ton xam pambıq üçün emal müəssisəsi fermerə təxminən 1500-

1600 manat ödəyir. Bunun müqabilində onun sərəncamında 1 ton pambıq mahlıcı və 1.2 ton çiyid var. 2020-ci ildə dünya bazarında pambıq lifininin hər tonu orta hesabla 2312 dollara, indiki məzənnə ilə 3930 manata satılmışdır. Mütəxəssilərin hesablamalarına görə çiyidin müəssisədən topdansatış qiyməti isə 400-450 manat aralığında dəyişir. Deməli, fermerdən alınan 2.5 ton pambığa orta hesabla 1570-1680 manat (1400-1500 manat xam pambığın alış qiyməti+170-180 manat emal xərci) emal müəssisəsi vəsait xərcləyir. Bunun müqabilində onun sərəncamında təxminən 4300 manat bazar dəyəri olan əmtəəlik məhsul var. Bu o deməkdir ki, fermer ağır fiziki işdə işləyərək çəkdiyi hər 100 man. xərcin müqabilində 112 manat pul götürür, emal müəssisəsi isə cəkdiyi hər 100 man. xərcin müqabilində 250 man, yəni 2,5 dəfə çox gəlir götürür. Bu ədalətsiz bölgüdür. Ona görə də pambığın alış qiymətləri artırılmalıdır.

Bu təxmini hesablama əsasında müəyyən etməyə çalışdıq ki, fermerlərin və emalçıların əmtəəlik məhsularının satış qiymətləri arasındakı fərqi görmək mümkün olsun.

Xam pambığın alış qiymətlərinin hər kiloqramı 60-65 qəp. olması normal qiymət deyil, çox azdır. Türkiyədə, İranda bu rəqəm 90 sent, yəni 1.45-1.50 qəpikdir. Fermerlərin əməyi düzgün qiymətləndirilmədiyi üçün pambıq istehsalına maraq azalır, digər daha rentabelli məhsul istehsalına, bostan-tərəvəz əkməyə və sairəyə üz tuturlar.

Bu cür ədalətsiz bölgünün bir səbəbi də fermerlərin, istehsalçıların hüquqlarını təmsil edən təşkilatların və qurumların olmamasıdır. Türkiyənin timsalında bir maraqlı nümunəni göstərmək olar. Ölkədə Milli Pambıq Şurası, Fermerlər və Kooperativlər Birliyi, Ziraat Odaları, ticarət birjaları, tekstil sənayeçiləri sindikatları, pambıq emalı müəssisələrinin satınalma qiymətlərinin formalaşmasında birlikdə iştirak edirlər. Təbii ki, belə olan halda bütün tərəflərin maraqlarının nəzərə alınması baxımından şəffaf mühit yaranır. Azərbaycandakı vəziyyətə diqqət yetirək: bu institutlardan heç biri yoxdu. Ortada yalnız qiymətləri diqtə edən az sayda inhisarçı zavodlar var və fermerlərin maraqlarını müdafiə edən hər hansı bir təsisat isə yoxdur.

Azərbaycanda pambıq sənayesi faktiki olaraq çoxlu qəbul məntəqələri və pambıq zavodları olan 3 böyük biznes qurumunun əlində cəmlənib:
1. "MKT İstehsalat Kommersiya” MMC Azərbaycanda ən böyük pambıq tədarükü və istehsalı şirkətidir. Azərbaycanın 20 rayonunda 13 pambıq qəbulu və emalı zavodu, 11 pambıq qəbulu məntəqəsi, 5 innovasiya təsərrüfatı fəaliyyət göstərir.
2. “CTS AGRO” MMC -nin tabeliyində 6 pambıq emalı zavodu, 10-dan çox pambıq tədarükü məntəqəsi var.
3. “Azərpambıq ASK” MMC 2018-ci ildə “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC tərəfindən təsis olunub. Bu müəssisə pambıq tədarükü, emalı və emal prosesindən alınan məhsulların satışı ilə məşğul olur. Emal prosesində alınan məhsullara pambıq mahlıcı, pambıq yağı, çiyid cecəsi, texniki çiyid və s. köməkçi məhsullar aiddir.

Bu üç böyük şirkət pambığı digər fermer və ailə-kəndli təsərrüfatlarından qəbul etməklə yanaşı qabaqcadan fermerlərlə, ailə-kəndli təsərrüfatları ilə bağladıqları müqavilələr əsasında pambıq əkini ilə məşğul olurlar.

*“Ölkədə pambıq sənayesi ilə məşğul olan bu üç əsas şirkətdən əlavə “Aqro-Az MMC”, “P-Agro” MMC və Kənd Təsərrüfatı Nazirliyinin yerli idarələrinin təsis etdiyi MMC-lər də (Məsələn, “Yevlax kənd təsrrüfatı” MMC, “Salyan kənd təsrrüfatı” MMC və s.) pambıq tədarükü ilə məşğul olurlar”* [93, s.89].

Məlumdur ki, hər bir malın ən yüksək dəyəri onun son məhsulundan yaranır. Tütünün də son məhsulu siqaretdir. “*Tütün iqtisadi əhəmiyyətinə görə, Azərbaycanda pambıqçılıqdan sonra ikinci texniki bitki sayılır. Yüksək rentabelliyə malik olduğuna görə vaxtilə onun istehsalı Şəki-Zaqatala zonasından Lerik-Yardımlı, eyni zamanda, ölkənin qərbinə kimi genişləndirilmiş və 21 rayonda tütün əkilməsinə start verilmişdir”* [99, s.57].

**Cədvəl 2.2.17 Tütünçülüyün əsas iqtisadi göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 2000 ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Tütün istehsalı (yaş) min t. | 17,3 | 7,1 | 3,2 | 3,5 | 6,3 | 6,0 | 6,9 | 6,4 | 5,1 | -3,4 dəfə |
| Tütün ixraçı min t. | 10,0 | 7,6 | 2,1 | 1,9 | 4,2 | 6,5 | 4,8 | 5,3 | 6,9 | -31% |
| Tütün idxalı min t. | 2,9 | 6,6 | 2,5 | 3,1 | 3,5 | 6,3 | 5,8 | 5,9 | 6,4 | 2,2 dəfə |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Tütün istehsalı (fermentləşdirilmiş) min t. | 5,9 | 2,6 | 2,0 | 1,7 | 3,5 | 4,6 | 4,4 | 4,3 | 4,2 | -140% |
| Siqaret mld. əd. | | | | | | | | | | |
| İstehsal | 2,3 | 5,0 | 2,2 | 2,0 | 4,9 | 9,5 | 11,2 | 15,3 | 13,3 | 5,8 dəfə |
| İxrac | 0,3 | 0,3 | 0,1 | 0,2 | 0,1 | 0,2 | 0,5 | 0,3 | 0,6 | 2 dəfə |
| İdxal | x | 5,7 | 11,3 | 11,5 | 11,3 | 4,3 | 1,2 | 0,7 | 0,2 | -29 dəfə |

Mənbə: DSK Iqtisadi statistika "Sənaye" "Ticarət" 2023 https://www.stat.gov.az/source/industry/ və https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.17-dən göründüyü kimi, son 22 ildə tütün istehsalının həcmi kəskin azalmışdır, yəni, 2022-ci ildə 2000-ci ilə nisbətən istehsal 3,4 dəfə azalmışdır. Bu azalma 1990-cı ilə nisbətən daha çoxdur. 1990-cı ildə 52,9 min ton tütün istehsal edilmişdir ki, bu da 2022-ci ilə nisbətən 10,4 dəfə çox deməkdir. Son 3 ildə də azalma müşahidə olunur, belə ki, 2022-ci ildə 2019-cu ilə nisbətən istehsal 26% azalmaışdır. Bu hal özünü tütün ixracında da biruzə vermişdir. Bu dövr ərzində ixrac 31% azalmışdır.

Siqaret istehsalı və idxalı da artmağa başlamışdır. İstehsal 2000-ci ilə nisbətən 2022-ci ildə təxminən 5,8 dəfə artmışdır. Bu artım əsasən 2018-ci ildə fəaliyyətə başlamış Sumqayıt siqaret fabrikinin hesabına olmuşdur. Eyni zamanda bu fabrikin fəaliyyətə başlaması ilə əlaqədar əhalinin tələbatı yerli məhsul hesabına ödənilməyə başlamış və nəticədə siqaret idxalı əhəmiyyətli şəkildə azalmışdır. Təkcə son 4 ildə, yəni 2018-ci ilə nisbətən siqaret idxalı 22 dəfə azalmış və 2022-ci ildə 0,2 mld.ədəd olmuşdur. Siqaret idxalının daha da azalacağı gözlənilir.

Təəssüf ki, siqaret istehsalı, əsasən, idxal xammalı hesabına artmışdır. Belə ki, tütün xammalı idxalı mütəmadi olaraq artmışdır. 2000-ci ildə 2,9 min ton tütün idxal edirdiksə, bu rəqəm 2022-ci ildə 2,2 dəfə artaraq 6,4 min ton olmuşdur.

2015-2018-ci illər idxal olunan tütünün hər tonu üçün 2533$-3774$ arası valyuta ödənilmişdir, ancaq bu rəqəm 2020-ci ildən artmağa başlanmış və 2022-cu ildə hər tona 13035 dollar ödənilmişdir ki, idxal olunan tütünün qiymətinin təxminən dörd dəfədən çox artmasını izah etmək olmur. Əslində isə yeni zavodun hesabına tütün əkin sahələri artmalı idi. Təəssüf ki, bu fabrik də xaricdən alınan tütün və tütünün sənaye əvəzedicilərinə üstünlük verməyi lazım bilmişdir.

Qeyd etdiyimiz kimi, tütünçülüyün inkişafı üçün Azərbaycanın çox əlverişli torpaq-iqlim şəraiti vardır. Bu şərait xarici investorların diqqətini cəlb etməyə bilməzdi. Yaponiyanın "Tet İnternational Development" korporasiyası Zaqatalada tütün istehsalı ilə əlaqədar 7 mln. manatdan çox investisiya yatırmış, iri həcmli tütün fermentasiya zavodu inşa etmişdir. Eyni zamanda qoyulan investisiyaların artırılması planlaşdırılır. Şirkət tütün istehsalı və emalı ilə məşğul olur və hazır fermentləşdirilmiş tütünü xarici ölkələrə ixrac edir.

*"Hazırda Zaqatalanın Tala kəndində Azərbaycanın "Inter Tobacco" şirkəti tütün istehsalı və emalı ilə məşğul olur. Şirkət kənddə 50 tütün qurutma kamerası və 7 istixana quraşdırıb. Burada artıq 50% əl əməyindən istifadə edilmir. Burada, dünyada ən keyfiyyətli tütün növü sayılan "Vircinya" sortu yetişdirilir. Şirkət tütün şitillərini fermentləşdirilmiş halda becərir və fermerlərə pulsuz verir. Fermerlər də daha sonra yaş tütünün hər kiloqramını şirkətə 14-18 qəpiyə satır"* [99, s.62].

Ayaqqabı sənayesi üçün əsas xammal gön-dəridir. Ət üçün kəsilən mal-qara, qoyun-keçi dəriləri yığılır və emal olunur. Aşılanmış hazır dərilər ayaqqabı istehsalına verilir. Bu sahə gəlirli sahələrdən biri sayılır.

**Cədvəl 2.2.18 Gön-dəri və ayaqqabı istehsalının əsas göstəriciləri**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Aşılanmamış dəri istehsalı ton. | x | x | x | x | 9613,9 | 1944,3 | 716,2 | 3301,4 | 4344,7 |
| Hazır dəri istehsalı min kv. m. | 405,6 | 22,4 | 28,1 | 841,9 | 53,9 | 53,5 | 65,2 | 60,2 | 55,4 |
| İxrac: İribuynuzlu heyvanın dərisi min əd. | x | 444,9 | 862,5 | 850,3 | 396,6 | 470,6 | 295,3 | 496,7 | 531,0 |
| Emal olunmamış qoyun və quzu dəriləri min əd. | 1067,2 | 1225,6 | 1355,9 | 1447,3 | 965,9 | 750,4 | 532,8 | 584,0 | 1426,5 |
| Ayaqqabı istehsalı min cüt | 114,3 | 260,5 | 260,7 | 100 | 186,6 | 190,3 | 544,2 | 1214,0 | 1405,0 |
| Ayaqqabı idxalı min | 8019 | 29417 | 4978 | 4650 | 36209 | 37235 | 31502 | 33390 | 32948 |

| cüt | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|

Mənbə: DSK İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Sənaye", "Ticarət" 2023. https://www.stat.gov.az/source/agriculture/, https://www.stat.gov.az/source/industry/, https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.18-dən göründüyü kimi, dəri istehsalı ilbəil azalır. Son 22 ildə hazır dəri istehsalı 7,4 dəfə azalmışdır. Həm istehsal olunmuş iribuynuzlu heyvan dəriləri və həm də emal olunmamış qoyun quzu dəriləri əsasən ixrac olunur.

Demək olar ki, tamamilə tənəzzülə uğramış ayaqqabı sənayesində 2020-ci ildən dirçəlmə müşahidə edilməyə başlanmışdır. İstehsal artımı 2020-ci ildə əvvəlki ilə nisbətən 2,9 dəfə, 2022-ci ildə isə 2020-ci ilə nisbətən 2,6 dəfə artmışdır.

Buna baxmayaraq, ölkə əhalisinin ayaqqabı tələbatı əsasən idxal hesabına ödənilir. İqtisadiyyatın bu sahəsi, demək olar ki, tamamilə idxaldan asılı vəziyyətə düşmüşdür. 2022-ci ildə ümumi ayaqqabı tələbatının təxminən 98%-i idxal hesabına təmin olunmuşdur. Son 22 ildə ayaqqabı idxalı 4,1 dəfə artmışdır.

Son 5 ildə xarici ölkələrə 57 mln. dollar dəyərində iribuynuzlu heyvan dəriləri və emal olunmamış qoyun-quzu dəriləri satılmışdır. Eyni zamanda, son 5 ildə 366 mln. dollar dəyərində ölkəyə ayaqqabı idxal olunmuşdur. Hər il orta hesabla ayaqqabı idxalı üçün xarici ölkələrə 73 mln. dollar ödənilir.

Onu da qeyd etməliyik ki, ət üçün kəsilmiş iribuynuzlu mal-qara və qoyun quzunun heç də hamısının dəriləri dəri emal edən müəssisələrə çatmır, sadəcə atılır. Məsələn, DSK-nin hesabatlarında göstərilir ki, 2022-ci ildə 920,1 min baş ət üçün iribuynuzlu mal-qara, 3735,9 min baş isə qoyun-quzu kəsilmişdir. Təkcə bu hesabla itkiləri də nəzərə alsaq, təxminən, 920 min ədəd iribuynuzlu mal-qara dərisi, 3,7 mln. ədəd qoyun-quzu dərisi olmalı idi. Bundan 531 min ədəd iribuynuzlu mal-qara dərisi, 1426,5 min ədəd emal olunmamış qoyun-quzu dərisi ixrac olunur. Kəsilmiş mal-qaranın, təxminən 35%-i, kəsilmiş qoyun-quzunun isə 16%-i yerli emal müəssisələri tərəfindən alınaraq təyinatına görə emal edilir. İxracı da nəzərə alsaq kəsilmiş qoyun-quzunun dərilərinin 54%-i statistik hesabatlarda görünür, qalan 46% yəni, 1,7 mln. ədədi isə hesabatlarda görünmür. Bu dərilər atılır və ya rəsmi hesabatdan yayındırılır.

Belə nəticəyə gəlmək olar ki, ölkədə xammalımız var, bu sahəni inkişaf etdirmək olar və idxal üçün sərf olunan valyutanın əhəmiyyətli hissəsini ölkədə

saxlamaq olar. Bu rəqəmlər bir daha sübut edir ki, gön-dəri istehsalını dəfələrlə artırmaq üçün ölkədə böyük potensial mövcuddur və bu potensialdan yararlanmaq üçün hökümət bütün kəsilmiş mal-qara və qoyun-quzunun dərilərinin emala cəlb edilməsi üçün ciddi tədbirlər görməlidir.

Azərbaycanda "Gilan Dəri" şirkətinə məxsus və Yevlax şəhərində yerləşən, ildə 1250 ton hazır dəri məhsulları istehsal etmək gücünə malik olan dəri emalı zavodu fəaliyyət göstərir.

Yun emalı birbaşa qoyunçuluqla bağlı sahədir. Azərbaycanda 2022-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə 7899,7 min baş qoyun qeydə alınmışdır. Bildiyimiz kimi, yunun keyfiyyətinə görə qoyun cinsləri zərif, qaba və yarımqaba növlərə bölünür. "*Azərbaycanda əsasən qaba yunlu qoyun cinsləri üstünlük təşkil edirlər. Bu yun növü daha çox xalçaçılıq sahəsində istifadə olunur. Xalçaçılıq kompleks anlayış olduğundan, bura xalçanın toxunuşu ilə yanaşı, onun xammalının hazırlanması, emalı, ticarəti də daxildir"* [100,s.51].

**Cədvəl 2.2.19 Yun və xalça istehsalının dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2000 nisbət |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yun istehsalı min t. | 10,9 | 13,1 | 15,6 | 17,0 | 15,8 | 16,1 | 16,1 | 16,1 | 15,8 | 145% |
| Xalça istehsalı min kv.m. | 15,8 | 630,0* | 3,3 | 0,4 | 2,4 | 3,0 | 1,3 | 13,0 | 5,6 | -3,2 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Sənaye" 2023. https://www.stat.gov.az/source/agriculture/, https://www.stat.gov.az/source/industry/, məlumatları əsasında müəllif tərtibatı

*DSK 2005-ci il xalça istehsalı hesabatına fiziki şəxsləri də fəaliyyətini daxil etmiş, sonrakı illərdə isə daxil etməmişlər. Ona görə də 2005-ci ildə digər illərlə müqayisədə böyük fərq alınır.

Cədvəl 2.2.19-dan göründüyü kimi, yun istehsalında sabit artım tempi müşahidə olunur. Son 22 ildə yun istehsalı 1,4 dəfə artaraq 2022-ci ildə 15,8 min tona çatmışdır. Ancaq istehsal olunan yun məhsullarının satış bazarı olmadığı üçün şəxsi istifadələrə sərf olunur və ya sıradan çıxır. Xalça istehsalı isə cədvəldən göründüyü kimi, 2022-ci ildə 2000-ci ilə nisbətən 2,8 dəfə azalmışdır. Bu rəqəm, təkcə son bir ildə 2,3 dəfə azalmışdır. Bunun müqabilində isə hər il ölkəyə ortalama 15 mln. dollar valyuta sərf edilərək xalça və xalça məmulatları idxal olunur.

İsmayıllı rayonun Cülyan kənd sakini, qoyunçuluqla məşğul olan fiziki şəxs, fermer Ağaməmməd Ağayevin dediklərindən: *"Uzun illərdir ki, qoyunçuluqla məşğulam. 400 başdan çox qoyunum var. Hər il 1-2 ton arası yun istehsal edirəm. Heç bir alıcı təşkilat olmadığı üçün yunu sata bilmirəm. Mənim kimi qoyunçuluqla məşğul olan bütün fermerlər eyni problemi yaşayırlar. Bazarda da kiloqramla bu qədər yunu satmaq mümkün deyil, böyük həcmdə yun alan müştəri yoxdur. Ona görə də illərlə anbarlarımızda yığılan yun zay olur və atmağa məcbur oluruq. Hər baş qoyunun qırxılması üçün 0,80 manat pul ödəyirəm və bu qədər yundan həmin pulu da çıxartmaq olmur".*

Fermerin dediklərindən göründüyü kimi, istehsal olunan yunun emalı müəssisələri olmadığı üçün məhsul satılmır. Ona görə də bu problemin çözülməsi üçün və ölkədə xalçaçılığın əvvəlki şöhrətini qaytarmaq üçün dövlətin güclü dəstəyinə ehtiyac vardır.

2006-cı ildə Ağcabədi rayonunun Ağabəyli kəndində yun emalı fabriki fəaliyyətə başlamışdır. İstehsal gücü sutkada 14 ton olan bu fabrik istehsal etdiyi məhsulun satışında problemlərlə üzləşdiyi üçün fəaliyyətinin əhatəsini nəinki genişləndirə bilmədi, müəssisənin fəaliyyətini dayandırmağa məcbur oldu.

Ölkənin bir çox rayonlarında "Azərxalça" ASC-nın istehsal müəssisələrinin fəaliyyətə başlamasına baxmayaraq bu sahədə inkişaf hələlik yoxdur.

Azərbaycanda qədimdən, 5-ci əsrdən baramaçılıqla məşğul olurlar. Əlverişli coğrafi mövqeyi və İpək yolunun üstündə yerləşməsi hələ XII əsrdə bu məhsulun Avropa və Asiya ölkələrinə ixrac etməyə münbit şərait yaratmışdır.




**Qrafik 2.2.2 Barama istehsalının dinamikası. ton.**
Mənbə: DSK "Azərbaycanın kənd təsərrüfatı" 2023 s.172.
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasında müəllif tərtibatı

Qrafik 2.2.2-dən göründüyü kimi, 2015-ci ildən sonra barama istehsalında güclü təkan olmuşdur. Barama istehsalı cəmi 2 il müddətində 200 kq. illik istehsal

həcmindən, 2019-cu ildə 643,7 tona istehsal həcminə yüksəlmişdir. Ancaq 2019-cu ildən başlayaraq barama istehsalı azalmağa başlamışdır. 2022-ci ildə istehsal 2019-cu ilə nisbətən 1,9 dəfə azalmışdır.

2015-ci ildən sonra bu sahəyə diqqət yetirilməyə başlanmışdır. 2017-ci ildə "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət proqramı" təsdiq edilmişdir [24]. Baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə 2016-cı ilin dekabr ayında Çindən 1,5 milyon tut (çəkil) tingi gətirilmişdir. Bu tinglər respublikanın 37 rayonuna paylanmış, ümumilikdə 150 ha. yeni tut bağları salınmışdır. Qax Rayon Barama Damazlıq Stansiyası yenidən qurulmuş, yeni daha məhsuldar, rayonlaşdırılmış barama toxumları yetişdirilmiş və kümçülərin istifadəsinə verilmişdir. Eyni zamanda, Şəki İpək kombinatı da fəaliyyətini gücləndirmişdir.

İstehsal olunmuş ipək ipliklərin satış dinamikası haqqında təəssüf ki, DSK-nin hesabatlarında heç bir məlumata rast gəlinmir. Dövlət Gömrük Komitəsinin məlumatından aydın olur ki, 2020-ci ildə 1.1 mln. dollar dəyərində 163,7 ton ipək ixrac olunmuşdur.

"*Vaxtı ilə Azərbaycan sənayesində yüksək xüsusi çəkiyə malik olan yüngül və yeyinti sənayesinin xüsusi çəkisi azalmağa meyillidir. 2014-cü ildə Azərbaycanda istehsal olunan sənaye məhsulunun cəmi 0,5%-i yüngül sənayenin, 3,01%-i yeyinti sənayesinin payına düşmüşdür. Əsasən bu səbəblərdən sənayenin təmiz mənfəəti 2012-ci ildən azalmağa başlamışdır"* [83. s.194].

Bu gün ölkədə emal sənayesi müəssisələrinin sayının kənd təsərrüfatı məhsullarının istehsalı ilə uzlaşmaması, daha doğrusu, yetərincə olmaması bu sahənin böyük miqdarda investisiyaya ehtiyacı olmasından xəbər verir. Etiraf edək ki, Azərbaycanda aqroemal müəssisələrinin yetərincə olmaması və bəzilərinin də texnoloji cəhətdən müasir tələbatdan geri qalması mövcud məhsul istehsalının həcminin artım səviyyəsinin ləngiməsinə, məhsulun keyfiyyətinin lazımi səviyyədə olmamasına və məhsulların müəyyən hissəsinin itkisinə səbəb olur ki, bu da sonda istehlakçıların yerli məhsullarla təminatına mənfi təsir göstərir, anoloji idxal məhsullarına bazarda üstünlük qazandırır. Üzümçülüyün və tütünçülüyün əkin

sahələrinin bərpası, bu məhsullara uyğun emal müəssisələrinin yaradılması və, nəhayət, şərab və tütün məhsulları üçün ənənəvi Rusiya bazarının yenidən ələ alınması səmərəliliyin qat-qat artırılmasına gətirib çıxarardı [101, s.187].

Ölkədə müasir texnologiyalara malik emal müəssisələrinin sayının əhəmiyyətli sürətdə artırılması aqroemal sahəsinin inkişafı üçün böyük təkan olardı və bu dövlət qarşısında prioritet məsələlərdən biri kimi durmalıdır.

## 2.3. Aqroemal sahəsinin müəssisələri ilə təchizatçılar və istehlakçılar arasında münasibətlər sferasında bazar transformasiyası.

Transformasiya iqtisadiyyatında istehlakçı məhsulun fiziki xüsusiyyətlərini deyil, problemin həllini və təcrübəni deyil, özünü inkişaf etdirməyi nəzərə alır. Buna görə də biznes subyektlərinin uğuru istehlakçının inkişafından asılıdır.

Azərbaycanda bazar münasibətlərinin bərqərar olması və mövcudluğunda 30 ilə yaxın təcrübə olmasına baxmayaraq, bu müddət bazar prosesinin idarə edilməsi texnologiyalarını inkişaf etdirmək və beynəlxalq inkişaf səviyyəsinə çatdırmaq üçün kifayət olmamışdır. Aqrar-sənaye sektorunun bazarlarının səmərəli fəaliyyət göstərməsi və inkişafı üçün bazarın mövcud konyunkturasını araşdırmaq və orada baş verən dəyişiklikləri və inkişaf meyllərini təhlil edə bilmək lazımdır.

İqtisadi nəzəriyyə və təsərrüfat praktikasında ən çox yayılmış kateqoriyalardan biri bazardır, hansı ki, bir mənalı şərhi yoxdur, ictimai istehsalın inkişafı ilə zaman-zaman tərifini dəyişir. Satılan məhsulların istehsalının inkişafı və eyni zamanda, ictimai əmək bölgüsünün dərinləşməsi amillərini nəzərə alsaq, bazarın tərifi inkişaf edərək, ticarət yeri anlayışından daha mürəkkəb bir iqtisadi proses məzmunu alır.

Ölkənin aqroemal sahəsində məhsul istehsalının əsas artım mənbələri aşağıdakı kimidir:

- Aqroemal sahəsinin xammal mənbəyi olan kənd təsərrüfatı istehsalının davamlı artım tempi;
- Əhalinin pul gəlirlərinin artması;
- Aqroemal müəssisələrinin maliyyə durumunun yaxşılaşdırılması;

Dövlətin aqroemal sahəsinin davamlı inkişafı üçün göstərdiyimiz amillər əslində iqtisadiyyatın bütün sahələri üçün və təbii ki, ölkənin aqrar-sənaye kompleksində təsərrüfat subyektləri arasında münasibətlərdə bazar modelinin tətbiqi üçün məqbuldur və obyektiv əsasdır.

Ölkənin ümumi bazarının tərkibində aqrar-sənaye məhsulları, o cümlədən, ərzaq məhsulları, yüngül sənaye məhsulları (gön-dəri, geyim, trikotaj və s.), tütün məmulatları bazarı mühüm yer tutur. Bu məhsulların hər biri öz sosial oriyentasiyası ilə, özünəməxsus bazar xarakteri ilə, yəni son dərəcə geniş məhsul çeşidi, istehlakçı seqmentlərinin fərqlənməsi, qısa kapital dövriyyəsi, məhsulların məhdud istifadə müddəti, nisbətən qısa istehsal müddəti və s. ilə xarakterizə olunur.

Ölkədə aqroemal sahəsinin son beş ildəki göstəricilərinin dinamikası bunu deməyə imkan verir.

**Cədvəl 2.3.1 Aqrar-sənaye sektorunun əsas göstəriciləri**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2018 ilə nisbətən |
|---|---|---|---|---|---|---|
| Müəssisələrin sayı: | | | | | | |
| Qida məhsulları istehsalı | 393 | 449 | 487 | 540 | 587 | 149% |
| İçki istehsalı | 120 | 126 | 131 | 146 | 165 | 138% |
| Tütün məmulatları istehsalı | | | | | | |
| Toxuculuq sənayesi | 10 | 11 | 13 | 17 | 18 | 180% |
| Geyim istehsalı | 74 | 80 | 89 | 93 | 95 | 128% |
| Dəri və dəri məmulatları, | 77 | 99 | 112 | 120 | 132 | 171% |
| Ayaqqabı istehsalı | 29 | 29 | 30 | 32 | 32 | 110% |
| İstehsal: mln.man | | | | | | |
| Qida məhsulları istehsalı | 3050,8 | 3584,8 | 3884,3 | 4495,6 | 4890,9 | 160% |
| İçki istehsalı | 295,0 | 433,1 | 427,6 | 490,9 | 563,0 | 191% |
| Tütün məmulatları istehsalı | 56,1 | 248,9 | 436,0 | 677,9 | 768,9 | 13,7dəfə |
| Toxuculuq sənayesi | 248,3 | 304,3 | 240,9 | 369,5 | 388,6 | 156% |
| Geyim istehsalı | 103,6 | 111,7 | 112,8 | 130,0 | 162,3 | 157% |
| Dəri və dəri məmulatları, ayaqqabı istehsalı | 26,1 | 21,8 | 25,8 | 22,3 | 25,3 | 97% |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2023 s.37.
https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllifin tərtibatı

Cədvəl 2.3.1-dən göründüyü kimi, aqrar-sənaye müəssisələrinin say vahidləri və həm də istehsal olunan məhsulların dəyəri son 5 ildə müsbət dinamikaya malik olmuşdur. Elə məhsullar (tütün məmulatları, toxuculuq sənayesi məhsulları və s.) var ki, onların istehsalı 2018-ci ilə nisbətən dəfələrlə yüksəlmişdir. Tütün məmulatlarını

istehsal edən müəssisələrin sayı son 5 ildə 80% artaraq, 10-dan 18 vahidə çatmışdır. Eyni zamanda istehsal etdiyi məhsulun dəyəri 13,7 dəfə artmışdır. Bu artım tək tütün məmulatlarının istehsalında deyil, digər məhsul qruplarının istehsalında da əhəmiyyətli sürətdə özünü göstərir. Təkcə qida məhsulları istehsalı son 5 ildə təxminən 1,8 mld. manat artmışdır. Burada qiymət amili də böyük rol oynayır. Belə ki, son 5 ildə cədvəldə göstərilən məhsul qrupları üzrə qiymətlər də çox artmışdır. Onu da qeyd edək ki, bu müddət ərzində dövlətin təbii inhisarında olan enerji daşıyıcılarının və suyun qiyməti bir neçə dəfə artırılmışdır ki, bu da istehlak mallarının qiymətlərinə təsir edən əsas amillərdən biridir.

DSK-nin hesabatlarına əsasən, 2018-ci ili baza ili kimi götürsək 2022-ci ildə ölkədə istehsal qiymət indeksləri qida məhsulları üzrə 160%, içki məhsulları üzrə 191%, toxuculuq məhsulları üzrə 156%, geyim məhsulları üzrə 157% olmuşdur. Bu müddət ərzində tütün məmulatlarının istehsalı isə 13,7 dəfə artmışdır. Dəri və dəri məmulatlar, ayaqqabı üzrə isə 3% azalma qeydə alınmışdır [76].

Bütün bu qiymət artımlarına baxmayaraq, istehsalın artımında müəssisələrin modernləşdirilməsi, qabaqcıl texnologiyaların tətbiqi, xərclərin optimallaşdırılması, bazar payının artırılmasına nail olmaq və s. kimi amillər də böyük rol oynamışdır.

MDB ölkələri istisna olmaqla, Azərbaycana idxal edilən bütün aqroemal məhsulları, o cümlədən, qida məhsulları öz ölkələrində dövlət dəstəyindən yararlanırlar və istehsal etdikləri məhsullara görə subsidiyalar alırlar. Məhz bu dövlət dəstəyi onları praktik olaraq heç bir subsidiya almayan, qida məhsulları istehsal edən yerli müəssisələrlə rəqabət aparmağını çox asanlaşdırır və onları bazardan rahatlıqla sıxışdırıb çıxara bilirlər. Nəticədə, ölkə bir çox məhsullar üzrə idxaldan asılı vəziyyətə düşür ki, bu da gələcəkdə bazarda dominantlıq edən idxal məhsullarının qiymət artımı ilə nəticələnə bilər.

İstehsal üçün yerli xammal daha dayanıqlı olur, həm keyfiyyəti və həm də həcmi artan dinamika ilə inkişaf edir. Ucuz idxal xammalının isə əksinə, müəyyən qədər mənfəəti olsa da, davamlı və güvənli olmur.

Şəkər istehsalında bunu aydın görmək olar. Ökədə şəkər istehsalı üzrə yeganə olan İmişli şəkər zavodu idxal xam şəkərə üstünlük verməyə başladı və yerli şəkər

çuğunduru istehsalına güclü diqqət ayırmadı. Nəticədə, fermerlərin bu sahəyə marağı azaldı və ölkədə şəkər çuğunduru istehsalı 2017-ci ilə nisbətən 2022-ci ildə təxminən 2 dəfə azaldı. Hal-hazırda İmişli şəkər zavodu, əsasən, idxal xammalından asılı vəziyyətdədir. İdxal azalanda şəkər istehsalı da azalır. 2017-ci ilə nisbətən 2022-ci il ərzində xam şəkər idxalı, təxminən, 2 dəfə artmışdır. Onu da qeyd etməliyik ki, şəkər zavodunun artıq yerli xammala da marağı artmağa başlamışdır. Belə ki, 2022-ci ildə əvvəlki ilə nisbətən 11,6 dəfə çox yerli istehsaldan istifadə edilmişdir. 2021-ci ildə şəkər istehsalında yerli xammalın payı 6% idisə, artıq 2022-ci ildə bu rəqəm 40%-ə yüksəlmişdir. Paralel olaraq şəkər istehsalı da artmışdır. Ona görə də yerli xammala üstünlük verilməsi daha məqsədəmüvafiq olardı.

Şəkər istehsalının timsalında görürük ki, emal müəssisəsinin xammal təminatı ilə əlaqədar düzgün strategiya qurmaması səbəbindən istehsal çətinlikləri ilə qarşılaşır. Eyni zamanda, xam şəkərin nəzarətsiz idxalı Azərbaycanın şəkər çuğunduru istehsalçılarının azalmasına gətirib çıxarır və bu hal davam edərsə, şəkər çuğunduru istehsalını tamamilə aradan qaldıra bilər ki, bu da iqtisadi və sosial itkilərə səbəb olacaqdır. Burada xam şəkərin nisbətən ucuz qiymətlərə olması da zərərlidir, çünki ölkədə şəkər çuğunduru istehsalı tamamilə məhv olarsa, idxalçı ölkələr bu fürsətdən istifadə edər, xam şəkərin qiymətini kəskin qaldıra bilərlər.

Eyni vəziyyət tütün və siqaret bazarında da hökm sürür. Azərbaycanda mövcud siqaret zavodları tələb olunan xammalın demək olar ki, hamısını xaricdən idxal edirlər.

Ölkədə 2022-ci ildə 5,1 min ton yaş tütün istehsal olunmuşdur. İstehsal olunmuş tütün qurudularaq ixrac edilmiş, paralel olaraq həmin ildə 6,4 min ton tütün və tütünün sənaye əvəzediciləri idxal edilmişdir. Məhz, yerli siqaret fabriklərinin ucuz idxal xammalına üstünlük verməsinin və siqaret xammalı bazarında dövlət tənzimlənmələri düzgün qurulmadığı üçün son 22 ildə tütünün əkin sahəsi 6,2 dəfə, istehsalı isə 10,4 dəfə azalmışdır. Paralel olaraq tütün istehsalında çalışan işçilərin sayı da azalmışdır. Siqaret xammalının idxalı isə, əksinə, son 22 ildə 2 dəfədən çox artmışdır. Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycanda istehsal olunan tütün növü dünyada keyfiyyətli tütün növü sayılan "Vircinya" sortudur. Əgər xarici siqaret

istehsalçılarının keyfiyyətli Azərbaycan tütününə maraqları olmasaydı və az da olsa ixrac olunmasaydı, yerli siqaret istehsalçılarının ucuz idxal xammalına üstünlük verməsi və dövlət tərəfindən bazarın düzgün tənzimlənməməsi səbəbindən ölkədə tütünçülük tamamilə məhv olacaqdır.

Ölkənin ərzaq bazarında bir çox başqa məhsullarda da, o cümlədən, unüyütmə sənayesində, çay, bitki yağları, makaron və s. məhsullarının xammal bazarında idxal məhsulları dominantlıq edir, başqa sözlə idxaldan asılılıq çox yüksəkdir.

**Cədvəl 2.3.2 2022-ci ildə aqroemal məhsulları üzrə idxaldan asılılıq. min t.**

| Göstəricilər | Cəmi istehlak | İdxal | İdxaldan asılılıq %-lə |
|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 424,6 | 61,5* | 14% |
| Kərə yağı | 41,8 | 17,3 | 41% |
| Şəkər xammalı | 545,3 | 322,2 | 59% |
| Şəkər | 275,8 | 48,4 | 17% |
| Buğda | 1820,7 | 1293,0 | 71% |
| Çay | 14,1** | 14,4*** | 102% |
| Düyü | 60,4 | 50,2 | 83% |
| Makaron | 35,3 | 21,4 | 64% |
| Bitki yağları | 85,3 | 46,1 | 54% |
| **Saflaşdırılmamış xam bitki yağları** | | **96,4** | |
| Balıq və balıq məhsulları | 76,5 | 17,2 | 22% |

Mənbə: https://www.stat.gov.az/source/food_balances/ 2023 və https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/en-cox-idxal-olunan-mallar 2023 məlumatları əsasında müəllifin tərtibatı

*2022-ci ildə digər ölkələrdən 49,8 min baş iribuynuzlu mal-qara alınmışdır. Bu mal-qaranın 88%-i (əsasən Gürcüstandan alınan 39,8 min baş) bir müddət saxlanılıb ət üçün kəsilir. Əvvəlki illərdə bu rəqəm 2 dəfədən çox idi.

** Bura ixrac da daxildir.

*** Buraya fermentləşdirilmiş və qismən fermentləşdirilmiş, emal üçün idxal olunmuş qara çay da daxildir.

Cədvəl 2.3.2-dən də göründüyü kimi, ölkədə qida məhsulları üzrə idxaldan asılılıq kifayət qədər böyükdür. Bu asılılıq kərə yağı, şəkər xammalı, ərzaq buğdası, makaron, düyü, çay, bitki yağlarında daha çoxdur. DSK-nın bəzi məlumatlarında qarışıqlıq var, belə ki, buğda məhsulu üzrə istehlak edilmiş məhsulun tərkibində un və yarma istehsalı birlikdə göstərilir və ona görə də idxal olunan buğdanın həcmində un istehsalına sərf olunan hissəsini ayırd etmək olmur. Əslində isə idxal olunan ərzaq buğdasının demək olar ki, hamısı un istehsalına sərf edilir. 2022-ci ildə ölkədə 1365 min ton un istehsal edilmişdir. İdxal ərzaq buğdasının un istehsalına istifadə

edildiyini nəzərə alsaq, deməli, unüyütmə sənayemiz həmin ildə 74% idxaldan asılı olmuşdur. Bu rəqəm müxtəlif illərdə 70%-85% arasında dəyişilir.

Bitki yağları üzrə asılılıq 100%-dir, belə ki, birbaşa istehlak olunan məhsulların 54%-i idxal olunur. Eyni zamanda ölkədə "Azərsun" holdinqə məxsus mövcud bitki yağı istehsal edən zavodlar idxal olunan saflaşdırılmamış xam bitki yağları xammalı ilə işləyirlər.

Çay istehsalında da vəziyyət eynidir. Ölkədəki mövcud çay fabrikləri idxal olunan fermentləşdirilmiş və qismən fermentləşdirilmiş qara çay (yarımxammal) məhsullarını emal edirlər.

Qida məhsulları üzrə idxaldan asılılıq ölkənin iqtisadiyyatını da asılı edir. Ölkəmizdə qida sənayesi üzrə idxaldan qurtulmaq üçün çox əlverişli şərait mövcuddur və bundan ötəri dövlətin tənzimlənmə mexanizmləri işə düşməli, daxili bazarın qorunması və yerli istehsalın artırılması üçün ciddi tədbirlər görülməlidir.

Eyni vəziyyət siqaret istehsalına da aiddir. Ölkədə olan siqaret zavodları keyfiyyəti ilə şöhrət qazanmış Azərbaycan tütünündən imtina edərək, daha ucuz idxal olunan tütün və tütünün sənaye əvəzedicilərinə üstünlük verirlər. Bu zavodlar demək olar ki, tamamilə idxal məhsulları hesabına fəaliyyət göstərirlər.

Ölkədə siqaretlərin pərakəndə satış qiymətləri çox bahadır. 2022-ci ildə idxal olunan hər 20 siqaret dənəsinə (bir qutu) 0,41 dollar və ya 0,70 manat ödənilmişdir. İxrac edilən siqaretin hər 20 dənəsi 0,15 dollara və ya 0,26 manata satılır. Ancaq göründüyü kimi, ölkədə bir qutu siqaretin qiyməti dəfələrlə çoxdur. DSK-nın məlumatlarına görə 2022-ci ildə bir qutu siqaretin orta satış qiyməti 2,55 manat olmuşdur, yəni xaricə satılan qiymətdən 10 dəfə baha yerli bazarda satılır. Bu da siqaret istehsalı və ticarətinin bir əldə cəmləşdiyini, siqaretin bazar qiymətinin tələb və təklif əsasında deyil, diqtə ilə formalaşdığını göstərir. Onu da qeyd etməliyik ki, 2022-ci ildə Azərbaycanda siqaretin pərakəndə ticarət dövriyyəsi 1,6 mld. manat olmuşdur.

Ölkənin tütün və siqaret bazarının düzgün tənzimlənməməsi səbəbindən son 22 ildə tütün əkini sahəsi 6,1 dəfə azalaraq, 14,8 min hektardan, 2,4 min hektara, tütün istehsalı isə 10,4 dəfə azalaraq, 53 min tondan 5,1 min tona düşmüşdür. Ölkənin

dağətəyi rayonlarında tütünçülüklə ənənəvi olaraq məşğul olan minlərlə ailələr bu sahəni tərk edərək, başqa məşğuliyyətə keçmişlər. Onu da qeyd etməliyik ki, tək siqaret məhsulu deyil, aqroemal sahəsinin bir çox ərzaq və qeyri-ərzaq mallarının idxal qiymətləri ilə pərakəndə satış qiymətləri arasında fərq çox böyükdür.

**Cədvəl 2.3.3 Bəzi aqrar-sənaye məhsullarının idxal və satış qiymətləri 2022-ci il**

| Göstəricilər | İdxal qiyməti man. | Orta pərakəndə satış qiyməti man. | Müqayisə + - |
|---|---|---|---|
| Mal əti kq. | 7,66 | 12,91 | + 1,69 dəfə |
| Quş əti kq. | 2,67 | 5,54 | +2,1 dəfə |
| Təzə və dondurulmuş balıq kq. | 4,09 | 7,75 | +1,9 dəfə |
| Kərə yağı və digər süd yağları kq. | 9,91 | 19,07 | +1,9 dəfə |
| Çay kq. | 8,90 | 22,46 | +2,5 dəfə |
| Buğda unu kq. | 0,60 | 1,43 | +2,4 dəfə |
| Bitki yağları 1 litr. | 2,85 | Zeytun yağı- 14,14<br>Günəbaxan yağı- 5,27<br>Qarğıdalı yağı- 6,79 | Orta rəqəmlə +3,1 dəfə |
| Siqaret 1 qutu (20 əd.) | 0,71 | 2,55 | +3,6 dəfə |
| Pambıq parçalar 1kv.m. | 0,66 | 3,75 | +5,7 dəfə |
| Ayaqqabı 1 cüt | 4,72 | 25,80 (orta) | +5,5 dəfə |
| Kolbasa | 5,26 | 14,75 (orta) | 2,8dəfə |

Mənbə: DSK “Azərbaycanda qiymətlər” 2023 s.39 və DGK “Gömrük statistikası” 2022 https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/en-çox-idxal-olunan-mallar məlumatları əsasında müəllifin tərtibatı

Cədvəl 2.3.3-dən göründüyü kimi, bir çox qida və yüngül sənaye məhsullarında idxal qiymətləri ilə pərakəndə satış qiymətləri arasında fərq həddindən artıq böyükdür. Bu idxal olunan məhsullarda sağlam rəqabətin olmaması, idxal inhisarçılığı və idxal üzərində məmur lobbiçiliyi hallarının olması ilə əlaqədardır. Məsələn, cədvəldən aydın olur ki, çay məhsulları ölkəyə hər kiloqramı 8,90 manata idxal olunur, ancaq onun satış qiyməti təxminən 2,5 dəfə çoxdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, ölkədə çay sənayesi ilə əsasən (idxalı, qablaşdırılması və satışı ilə) bir şirkət “Asərsun” holdinq məşğul olur. Ölkədə digər sahibkarlar bu məhsulun biznesi ilə məşğul olmurlar və ya bu imkandan məhrumdurlar. Ona görə də çayın yerli bazarda istehlak qiyməti bazar qanunları ilə, yəni tələb və təklif əsasında deyil, inhisarçı şirkətin diqtəsi əsasında formalaşır. Nəzərə alsaq ki, 2022-ci ildə ölkəyə 14,4 min ton çay idxal edilmiş və bundan ötəri 75,5 milyon dollar və ya 128,3 milyon manat vəsait ödənilmişdir. Həmin məhsulun ölkə daxilində satışından isə, ümumilikdə, 323,4 mln. manat vəsait əldə edilmişdir. Fikrimizcə, ölkədə yerli çay

sənayesinin inkişaf etməməsinin, coğrafi iqlim şəraitinin imkan verdiyi halda çay plantasiyalarının əvvəlki səviyyəyə (1990-cı il səviyyəsi) qaldırılmamasının bir səbəbi də, məhz rəqabət mühitinin düzgün tənzimlənməməsinin nəticəsidir.

Eyni vəziyyət kərə və bitki yağlarının idxalında da mövcuddur. Kərə yağlarının yerli bazarda satış qiyməti 2022-ci ildə idxal qiymətlərindən təxminən 2 dəfə, bitki yağlarının (zeytun, günəbaxan və qarğıdalı yağlarının orta qiyməti 6,70 man.) orta qiyməti isə 3,1 dəfə çox olmuşdur. Nəticədə, 2022-ci ildə kərə yağı üzrə 140,4 milyon manat, bitki yağları üzrə isə 704,5 milyon manat ümumi gəlir götürülmüşdür. Onu da qeyd etməliyik ki, zeytun yağının 2020-ci ildə dünya üzrə orta satış qiyməti kiloqramı 2,6 dollar və ya 4,42 manat olmuşdur.

Ayaqqabı sənayesində vəziyyət daha acınacaqlıdır. Ölkədə ayaqqabı istehsalı üçün əsas xammal olan gön-dəri sektorunun çox güclü dövlət dəstəyinə ehtiyacı vardır. Ölkədə bir ildə ixrac istisna olmaqla, kəsilən mal-qara gönlərinin 35%-i, qoyun-quzu dərilərinin isə 16%-i emala verilir. Emal olunmuş həmin gön və dərilərin də əksəriyyət hissəsi xammal kimi ixrac olunur. Ölkədə ayaqqabı istehsal edən müasir tipli, əhalinin tələbatını ödəyə biləcək ayaqqabı fabriki yoxdur. Nəticədə ölkənin ayaqqabı bazarı tamamilə, daha dəqiq desək, 98% idxaldan asılı vəziyyətə düşmüşdür. Fikrimizcə, ayaqqabı sənayesinin bu vəziyyətə düşməsinin səbəbini idxal və pərakəndə satış qiymətləri arasında olan çox böyük fərqdə axtarmaq lazımdır. Belə ki, DSK-nin məlumatlarından aydın olur ki, 2022-ci ildə ölkəyə idxal olunan ayaqqabıların hər cütünə orta hesabla 4,72 manat ödənilmişdir. Həmin ildə yerli pərakəndə satış bazarının araşdırmalarından məlum olur ki, bütün qrup ayaqqabılar üzrə orta pərakəndə satış qiyməti, ortalama, 25,80 manat təşkil etmişdir. Bu o deməkdir ki, yerli bazarda satış qiymətləri idxal qiymətlərindən 5,5 dəfə çoxdur. Ölkəyə 2022-ci ildə 155,5 milyon manatlıq ayaqqabı idxal olunmuş və yerli bazarda təxminən 826 milyon manata satılmışdır. Göründüyü kimi, fərq həddindən artıq böyükdür.

Tənzimlənən qiymətlər haqqında 30 may 2003-cü ildə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Həmin Qanunun bəzi müddəalarını qeyd etmək yerinə düşər:

*“-inhisarçılıq hallarının məhdudlaşdırılması və qarşısının alınması, istehlakçıların və istehsalçıların maraqlarının uzlaşdırılması;*

*-yerli istehsalın intensiv inkişafına əlverişli şərait yaratmaq və daxili bazarın qorunmasını təmin etmək;*

*-yüksək mənfəət əldə etmək məqsədilə qiymətlərin səviyyəsinin əsassız olaraq artırılmasının qarşısını almaq və dövlətin iqtisadi maraqlarını təmin etmək;”* [109].

Qida və aqroemal sənayesində idxalı əvəzetmənin uğurlu inkişafı aqrar-sənayenin məhsullarına tələbatın tələb olunan səviyyəsinin təmin edilməsindən asılıdır. Bundan əlavə idxalın əvəzlənməsində heç də az əhəmiyyətli olmayan məsələlərdən biri də istehsal üçün xammal idxalının intensivliyinin azaldılmasıdır.

Belə ki, bəzi məhsullar üzrə istehlak materialları, xammalın hamısı və ya müəyyən bir hissəsi və digər resurs elementləri üzrə istehsal prosesində idxal istehlakının payı 80-90%-ə çatır. Ölkədə aqroemal, o cümlədən, qida məhsullarının istehsalında istifadə olunan idxal olunan əsas və köməkçi məhsulların əsas növlərinin dəqiqləşdirilib istehsalına başlanması idxalın əvəzlənməsinə bir töhfə olardı. Ona görə də idxalın intensivliyinin azaldılması məsələsində çox şey yeyinti və emal sənayesi üçün iqtisadiyyatın digər sahələrindən, o cümlədən, maşınqayırma sahəsindən asılı olacaqdır.

İdxalın əvəzlənməsi məsələsində dövlətin üzərinə düşən digər vəzifələrdən biri dövlət satınalmalarının yerli ərzaq məhsulları ilə tam təmin olunmasına keçiddir. Satın alınan ərzaq mallarının həcmi kifayət qədər böyükdür və idxal məhsullarından daha çox istifadə edilir.

Ölkədə ən ciddi problemlərdən biri aqroemal sahəsində iri investisiya layihələrinin maliyyələşdirilməsində çətinliklərin olmasıdır. Doğrudur, kiçik investisiya qoyuluşları ilə aqroemal sahəsinin istehsalını artırmaq mümkündür. Amma banklar kredit resurslarının verilməsinə qərar verərkən uzunmüddətli istehsal kreditlərinin verilməsinə çox qısqanclıqla yanaşırlar, həm də bu kreditlər çox bahadır.

Nəticədə, dövlət tərəfindən regionların infrastrukturunun yaradılmasına və saxlanmasına qoyulmuş böyük həcmli investisiyalar lazımi nəticəni vermir, çünki regionlarda olan sahibkarlıq subyektləri lazımi səviyyəyə qalxa bilmirlər.

Regionların infrastrukturuna qoyulmuş investisiyalar ilə regionlarda məhsul istehsalının artım tempi bir-birinə adekvat deyil. Ona görə də bu vəziyyət kənd təsərrüfatı məhsullarının emalı üçün iri investisiya layihələrinin reallaşması məqsədilə əlavə dövlət dəstəyi tədbirlərinin görülməsini təxirəsalınmaz edir.

İdxalın əvəzlənməsinin əsas problemlərindən biri də istehsalın beynəlxalq tələblərə uyğun keyfiyyət səviyyəsinə qaldırılması, məhsulların sertifikatlaşdırılması və standartlaşdırılmasıdır. Qida məhsullarının təhlükəsizlik standartları və ekoloji tələbləri təmin edilməli, müəssisələrin rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal etmələri üçün həvəsləndirilmə tədbirləri görülməlidir. Məlum məsələdir ki, istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi ölkədə mövcud olan aqroemal müəssisələrinin istehsalının yeni texnologiyalarla təminatından və modernləşdirilməsindən çox asılıdır. Köhnə, dövrünü başa vurmuş texnologiyalar ilə məhsul istehsalı bazar rəqabətində uğursuzluğa məhkumdur. Ona görə də perspektivli qlobal tendensiyalara cavab verən, yeni nəsil məhsulların istehsalını təşkil etmək üçün müasir texnologiyaların tətbiqi çox önəmlidir. Bu tədbirlərin həyata keçirilməsi investisiya layihələrinin ən sərfəli şərtlərlə kreditləşdirilməsinin təmin edilməsi ilə mümkündür.

İnsanın yaşaması üçün ərzaq mallarının istehlakı mütləqdir. Ona görə də əhalinin ərzaq məhsullarına olan tələbatı, digər istehlak mallarından fərqli olaraq, əhalinin gəlir səviyyəsi ilə birbaşa asılı deyil. Bu səbəbdən də təkcə bazar mexanizmlərinin köməyi ilə ayrı-ayrı ərzaq məhsullarına tələb və təklif balansını saxlamaq, ölkə əhalisinin ərzaq məhsulları ilə təminatının sabitliyini saxlamaq mümkün deyil. Bu səbəbdən də ayrı-ayrı qida məhsullarının dövlət tərəfindən qiymət tənzimlənmələri ölkə regionlarının ərzaq bazarlarında mövcud vəziyyət nəzərə alınmaqla həllini tapmalıdır.

Ölkənin qida sənayesi iqtisadiyyatında qeyri-qənaətbəxş vəziyyətinin yaranması səbəblərindən biri də istehsalın inkişafı və təkmilləşdirilməsi üçün sərmayə qoyan əmtəə istehsalçılarına müəyyən müddətə (müəssisə tam fəaliyyət göstərənədək) vergi tətillərinin verilməməsi və ya yüksək vergidən azad edilməməsidir. Aqroemal müəssisələrinin rentabelsizliyinə ağır və sərt vergi siyasəti də təsir göstərir. Vergilərin

funksiyası büdcəni doldurmaq yox, iqtisadiyyatı tənzimləmək olmalıdır. Belə şəraitdə vergilərin tənzimləyici funksiyasının fəaliyyəti, dəstəkləyici resursların olmaması səbəbindən tamamilə iflic vəziyyətə düşür və onun hərəkətsizliyi ilə ölkənin qida sənayesində keyfiyyət dəyişiklikləri mümkün deyil.

Dövlət tənzimlənmələrində sərt vergitutma siyasətindən mülayim şəraitə keçirilməlidir və problemin bu cür həllinin başqa alternativi yoxdur. Xüsusilə də, qida sənayesində mülayim vergitutmaya keçid zəruridir və bu sektorda istehsal olunan məhsulların əhalinin qidalanması üçün əhəmiyyətini və sənayenin iqtisadi vəziyyətini əsas götürmək lazımdır.

Dövlət tənzimlənməsinin əsas vəzifəsi kənd təsərrüfatı, emal sənayesi və istehlak arasında mübadilə münasibətlərində paritetə nail olmaq və saxlamaqdır. Bu kateqoriyalar arasında yaranan qiymət bərabərsizliyi ölkənin bir sıra regionlarında kənd təsərrüfatı məhsullarının istehsalçıları ilə emal sənayesi müəssisələrinin əksəriyyəti üçün ağır maliyyə nəticələrinə səbəb olur. Adətən bu cür hallarda ən çox zərər görən kənd təsərrüfatı istehsalçıları olur. Dövlət bunu nəzərə almalı, istehlak bazarında baş verən qiymət artımlarını elə tənzimləməlidir ki, burada qazanan təkcə ticarət şəbəkəsi olmasın.

ABŞ-da ötən əsrin sonlarında quşçuluq-broyler sahəsinin 90%-dən çoxu və bir çox başqa məhsullar şaquli inteqrasiya əsasında istehsal edilmişdir. İnteqrasiya istehsalın təmərküzləşməsinə və bazarın yaxşı mənada inhisarlaşdırılmasına imkan verir. Bu ölkədə qida sənayesi şaquli aqro-ərzaq sistemlərinin əsasını təşkil edir. Belə bir sistemdə kortəbii bazar mexanizmi deyil, son məhsulun ritmik və davamlı təchizatını təmin edən ciddi planlaşdırma fəaliyyət göstərir.

Ölkə bu cür xarici təcrübələrdən yararlanmalı, aqroemal müəssisələri çevik və adaptiv istehsala yiyələnməli, aşağı xərclərə və yüksək məhsuldarlığa fokuslandırılması üçün prioritet şərait təmin edilməlidir.

### 2.4. Aqroemal sahəsi müəssisələrinin fəaliyyətinin ölkənin kənd təsərrüfatının inkişafına təsirinin riyazi-statistik qiymətləndirilməsi

Səmərilik dedikdə minimum resurslarla (xammal, əmək, investisiya və s.) maksimum məhsul əldə edilməsi, başqa sözlə, eyni bir məhsulu daha az xərclə istehsal etmək kimi başa düşülür. Hələ 1911-ci ildə amerikalı mühəndis və iş adamı Harrington Emerson tərəfindən "Səmərəliliyin 12 prinsipi" kitabında istənilən iqtisadi fəaliyyətin öz hədəflərini aydın şəkildə müəyyən etməsinin zəruriliyi əsas fikir kimi ortaya qoyulmuşdur. [57]

Bütün dünyada müəssisələr səmərəlilik, gəlirlilik və istehsalın maya dəyəri haqqında ən dolğun məlumata malik olmağa çalışırlar. Təəccüblü heç nə yoxdur ki, inkişaf və istehsalın böyüməsi məsələləri bütün ölkələrin istehsalçıları və fəaliyyət subyektləri üçün çox vacib məsələdir. Səmərəliliyi və inkişafı dayanıqlı olaraq təmin etmək üçün məhsulların istehsalına çəkilən xərclərin və onların gəlirliliyinin, məhsulların rentabelliyinin nə olduğu düzgün qavranılmalıdır.

Aqroemal sektorunda fəaliyyət göstərən subyektlərin səmərəliliyi bir neçə göstəricilərlə qiymətləndirilə bilər. Bunlara əsasən aşağıdakı göstəriciləri göstərmək olar:

1. Aqroemal sahəsində emal olunan ümumi məhsulların həcmi;
2. Kənd təsərrüfatında istehsal olunan məhsulların ümumi həcmindən emala gedən hissənin xüsusi çəkisi;
3. Aqroemal sahəsində ümumi gəlirin həcmi;
4. Aqroemal sahəsinin ÜDM-də payı
5. Aqroemal müəssisələrindən ümumi büdcə daxilolmaları;
6. Aqroemal sahəsində əməktutumluğu və burada işləyənlərin ümumi məşğul əhalinin sayında xüsusi çəkisi;

Bu göstəricilərin strukturu aqroemal sahəsinin xüsusiyyətlərini daha dolğun əks etdirməlidir. Kənd təsərrüfatı sektorunda istehsal olunan mövcud xammal və məhsulların emalı aqroemal sənayesinin əsas funksiyalarından biridir və bu məhsulların emal dərəcələri aqroemal müəssisələrinin ən mühüm səmərəlilik göstəricilərindən sayılır.

Qlobal dünyada mövcud olan milli iqtisadiyyatlar çalışırlar ki, istehsal etdikləri xammal və məhsulları özləri emal etsinlər və digər ölkələrə xammal deyil, hazır

məhsullar satsınlar. Xammalın ixrac edilməsi inkişafı zəif olan iqtisadiyyatların əsas xüsusiyyətlərindəndir.

Müasir dövrdə aqrar emal sənayesinin inkişafına təsir göstərən əhəmiyyətli məqamlardan biri kənd təsərrüfatı məhsulları istehsalçıları ilə emal sənaye müəssisələri arasında mövcud inteqrasiya əlaqələridir. *"Ümumiyyətlə, inteqrasiya əlaqələri istehsal zəncirində qarşılıqlı əlaqədə olan mərhələlərin birləşməsi, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və istehlakçılara çatdırılmasını təmin edən mürəkkəb bir prosesdir. İnteqrasiya əlaqələri məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dərinləşməsini əks etdirən və onlarla qarşılıqlı əlaqəyə malik proses olmaqla bərabər, eyni zamanda istehsalın son nəticələrinə təsir göstərən bir amilidir"* [71, s.74].

**Cədvəl 2.4.1 Emal sənayesi müəssisələri tərəfindən kənd təsərrüfatı xammalının ayrı-ayrı növlərinin emal dərəcəsi. %-lə (bitkiçilik üzrə)**

| Göstəricilər | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2010 nisbəti |
|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 70 | 72 | 86 | 74 | 78 | 87 | 74 | 73 | 4% |
| Qarğıdalı | 77 | 81 | 64 | 56 | 62 | 52 | 53 | 59 | -23% |
| Kartof | - | - | - | 0,8 | 0,8 | 0,6 | 0,7 | 0,7 | - |
| Meyvə və giləmeyvə | 8 | 7 | 7 | 6 | 7 | 7 | 12 | 16 | 2 dəfə |
| Qoz-fındıq | 1 | 5 | 13 | 25 | 32 | 24 | 7 | 7 | 7 dəfə |
| Nar | 7 | 5 | 8 | 1 | 10 | 11 | 8 | 8 | 14% |
| Üzüm | 47 | 45 | 45 | 46 | 45 | 45 | 48 | 22 | -53% |
| Şəkər çuğunduru | 3 | 5 | 14 | 9 | 12 | 15 | 5 | 39 | 13dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəl 2.4.1-dən göründüyü kimi, emala verilən kənd təsərrüfatı məhsullarının həcmində həm müsbət və həm də mənfi dinamika mövcuddur. Belə ki, istehsal olunan yerli taxılın yarıdan az hissəsi emal edilir. Ancaq bu emal heç də un istehsalına aid deyildir. Ölkədə istehsal edilən taxılın əksəriyyət hissəsi mal-qara və quş yemi, emal edilmədən ərzaq məhsulu kimi və s. sərf edilir. Emala verilən taxıl isə əsasən qarışıq yem istehsalı üçün emal edilir. Yerli buğda lazımi standartlara cavab

vermədiyi üçün un istehsalı üçün çox cüzi işlədilir. Ölkədə mövcud un dəyirmanları əsasən idxal olunan ərzaq buğdasını emal edirlər.

İstehsal olunan qarğıdalı son 12 ildə demək olar ki, 2 dəfədən çox artmışdır. Ona görə də emala gedən hissənin xüsusi çəkisinin bu müddət ərzində 25% azalmasına baxmayaraq, əslində fiziki çəki artmışdır. Emal olunmayan hissə əsasən mal-qara və quş yemi üçün sərf edilir. Emal hissəsi isə ərzaq məhsullarının istehsalına, o cümlədən, un və yarma istehsalına və qeyri-ərzaq məhsulları istehsalına, yəni qarışıq yem istehsalına sərf edilir.

Ölkədə istehsal olunan kartofun cüzi hissəsi, yəni 0,6-0,8%-i 2018-ci ildən etibarən emal olunmağa başlanmışdır. Kartof emalı, əsasən, Azərbaycanda "Gilan" holdinq tərəfindən açılmış çipsi zavodu ilə əlaqədardır.

Ölkədə istehsal olunmuş təzə meyvə və giləmeyvələrin də emalının xüsusi çəkisində müsbət dinamika müşahidə edilmir. Ancaq fiziki çəki hesabı ilə dəyişiklik var, belə ki, meyvə istehsalı son on iki ildə 365 min ton artmış və adekvat olaraq emala verilən meyvə və giləmeyvə də bu dövr ərzində 169 min ton artmışdır. Bu artıma baxmayaraq ölkədə meyvə istehsalı həcminə müqabil olaraq emala verilən hissəsi cəmi 16%-dir ki, bu da çox azdır. Bu həm də onun göstəricisidir ki, meyvə şirələrinin və meyvə konservlərinin istehsalında yerli xammaldan istifadə edərək istehsal həcmini artırmaq üçün potensial imkanlar çox böyükdür. Buna baxmayaraq son iki ildə meyvə və giləmeyvə emal edən müəssisələrin yerli məhsullara maraqları artmışdır. Belə ki, 2022-ci ildə əvvəlki ilə nisbətən 33%, 2020-ci ilə nisbətən isə 2,3 dəfə çox meyvə təhvil götürmüşdürlər.

Qoz-fındıq istehsalında emal olunan məhsulun xüsusi çəkisində müsbət dinamika mövcuddur. Bu məhsulun istehsalı son 12 ildə, təxminən 7 dəfə artmış, eyni zamanda, emala verilən payın həcmi də əhəmiyyətli sürətdə artmışdır. Belə ki, 2010-cu ildə istehsal olunan məhsulun cəmi 1%-i, yəni, təxminən, 700 tonu emala verilirdisə, 2020-ci ildə bu rəqəm artaraq 7%-ə, yəni 6 min tona çatmışdır. Bu məhsul qrupunda fındıq istehsalı mütləq əksəriyyət təşkil edir. Onu da qeyd etməliyik ki, qoz-fındıq istehsalının emala gedən hissəsi 2020-ci ildə 24%, yəni 15 min ton təşkil

edirdi. Son iki ildə emal müəssisələrinə təhvil verilmiş bu qrup məhsul 2,5 dəfə azalmışdır.

Qeyd etməliyik ki, fındıq məhsulunun böyük ixrac potensialı vardır və ölkəyə valyuta gətirən əsas kənd təsərrüfatı məhsullarından biri sayılır. Ölkədə müasir texnologiyalara malik fındıq emalı zavodları fəaliyyət göstərirlər ki, bunlara Qəbələ fındıq emalı zavodu, Xaçmazda fəaliyyət göstərən "AZNUTS" MMC-yə məxsus fındıq emalı zavodu, Zaqatalada "Agrarco" MMC-yə məxsus fındıq emalı zavodlarını misal göstərmək olar. Bu zavodların məhsulları Avropa ölkələrinə, o cümlədən, İtaliya və Almaniyaya ixrac edilir.

Nar məhsulu istehsalının da emal sənayesinə verilən hissəsində son 12 ildə müsbət dinamika mövcuddur. Bu dövr ərzində nar istehsalı 14%-dək artmış, ancaq istehsalın emala verilən hissəsi isə fiziki çəkidə 2 dəfədən çox artmışdır. Ancaq bu məhsul istehsalının da emala gedən hissəsində son iki ildə geriləmə müşahidə olunur. Belə ki, 2022-ci ildə 2019 və 2020-ci illərə nisbətən 25-35% az məhsul emala getmişdir.

Nar məhsulunun emala gedən hissəsində olan artım, əsasən, Göyçay rayonunda nar zavodunun fəaliyyəti ilə bağlıdır. 2006-cı ildə həmin zavod özəlləşdirilmiş, "AZNAR" QSC yaradılmış, müasir avadanlıqlarla yenidən quraşdırılmış və istifadəyə buraxılmışdır. Hal-hazırda bu zavod tam tullantısız emal istiqamətində fəaliyyət göstərir. Zavodda nar şirəsi, narşərab, nar tumunun yağı, nar şərabı və nar şirəsinin müxtəlif meyvə şirələri ilə qatqıları və s. istehsal edilir [84].

Üzüm istehsalında məhsulun emala verilən həcmində son 12 ildə 53% geriləmə baş vermişdir. Bu rəqəm əvvəlki ilə nisbətən 2 dəfədən çox azalmışdır. Ancaq bu dövr ərzində üzüm istehsalı 64% artmış, adekvat olaraq emal sənayesinə verilən üzüm məhsulunun həcmi fiziki çəkidə 60% artmışdır. Ancaq 2022-ci ildə emal olunan üzüm məhsulu əvvəlki ilə nisbətən 2,2 dəfə azalmışdır. Həmin il üzrə ümumi üzüm istehsalının təxminən 78%-i emal edilmədən istehlaka yönəlmişdir. Ölkədə üzüm emalının artırılması və şərabçılığın inkişafı üçün potensial imkanlar çoxdur.

Şəkər istehsalı üçün yerli xammaldan istifadə vəziyyəti qənaətbəxş deyil. Cədvəldən göründüyü kimi, yerli xammaldan istifadə 2022-ci ildə 2010-cu ilə

nisbətən kəskin artaraq 39%-ə çatmışdır ki, bu da əvvəlki ildən 7,8 dəfə çoxdur. 2020-ci ildə də yerli xammalın emal edilməsində 15%-lik bir göstərici mövcud idi ki, bu da, əsasən, şəkər emalının azalması ilə izah olunurdu. Belə ki, 2020-ci ilədək, son 10 ildə şəkər xammalının emalı 50% azalmış, eyni zamanda, şəkər istehsalı da adekvat olaraq azalmışdır. Bu rəqəm 2021-ci ildə daha da azalmışdır. Ancaq 2022-ci ildə İmişli Şəkər zavodunda kəskin dönüş edilmiş, şəkər istehsalı üçün xammal ehtiyatı bir ildə 14 dəfə artmış və xammal ehtiyatında yerli xammalın da xüsusi çəkisi artmışdır. Şəkər istehsalı üçün lazım olan bütün xammal ehtiyatı ölkəmizdə var və təəssüf ki, bu potensialdan hələlik lazımi səviyyədə istifadə edilmir.

**Cədvəl 2.4.2 Emal sənayesi müəssisələri tərəfindən heyvandarlıq məhsullarının emalı dərəcələri (%-lə)**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2000 ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ət | 1 | - | 2 | 2 | 6 | 7 | 8 | 7 | 8 | 8 dəfə |
| Süd | 2 | 2 | 89 | 100 | 97 | 97 | 98 | 93 | 89 | 44 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 2.2., 2.6. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəl 2.4.2-dən göründüyü kimi, ölkədə istehsal olunan ət məhsullarının çox az hissəsi emal edilir, əsasən ət birbaşa emal olunmadan istehlak edilir. İstehsal olunmuş ət məhsulunun emal sənayesində payının artım dinamikası kolbasa istehsalının artım dinamikası ilə bağlıdır.

Süd məhsullarının emala gedən hissəsi demək olar ki, bütün kənd təsərrüfatı məhsulları içərisində ən yüksək göstəriciyə malikdir. 2000-ci ildə istehsal olunan südün cəmi 2%-i emala yönəldilirdisə, bu rəqəm 22 ildən sonra, 2020-ci ildə 89%-ə çatmışdır. Onu da qeyd etməliyik ki, 2015 və 2017-ci illər idxal edilmiş süd məhsulunun da müəyyən hissəsi emala yönəldilmişdir. Bu əsasən idxal olunan süd tozudur ki, emal sənayesində geniş istifadə edilir. Südün emala gedən hissəsinin xüsusi çəkisi 2015-20-ci illər daha yüksək idi. Ancaq 2021-ci ildən bu rəqəm azalmağa doğru meyllənmişdir. Belə ki, 2022-ci ildə əvvəlki ilə nisbətən südün emala gedən hissəsinin xüsusi çəkisi 3%, 2020-ci ilə nisbətən isə 9% azalmışdır.

Cədvəl 2.4.2-də yun məhsulunun adı yoxdur. DSK-nin heç bir hesabatında yunun emalı ilə əlaqədar məlumatlara rast gəlinmir. Həm rəsmi hesabatlardan və həm də tədqiqat işi ilə əlaqədar görüşdüyümüz qoyunçuluq üzrə fermerlərin dediklərindən belə məlum olmuşdur ki, ölkədə istehsal olunan yun emal olunmur, əksəriyyət hissəsi sadəcə atılır. Hər il istehsal olunan təxminən 16 min ton yunun sonrakı taleyi məlum deyil.

Dövlət Statistika Komitəsinin hesabatlarının xüsusiyyətləri ilə əlaqədar olaraq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının işlənməsində səmərəlilik dərəcələrinin qiymətləndirmək bir qədər çətindir. Bu problemi həll etmək üçün belə bir metodologiyaya müraciət etmişik. Belə ki, ölkədə həm kənd təsərrüfatı məhsullarının istehsalını və həm də emal olunmuş məhsulların həcmlərini müqayisə etmişik. İstehsal olunmuş məhsulun həcmindən istehsalda qalan hissəsini, itkiləri, birbaşa istehlaka gedən hissələrini çıxmaqla, emala yönəldilmiş hissəsini müəyyən etmişik və onu ümumi xammal istehsalı ilə müqayisə etmişik. Burada emal müəssisələrində istehsal olunan məhsulların hamısı deyil, əsasən yerli xammaldan istifadəni nəzərə almışıq.

Təqdim olunan bu məlumatların təhlili bir neçə nəticəyə gəlməyə imkan verir.

Hər şeydən öncə məlum olur ki, aqrar emal məhsullarının istehsal həcmi böhran illəri (1995-2000) ilə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, şəkər istehsalı ölkədə yox idi və 2006-cı ildən sonra İmişli şəkər zavodunun istifadəyə verilməsi ilə əlaqədar bu məhsulun istehsalı başlandı. Eyni zamanda, 2000-ci ildən sonra çörək və bulka məmulatları istehsalı 2 dəfə, makaron istehsalı 28 dəfə, meyvə tərəvəz konservləri istehsalı 7 dəfə, meyvə-tərəvəz şirələri istehsalı 30 dəfə, bitki yağları istehsalı 7 dəfə, mineral və qazlı sular istehsalı 200 dəfə, alkoqolsuz içkilər istehsalı 6 dəfə, duz istehsalı 18 dəfə, kolbasa istehsalı 11 dəfə, kərə yağı istehsalı 5 dəfə, yağlılıq dərəcəsi 1-3% olan süd istehsalı 6 dəfə, yağlılıq dərəcəsi 6-29% olan süd məhsulları istehsalı 11 dəfə artmışdır. Aqroemal sahəsinin digər məhsullarının istehsalında əksinə azalmalar mövcuddur ki, bura pambıq emalı, şərab emalı, tütün emalı, çay emalını misal göstərmək olar.

İkinci nəticə belədir ki, böhran illərində emala verilən xammalın həcmi daha kiçik, istehsal istehlakı isə daha yüksək idi. Məsələn, süd istehsalı əsasən emal olunmadan istehlak olunurdu. Həmçinin ət istehsalını da buna misal göstərmək olar.

Üçüncü - belə nəticəyə gəlmək olar ki, müxtəlif məhsullar üzrə emal dərəcəsinin dərinliyi də müxtəlifdir. Məsələn süd istehsalının 89%-i emala yönəldiyi halda, ət istehsalında bu rəqəm 7-8%, meyvə və giləmeyvə istehsalında 16%, çuğundur istehsalında 39%, qoz-fındıq istehsalında 7%, üzüm istehsalında 22%, nar istehsalında 8% və s. təşkil edir. Yun məhsulu isə ümumiyyətlə emal edilmir. Bu cür qeyri-bərabərlik istifadə edilməmiş resursların göstəricisidir və həmin sahələrdə istehsal ehtiyatları müasir inkişafla ayaqlaşa bilmirlər.

Nəticədə kənd təsərrüfatının kifayət qədər böyük bir sahəsi, o cümlədən, texniki bitkilər və ət istehsalı kimi sahələrin emal səviyyəsi çox aşağıdır ki, bu da istehsal-emal-bazar zəncirində böyük həcmdə maliyyə itkilərinə səbəb ola bilir. Həm də o nəticəyə gəlmək olar ki, bu məhsullar üçün kifayət qədər tutumlu bazar mövcuddur, rəqabət azdır və bu sahələrə investisiya qoymaq çox real görünür. Bu baxımdan ölkədə emal sektoruna investisiyaların qoyulması çox cəlbedicidir.

Aqroemal sahəsinin ölkənin kənd təsərrüfatının inkişafında rolu böyükdür və bunlar bir-biriləri ilə çox sıx bağlıdırlar. Aqroemal məhsullarının istehsalına təsir edən əsas amilləri nəzərdən keçirsək, bu amillərin asılılıq dərəcələrini müəyyən edə bilərik.

Aqroemal sahəsində məhsul istehsalının həcminə təsir göstərən amillərin müəyyənləşdirilməsi məqsədi ilə LS-reqressiya modeli qurulmuşdur. Modelin izahedici dəyişənləri - prediktorları kimi:

X1 - Aqroemal sektorunda əsas kapitala yönəldilən investisiyaların həcmi (milyon manatla),

X2 - Aqroemal sahəsində yaranmış əlavə dəyərin miqdarı (milyon manatla),

X3- Kənd təsərrüfatı məhsulları istehsalının həcmi (milyon manatla),

X4 - Kənd təsərrüfatına qoyulan investisiyaların həcmi (milyon manatla),

X5 - Kənd təsərrüfatında əsas fondların həcmi (milyon manatla),

X6 - Əhalinin pul gəlirlərinin miqdarı (milyon manatla)

götürülmüşdür.

Modelin izahedici dəyişənlərinin korrelyasiya analizinin nəticələri cədvəl 2.4.3-də verilmişdir:

**Cədvəl 2.4.3 X1-X6 izahedici dəyişənlərinin karrelyasiya analizi**

| | X1 | X2 | X3 | X4 | X5 | X6 |
|---|---|---|---|---|---|---|
| X1 | 1 | | | | | |
| X2 | 0,7675 | 1 | | | | |
| X3 | 0,8148 | 0,9677 | 1 | | | |
| X4 | 0,5653 | 0,1145 | 0.2286 | 1 | | |
| X5 | 0.7887 | 0,9572 | 0.9911 | 0,2340 | 1 | |
| X6 | 0,8042 | 0,8959 | 0,9637 | 0,3561 | 0,9762 | 1 |

Mənbə: Müəllif tərəfindən Əlavə 9-un göstəriciləri əsasında EvieWs-10-da aparılmış hesablamalar

Cədvəl 2.4.3.-dən göründüyü kimi, X1-lə X2, X3, X5 və X6 dəyişənləri arasında güclü; X2 dəyişəni ilə X3 və X5 arasında çox güclü, X2 və X6 arasında güclü; X3 ilə X5 və X6 arasında çox güclü; X5 və X6 arasında çox güclü müsbət korrelyasiya əlaqəsi vardır.

*Çoxölçülü reqressiya modelində iki və daha çox eksogen-izahedici (sərbəst) dəyişənin yüksək dərəcəli korrelyasiyası multikollinearlıq adlanır [54. s.20].*

X1-X6 giriş dəyişənləri arasındakı multikollinearlıq şərtini MatLab 2021 paketində Belsley testi vasitəsi ilə müəyyən etmək olar:

**Cədvəl 2.4.4 X1-X6 dəyişənləri üçün Belsley testinin nəticəsi**

| Variance Decomposition | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| sValue | condIdx | X1 | X2 | X3 | X4 | X5 | X6 |
| 2.4073 | 1 | 0.0008 | 0.0002 | 0.0000 | 0.0009 | 0.0001 | 0.0001 |
| 0.3697 | 6.5108 | 0.0008 | 0.0147 | 0.0004 | 0.1722 | 0.0001 | 0.0002 |
| 0.2363 | 10.1866 | 0.3897 | 0.0004 | 0.0005 | 0.0094 | 0.0087 | 0.0044 |
| 0.0878 | 27.4313 | 0.1989 | 0.5331 | 0.0020 | 0.5288 | 0.0093 | 0.1638 |
| 0.0602 | **39.9982** | 0.2012 | 0.0976 | 0.0035 | 0.1386 | 0.4291 | 0.4963 |
| 0.0294 | **81.8389** | 0.2086 | 0.3539 | **0.9935** | 0.1500 | **0.5527** | 0.3351 |

Mənbə: MatWorks MatLab 2021 paketində aparılmış hesablamalar

Cədvəl 2.4.4.-dən görünür ki, condIx=39.9982 olduqda multikollinear dəyişənlər aşkar edilməsə də, condIx=81.8389 olduqda X3 dəyişəninin daha çox multikollinear olduğu (0.9935), o cümlədən, X5 dəyişəninin isə 0.5527 nisbətən kiçik olsa da, multikollinear olduğu aşkar edilir.

*Belsley diaqnostikasına görə, ikinci sütunda verilmiş şərti indeksin (condIdx) 30-dan böyük qiymətinə uyğun sətirdəki dispersiya payının 0.5-dən böyük olduğu dəyişənlərin multikollinear olduğu qəbul edilir [54. s.24].*




**Qrafik 2.4.1. Belsley multikollinearlıq testinin nəticəsi**
Mənbə: Cədvəl 2.4.4. əsasında multikollinearlıq testinin qrafiki

Aydındır ki, modelin giriş dəyişənləri arasında kollinearlığın müşahidə olunduğu halda məlum üsulla qurulan reqressiya modelinin adekvatlığından danışmaq olmur. Belə hallardan çıxış yolu kimi, baş elementlər üsulundan-PCA (Principial Component Analysis (ing.) – Əsas komponent metodu istifadə edilir. (Cədvəl 2.4.10.) Burada PCA EvieWs-10 paketində reallaşdırılmışdır və modelin X1, X2, X3, X4, X5 və X6 giriş dəyişənləri əsasında PC baş elementi qurulmuşdur:

$$PC = a_1X1 + a_2X2 + a_3X3 + a_4X4 + a_5X5 + a_6X6. \quad (1)$$

Burada $a_1 = 0{,}1689;\ a_2 = 0{,}1892;\ a_3 = 0{,}2055;\ a_4 = 0{,}031;\ a_5 = 0{,}2038\ və\ a_6 = 0{,}2016$ kimidir. Bundan sonra modelləşdirmə Y və PC dəyişənlərinin loqarifmlənmiş qiymətləri arasında aparılmışdır:

**Cədvəl 2.4.5. L_Y və L_PC arasında reqressiya modeli**

Dependent Variable: L_Y
Method: Least Squares
Date: 04/30/24 Time: 15:23
Sample: 2008 2022
Included observations: 15

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| L_PC | 1.140224 | 0.091644 | 12.44191 | **0.0000** |

| | | | | |
|---|---|---|---|---|
| C | -3.497145 | 0.925515 | -3.778594 | **0.0023** |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.922527 | Mean dependent var | 8.011778 |
| Adjusted R-squared | 0.916568 | S.D. dependent var | 0.408768 |
| S.E. of regression | 0.118071 | Akaike info criterion | -1.311492 |
| Sum squared resid | 0.181230 | Schwarz criterion | -1.217085 |
| Log likelihood | 11.83619 | Hannan-Quinn criter. | -1.312498 |
| F-statistic | 154.8011 | Durbin-Watson stat | 0.885606 |
| Prob(F-statistic) | 0.000000 | | |

Mənbə: EVieWs 10 ekonometrik paketində aparılmış hesablamalar

Cədvəl 2.4.5-dən göründüyü kimi, L_Y çıxış dəyişəninə L_PC giriş dəyişəninin təsiri

$$L_Y = 1.140224 * L_PC - 3.497145 \quad (2)$$

şəklindədir.

L_Y cıxış dəyişəninin müşahidə qiymətləri, model qiymətləri və bunlar arasındakı yayınmanı göstərən qalıq qiymətlərinin qrafik təsviri aşağıda verilmişdir:




**Qrafik 2.4.2. Müşahidə, model və qalıq qiymətləri**
Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Qrafik 2.4.2-dən L_Y cıxış dəyişəninin müşahidə və model qiymətləri, modelin qalıqları 2-ci düsturdakı münasibətdən aşkar etmək çətin deyil. Buradan aydın olur ki, PC baş elementinin 1% artımı aqroemal sahəsində məhsul istehsalının ≈1.14% artımına səbəb olur. Aqroemal sahəsində məhsul istehsalının Y həcminə X1, X2, X3, X4, X5 və X6 giriş dəyişənlərinin ayrı-ayrılıqda təsirlərini araşdırmaq üçün 1-ci düsturdakı münasibətdən istifadə edə bilərik. Hesablamalar nəticəsində bu təsirlərin

$$L_Y = 0.1926 \cdot L_X1 + 0.2158 \cdot L_X2 + 0.2343 \cdot L_X3 + 0.0354 \cdot L_X4 + \\ + 0.2323 \cdot L_X5 + 0.2299 \cdot L_X6 \quad (3)$$

kimi olduğunu alırıq. 3-cü düsturdan X1, X2, X3, X4, X5 və X6 dəyişənlərinin 1%-lik dəyişməsinin aqroemal sahəsində məhsul istehsalının həcmini, uyğun olaraq, 0.1926%, 0.2158%, 0.2343%, 0.0354%, 0.2323% və 0.2299% artırdığı nəticəsinə gəlirik. Daha doğrusu, aqroemal sektorunda əsas kapitala yönləndirilən investisiyalar 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,19%, aqroemal sahəsində yaranmış əlavə dəyər 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,22%, kənd təsərrüfatı məhsullarının istehsal həcmi 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,23%, kənd təsərrüfatına qoyulan investisiyalar 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,04%, kənd təsərrüfatının əsas fondları 1% artarsa, aqroemal məhsullarının həcmi 0,23%, əhalinin pul gəlirləri 1% artarsa, aqroemal məhsullarının həcmi 0,23% artar.

**Modelin təhlili:**

***A_1) Modelin əmsallarının əhəmiyyətliliyi***

Cədvəl 2.4.5-dən modelin determinasiya əmsalının $R^2 = 0{,}9225\ və\ ya\ R^2 = 92{,}25\%$ -ə bərabər olduğu görünür. Bu modelin giriş dəyişənlərinin çıxış dəyişənini $92{,}25\%$ ifadə etdiyi anlamını verir.

Cədvəl 2.4.5 əsasında həm L_PC izahedici dəyişəninin əmsalının, həm də C sabitinin əhəmiyyətli olduğu görünür. Belə ki, reqressiya modelinin əmsallarının əhəmiyyətsiz olması haqqında irəli sürülmüş sıfır hipotez t-Student statistikası əsasında rədd edilir, belə ki, burada L_PC izahedici dəyişəninin əmsalı və C sabitinə uyğun ehtimallar

$$Prob_{L_PC} = 0.0000 < 0.05\ və\ Prob_C = 0.0023 < 0.05 \quad (4)$$

şərtini ödəyir.

***A_2) Modelin statistik əhəmiyyətliliyi***

Cədvəl 2.4.5-in son sətirləri əsasında deyə bilərik ki, F-statistic=154.8011 və Prob(F-statistic)=0.00000<0.05 olması göstərir ki, modelə daxil edilmiş sərbəst PC giriş dəyişəninin modelin Y-Aqroemal sahəsində məhsul istehsalının həcmi çıxış dəyişəni ilə statistik cəhətdən əhəmiyyətli əlaqəsi vardır.

*A_3) Modelin qalıqlarının təhlili*

Qauss-Markov şərtlərinə görə, parametrləri ən yaxşı qiymətləndirilmiş reqressiya tənliyinin çıxış dəyişəninin müşahidə və model qiymətləri arasındakı fərqdən ibarət olan model qalıqları normal paylanmaya malik olmalı, onlar arasında avtokorrelyasiya olmamalı və qalıqlar homoskedastiklik xüsusiyyətli olmalıdır. Bu xüsusiyyətlərin hər biri özünəməxsus testlər vasitəsi ilə yoxlanılır.

*A_3_1) Qalıqların normal paylanmalı olması*

Bu məqsədlə Jarque-Bera -JB testindən istifadə edilir. Testin HO sıfır hipotezi ”Qalıqlar normal paylanmaya malikdir” şəklindədir. (2) modeli üçün aparılmış bu testin nəticəsi aşağıda verilmişdir:




**Şəkil 2.4.1 (3) modelinin qalıqlarının normallığının yoxlanılması üçün Jarque-Bera testinin nəticəsi**

**Mənbə**: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Şəkil 2.4.1-dən göründüyü kimi, ehtimal qiymətinin $Prob_{JB} = 0.8387 > 0.05$ olması qalıqların normal paylanmaya malik olduğunu göstərir.

*A_3_2) Qalıqların avtokorrelyasiyası*

Qalıqların avtokorrelyasiyaya münasibətini Breusch-Godfrey Serial Correlation LM Test ilə yoxlayaq. Testin HO-sıfır hipotezi “Qalıqlar avtokorrelyasiyaya malik deyildir.” şəklindədir. Testin nəticələri aşağıda verilmişdir:

**Cədvəl 2.4.6 (3) modelinin qalıqlarının-xətasının avtokorrelyasiya testinin nəticəsi**

Breusch-Godfrey Serial Correlation LM Test:

| | | | |
|---|---|---|---|
| F-statistic | 2.337110 | Prob. F(2,11) | **0.1426** |
| Obs*R-squared | 4.473161 | Prob. Chi-Square(2) | **0.1068** |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Həm F, həm də $\chi2$-statistikasına görə, uyğun ehtimalın 0.05-dən böyük olması (Prob. F(2,11)= 0.1426>0.05 və Prob. Chi-Square(2)=0.1068>0.05 ) HO hipotezinin qəbul olunduğunu,yəni, qalıqların avtokorrelyasiyaya malik olmadığını göstərir.

***A_3_3) Qalıqların heteroskedastikliyi***

Qalıqların heteroskedastikliyə münasibəti Breusch-Pagan-Godfrey testi ilə yoxlanmışdır. Testin HO sıfır hipotezi "Qalıqlar heteroskedastik deyildir", (başqa sözlə, homoskedastikdir); alternativ H1 hipotezi isə "Qalıqlar heteroskedastikdir" şəklindədir. Aparılmış testin nəticələri aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 2.4.7 (3) modelinin qalıqlarının heteroskedastiklik testinin nəticəsi**

Heteroskedasticity Test: Breusch-Pagan-Godfrey

| | | | |
|---|---|---|---|
| F-statistic | 2.105706 | Prob. F(1,13) | 0.1705 |
| Obs*R-squared | 2.090971 | Prob. Chi-Square(1) | 0.1482 |
| Scaled explained SS | 0.981931 | Prob. Chi-Square(1) | 0.3217 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Uyğun ehtimalın Prob. F(1,13)=0.1705 > 0.05 olması HO hipotezinin qəbul edildiyini, başqa sözlə qalıqların homoskedastik olduğunu göstərir.

***A_4) Modelin stabillik şərtləri***

Modelin stabilliyinin yoxlanılması məqsədi ilə burada iki testdən istifadə edilmişdir:

***A_4_1) RAMSEY Reset Test***

Bu test modeli ifadə edən funksiyanın düzgün seçildiyinin yoxlanılması məqsədinə xidmət edir. Testin HO-sıfır hipotezi "Modelin funksional forması doğrudur." şəklindədir. (2) modeli üçün aparılmış Ramsey RESET testinin nəticələri aşağıda verilmişdir:

**Cədvəl 2.4.8 (3) modelinin funksional formasının düzgün seçilməsinin yoxlanması üçün Ramsey RESET testinin nəticəsi**

Ramsey RESET Test
Equation: EQ_LS_LY_LPC_1
Specification: L_Y L_PC_1 C
Omitted Variables: Powers of fitted values from 2 to 3

| | Value | df | Probability |
|---|---|---|---|
| F-statistic | 3.225039 | (2, 11) | **0.0790** |
| Likelihood ratio | 6.921733 | 2 | 0.0314 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

$Prob_{RR} = 0.079 > 0.05$ olması HO hipotezinin qəbul edildiyini, başqa sözlə modelin funksional formasını doğru seçildiyini göstərir.

A_4_2) CUSUM test

Bu testin məqsədi modelin parametrlərinin bütün tədqiqat dövrü üçün stabil olduğunun yoxlanmasıdır. Testin HO-sıfır hipotezi "Modelin əmsalları stabildir." şəklindədir. Qurulmuş (2) modeli üçün bu testin nəticələri aşağıda verilmişdir:




**Qrafik 2.4.3 (3) modelinin əmsallarının sabit olmasının CUSUM testinin nəticəsi**
Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

CUSUM əyrisinin yol verilən 5%-lik oblastı aşmaması modelin əmsallarının bütün tədqiqat dövrü üçün stabil olduğunu göstərir.

*A_4_3) Çou (Chow) testi*

Bu test model parametrlərinin struktur sürüşmə və kəsilmələrə malik olub-olmadığını müəyyənləşdirməyə xidmət edir. Testin HO-sıfır hipotezi "Modelin parametrlərinin struktur baxımından stabildir." şəklindədir.

Azərbaycan iqtisadiyyatında 2015-ci ildə iki dəfə baş verən devalvasiya amilinin (2) modelinin cıxış dəyişəninə –aqroemal sahəsində məhsul istehsalının

həcminə təsirinin olub-olmadığını Çou testi vasitəsi ilə müəyyənləşdirə bilərik. Nəticələr aşağıda verilmişdir:

**Cədvəl 2.4.9 2015-ci ildə baş vermiş devalvasiyaların təsirlərinə nəzərən (3) modelinin əmsallarının sabitliyinin yoxlanılması üçün Çou testinin nəticəsi**

2015-ci il üçün

Chow Forecast Test
Equation: EQ_LS_LY_LPC_1
Specification: L_Y L_PC_1 C
Test predictions for observations from 2015 to 2022

| | Value | df | Probability |
|---|---|---|---|
| F-statistic | 3.409020 | (8, 5) | **0.0963** |
| Likelihood ratio | 27.97150 | 8 | 0.0005 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

$Prob_{R\text{Chow}}^{2015} = 0.0963 > 0.05$ və $Prob_{R\text{Chow}}^{2016} = 0.1263 > 0.05$ olması HO hipotezinin qəbul edildiyini, başqa sözlə 2015-ci ildə baş vermiş devalvasiyaların aqroemal sahəsində məhsul istehsalının həcminin (2) modelinin parametrlərinə təsir göstərmədiyini ifadə edir.

**Cədvəl 2.4.10 X1, X2, X3, X4, X5 və X6 dəyişənlərinin PC analizinin nəticəsi**

Principal Components Analysis
Date: 04/30/24 Time: 13:31
Sample (adjusted): 2008 2022
Included observations: 15 after adjustments
Balanced sample (listwise missing value deletion)
Computed using: Ordinary correlations
Extracting 6 of 6 possible components

Eigenvalues: (Sum = 6, Average = 1)

| Number | Value | Difference | Proportion | Cumulative Value | Cumulative Proportion |
|---|---|---|---|---|---|
| 1 | 4.698020 | 3.644894 | 0.7830 | 4.698020 | 0.7830 |
| 2 | 1.053126 | 0.875260 | 0.1755 | 5.751146 | 0.9585 |
| 3 | 0.177866 | 0.122435 | 0.0296 | 5.929012 | 0.9882 |
| 4 | 0.055431 | 0.045451 | 0.0092 | 5.984443 | 0.9974 |
| 5 | 0.009980 | 0.004403 | 0.0017 | 5.994423 | 0.9991 |
| 6 | 0.005577 | --- | 0.0009 | 6.000000 | 1.0000 |

Eigenvectors (loadings):

| Variable | PC 1 | PC 2 | PC 3 | PC 4 | PC 5 | PC 6 |
|---|---|---|---|---|---|---|
| X1 | 0.410995 | 0.289137 | -0.794629 | -0.329480 | -0.058340 | 0.063926 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| X2 | 0.434997 | -0.266406 | -0.155728 | 0.739618 | -0.402143 | -0.082459 |
| X3 | 0.453274 | -0.160922 | 0.073635 | 0.022526 | 0.713183 | -0.504070 |
| X4 | 0.176121 | 0.890250 | 0.285185 | 0.304315 | 0.049978 | 0.000135 |
| X5 | 0.451413 | -0.161293 | 0.247804 | -0.058922 | 0.224892 | 0.809170 |
| X6 | 0.449012 | -0.031153 | 0.442892 | -0.497816 | -0.522659 | -0.283322 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Bütün bunları nəzərə alaraq belə qənaətə gəlirik ki, aqroemal məhsullarının istehsal həcminin artırılmasında seçilmiş amillərin təsiri çox yüksəkdir.

# III FƏSİL. AQRAR EMAL SAHƏSİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÖVCUD İQTİSADİ MEXANİZMLƏRİNİN FORMALAŞDIRILMASI PRİNSİPLƏRİ

## 3.1. Aqroemal məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi mexanizmləri və tənzimlənməsi prinsipləri

Ümumiyyətlə rəqabətqabiliyyətlilik dedikdə, müəyyən bir obyektin və ya subyektin müəyyən bazar şərtləri daxilində rəqiblərini üstələmək qabiliyyəti başa düşülür. Rəqabət qabiliyyəti həm də subyektin özünəməxsus rəqabətə tab gətirmə qabiliyyətini, rəqabətli hərəkətlər etmək qabiliyyətini göstərən bir xüsusiyyət kimi müəyyən edilir. Məhsul və ya xidmət hər hansı bir bazarda ya rəqabətə davamlı olur, ya da əksinə rəqabətə davamsız olur.

*"Rəqabət qabiliyyəti, obyekti olan subyektin lider olmaq, müəyyən bazarda eyni məqsədə nail olmaq üçün müəyyən vaxtda öz rəqibləri ilə uğurla rəqabət aparmaq vəziyyəti (statikada) və ya qabiliyyətidir (dinamikada)"* [150, s.102].

Rəqabətliliyin şamil olunduğu obyektləri dörd kateqoriyaya bölmək olar:

-məhsullar və ya xidmətlər

-müəssisələr, yəni istehsalçılar və ya xidmət sahələri

-iqtisadiyyatın sahələri (mal və ya xidmətlər təklif edən müəssisələrin məcmusu kimi, məsələn emal sahəsi);

-milli səviyyədə, yəni ölkənin milli rəqabət qabiliyyətliliyi.

Müəssisənin rəqabət qabiliyyəti xüsusi müştəri ehtiyaclarını digər şirkətlərdən daha yaxşı qarşılamaq bacarığına nail olmaqdır. Burada müəssisələrin əsas məqsədi anoloji məhsul istehsalı və ya xidmət fəaliyyəti ilə məşğul olan rəqiblərin müqaviməti qarşısında öz məqsədlərinə çatmaq, keyfiyyət və qiymət xüsusiyyətlərinin bu bazarın tələblərinə və istehlakçı qiymətləndirmələrinə daha yaxşı uyğunlaşdırmaq və bununla da digər məhsullarla müqayisədə alıcı üçün daha cəlbedici olmaq bacarığıdır. Məlum məsələdir ki, bazar iqtisadiyyatı şəraitində mövcud subyektlərin uğurlu fəaliyyətinin əsas amili onun rəqabətqabiliyyətliliyidir. Bu amil müəssisənin daha yüksək gəlir əldə etməyinin təminatıdır. Müəssisənin yüksək rəqabət qabiliyyətinin təmin edilməsi strateji qərarlar üçün istiqamətlərin seçilməsi səviyyəsində baş verməlidir.

Qlobal bazar münasibətlərinin daim yenidən formalaşması və inkişafı, eyni zamanda qlobal tələbatın keyfiyyətcə yüksəlməsi milli məhsulların rəqabətqabiliyyətliliyində bir çox çətinliklər yaradır. Azərbaycanın liberal iqtisadiyyata keçməsi xarici iqtisadi əlaqələrin də liberallaşması ilə nəticələnmişdir. Həm xarici iqtisadi əlaqələrin liberallaşması və həm də bir çox yerli aqroemal müəssisələrinin maliyyə vəziyyətinin ürəkaçan olmaması məsələləri yerli məhsulların çeşidinin və keyfiyyətinin, bir sözlə, rəqabətqabiliyyətliliyinin artırılması problemlərini aktuallaşdırmışdır. Bu həm də ölkə daxili iqtisadiyyatın qlobal iqtisadi əlaqələr sisteminə inteqrasiyasını sürətləndirən amillərdən biridir.

Azərbaycanın dünya iqtisadiyyatı sisteminə inteqrasiyası milli iqtisadiyyatın təhlükəsizliyi məsələlərini xüsusi olaraq aktual edir. Bu təhlükəsizlik ölkə daxili aqrar-ərzaq bazarı məhsullarının rəqabətqabiliyyətliliyinə tamamilə aiddir. Azərbaycanın tezliklə ÜTT-yə daxil olacağı perspektivi ilə əlaqədar gözlənilən milli iqtisadiyyatın açıqlıq dərəcəsinin yüksəldilməsi aqroemal məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün effektiv mexanizmin formalaşdırılmasını tələb edir.

"*Dünya bazarına inteqrasiyanın ilk mərhələsindən iqtisadiyyatın ayrı-ayrı sahələrinin iflic vəziyyətə düşməsi tələb edirdi ki, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının səmərəliliyinin artırılması sahəsində gələcəkdə görüləcək bütün tədbirlər beynəlxalq rəqabətin şərtləri nəzərə alınmaqla həyata keçirilsin"* [102, s.272]

Qeyd etdiyimiz kimi, müəssisələrin səmərəli fəaliyyət göstərməsinin əsas və yeganə meyarı onun rəqabətqabiliyyətliliyidir. Praktikadan məlumdur ki, müəssisələrin, xüsusilə də, aqroemal müəssisələrinin rəqabətqabiliyyətinin artırılması istiqamətində bir çox çətinliklər və problemlər dayanır. Bunun əsas səbəblərindən biri bəzən müəssisələrin dəqiq strateji planlarının və maliyyə-iqtisadi, sosial məqsədlərinin olmaması, bazarın konyunkturasının düzgün qavranılmaması və kortəbii idarə edilməsidir. Bununla yanaşı, sahibkarlardan asılı olmayan səbəblər də mövcuddur ki, bunlara bürokratiya, yersiz yoxlamalar və məmur sahibkarlığının müəyyən qədər mövcud olmasını göstərmək olar.

İstehsal olunan məhsul kəmiyyət göstəricilərinin artırılmasına deyil, istehlakçı məmnunluğuna hesablanmalıdır. Məhz qlobal alıcıların məmnunluğuna istiqamətlənmiş istehsal müəssisələri rəqabətqabiliyyətli hesab edilir. Ona görə də istehsal edilən məhsul və xidmətlərin dünya bazarına çıxarılması və təqdim edilməsi qabiliyyəti müəssisələrin inkişafında əhəmiyyətli rol oynayır.

*"Monopoliya ilə çox ciddi mübarizə aparmaq, yüksək vəzifəli məmurların himayə etdikləri biznesləri dayandırmaq, aqrar sənaye müəssisələrinin yaradılması və inkişafında sağlam rəqabət mühiti yaratmaq lazımdır. Emal müəssisələri öz məhsullarını xarici bazarlara çıxara bilən peşəkar sahibkarlar tərəfindən idarə olunmalıdır"* [142, s.4].

Ölkədə movcud aqroemal müəssisələrin rəqabət qabiliyyətliliyinin əsas göstəricilərindən biri bu məhsulların ixrac qabiliyyəti ilə bağlıdır. Son 22 ildə ölkənin ixrac dinamikası bu fikrə aydınlıq gətirə bilər.




**Şəkil 3.1.1 Azərbaycanın ixrac dinamikası. mln. dollar**

Mənbə: DSK İqtisadi statistika "Ticarət" 2023 https://www.stat.gov.az/source/trade/ və DGK https://customs.gov.az/uploads/foreign/2022/2022_12.pdf?v=1674644815 məlumatları əsasında müəllif tərtibatı

Şəkil 3.1.1-dən göründüyü kimi, ölkədən ixrac olunan məhsulların əmtəə tərkibi əsasən xam neftdən ibarətdir. Doğrudur, qeyri-neft məhsullarının ixracı 2020-ci ildə 2000-ci ilə nisbətən 11 dəfə artmışdır, ancaq 22 il öncə, yəni 2000-ci ildə ixrac olunan qeyri-neft məhsullarının xüsusi çəkisi ümumi ixracın 15%-ni təşkil edirdisə, bu rəqəm 2022-ci ildə 7,5%-ə düşmüşdür. Ümumiyyətlə, ölkənin qeyri-neft sektorunun potensial imkanları qarşısında 3 mld. dollar həcmində ixrac çox aşağı göstəricidir.

Azərbaycanın qeyri-neft məhsulları ixracını nefti olmayan Gürcüstan və MDB ölkələri ilə müqayisə etsək mənzərə bizə daha aydın olar. Çünki qeyri-neft sektorunun məhsul ixracının həcmi, resurs satışından fərqli olaraq, ölkədə milli məhsulların rəqabətqabiliyyətliliyin əsas göstəricilərindən birini hesab etmək olar.




**Şəkil 3.1.2 2021-ci ildə neft istehsalı olmayan Gürcüstan və MDB ölkələri ilə Azərbaycanın qeyri-neft ixracının müqayisəsi. mld. dollar**

Mənbə: DSK İqtisadi statistika "Ticarət" 2023 16. https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibi

Şəkil 3.1.2-dən məlum olur ki, xam neft istehsalı olmayan ölkələrin ixrac məhsullarının həcmi, Tacikistan istisna olmaqla, Azərbaycanın qeri-neft sektorunun ixracını üstələyir, hansı ki, burada elə ölkələr vardır ki, (Gürcüstan, Ermənistan, Moldova) onlar həm ərazisinə görə və həm də əhalisinin sayına görə bizim ölkəyə nisbətən daha kiçik göstəricilərə malikdirlər. Fikrimizcə, nefti olmayan ölkələrin ixrac məhsullarının həcmlərinin Azərbaycanın qeyri-neft sektorunun ixracı ilə müqayisə etmək daha düzgündür və bu göstərici ölkədə istehsal olunan aqroemal məhsullarının da inkişaf səviyyəsi, rəqabət qabiliyyətliliyi haqqında təsəvvür yarada bilir.

Azərbaycanda aqroemal sənayesi müəssisələri demək olar ki, tamamilə özəl sektorda fəaliyyət göstərir. Bu sektorun inkişafı istehsal olunmuş məhsulların rəqabət qabiliyyətliliyinə müsbət təsir göstərir və paralel olaraq rəqabətqabiliyyətli məhsulun da ixracını stimullaşdırır.

**Cədvəl 3.1.1 Aqroemal sahəsində ayrı-ayrı məhsulların ixrac dinamikası**

| Göstəricilər | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2022 il 2010 müqayisə |
|---|---|---|---|---|---|---|---|---|
| Çay. ton | 8126 | 4287 | 1367 | 1506 | 1357 | 1116 | 1780 | -4,6dəfə |
| Bitki yağları. ton | 27934 | 23469 | 10842 | 8219 | 14043 | 11889 | 7903 | -3,5dəfə |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Şəkər. min ton | 204 | 221 | 44 | 62 | 61 | 59 | 55 | -3,7dəfə |
| Meyvə və tərəvəz konservləri. min ton | 4,7 | 2,9 | 6,7 | 6,9 | 7,2 | 8,5 | 8,5 | 181% |
| Meyvə və tərəvəz şirələri. min ton | 18,7 | 6,7 | 7,5 | 9,9 | 11,9 | 12,7 | 11,2 | -40% |
| Təbii üzüm şərabları. min dkl. | 224 | 195 | 658 | 532 | 227 | 263 | 301 | 134% |
| Tünd spirtli içkilər. min dkl. | 323 | 370 | 142 | 299 | 160 | 259 | 289 | -11% |
| Siqaret. mln.ədəd | 116 | 158 | 134 | 184 | 461 | 316 | 634 | 5,5dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ticarət" 2023 16.
https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibi

Cədvəl 3.1.1-də son 12 ildə aqroemal sektorunun əsas məhsullarının ixrac dinamikası göstərilmişdir. Göründüyü kimi, çay məhsulunun ixracında 2010-2015-ci illər arasında müəyyən nailiyyətlər əldə edilmişdirsə də, son illər bu göstərici ilbəil sürətlə azalır. 2022-ci ildə çay ixracı 2010-cu ilə nisbətən 4,6 dəfə azalmışdır, ancaq əvvəlki ilə nisbətən 1,6 dəfə artmışdır. Bu məhsul, əsasən, Gürcüstan, Ukrayna və Rusiyaya ixrac olunur.

Eyni vəziyyət şəkər ixracında da mövcuddur. Bildiyimiz kimi, şəkər istehsalı bizim ölkəmizdə yeni sahədir. 2006-cı ildən İmişli şəkər zavodu fəaliyyətə başlamış və şəkər ölkə əhalisinin tələbatını ödəməklə bərabər, həm də ixrac edilməyə başlamışdır. Təkcə 2010-cu ildə 204 min ton şəkər ixrac edilmişdir ki, nəticədə həmin il ölkəyə bu əməliyyatdan 146 mln. dollar valyuta daxil olmuşdur. Ancaq son illər şəkər ixracı mütəmadi olaraq azalmağa başlamışdır. 2022-ci ildə ixrac 2010-cu ilə nisbətən 3,7 dəfə azalaraq 55 min tona çatmışdır. Əsasən Türkmənistan, Qırğızıstan və Tacikistana ixrac olunur.

Bitki yağlarının ixracında son 12 ildə azalma müşahidə olunur. Belə ki, 2022-ci ildə ixrac 2010-ci ilə nisbətən 3,5 dəfə azalaraq 7,9 min tona çatmışdır. Bu məhsulun ixracının ən yüksək göstəricisi 2010-cu ildə olmuşdur. Həmin ildən sonra bu göstərici azalmağa başlamışdır. Təkcə, 2022-ci ildə bu rəqəm əvvəlki ilə nisbətən 34% azalmışdır. Əsasən Tacikistan, İraq, Türkmənistan, Gürcüstan, Türkiyəyə ixrac olunur.

Meyvə və tərəvəz konservlərinin ixracında son 12 ildə müsbət dinamikaya nail olunub. 2022-ci ildə bu göstərici 2010-cu ilə nisbətən 1,8 dəfə artaraq 8,5 min tona

çatmışdır. Görünür ki, bu məhsulun göstəriciləri dünya standartlarını ödəyir və anoloji məhsullar ilə rəqabət apara bilir. Əsasən Rusiya, Gürcüstan, İraq, ABŞ, Qazaxıstan və Belarusiyaya ixrac olunur.

Meyvə və tərəvəz şirələrinin ixracında isə dinamika sabit deyil, azalmağa meyllidir. 2022-ci ildə bu məhsulların ixracı 2010-cu ilə nisbətən 40% azalmışdır. Təkcə, 2022-ci ildə əvvəlki ilə nisbətən 12% azalma müşahidə edilir. Əsasən Rusiya, Gürcüstan, ABŞ, Ukrayna, Belarus, Kanada, Malayziya, Avstraliya, Polşa, Estoniya, Almaniya və Finlandiyaya ixrac olunur.

Təbii üzüm şərabı üzrə də ixracın son 12 ildəki dinamikası sabit deyildir. Belə ki, ixrac olunan məhsulun həcmi gah kəskin artır, gah da kəskin azalır. 2022-ci ildə 2010-cu ilə nisbətən 134% artım olsa da, 2018-ci ildən sonra bu məhsulun ixracı mütəmadi olaraq azalmağa başlamışdır. Ən yüksək ixrac göstəricisi 2018-ci ildə, 658 min dekalitr olmuşdur. 2022-ci ildəki ixrac 2018-ci il göstəricisindən 2,2 dəfə azdır, ancaq əvvəlki ildən 14% çoxdur. Onu da qeyd etməliyik ki, 1995-ci ildə üzüm şərabının ixracı 2,6 mln. dekalitr, yəni 2022-ci ilə nisbətən 8,6 dəfə çox olmuşdur. Rusiya, Belarusiya, Çin, Ukrayna və Bolqarıstana ixrac olunur.

Tünd spirtli içkilərin ixracında da dinamika sabit deyil və müxtəlif illərdə nisbətən artım qeydə alınsa da, ümumilikdə azalma müşahidə edilir. 2022-ci ildə tünd içkilərin ixracı 2010-cu ilə nisbətən 11% azalaraq 289 min dekalitr olmuşdur. Qeyd etməliyik ki, 1995-ci ildə 1,4 mln. dekalitr tünd içkilər ixrac edilmişdir ki, bu da 2022-ci ilin göstəricisindən 4,8 dəfə çox idi. Görünür ölkədə bu məhsul 1995-ci ildə daha rəqabətqabiliyyətli idi.

Siqaret ixracı 2022-ci ildə 2010-cu ilə nisbətən kəskin sürətdə, yəni 5,5 dəfə artaraq 634 mln. ədəd olmuşdur. Bu illər ərzində siqaret ixracı mütəmadi olaraq müsbət dinamikaya malik olmuşdur. Bu əsasən Sumqayıt şəhərində yeni siqaret zavodunun fəaliyyətə başlaması ilə əlaqədardır. Bu zavodun istismara buraxılması ilə əlaqədar ölkədə həm siqaret istehsalı və həm də siqaret ixracında müsbət dəyişikliklər müşahidə olunmağa başlanmışdır.

Cədvəl 3.1.1-dən aydın olur ki, ümumilikdə ölkədə əsas aqroemal məhsullarının ixrac həcmi azalmağa meyllidir. Bu əsasən ölkə daxilində istehsalın azalması və

istehsal olunan məhsulların dünya bazarında mövcud olan anoloji məhsulların müqabilində rəqabətqabiliyyətli olmaması ilə əlaqədardır. Buna görə də bu məhsullar dünya bazarında öz yerlərini tapa bilmirlər.

Ona görə də Azərbaycanda aqroemal müəssisələrinin normal fəaliyyət göstərməsi üçün bazar şəraiti onların rəqabət qabiliyyəti probleminin həllinə yeni strateji yanaşmalar tələb edir. Eyni zamanda, müəssisələrin bazar mühitində fəaliyyətinin səmərəliliyi onların hər birinin öz inkişafları üçün yollar axtarışını və rəqabət qabiliyyətini artırmaq üçün öz strategiyasının işlənib hazırlanmasını tələb edir. Bununla bərabər, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsinin kəmiyyətcə qiymətləndirilməsi ona öz resurs potensialını müəssisənin inkişafı istiqamətində məqsədyönlü şəkildə formalaşdırmağa və düzgün bölüşdürməyə və bununla da rəqabət qabiliyyətini təmin etməyə imkan verir.

Azərbaycanın aqroemal müəssisələri dünya bazarlarında rəqabət üstünlüklərinə nail olmaq üçün bir çox təşkilati ehtiyatları müəyyənləşdirməli və işə salmalıdırlar. Burada funksional innovasiyalardan daha geniş istifadə etmək, onların müəssisəyə tətbiqinə daha çox diqqət yetirmək lazımdır. Bura idarəetmə fəaliyyətinin daha səmərəli təşkili, yeni texnologiyaların və yeni istehsal xəttlərinin tətbiqi, iqtisadi amillərdən daha dolğun istifadə, keyfiyyət parametrlərinin ölçülməsi və diqqət mərkəzində saxlanılması, yeni idarəetmə üsullarının sınaqdan keçirilməsi və s. bu kimi məsələlər aiddir. Bu cür sistemli innovasiyaların tətbiqi daha çox maliyyə resursları və vaxt tələb edir və belə olan halda, istehsal edilən məhsulların rəqabətqabiliyyətliliyi artır və bazarda anoloji məhsullarla rəqabətdə üstünlük qazana bilirlər. Bir sözlə, ən yaxşı nəticəni ümumi və funksional innovasiya imkanlarının optimal kombinasiyası ilə əldə etmək mümkün ola bilir.

Ümumiyyətlə, iqtisadi subyektlərin rəqabətqabiliyyətliliyi qiymətləndirilərkən sonda əldə edilmiş nəticələrin etibarlılığı maksimum təmin edilməlidir. Bəzən rəqabətqabiliyyətlilik qiymətləndirilərkən onu təşkil edən ayrı-ayrı amillərin qiymətləndirilməsində səhvlərə yol verilir. Elə metodologiyadan istifadə edilməlidir ki, müəssisənin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üçün zəruri olan məlumatların toplanması çox asan olsun. Hədəf götürülmüş bazarın coğrafiyası və

məhsul sərhədlərini müəyyən etmək, rəqiblər dairəsi yaratmaq, onlar haqqında məlumatlar əldə etmək xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda rəqabət qabiliyyətinin qiymətləndirilməsi metodologiyası dəqiq müəyyən edilmiş riyazi aparata əsaslanmalıdır ki, bu da müəyyən edilən göstəricinin rəqabət amillərindən təxmini və əsasən şərti asılılığını deyil, sərt və dəqiq funksional əlaqəni verəcəkdir. Belə olarsa, bu vəziyyət müəssisənin rəqabət qabiliyyətinin göstəricilərinin və ona təsir edən amillərin geniş riyazi emalının mümkünlüyünü müəyyən edəcəkdir.

Rəqabətqabiliyyətliliyin qiymətləndirilməsinin bir neçə üsulları vardır.

İlk növbədə, **matris üsuludur.** Bu üsul, matrislərin tərtib edilməsi və strategiyasının əvvəlcədən seçilməsi ilə həyata keçirilir və əsasən istehsalçının və istehsal etdiyi məhsulun marketinq qiymətləndirilməsinə əsaslanır. Matris qiymətləndirmə üsulları olduqca sadədir və vizual məlumat verir. Bundan əlavə, onlar istehsalın inkişafında rəqabət prosesinin əsas tutulmasına əsaslanır və məlumatlar düzgün olduqda, məhsulun rəqabətlilik səviyyəsi haqqında kifayət qədər yüksək keyfiyyətli təhlil aparmağa imkan verir. Bu metodun mahiyyəti məhsulların həyatda olduğu dövr müddətini nəzərə almaqla müəssisənin rəqabət qabiliyyətinin analizindən ibarətdir. Tədqiqatın 2.3. paraqrafında bu üsuldan istifadə edilərək müəyyən nəticələr alınmışdır.

**İstehsal olunan məhsulların və ya xidmətlərin rəqabət qabiliyyətinin qiymətləndirilməsinə və səmərəliliyinə əsaslanan üsullar.** Bu üsul müəssisənin istehsal etdiyi məhsulun rəqabətqabiliyyətliliyi ilə müəssisənin rəqabətqabiliyyətliliyinin düz mütənasib olmasına əsaslanır, yəni müəssisənin rəqabət qabiliyyətini və məhsulun rəqabət qabiliyyətini "səmərəli istehlak" anlayışı vasitəsilə əlaqələndirir. Burada əsasən belə hesab olunur ki, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsi nə qədər yüksək olarsa, məhsulun keyfiyyəti də bir o qədər yüksək olar və maya dəyəri isə bir o qədər aşağı olar. Bu metodun sadəliyi və aydınlığı onun pozitiv amillərindəndir. Ancaq bununla yanaşı bu üsul müəssisənin fəaliyyətində güclü və zəif tərəfləri tam üzə çıxara bilmir. Burada əsasən kvalimetrik və marketinq metodlarından istifadə olunur ki, onların da əksəriyyəti qiymət və keyfiyyət nisbətlərini üzə çıxarır.

**Effektiv rəqabət və effektiv nəticə nəzəriyyəsinə əsaslanan üsullar.** Bu üsullar müəssisənin rəqabət qabiliyyətini təmin etmək qabiliyyətinin qiymətləndirilməsinə əsaslanır. Belə nəticə çıxır ki, bütün istehsal, idarəetmə strukturu və xidmət fəaliyyətini mükəmməl şəkildə qurmuş müəssisələr daha rəqabətqabiliyyətlidir. Hər hansı bir müəssisənin fəaliyyətinin qiymətləndirilməsi onun resurslardan necə istifadə etməsinin səmərəliliyinin qiymətləndirilməsini ehtiva edir. Bu qiymətləndirmə üsulu ən çox sənaye və emal müəssisələrinin qiymətləndirilməsində istifadə olunur və təsərrüfat fəaliyyətinin bütün ən vacib qiymətləndirmələrini özündə cəmləşdirir. Bu üsullar təhlil olunan subyektin daxili və xarici bazarlarda rəqabətqabiliyyətli mövqeyinin ümumi mənzərəsini ortaya qoya bilir.

**Kompleks üsullar.** Müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün kompleks üsulların tətbiqi inteqral qiymətləndirmə metodundan istifadə etməklə həyata keçirilir. Burada qiymətləndirmə potensial və cari rəqabət qabiliyyətinin müəyyən edilməsi əsasında aparılır. Daha doğrusu, bu üsula iki komponent daxildir: birincisi, istehlakçıların tələbatının ödənilmə dərəcəsini xarakterizə edən meyar, ikincisi, istehsalın səmərəliliyi meyarı. Bu metodun müsbət xüsusiyyəti hesablamaların sadəliyi və nəticələri birmənalı şərh etmək qabiliyyətidir [124].

Müəssisələrin rəqabət qabiliyyətinin artırılması üçün bir neçə yol vardır.

1. Məhsulların satış həcminin artırılması
2. Məhsulun keyfiyyətinin yüksəldilməsi
3. Məhsulun maya dəyərinin aşağı salınması
4. Bencmarkinq (müqayisəli təhlil)

Məhsulun, işin və ya xidmətin həcminin artırılması rəqabət qabiliyyətini artırmaq üçün əsas amillərdən biridir. Təbii ki, istehsal və satış həcminin artırılması özlüyündə heç nəyi həll etmir. Çünki burada müəssisənin xərclərinin miqdarı, keyfiyyəti, mənfəəti və s. kimi mühüm göstəriciləri nəzərə alınmır. Müəssisədə istehsal həcmlərini planlaşdırarkən bir sıra problemləri həll etmək lazımdır ki, bunlardan da ən vacibi zərərsiz istehsal fəaliyyətini təmin edəcək məhsul satışının həcminin müəyyən edilməsidir, daha doğrusu, rentabellik təmin edilməlidir.

Müəssisənin idarəedilməsində prioritet məsələ istehsalın səmərəliliyinin artırılmasıdır ki, bu da bazara çıxarılan məhsulların rəqabət şəraitində müəssisənin gəlirliliyinin artırılmasının hesabına əldə edilir. Müəssisənin uzunmüddətli perspektivdə səmərəli işləməsi məhsuldarlıq amili ilə çox bağlıdır ki, bu da istehsala yeni innovativ texnilogiyaların tətbiqi, müəssisənin bütün strukturlarında innovativ dəyişikliklər hesabına xərclərin azaldılması hesabına baş verməlidir.

Müəssisənin səmərəlilik potensialı çox vaxt xarici faktorlardan asılı olur, yəni əmək bazarının vəziyyəti, xammal təminatının vəziyyəti, enerji resurslarının təminatı və s. Bu zaman innovativ inkişafın ümumi səviyyəsində əsas ağırlıq, əsasən, istehsalın idarə olunması və təşkili məsələlərinin üzərinə düşür.

Bencmarkinq qiymətləndirmədə tipik olaraq, digər oxşar sahələrdə birbaşa rəqiblər və müəssisələr tərəfindən istifadə edilən "ən yaxşı" məhsul və marketinq prosesi müəssisənin öz məhsullarını və təcrübələrini təkmilləşdirmək yollarını müəyyən etmək üçün model kimi götürülür. Rəqabət qabiliyyətinin artırılmasına təsir edən amillərin biri də istehsal olunan məhsulların strukturunun daim təkmilləşdirilməsi, yenilənməsi və istehsalda istifadə olunan resursların strukturunun optimallaşdırılması və genişləndirilməsidir.

*“Müəssisənin rəqabət qabiliyyətinin artmasının daha bir amili istehsalın konsentrasiyası, miqyas iqtisadiyyatı ola bilər, yəni müəssisənin istehsal həcminin böyüdülməsi. Ancaq bunu həyata keçirmək üçün müəssisələr innovativ inkişafa investisiyaları artırmalı, əmək resurslarını optimallaşdırmalıdır. Hal-hazırda müəssisələrin məhsuldarlığının artırılması rəqabət qabiliyyətinin artırılması üçün ən əsas amillərdən hesab olunur”* [128, s.77].

Həm məhsulların, həm müəssisələrin, həm regionların və, nəhayət, ölkələrin dünya bazarında rəqabət apara bilməsi üçün bu göstəricilər çox əhəmiyyət daşıyır.

Hal-hazırda bir çox beynəlxalq səviyyəli təşkilatlar var ki, bu və digər göstəricilərdən istifadə edərək dünyada mövcud ölkələrin rəqabətqabiliyyətliliyini qiymətləndirirlər və hər il qlobal rəqabətqabiliyyətlilik reytinqlərini müəyyənləşdirmək üçün ölkələr üzrə sıralama cədvəllərini dərc etdirirlər.

Bunlardan Dünya İqtisadi Forumunu (Word Economic Forum) göstərmək olar ki, bu təşkilat hər il dünya ölkələrində iqtisadi prosesləri tədqiq edərək müxtəlif göstəricilər üzrə reytinq sıralamalarını müəyyən edir. Dünya İqtisadi Forumu rəqabətqabiliyyətlilik reytinqini 2004-cü ildən tərtib etməyə başlamışdır. Reytinqləri müəyyənləşdirmək üçün bir çox müxtəlif indeks, altindeks, indikatorlardan istifadə edilir və mütəmadi olaraq hər il yeni göstəricilər əlavə edilir. Bu göstəriciləri müəyyən etmək üçün ümumi və fərdi hesablama metodologiyalarından istifadə edilir. Eyni zamanda bəzi göstəricilər üzrə sorğu-anketlərdən istifadə edilir. Bu təşkilatın rəqabətqabiliyyətlilik reytinqinin göstəriciləri bu sıralamada iştirak edən dünya ölkələri üçün olduqca vacibdir. Çünki hər bir ölkə bu reytinq cədvəlindən çıxan nəticəyə görə ölkələrinin iqtisadi inkişafına təsir edə biləcək və ölkənin rəqabətqabiliyyətliliyini artıra biləcək məsələlər ətrafında tədbirlər görürlər. Dünya ölkələrinin Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (The Global Competitiveness Index) cədvəlinə belə önəm verməsi çox önəmli haldır və reytinqin müsbət cəhəti kimi qiymətləndirilir. Eyni zamanda bu reytinq sıralaması investisiyaların və bizneslərin inteqrasiyasına və təşkilinə də çox təsir göstərir.

Onu da qeyd etməliyik ki, qlobal miqyasda bu indeksdən əlavə Biznesin Rəqabətqabiliyyətlilik İndeksi ( Business Competitiveness İndex) də hesablanaraq hər il ictimailəşdirilir. Ancaq beynəlxalq miqyasda dünya ölkələri tərəfindən daha çox Qlobal Rəqabətqabiliyyətlilik İndeksinin göstəricilərinə üstünlük verilir və daim diqqət mərkəzində saxlayırlar.

Azərbaycan 2019-cu ildə Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə tətqiq olunan 141 ölkə arasında reytinq cədvəlində 58,5 bal ilə 49-cu yerdə qərarlaşmışdır. Bu inkişaf etməkdə olan ölkələr üçün çox yaxşı mövqedir. Sonrakı illər bir çox ölkələr, o cümlədən, Azərbaycan bu reytinqdə iştirak etməmişdir. (cəmi 64 ölkə iştirak etmişdir.)

**Cədvəl 3.1.2 Qlobal rəqabətqabiliyyətlilik indeksi üzrə dünya ölkələrinin reytinqi 2019-cu il**

| Reytinq | Ölkələr | İndeks |
|---|---|---|
| 1. | Sinqapur | 84,8 |
| 2. | ABŞ | 83,7 |
| 3. | Honkonq | 83,1 |
| 4. | Niderland | 82,4 |

| | | |
|---|---|---|
| 5. | İsveçrə | 82,3 |
| | | |
| 55. | Qazaxıstan | 62,9 |
| 56. | Bruney | 62,8 |
| 57. | Kolumbiya | 67,7 |
| **58.** | **Azərbaycan** | **62,7** |
| 59. | Yunanıstan | 62,6 |
| 60. | Cənubi Afrika Respublikası | 62,4 |
| 61. | Türkiyə | 61,1 |
| | | |
| 137. | Mozambik | 38,1 |
| 138. | Haiti | 36,3 |
| 139. | Konqo Demokratik Respublikası | 36,1 |
| 140. | Yəmən | 35,5 |
| 141. | Çad | 35,1 |

Mənbə: Dünya İqtisadi Forumu https://www.weforum.org/ əsasən müəllif tərtibatı

Cədvəl 3.1.2-də reytinq cədvəli verilmişdir ki, burada ilk və son beşliyə düşən ölkələr, o cümlədən, Azərbaycan və onun mövqeyi ilə qonşu olan ölkələrin sıralaması göstərilmişdir. Cədvəlin həcmi böyük olduğu üçün bütün dünya ölkələrinin sıralamaları göstərilməmişdir. Ancaq cədvəlin bu tərtibdə verilməsi Qlobal Rəqabətqabiliyyətlilik İndeksinin reytinq cədvəli və reytinqdə Azərbaycanın mövqeyi haqqında təsəvvür yaradır. Cədvəldən göründüyü kimi, rəqabətqabiliyyətlilik üzrə ən yüksək bal, birinci beşliyə düşmüş Sinqapur, ABŞ, Honqonq, Niderland, İsveçrə kimi ölkələrə verilmişdir. Bu ölkələrdə bildiyimiz kimi rifah da çox yüksəkdir. Bu o deməkdir ki, ölkələrin maddi rifah durumu həmin ölkələrdə mövcud sahibkarlıq mühitindən, dövlətin, müəssisələrin və ayrı-ayrı məhsulların qlobal rəqabət apara bilmək qabiliyyətindən birbaşa asılıdır [183].

Son illərdə Azərbaycanın milli iqtisadiyyatının inkişafı üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlərin fonunda ölkənin mövqeyi bir sıra beynəlxalq reytinqlərdə müsbət qiymətləndirilmişdir. Belə ki, buna misal 13 iyul 2016-cı il tarixdə Prezident tərəfindən imzalanan "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı [39] və 6 dekabr 2016-cı il tarixdə imzalanan "Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə Strateji Yol Xəritələri" Fərmanını [6] göstərmək olar.

Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksinin reytinq cədvəlində Azərbaycanın mövqelərinin daha da gücləndirilməsi üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat institutunun bir qrup tədqiqatçılarının apardıqları tədqiqatlarda bir çox nəticə və tövsiyyələr işlənib hazırlanmışdır ki, onlardan təqdir etdiyimiz bir neçə müddəaları burada göstərmək daha məqsədəuyğun olardı.

- *"Bazar hökmranlığına qarşı mübarizədə qanunverici normativ aktların daha da effektli işləməsi üçün ictimai maarifləndirməni artırmaq və şəffaflığı təmin etmək lazımdır.*
- *Bazara daxilolma maneələrinin minimuma endirilməsi məqsədilə yerli istehsalçıların təşviqi və stimullaşdırılması mexanizmi işlənilməlidir. Bu sahədə beynəlxalq təcrübəyə əsaslanmaq olar.*
- *Qeyri-tarif maneələrinin artmasına yol açan əsas cəhət rəqabət mühitinin kifayət qədər dinamik olmamasıdır. Bu mənada əsas tələb olunan şərt rəqabət mühitinin dinamik olmasıdır"* [72, s.196].

Dünya təcrübəsi göstərir ki, bazar və rəqabət müasir iqtisadiyyatın inkişafı üçün əsas vasitədir və ən güclü vasitədir. Ölkələrin iqtisadi inkişafı üçün digər amillər rəqabət qədər daha güclü və daha təsirli vasitə deyil. Rəqabət həm də bazara iqtisadi bir nəzarətdir. İstehsalçıları daim məcbur edir ki, qiymətləri mümkün qədər aşağı salsınlar, keyfiyyəti qaldırsınlar. Buna görə rəqabət bazarı daim tənzimləyən iqtisadi nəzarətin ən effektli üsuludur.

Aqroemal müəssisələrinin rəqabət apara bilmək xüsusiyyətini istehsal etdikləri məhsulların rəqabət qabiliyyəti, müəssisənin yaxşı maliyyə durumu, effektli reklam siyasəti, satışının rentabelliyi, istehsal texnologiyalarının müasirliyi, daha səmərəli idarəetməyə malik olması və s. ortaya qoyur və müəyyən edir. Bu parametrlər müəssisəni rəqabətqabiliyyətli edir və sonda iqtisadiyyatda, onun inkişafına səbəb olan rəqabət kimi bir hadisənin yaranmasına səbəb olur.

Azərbaycan Respublikasında milli rəqabətqabiliyyətliliyini yüksəltmək üçün ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yuxarıda qeyd etdiyimiz müasir amillərinin formalaşmasının gücləndirilməsi zəruridir. Bu həm də ölkə əhalisinin

yaşayış keyfiyyətinin yüksəldilməsinin, sosial-iqtisadi sabitliyinin, iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amildir.

### 3.2. Aqroemal məhsullarının satış bazarında rəqabət mühiti mexanizminin təkmilləşdirilməsi

Aqroemal müəssisələrinin istehsal etdikləri məhsulların satışı bazarda rəqabət mühitinin mövcud durumundan və bazar konyunkturasından çox asılıdır. Bəzən müəssisələrin rəqabət mühiti istehsalçı ilə alıcı arasındakı münasibətlərə təsir edən bir sıra subyektlər və bazar parametrlərini özündə cəmləşdirən marketinq mühiti ilə eyniləşdirilir. Əslində marketinq mühiti çox dəyişkəndir və müəssisənin fəaliyyətinə, eyni zamanda müəssisənin bazarın mövcud mühiti ilə olan əlaqəsinə çox təsir edir. Ancaq rəqabət münasibətlərinin marketinqdən fərqli olaraq özünə məxsus keyfiyyətləri vardır. Rəqabət münasibətləri müəssisənin bir çox marketinq şərtlərini diqtə edirlər. Bura satılan məhsulun həcmi, qiymətləri, satış şərtləri, keyfiyyət göstəriciləri, qablaşdırma və daşınma rahatlığı və s. daxildir. Təbii ki, bazarın inkişaf səviyyəsinin dərəcəsi nəzərə alınmalıdır. Bazarda istehlakçı uğrunda mübarizə bazarda mütəmadi olaraq baş verən dəyişikliklərdə özünü göstərir və bu dəyişikliklər ondan doğur ki, bazar proseslərinin əsas mühərriki rəqabətdir.

Rəqabətədavamlılığın ən əhəmiyyətli amili - təhsilin və əmək vərdişlərinin səviyyəsidir. Həqiqi, müqayisəli rəqabət üstünlüyü insan resurslarından asılıdır. Ən yeni texnologiyaların istifadə olunması və əməyin təşkil edilməsinin ən yeni formalarının tətbiq olunması yeni və ən yaxşı əmək vərdişlərinin, həmçinin, yeni davranış formalarının və münasibətlərin olmasını tələb edir.

Bu amillərdən məharətlə istifadə təkcə müəssisələrin deyil, bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyətini təmin edir.

"*Bu aspekt Azərbaycanda kənd təsərrüfatında kadrların idarə edilməsi sisteminin səmərəliliyinin yüksəldilməsi çərçivəsində nəzərə alınmalıdır. Bu əmək məhsuldarlığının artıracaq və son nəticədə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda onun rəqabət qabiliyyətinin artırılmasını təmin edir. Özünü inkişaf*

*etdirmək və özünü həyatda sübut etmək amili inkişafda kadr ehtiyacı ilə əlaqəli bu dəyərləri əks etdirir: yaradıcılığın inkişafı, potensial, peşəkar bacarıqlar, ünsiyyət bacarıqları, müstəqillik və qətiyyət, intellektual inkişaf, özünü sübut etmək və karyera yüksəlişi. Müəssisəyə bu dəyərlərə nail olmaq üçün imkanların yaradılması əlavə motivasiya amilidir ki, bu da kadr dəyişikliyini azaldır və müəssisənin səmərəliliyini artırır"* [172, s.276].

*"Müəssisənin rəqabət mühiti müddət və fəaliyyət intensivliyi ilə xarakterizə olunan bir çox heterogen amillərin satış bazarına təsiri ilə formalaşır. Məhsul bazarına təsir edən amillər çoxdur və onları qruplaşdırsaq aşağıdakı altı qrup yaranar".*

*– "Bazar rəqabətinin tənzimlənməsi ilə əlaqədar dövlətin münasibəti və siyasəti;*

*- bazarda iştirak edən və daim rəqabəti gücləndirən əsas müəssisələr;*

*- aqroemal müəssisələrinin istehsalına təsir və təzyiq edən istehlakçılar;*

*– aqroemal sənayesi bazarına xammal, material və digər komponentlər təklif edən tədarükçülər;*

*- aqroemal bazarında müəyyən çəkiyə malik əvəzedici malların istehsalçıları;*

*– birbaşa müəssisələr-məhsul istehsalçıları (satıcılar)"* [133, s.110].

Aqroemal məhsulları bazarında rəqabət mühitinin inkişafı kənd təsərrüfatı istehsalının stimullaşdırılmasının, ayrı-ayrı təsərrüfat subyektlərinin bazara mənfi təsir imkanlarının məhdudlaşdırılmasının, vasitəçiliyin azaldılmasının əsas bazar üsullarından biridir.

Azərbaycanda antiinhisar tənzimlənməsi problemi daim gündəmdədir və dövlət tərəfindən bir çox tənzimlənmə tədbirləri həyata keçirilmişdir.

Ölkə iqtisadiyyatının antiinhisar fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar Azərbaycan Respublikasının aşağıdakı Qanunları qəbul edilmişdir:

- 4 mart 1993-cü ildə "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu [7]
- 2 iyun 1995-ci ildə "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu [58]

- 15 dekabr 1998-ci ildə "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunu [110]
- 31 may 2016-cı il "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu [8]
- 02 iyul 2013-cü il "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu [88].

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti və Nazirlər Kabineti bir sıra Qaydaların təsdiq edilməsi ilə əlaqədar Fərman və Qərarlar vermişdir.

- 25 dekabr 2009-cu il "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı [9]
- 29 may 1998-ci il "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında" AR Nazirlər Kabinetinin Qərarı [10]
- 25 dekabr 2001-ci il "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi haqqında" AR Nazirlər Kabinetinin Qərarı. [111]

Azərbaycanda müstəqilliyin hələ ilk illərindən antiinhisar tənzimləmələrini həyata keçirmək üçün müvafiq icra qurumu yaradılmışdır. 1992-2001-ci illər Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi yaradılmış və fəaliyyət göstərmişdir. Sonradan bu qurum ləğv edilərək 2001-2007-ci illər fəaliyyət göstərən İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti Departamenti yaradılmışdır. 2007-ci ildə qurumun adı dəyişdirilərək İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Dövlət Xidməti, 2009-cu ildən isə İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti adlanmağa başlanmış və strukturu tamamilə yenilənmişdir.[11]

Azərbaycanda, son zamanlar, antiinhisar tənzimlənməsi sahəsində qanunvericilik bazası təkmilləşdirilmiş, qanun pozuntularının qarşısının alınması istiqamətində bir çox təqdirəlayiq işlər aparılmışdır. Bununla yanaşı, hələ də həllini gözləyən bir çox problemlər mövcuddur. Onların arasında inzibati maneələrin azaldılması, hakimiyyət orqanlarının və vəzifəli şəxslərin rəqabəti məhdudlaşdıran hərəkətlərinə qarşı mübarizə, antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsi kimi tədbirləri var.

Uzun müddətdir ki, yəni 2006-cı ildən Azərbaycan Respublikası Milli Məclisində Rəqabət Məcəlləsi müzakirə edilirdi. Bu sənəd artıq dekabr 2023-cü ildən təsdiq edildi və 2024-cü ilin iyul ayından qüvvəyə minəcəkdir. Rəqabət Məcəlləsinin qəbul edilməsi iqtisadiyyatda rəqabətin qəbul edilməsi və monopoliyanın minimumlaşdırılması nöqteyi nəzərdən çox vacib bir məsələ idi. Bu qanun yerli bazarda rəqabətin dəstəklənməsinə, rəqabət mühitinin yüksəldilməsinə və nəticədə sahibkarlığın inkişafına öz töhfəsini verəcəkdir.

Antiinhisar tənzimlənməsi dövlətin iqtisadi siyasətinin ən mühüm tərkib hissəsidir. Antiinhisar tənzimlənməsində əsas məqsəd ədalətli rəqabətin qorunması və bazar münasibətlərinin səmərəliliyinin təmin edilməsidir. Antiinhisar tənzimlənməsi istehlak bazarlarında iqtisadi fəaliyyətin aparılması qaydalarının müəyyən edilməsi və həyata keçirilməsi üçün qanunların və hüquqi aktların qəbul edilməsi və bu qanunlarla icazə verilən əsaslar və hədlər daxilində həyata keçirilən məqsədyönlü dövlət fəaliyyətidir. Bir sözlə, antiinhisar tənzimlənməsi inhisarçıların hakimiyyətlə bağlı mənfi cəhətlərinin aradan qaldırılmasına yönəlmiş, onlara azad rəqabəti boğmağa və qiymətlərə nəzarət etməyə imkan verməyən hüquqi aktlar sistemidir. Əslində antiinhisar qanunları iqtisadiyyatın dövlət tənzimlənməsinin elementlərindən biri sayılır.

Aqroemal sənayesində elə müəssisələr var ki, onların istehsal həcmləri çox böyükdür və məlum məsələdir ki, bu müəssisələr bazara daha çox məhsul çıxaracaqlar. Məlumdur ki, istehsal həcmi böyüdükcə məhsulun maya dəyəri də azalır və bu səbəbdən də müəssissələr maraqlıdırlar ki, istehsal həcmlərini artırsınlar. İstehsal həcminin artırılması, maya dəyərinin aşağı salınması eyni zamanda məhsulun

keyfiyyətinə də müsbət təsir edir. Nəticədə, istehsal həcmi çox böyük olan müəssisələr bazar rəqabətində çox irəli çıxırlar. Ona görə də dövlətin antiinhisar siyasəti inhisarçılığın aradan qaldırılmasına istiqamətlənməli deyil, bazarda orta və kiçik müəssisələrin bazarda lazımi tarazlığın saxlanması mühitinin yaradılmasına və inhisarçı müəssisələrin bazar hökmranlığının qarşısının alınmasına yönəldilməlidir.

Dövlətin antiinhisar tənzimlənməsi sahəsində əsas fəaliyyət istiqamətlərindən biri də haqsız rəqabətə qarşı mübarizədir. Bazar iqtisadiyyatının müasir dövründə haqsız (ədalətsiz) rəqabətin bir çox formaları var. Bura aiddir: rəqiblərin nüfuzdan salınması, əqli mülkiyyətin oğurlanması, məcburetmə üsulları, rəqiblərin xammal və ya satış bazarından məhrum edilməsi, yüksək səlahiyyətli məmurun sahibkarlıqla məşğul olması və digər rəqiblərinə qarşı inzibati səlahiyyətlərindən istifadə etməsi, qiymətlərin dempinqi (malların bazarda süni surətdə endirilmiş, orta pərakəndə qiymətlərdən aşağı, bəzən isə maya dəyərindən aşağı qiymətə satılması), sövdələşmə və sair qeyri-qanuni təsir üsulları.

Dünya ölkələrində antiinhisar tənzimlənmələrinin təcrübəsi göstərir ki, Azərbaycan üçün əsasən məhdudiyyətlərə və qadağalara söykənən qanunların qəbulu ilə nəticələnən "ənənəvi" antiinhisar siyasəti artıq kifayət deyil və yeni yanaşma tələb edilir.

Azərbaycan iqtisadiyyatının rəqabətli inkişaf etdirilməsinin spesifik yolu hər hansı bir təsərrüfat subyektinin bazarda dominant mövqe qazanması üçün istehlakçı tələbinin maksimuma çatdırılması deyil, dövlət strukturlarından maraqlı və səlahiyyətli məmurlar tərəfindən dəstəklənməsi və qorunması və bununla da monopoliya yaradılmasıdır. Tədqiqatın təhlili də göstərir ki, ölkə iqtisadiyyatının əsas problemi məhz mövcud inhisarçı subyektlərlə bağlıdır.

Dünya ölkələrinin təcrübəsində inhisarçılıqla mübarizənin müxtəlif yollarını qeyd etmək olar. Azərbaycanda da xarici təcrübə sayəsində və milli qanunvericiliyə arxalanaraq, nəinki yeni inhisar subyektlərinin yaradılmasının qarşısını alacaq, həm də inhisarçılıq problemlərini həll edəcək bir sıra islahatlar həyata keçirə biləcək iradə ortaya qoyulacaqdır. Biz buna ümid edirik. Eyni zamanda Azərbaycan təkcə dünya

təcrübəsindən öyrənməməli, həm də bir gənc dövlət kimi öz inkişaf xüsusiyyətlərini nəzərə alaraq problemin həlli üçün öz yollarının tapılmasına nail olmalıdır.

Bazarın inhisarlaşmasının qarşısını almaq və ədalətli rəqabət mühiti yaratmaq üçün dövlətin əsas siyasətlərindən biri də kiçik və orta sahibkarlığın dəstəklənməsi siyasətidir.

Bildiyimiz kimi, sahibkarlıq fəaliyyəti siyasi mühitə çox həssasdır. Dövlətin iqtisadi siyasəti, siyasi məqsədləri və vəzifələri, iqtisadiyyatın idarəetmə üsulları sahibkarlığın inkişafını stimullaşdıra və ya ləngidə bilər. Dövlətin ictimai və özəl sektora münasibəti orta və kiçik sahibkarlığın inkişafını sürətləndirə və ya bu inkişafa mane ola bilər. Sahibkarlıq fəaliyyəti üçün siyasi sabitlik xüsusi əhəmiyyət kəsb edir. İqtisadiyyatda rəqabət gələcəyin qeyri-müəyyən olmasını sevmir. Çünki o, öz işi ilə risk edir və mümkün qədər bu riskin az olmasını istəyir.

Eyni zamanda, sahibkarlığın inkişafı üçün iqtisadi mühit siyasi mühitdən heç də az əhəmiyyətli deyil. Sahibkarlığın inkişafı baxımından ona, ilk növbədə, əhalinin alıcılıq qabiliyyətini, yəni alıcıların xərcləyə biləcəkləri pul vəsaiti həcmini aid etmək olar. Çünki həmin pulun həcmi sahibkarın məqsədinə nail olması üçün, yəni mənfəət əldə etmək üçün əsas vasitədir. İstehlakçıların pul vəsaitlərinin az və ya çox olması onların alacaqları məhsulların və ya istifadə edəcəyi xidmətlərin növlərini, kəmiyyətini, bu məhsul və xidmətlərə görə ödəməyə hazır olduğu məbləği müəyyən edir. Bu məbləğ nə qədər çox olarsa sahibkarlıq fəaliyyəti üçün daha münbit mühit yaratmış olar. İş yerlərinin mövcudluğu, inflyasiya, dövlətin subsidiya və kredit güzəştləri, müxtəlif kanallarla maliyyə yardımları da sahibkarlığın iqtisadi mühitinə şamil edilir.

Sahibkarlıq fəaliyyətində bu fəaliyyətin hüquqi təminatları mühüm rol oynayır. Sahibkarlıq fəaliyyəti mütləq hüquqi bazaya söykənməli və qanunvericiliklə müdafiə olunmaqla inkişaf edə bilər. Bazar iqtisadiyyatı ilə inkişaf edən bütün ölkələrdə qanunvericilik aktları ilə sahibkarlıq fəaliyyəti üçün hüquqi mühit yaradılmışdır.

Azərbaycan müstəqillik qazanan gündən bazar iqtisadiyyatı yolunu tutmuş və sahibkarlığın inkişafı Azərbaycan Respublikasının Konstitusiyasına uyğun tənzimlənir. Konstitusiyanın 13 və 15–ci maddələrinə görə ölkəmizdə mülkiyyət

toxunulmazdır və o dövlət tərəfindən müdafiə olunur. "*Mülkiyyət – dövlət, xüsusi və bələdiyyə mülkiyyəti növlərində ola bilər. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir"* [12, maddə13].

Hələ 1992-ci ilin dekabrın 15-də "Sahibkarlıq fəaliyyəti haqqında" qanun qüvvəyə minmişdir. Həmin qanunun 9-cu maddəsində də deyilir: *"Dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir. Dövlət maddi-texniki, maliyyə, əmək, informasiya və təbii ehtiyatlardan istifadə sahəsində mülkiyyət və təşkilati-hüquqi imtiyazlara və qeyri-bərabərliyə yol vermir. Sahibkarlığın sürətli inkişafını təmin etmək üçün dövlət sahibkarlıq fəaliyyətinin öncül istiqamətlərini və buna müvafiq olaraq güzəştlər sistemini müəyyənləşdirir"* [89].

İnkişaf etmiş ölkələrdə dövlət büdcəsinin formalaşmasında, işsizliyin azaldılmasında orta və kiçik sahibkarlıq subyektlərinin rolu böyükdür. Bu səbəbdən də ölkəmizdə orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi dövlətin prioritet vəzifələrindən biri olmuşdur. Dövlət tərəfindən bu məqsədlə büdcədən müəyyən subsidiyalar, güzəştli kreditlər ayrılır, stimullaşdırıcı və təşviqləndirici tədbirlər görülür.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə bir sıra dövlət qurumları yaradılmışdır. Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Biznes Tədris Mərkəzləri kimi strukturlar sahibkarlığın inkişafında çox böyük rol oynayırlar.

Bu qurumlar ölkədə sahibkarlığın, o cümlədən, kiçik və orta biznesin inkişafında əhəmiyyətli rol oynamış və oynamaqdadır.

Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən 12 oktyabr 1992-ci ildə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Əsasnamə"sinin təsdiq edilməsi ilə dövlət büdcəsinin vəsaiti hesabına güzəştli kreditlər verəcək ilk maliyyə qurumunun əsası qoyuldu. Fondun əsas məqsədi ölkədə yeni olan sahibkarlığın inkişafına dəstək verməklə innovativ texnologiyalara əsaslanan yeni

istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına, ixracyönümlü və idxalı əvəzedən məhsul istehsalının artırılmasına, özəl sektora investisiya qoyuluşlarının sürətləndirilməsi ilə iqtisadiyyatda özəl sektorun payının daha da artırılması idi.

Sonralar, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun bazasında İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradıldı. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6%-dən 5%-ə endirildi, orta həcmli kreditlərin həddləri dəyişdirilərək 50 001 manatdan 10 000 000 manatadək müəyyən edildi [13].

Fondun vəsaitləri hesabına verilən güzəştli kreditlər Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq sahibkarlığın, o cümlədən, kiçik və orta sahibkarlığın dəstəklənməsinin təmin edilməsinə yönəldilmişdir. Son on iki ildə Sahibkarlığın Inkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin həcmi bunu aydın göstərir.




**Şəkil 3.2.1 SIF tərəfindən verilmiş güzəştli kreditlərin dinamikası. mln.man.**
Mənbə: SIF https://edf.gov.az/az/kredit/guzestli əsasında müəllif tərtibatı

Şəkil 3.2.1-dən göründüyü kimi, 2014-cü ilədək verilən güzəştli kreditlərdə ilbəil artan dinamika müşahidə olunurdu. 2014-cü ildən sonra isə bu kreditlərin həcmi azalmağa başlamışdır. 2022-ci ildə verilmiş güzəştli kreditin həcmi 2014-cü ilə nisbətən 2 dəfə azalmışdır. Nəzərə alsaq ki, 2015 ildə milli valyutanın iki dəfə devalvasiyası baş vermişdir, onda bu rəqəm daha da azalmış hesab edilir. Belə ki,

2014-cü ildə 1 dollar 0,79 manat, 2015-ci ildən sonra isə 1 dollar 1,70 manat olmuşdur. Xarici valyuta hesabı ilə müqayisə etsək 2020-ci ildə verilmiş güzəştli kredit 2014-cü ilə nisbətən 4,3 dəfə azalmışdır.

Buna baxmayaraq, son 12 ildə 2,4 mld. manatdan çox güzəştli kredit verilmişdir. Ümumiyyətlə Fond fəaliyyət göstərdiyi bütün illər ərzində 45,6 min sahibkarların layihələrini maliyyələşdirmişdir. Həmin layihələrin ümumi dəyəri 6,7 mld. manatdır ki, onun da 45%-i, yəni 3 mld. manatı güzəştli kredit hesabına olmuşdur. [22]

Ölkədə kiçik və orta biznesin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır. Agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyən, KOB subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir və İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Agentliyin Müşahidə Şurasının sədri Azərbaycanın Iqtisadiyyat naziridir [14].

KOBİA-nın missiyası kiçik və orta biznesin tənzimlənməsi sisteminin səmərəliliyinin artırılması, çoxsaylı dəstək mexanizmləri və onlara sahibkarların rahat çıxışının təmin edilməsi, KOB sektorunun davamlı inkişafına nail olmaq və onun ölkə iqtisadiyyatındakı rolunun artırılmasından ibarətdir. Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə kiçik və orta biznesin iqtisadi inkişafda rolunun, ÜDM-də və məşğulluqda payının artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi, KOB subyektlərinin maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, gündəlik istehlak malları ilə təminatın əsasən KOB subyektləri vasitəsilə həyata keçirilməsi, KOB-ların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi strateji hədəflərdir. [14]

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına əsasən ölkədə sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və həyata keçirilmiş işlərin nəticəsi olaraq 2022-ci ildə ümumi sahibkarlıq subyektlərinin sayı 1393204 olub. Onların 13%-i (178637) hüquqi şəxslərin, 87%-i (1214567) fərdi sahibkarların payına düşür. Əvvəlki il ilə müqayisədə ümumi sahibkarlıq subyektlərinin sayı 3%, o

cümlədən, hüquqi şəxslər 1%, fərdi sahibkarlar isə 2% artmışlar. 2022-ci il ərzində 904 kiçik sahibkarlıq, 20773 mikro sahibkarlıq subyektləri qeydiyyata alınmışdır [23].

Azərbaycan Respublikası Prezidentinin «Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» 2004-cü il 23 oktyabr tarixli, 467 nömrəli Sərəncamına [36] əsasən aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət dəstəyi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini təmin edən icra hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi yaradılmışdır. Agentliyin əsas missiyası: *aqrar inkişaf layihələrinin kreditləşdirilməsini və idarə edilməsini həyata keçirmək; aqrar sahədə dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsində iştirak; aqrar sahədə innovativ metodları və qabaqcıl təcrübəni təşviq etmək, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi üçün müvəkkil banklar, bank olmayan kredit təşkilatları və lizinq təşkilatları vasitəsilə kreditlər vermək; aqrar sahədə dövlət-özəl tərəfdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin etməkdir* [15].

Bundan əlavə, 2003-cü ildə ölkənin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi kimi öncül məqsədlərin reallaşdırılması məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) təsis edilmişdir. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir [37].

Ölkədə sahibkarlığın inkişafında Azərbaycan Prezidentinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı da böyük əhəmiyyət kəsb edir [38].

Azərbaycanda sahibkarlığın iqtisadiyyatda çəkisi demək olar ki, hər gün artır. Bu artım hökümətin sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması üçün gördüyü ardıcıl və sistemli tədbirlərin nəticəsidir və bu tədbirlər daim müasir bazar iqtisadiyyatına uyğun olaraq davam etdirilir. Sahibkarlığın inkişafı üçün beynəlxalq

təcrübələrə istinad edilərək müasir mexanizmlər tətbiq edilir. Məhz sahibkarlığa dövlət dəstəyinin nəticəsidir ki, son 2003-2022-ci illər ərzində sahibkarlıq subyektlərinin sayı 5 dəfə artıb, ÜDM-də özəl sektorun xüsusi çəkisi 86,5%, məşğul əhalinin payında isə 77% olub.

*"Aydındır ki, nisbətən kiçik məbləğdə verilən kreditlərin bir neçə istiqamətlər üzrə bölüşdürülməsi əlverişli nəticələr verməyə bilər. Bununla yanaşı, kənd təsərrüfatına maliyyə yardımı sahəsində imkanların artırılması perspektivlərinin özlüyündə, həmin variantdan istifadə məsələsinin aktuallığını artıracağı da göz önünə alınmamıldır"* [63, s.191].

Həqiqətən də, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün dövlətin yuxarıda adlarını çəkdiyimiz qurumlar vasitəsilə ayırdığı güzəştli kreditlər tələbatdan çox geri qalır. Ölkədə mövcud özəl banklar isə yüksək faizli, qısa müddətli və istehlak kreditlərinə daha çox üstünlük verirlər.

Ölkədə haqsız rəqabətə köklənmiş məmur sahibkarlığı ən böyük maneələrdən biri sayılır. Məmurların bizneslə məşğul olması və azad rəqabətli mühiti pozması, ölkədə inhisarçılıq yaratması sahibkarlığın inkişafına böyük əngəldir. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunun 3-cü maddəsinə əsasən məmurların sahibkarlıq fəaliyyəti ilə məşğul olması qadağandır. Məmur ona görə sahibkar ola bilməz ki, o, birbaşa qanunların icrasına nəzarət edir. Dünyanın bütün ölkələrində məmurların bizneslə məşğul olmaları qadağandır. Məmur sahibkarlığı iqtisadi inkişafın əsası olan rəqabət mühitini sıradan çıxarır. Fikrimizcə, ölkəmizdə sahibkarlıq mühitinə zərbə vuran amillərdən biri də monopoliyaların və məmur sahibkarlığının fəaliyyətidir. Uzun müddətdir ki, Milli Məclisdə "Rəqabət Məcəlləsi" müzakirə olunmasına baxmayaraq, nəhayət, 2023-cü ildə qəbul olunmuş və 2024-cü ilin iyul ayında qüvvəyə minməsi qərara alınmışdır. Bu qanunun qəbul edilməsi haqsız rəqabəti, o cümlədən, məmur sahibkarlığının qarşısının alınmasına ümidlər yaradır.

Qeyd etməliyik ki, iqtisadiyyatın elə sahələri var ki, rəqabəti saxlamaq məqsədəuyğun sayılmır. Bu cür sahələr təbii inhisarlar sayılırlar. "*Təbii inhisar məhsul bazarının elə vəziyyətidir ki, bu bazarda tələbatın ödənilməsi istehsalın*

*texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə daha səmərəli olur. Təbii inhisar subyektlərinin istehsal etdiyi mallar istehlakda başqa əmtəələrlə əvəz edilə bilməz"* [124, s.15].

Təbii inhisaçılığın tənzimlənməsi ölkənin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Bu məqsədlə də təbii inhisarçılığın tənzimlənməsi ilə əlaqədar müvafiq hüquqi bazalar yaradılmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 avqust 1996-cı il tarixli 109 saylı qərarı ilə "Azərbaycan Respublikasında təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi qaydaları haqqında" Əsasnamə təsdiq olunmuşdur. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi təbii inhisarların fəaliyyətlərini tənzimlənməsini həyata keçirən dövlət strukturlarıdır [40].

Aqroemal məhsullarının rəqabət qabiliyyətinin ilkin qiymətləndirilməsi üçün üç əsas amil - təyinat, keyfiyyət və qiyməti nəzərə almaq lazımdır. Məhsulun bazardakı mövqeyini təyin etmək üçün bu üç parametr kifayət edir.

İstehlak təyinatı (məqsədi) məhsulun nəzərdə tutulduğu təyinatını, yəni son nəticədə onun nəzərdə tutulduğu ehtiyacları ödəmək üçün potensial alıcıların və rəqiblərin kateqoriyasını müəyyənləşdirir.

Keyfiyyət İSO-9000 standartının tələblərinə uyğun olaraq: "Məhsulların (xidmətlərin) keyfiyyəti dedikdə, onların istehlakçıların nəzərdə tutulan ehtiyaclarını ödəmək qabiliyyəti" başa düşülür. Keyfiyyət məhsulların və xidmətlərin rəqabətqabiliyyətliliyində ən əsas göstərici sayılır. Məhsulların keyfiyyətinə beynəlxalq standartlar, istehlakçı tələbatı və s. kimi amillər təsir edir. Məhsulun və xidmətlərin keyfiyyəti insan sağlamlığı və ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik, yüksək texniki səviyyə, etibarlılıq, məhsulun müasir dizaynı, estetik və erqonomik xüsusiyyətləri, davamlılıq, uzunmüddətli istismar xüsusiyyəti, təmir olma imkanları, standartlaşdırma və unifikasiya səviyyəsi, patent və hüquqi müdafiə və s. kimi göstəricilərin tələblərinə cavab verməlidir [134].

Məlumdur ki, qiymət bir məhsulun dəyərinin pul ilə ifadəsidir. Məhsulun qiyməti bazarda tələb və təklif əsasında formalaşır. Məhsula ictimai tələbata nisbətən aşağı təklif qiymətlərin dəyərdən yuxarı qalxmasına, əksinə, bazarın həmin məhsullar

ilə dolması qiymətlərin aşağı düşməsinə səbəb olur. Bazar iqtisadiyyatı şəraitində qiymət obyektiv iqtisadi qanunların və hər şeydən əvvəl dəyər qanununun təsiri altında rəqabət prosesində müəyyən edilir. Bazar rəqabətində aşağı qiymət məhsulların rəqabət qabiliyyətinin yüksək olmasına təminat deməkdir.

Bazarda potensial müştərinin ehtiyaclarını bilmək təkcə məhsullar üçün rəqabətqabiliyyətli qiymətlər təyin etməyə deyil, həm də məhsulun özündə tələbata uyğun dəyişikliklər etməyə, məhsulun çatdırılma və paylama kanallarını və reklam strategiyasını optimallaşdırmaq kimi amillər diqqət mərkəzində saxlanılmalıdır.

Məhsulların rəqabət qabiliyyətli olması üçün bu amillər məcmu şəkildə nəzərə alınmalıdır. Bu amillərdən məharətlə istifadə təkcə müəssisələrin deyil, bütövlükdə ölkə iqtisadiyyatının səmərəli fəaliyyətini təmin edir.

Bazarda əldə edilmiş rəqabət qabiliyyəti səviyyəsini daim saxlamaq üçün rəqabət üstünlüklərinin formalaşdırılması prosesi davamlı olmalıdır. Bu mənada rəqabətqabiliyyətlilik təkcə məhsulun özünü deyil, həm də istehsalı təkmilləşdirməyə imkan verən innovasiya və yeni texnologiyaların axtarışı və tətbiqi kimi başa düşülməlidir.

Müasir reallıqlar sübut edir ki, iqtisadiyyatda rəqabətli mühitin yaradılmasında dövlətin rolunun aktivləşdirilməsi zəruridir. Azərbaycanda inkişaf etmiş iqtisadi sistem bazar transformasiyasının natamamlığı ilə xarakterizə olunur. Ona görə də müasir bazar iqtisadiyyatı şəraitində səmərəli rəqabət siyasəti iqtisadi inkişafın innovativ əsaslara keçidi üçün aktual və əhəmiyyətlidir.

Dünya təcrübəsi göstərir ki, rəqabətin tənzimlənməsi sahəsində dövlət siyasəti sosial-iqtisadi inkişafa, o cümlədən, mənfəətə, məhsuldarlığa, səmərəliliyə, iqtisadi artıma, innovasiyaya, dünya bazarlarında təsərrüfat subyektlərinin rəqabətqabiliyyətliliyinə müsbət təsir göstərir.

## 3.3. Aqroemal sahəsinin innovasiya potensialının səmərəli istifadə edilməsi istiqamətləri.

Ölkənin aqroemal sənayesi müəssisələrinin innovativ fəaliyyəti tətbiq olunmuş innovasiyaların səmərəliliyi və müntəzəmliyi, innovasiyaların yaradılması və tətbiqi prosesinin dinamikası ilə xarakterizə olunur. Müəssisənin innovativ fəaliyyəti nə qədər yüksək olarsa, onun innovativ aktivliyi də bir o qədər intensiv olur və nəticədə müəssisənin fəaliyyətinin səmərəliliyi daha çox olar. Beləliklə, innovasiya fəaliyyəti müəssisədə innovasiyaların tətbiqi intensivliyinin ölçüsü kimi onun səmərəliliyinin strateji xarakteristikasıdır.

İnnovasiyaların tətbiqi təkcə ixtiralarla, yeni texnologiyalarla, texniki həllərlə deyil, həm də müəssisədə sosial dəyişikliklərlə müəyyən edilir. Başqa sözlə, kadr və mütəxəssislərlə mütərəqqi iş sistemlərini, malların bazara çıxarılması üçün yeni texnologiyalar tətbiq edən və s. müəssisələr innovativ cəhətdən aktivdirlər. Təşkilati innovasiyalar biznes təcrübələrinə, idarəetmə strukturuna və xarici əlaqələrə yeni yanaşmalar kimi meydana çıxa bilər. Təşkilati innovasiyalar inzibati, idarəetmə və əməliyyat proseslərini yeniləməklə xərcləri azaltmaq, eyni zamanda daşınmaz aktivləri artırmaq, xammal və təchizat xərclərini azaltmaqla müəssisənin performansını daha da yaxşılaşdırmaq məqsədini güdür. Eyni zamanda, təşkilati innovasiyalar son iqtisadi göstəricilər baxımından texnoloji-innovativ yeniliklərlə kifayət qədər mütənasib ola bilər. Hər bir təsərrüfat subyektinin əsas məqsədi bazarda öz rəqiblərini üstələyə bilmək, istehlakçı məmnunluğuna daha çox nail ola bilməkdir. Bu məqsədlə də aqroemal müəssisələrinin inkişafının vacib şərti onun fəaliyyətinin innovativ yönümlü olmasıdır.

*"İnnovasiyaların yayılması və onların təmin etdiyi məhsuldarlığın artmasında iqtisadi və insan inkişafı həlledici rol oynayır. Yəni hər hansı inkişafın əsasını bilik təşkil edir, lakin inkişafın özü üçün onların mövcudluğu və yayılması kifayət deyil.*

*Məcburi bir şərt tələb olunur: biliklər əsasında yaradılmış yeni məhsullar, texnologiyalar və xidmətlər istehlakçıya çatdırılmalıdır, yəni bazara çıxarılmalıdır"* [123, s.105].

Qlobal böhranın nəticələri bir daha sübut etdi ki, Azərbaycanın iqtisadiyyatı enerji daşıyıcılarının qiymətlərindən əhəmiyyətli dərəcədə asılıdır. "Xammal" iqtisadiyyatı inkişaf yolu deyildir. O da aydın oldu ki, Azərbaycanın uzunmüddətli

perspektivdə normal iqtisadi fəaliyyətinin şərti dünyanın ən inkişaf etmiş ölkələrinin innovativ inkişaflarından nümunə götürərək iqtisadiyyatı bu istiqamətdə qurmaqdır.

Bütün dünyada baş verən dəyişikliklər yeni texnologiyalara və problemlərin innovativ həlli istiqamətinə əsaslanan yeni iqtisadi inkişaf modelinə keçidin zəruriliyini nümayiş etdirir. Ona görə də müasir dövrdə "innovasiya" və "innovativ iqtisadiyyat" anlayışları indi çox tez-tez eşidilir.

Ölkələrin innovasiya səviyyəsi insan potensialının inkişafı ilə sıx bağlıdır və bunların aralarında mütənasiblik mövcuddur. İnnovasiya səviyyələrinin yüksək olduğu bütün ölkələrdə insan potensialının səviyyəsi də yüksəkdir və ya əksinə. İnnovasiyaların tətbiqində insan kapitalı həlledici rol oynayır.

*"Aqrar sahədə rəqəmsallaşmanın təcrübədə real səmərə verməsi üçün bu proses bazar iştirakçılarının iqtisadi davranışının yeni modellərinin yaradılmasına yönəlməlidir. Bu məqsədlə ilk növbədə rəqəmsal texnologiyalar barədə zəruri detallaşdırmada (ərazi, əhali qrupları) verilənlər bazası tamamlanmalı, xırda təsərrüfatçıların rəqəmsal mühitə cəlb edilməsinə imkan verən dayanıqlı biznesmodellər yaradılmalı, rəqəmsal qərarın əsaslandırılması və qəbulunu nəzərdə tutan transformasiyaların alqoritminin reallığın tələblərinə uyğun çevik təshih edilməsi imkanı olmalıdır"* [45, s.98].

1990-cı ildən başlayaraq hər il Birləşmiş Millətlər Təşkilatının (BMT) dünya ölkələri üzrə İnsan İnkişafının İndeksi (İİİ) adlı hesabatları nəşr olunur. Bu hesabat BMT-nin hesabladığı əsas göstəricilərdən biridir. İİİ dünya ölkələri və regionları üzrə yaşayış səviyyəsinin ümumi müqayisəsini aparmaq üçün standart bir alətdir. Azərbaycan 2021-ci ilin hesabatında 191 ölkə arasında 0,745 bal ilə 91-ci yerdə qərarlaşmışdır. Bu bal yüksək insan inkişafı kateqoriyasına daxildir. Bu reytinq cədvəlində MDB ölkələrindən Qazaxıstanın (56), Rusiyanın (52), Belarusiyanın (60) və Gürcüstanın (63), Ermənistanın (81) mövqeləri daha güclüdür. Bu reytinq cədvəlində ilk yerlərdə mövqe tutan ölkələr iqtisadiyyatı ən çox inkişaf etmiş və innovasiyanın səviyyəsinə görə də ən qabaqcıl ölkələrdir [181].

*Ərzaq təhlükəsizliyi probleminə insanın inkişafı nöqteyi-nəzərindən yanaşma ona qarşı təhdidlərin geniş təhlilini və təsnifatını şərtləndirir. Burada bazarın deyil, məhz insanın maraqları ön öplana keçir* [78 s. 261].

Azərbaycan iqtisadiyyatının, o cümlədən, aqroemal sahəsinin inkişafı, rəqabətə davamlı məhsul istehsalı və dünya bazarında müəyyən yer tuta bilmək qabiliyyəti üçün innovativ inkişaf yolu yeganə yoldur. Onu da qeyd etməliyik ki, innovativ inkişaf yolu çox kapital tutumlu, yüksək kommersiya riskli və gec geriödəmə ilə müşaiyət olunur.

İnnovativ texnologiyalar, materiallar və innovativ idarəetmənin tətbiqi ilə müasir nailiyyətlərdən istifadə əsasında müəssisənin potensialından istifadə innovativ inkişaf mexanizmini işə salınmasına imkan verir. Bu aspektdən yanaşsaq innovasiyaların idarə edilməsinin mühüm vəzifələrindən biri innovasiya potensialının qiymətləndirilməsidir. Metodoloji vasitələrin mövcudluğu təsərrüfat subyektlərində baş verən dəyişiklikləri izləməyə və qiymətləndirməyə, elmə əsaslanan iqtisadiyyata keçidin tendensiyalarını və amillərini müəyyən etməyə imkan verəcəkdir. İnnovasiya potensialının qiymətləndirilməsi innovasiya proseslərinin həyata keçirilməsi zamanı yeni innovasiya və materialların tətbiqinin etibarlılıq səviyyəsini, yeniliklərin tətbiqi və inkişafı ilə bağlı mümkün riskləri müəyyən etməyə imkan verir.

İnnovasiya potensialının amilləri dedikdə, təsərrüfat subyektinin innovasiyalı inkişafının xarakterinə və intensivliyinə təsir edən müəyyən resurslar və səbəblər başa düşülür. Əslində innovasiya potensialı bu cür çoxsaylı amillərin qarşılıqlı fəaliyyəti nəticəsində ortaya çıxır. Təsərrüfat subyektinin innovasiya potensialının formalaşdırılması və həyata keçirilməsi elmi-tədqiqat və təcrübə konstruktor işləmələrindən başlayaraq məhsulların kütləvi istehsalına, yaxud, innovasiya texnologiyalarının tətbiqinin başa çatmasına qədər innovasiya prosesinin sürətləndirilməsinin kompleks imkanları və parametrlərinin qarşılıqlı fəaliyyəti nəticəsindən asılıdır.

"*Aqrar sahənin innovasiyalı inkişafı prosesi iki əsas tərkib elementi – elmi araşdırmalar və onların istehsalatda mənimsənilməsi yolu ilə müəyyən olunduğundan*

*bu sahənin innovasiyalı inkişafını təmin edən sistem də bu məzmuna uyğun olmalıdır”* [16, s.474].

Dünya iqtisad elmi müxtəlif ölkələrin və regionların innovativ inkişaf səviyyəsini qiymətləndirməyə imkan verən xeyli sayda müxtəlif göstəricilər, indekslər və indiqatorlar sistemlərini işləyib hazırlamışdır.

2007-ci ildən ölkələrin və regionların innovativ səviyyələrini müəyyənləşdirmək üçün Fransanın İNSEAD (Institut Européen D'administration Des Affaires) beynəlxalq biznes məktəbi Qlobal İnnovasiya İndeksini (QİI) hesablamaq üçün öz metodologiyasını təklif etmişdiir. Bu metodologiya əsasında ölkələrin innovasiya xərcləri və effektliyini ölçən 80 indiqatordan istifadə edilməyə başlandı. Təhlil edilən indikatorlar ölkələrin çox geniş göstəricilərini – qanuvericilik, elm və təhsildən başlamış, bazarın, biznesin, infrastrukturun inkişafı məsələlərinədək və sairəni əhatə edirdi. QİI-nin dərc olunmasında əsas məqsəd innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin qiymətləndirilməsi imkanlarının yaradılmasıdır. Bu indeksin ölçülməsi tezliklə dünyanın əksər ölkələrini əhatə etdi və hər il ölkələr və regionların innovasiya səviyyələrinə görə sıralamalar nəşr edilməyə başladı [166].

2022-ci ildə INSEAD Biznes məktəbinin (Fransa), sonradan bu hesablamalarda iştirak edən Kornell Universitetinin (ABŞ), və BMT-nin ixtisaslaşmış qurumu olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT-WIPO) birgə nəşri olan və 132 ölkəni əhatə edən (əvvəlki illər reytinqə 129 ölkə daxil idi) “Qlobal İnnovasiya İndeksi-2022” (QİI-2022) hesabatı nəşr edilmişdir. QİI-2022 bu qurumların artıq 15-ci hesabatıdır.

Qlobal İnnovasiya İndeksi (QİI) tərəfindən dünya ölkələri innovasiya imkanlarına görə 1-100 bal arası qiymətlə sıralanır. 1 - ən yaxşı, 100 - ən pisdir. Təxminən 80 indikatordan ibarət olan, innovasiya resursları və innovasiya nəticəsi üzrə qruplaşdırılan QİI innovasiyanın çoxölçülü göstəricilərini əhatə etməyi hədəfləyir.

**Cədvəl 3.3.1 Ölkələr üzrə Qlobal İnnovasiya İndeksinin reytinq cədvəli 2022**

| Ölkələr | İndeks üzrə reytinq sırası | İnnovasiya resursu reytinq sırası | İnnovasiya nəticəsi reytinq sırası | Bal |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| İsveçrə | 1 | 1 | 3 | 64,6 |
| ABŞ | 2 | 5 | 2 | 61,8 |
| İsveç | 3 | 2 | 4 | 61,6 |
| Böyük Britaniya | 4 | 3 | 7 | 59,7 |
| Hollandiya | 5 | 6 | 10 | 58,0 |
| Cənubi Koreya | 6 | 4 | 16 | 57,8 |
| Sinqapur | 7 | 14 | 1 | 57,3 |
| Almaniya | 8 | 7 | 12 | 57,2 |
| Finlandiya | 9 | 9 | 6 | 56,9 |
| Danimarka | 10 | 10 | 8 | 55,9 |
| **Post Sovet ölkələri** | | | | |
| Estoniya | 18 | 22 | 15 | 50,2 |
| Latviya | 39 | 42 | 39 | 37,3 |
| Litva | 41 | 47 | 34 | 36,5 |
| Ukrayna | 57 | 48 | 75 | 31,0 |
| Rusiya | 47 | 50 | 46 | 34,3 |
| Moldova | 56 | 46 | 78 | 31,1 |
| Ermənistan | 80 | 73 | 82 | 26,6 |
| Gürcüstan | 74 | 82 | 61 | 27,9 |
| Belarusiya | 77 | 63 | 86 | 27,5 |
| Qazaxıstan | 83 | 97 | 65 | 24,7 |
| **Azərbaycan** | **93** | **79** | **110** | **21,5** |
| Özbəkistan | 82 | 91 | 68 | 25,3 |
| Qırğızıstan | 94 | 108 | 85 | 21,1 |
| Tacikistan | 104 | 101 | 104 | 18,8 |

Mənbə: QİI 2022-ci il hesabatı əsasında müəllif tərtibatı.

Cədvəl 3.3.1-dən göründüyü kimi, QİI reytinqinə başçılıq edən və birinci onluqda yer alan ölkələr iqtisadiyyatı ən güclü inkişaf etmiş ölkələrdir. Reytinq cədvəlinə İsveçrə başçılıq edir, ondan sonra ABŞ, İsveç, Böyük Britaniya və Hollandiya gəlir.

Azərbaycan 2022-ci il reytinq cədvəlində 21,5 bal ilə 93-cü yerdə qərarlaşmışdır. Müqayisənin daha dolğun olması üçün keçmiş Sovet ölkələrinin reytinq səviyyələrini göstərmişik. Bu ölkələrdən Pribaltika ölkələri birinci üçlükdə qərarlaşmışlar. Ukrayna, Rusiya, Moldova, Ermənistan, Gürcüstan, Belarusiya, Qazaxıstan və Özbəkistanın mövqeləri Azərbaycandan irəlidədir. Azərbaycan isə MDB ölkələri içərisində Qırğızıstan və Tacikistanın mövqelərindən irəlidədir. Azərbaycan region üzrə, yəni Şimali Afrika və Qərbi Asiyanın 19 ölkəsi arasında 16-cı yerdədir. 2023-cü ildə isə 4 punkt irəliləyərək 89-cu yerdə qərarlaşmışdır. [165].

QİI-nin hesabatlarına görə Azərbaycan dünya ölkələri arasında iqtisadiyyatının səviyyəsinə görə yuxarı orta gəlir qrupu ölkələri sırasına aid edilmişdir və təbii ki,

burada əsas rol neft ixracının üzərinə düşür. Yuxarıda göstərdiyimiz 7 qrup göstəricilər arasında ölkəmiz "institutlar" və "biznesin inkişafı" göstəricilərində yüksək bal toplamışdır. Bu göstəricilər yuxarı orta gəlirli ölkələrin orta göstəricisindən də yaxşıdır. Ancaq "insan kapitalı və elm", "infrastruktur", "daxili bazarın inkişafı", "bilik və texnologiyaların inkişafı", "kreativ fəaliyyətin nəticələri" göstəricilərində orta göstəricilərdən aşağı nəticələr göstərmişdir. Bu göstəriciləri ardıcıllıqla aşağıdakı şəkildə göstərək.




**Şəkil 3.3.1 QİI-2022 subindeks göstəriciləri**
Mənbə: QİI-2022 hesabatı əsasında müəllif tərtibatı

Şəkil 3.3.1-dən aydın olur ki, iki altindeks üzrə - "institutlar" və "biznesin inkişafı" göstəricilərində ölkənin vəziyyəti yaxşı qiymətləndirilmişdir. Ancaq "insan kapitalı və elm", "kreativ fəaliyyətin nəticələri", "infrastruktura", "biliklər və texnoloji inkişaf" üzrə alt indekslərdə göstəricilər qənaətbəxş deyildir. Ən yaxşı vəziyyət "institutlar" altindeksi 46-cı yerdə, ən pis vəziyyət "biliklər və texnoloji inkişaf" 117-ci yerdə qərarlaşmışıq.

QİI-2020 hesabatlarında Azərbaycanın güclü və zəif tərəflərini müəyyənləşdirərərk ortaya qoymuşdur.

**Güclü tərəflər:**

- Siyasi və əməliyyat sabitliyi...................................53-cü yer
- İşdən çıxarılma xərcləri..........................................51-ci yer
- Biznesin aparılması qaydaları..................................21-ci yer
- Elm və mühəndislik üzrə məzunlar, %....................42-ci yer

- Tədqiqatçılar, FTE/mn pop.....................................43-cü yer
- İxtisas dərəcəsi ilə işləyən qadınlar, %....................57-ci yer
- Müəllim-şagird (tələbə) nisbəti...............................9-cu yer
- Universitet-sənaye tədqiqat əməkdaşlığı.................23-cü yer
- Klasterlərin inkişafı vəziyyəti.................................25-ci yer
- BXİ (birbaşa xarici investisiyalar) axınları.............61-cı yer

**Zəif tərəflər:**

- Təhsilə xərclər, % ÜDM........................................114-cu yer
- Biliyin mənimsənilməsi..........................................119-cu yer
- Yüksək texnologiyaların idxalı...............................121-ci yer
- Xaricdən maliyyələşdirilən GERD*..........................97-ci yer
- Əqli mülkiyyət daxilolmaları..................................122-ci yer
- İstehsal və ixracın mürəkkəbliyi.............................114-cü yer
- Yaradıcı məhsulların ixracı.......................................120-ci yer

* *R&D (tədqiqat və inkişaf-GERD) üzrə ümumi daxili xərclərə biznes müəssisələri, ali təhsil müəssisələri, habelə dövlət və özəl qeyri-kommersiya təşkilatları tərəfindən tədqiqat və təkmilləşdirmə xərcləri daxildir.*

İnnovasiyalar iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Ona görə də QİÎ ölkələrin məlumatlarına istinad edərək innovasiya reytinqini tərtib edilib. Bu indeks reytinqdə iştirak edən ölkələrin innovasiya imkanlarının və innovasiya nəticələrinin reytinqidir. QİÎ ölkələr üzrə institutlar, insan kapitalı və tədqiqatlar, infrastruktur, kredit əlçatanlığı, investisiyalar, biliyin yaradılması, mənimsənilməsi və yayılması və yaradıcı nəticələri ortaya qoyur. Bununla da ölkələr üçün innovativ inkişafın fəaliyyət proqramının prioritetlərini göstərir [165].

Azərbaycanın strateji dövlət sənədlərində də innovasiya siyasəti və innovativ iqtisadiyyatın qurulması prioritet məsələlərdəndir. 6 dekabr 2016-cı ildə Azərbaycan Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə təsdiqlənən strateji sənədlərdə innovasiyalara geniş yer verilir. Həmin sənədin 3.1.4. bölməsi "Ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi" adlanır və qeyd edir: "Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin

həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdıracaq, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyi yüksələcəkdir". Sənədin 3.1.5.-ci bölməsində deyilir: *"Elmin inkişafı təşviq ediləcək, özəl sektor tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiya qoyuluşunu təmin etmək üçün stimullaşdırıcı tədbirlər görüləcək".* "İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi" adlanan 3.2.3-cü bölməsində qeyd edilir: *"Azərbaycanda innovasiyanın təşviqini stimullaşdıracaq fəaliyyət planları və dövlət proqramları hazırlanarkən bu fəaliyyət nəzərə alınacaq. İnnovasiya fəaliyyətini stimullaşdırmaq üçün ölkə elmi araşdırma və təkmilləşdirmələrə yüksək texnologiyalı məhsulların istehsalına görə mükafatlar və kreditlər vermək yolu ilə geniş diapazonlu bilik şəbəkəsi yaratmaq sahəsində bir çox imkanlara malikdir*". "İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi" adlanan 3.1.7-ci bölməsində qeyd edilir: "*Elm, təhsil və istehsal sahələrində maddi-texniki bazanın müasir tələblər səviyyəsinə çatdırılması, elmi tədqiqatların aparılması, sınaqdan keçirilməsi və tətbiqini, "elm-istehsal-bazar" əlaqələrinin optimallaşmasını təmin edəcək, köməkçi qurumların yaradılması təşviq ediləcək"* [77].

Azərbaycanda müasir dövr üçün dövlət innovasiya siyasətini müəyyən edən digər əsas sənədlər 10 yanvar 2019-cu il tarixli "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Prezidentin sərəncamı [41] və 11 oktyabr 2021-ci il tarixli "Azərbaycan Respulikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Prezidentin fərmanı [17] sayılır. Bu fərmana əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi yaradılmışdır. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkilini, əlaqələndirilməsini, həyata keçirilməsini (o cümlədən, nəzarət və tənzimləməni) təmin edən, yüksək texnologiyalar, nüvə elmləri, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirləri, elmi, elmi texniki, innovasiya fəaliyyətini və müvafiq sınaq təcrübələrini həyata keçirən, fiziki və hüquqi şəxslərə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasına yardım göstərən,

innovasiya yönümlü elmi tədqiqatları və innovativ layihələri (o cümlədən, startapları) təşviq edən, onlara maliyyə dəstəyi verən və innovasiya təşəbbüskarlığını təbliğ edən publik hüquqi şəxsdir [68].

Hər bir ölkənin qlobal dünya iqtisadiyyatına inteqrasiyası və onun beynəlxalq əmək bölgüsündə tutduğu mövqe, eyni zamanda qlobal iqtisadiyyatda rəqabət qabiliyyəti elm tutumlu, texniki cəhətdən mükəmməl və innovativ əmtəə və xidmətlərin istehsalı və ixracı vəziyyətindən asılıdır. Ona görə də dünya ölkələrinin milli iqtisadiyyatının keyfiyyət göstəricisi yüksək texnoloji məhsulların (YTP) istehsalı və ixracının həcmidir.

İnnovasiyaların, o cümlədən, orta və yüksək texnologiyaların tətbiqi və bu tətbiq nəticəsində yaranmış əlavə dəyər və onun emal sahəsində xüsusi payı innovasiyanın ölkədə səviyyə göstəricilərindən biridir. Eyni zamanda, orta və yüksək texnologiyaların məhsulunun ixracı da ölkənin innovativ səviyyəsini göstərən ən əsas göstəricilərdən biridir. Çox təəssüf ki, Dövlət Statistika Komtəsinin hesabatlarında orta və yüksək texnoloji məhsulların ixracı haqqında heç bir məlumata rast gəlinmədi. Hansı ki, dünya ölkələrinin statistik hesabatlarında bu göstərici ölkənin innovativ inkişafının əsas göstəricisi olduğu üçün diqqət mərkəzində saxlanılır. Bu məhsullar həm də elm tutumlu məhsullar sayılır ki, ölkənin elmi inkişafının səviyyəsinin göstəricisi kimi də qəbul etmək olar. Ona görə də aşağıdakı qrafikdə ümumi təsəvvür yaratmaq üçün orta və yüksək texnologiyaların tətbiqi nəticəsində yaranmış əlavə dəyərin ümumi əlavə dəyərdə olan xüsusi çəkisi ilə kifayətlənirik.




**Qrafik 3.3.1 Orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi. %-lə**

Mənbə: DSK "Azərbaycanın milli hesabları" 2023 s.41
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasən müəllif tərtibatı

Qrafik 3.3.1-dən məlum göründüyü kimi, ölkədə orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdəki xüsusi payı 2015-ci ildən mütəmadi olaraq azalmağa başlamışdır. 2022-ci ildə bu rəqəm 2010-cu ilə nisbətən 51% artsa da, 2015-ci ilə nisbətən 33% azalmışdır.

Qeyd etməliyik ki, Azərbaycanda elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə çəkilən xərclər ÜDM-in 0,2%-ni təşkil edir və bu rəqəm son 10 ildə sabit qalmışdır. Bu göstərici dünya üzrə orta göstəricidən (2,4%) çox aşağıdır. Müqayisə üçün deyə bilərik ki, MDB ölkələrində bu rəqəm son 10 ildə ortalama Rusiyada 1,0%, Belarusiyada 0,6%, Ukraynada 0,5%, Moldovada 0,3%, Ermənistanda 0,2% olmuşdur. İnkişaf etmiş ölkələrdə bu göstərici daha yüksəkdir.

Ölkəmizdə neft satışından gələn gəlirləri nəzərə alsaq, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə ayrılan vəsaitin dəfələrlə artırılması üçün potensialın olduğunu görərik. Məhz elmi-tədqiqat işlərinə çəkilən xərclərin az olmasının səbəbidir ki, ölkədə son 5 ildə hər 1 milyon əhaliyə düşən tədqiqatçıların sayında azalmalar müşahidə olunur. Belə ki, tədqiqatçıların sayı 2022-ci ildə 2015-ci ilə nisbətən 11% azalmışdır.

Həm emal sənayesinin əlavə dəyərinin ÜDM-ə faiz nisbəti (qrafik 3.3.1.) və həm də orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə payı (qrafik 3.3.2.-də) qrafiklərində əks olunan göstəricilər ölkədə innovasiyalara çəkilən xərclərdən birbaşa asılıdır. Bura həm təsərrüfat subyektlərinin öz maliyyə hesablarına və həm də dövlətin innovasiya xərcləri üçün sahibkarlara göstərdikləri maliyyə dəstəkləri aiddir. Aqroemal sahəsində innovasiyalara çəkilən xərclər, təyinatları və maliyyə mənbəələrinin təhlili ümumi mənzərəni ortaya qoya bilər.

**Cədvəl 3.3.2 İnnovasiyalara çəkilən xərclər. min man-la**

| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Qida məhsullarının istehsalı** | 690,6 | x | 81,5 | x | 208,7 | 8667,0 | 98,1 | 195,1 |
| Məhsul innovasiyaları | 690,6 | x | 81,5 | x | 208,7 | 8667,0 | 34,5 | 129,9 |
| Proses innovasiyaları | x | x | x | x | x | x | 63,6 | 65,2 |
| Müəssisənin öz vəsaiti hesabına | 263,3 | x | 81,5 | 338,0 | 208,7 | x | 96,6 | 127,2 |
| Texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 648,1 | x | 81,5 | x | x | x | x | x |
| **İçki istehsalı** | x | 12792 | 151 | 338 | 642 | x | x | 1754,0 |
| Məhsul innovasiyaları | x | x | x | 336 | 642 | x | x | 1754,0 |
| Proses innovasiyaları | x | 12792 | 151 | 2 | x | x | x | x |
| Müəssisənin öz vəsaitləri hesabına | x | 12792.0 | 151 | x | x | x | x | 1754,0 |
| Texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | x | 12708,0 | x | 336,0 | x | x | x | x |
| Yeni texnologiyaların alınması | x | 16,0 | x | x | x | x | x | x |
| Proqram vəsaitlərinin alınması | x | 68,0 | x | 2,0 | x | x | x | x |
| Yeni marketinq tədqiqatları | x | x | 151,0 | x | x | x | x | x |
| **Tütün məmulatlarının istehsalı** | 166,9 | x | x | x | 26994,1 | x | x | x |
| Məhsul innovasiyaları | 1669 | x | x | x | 26994,1 | x | x | x |
| Proses innovasiyaları | x | x | x | x | | x | x | x |
| Müəssisənin öz vəsaitləri hesabına | 166,9 | x | x | x | 26994,1 | x | x | x |

Mənbə: DSK İqtisadi statistika "Sənaye" 2023 19.2. https://www.stat.gov.az/source/industry/ əsasən müəllif tərtibatı

Cədvəl 3.3.2-dən aydın olur ki, aqroemal sahəsində innovasiyaya çəkilən xərclər heç də ürəkaçan səviyyədə deyil. Belə ki, son on iki ildə qida məhsulları istehsalı sektorunda, cəmi 6 ildə innovasiyalara vəsait xərclənmişdir. 2010-cu ildə 690,6 min manat, 2017-ci ildə 81,5 min manat, 2019-cu ildə 208,7 min manat və 2020-ci ildə

8667,0 min manat, 2021-ci ildə 98,1 min manat, 2022-ci ildə 195,1 min manat, cəmi son 12 ildə 9941 min manat innovasiyaya vəsait xərclənmişdir.

Onu da qeyd etməliyik ki, bu vəsaitin hamısı məhsul innovasiyalarına xərclənmişdir, yəni bu o deməkdir ki, hər hansı bir təsərrüfat subyekti bu vəsaiti müəssisəsində istehsal etdiyi məhsulun və ya xidmətin həcmini artırmaq və ya yeni məhsulun, xidmətin bazara təqdim edilməsi məqsədi ilə yenidənqurma aparmışdır. Bu sektorda həmin dövr ərzində proses innovasiyalarına heç bir investisiya qoyulmamışdır. Proses innovasiyası – xammalın tədarükü, istehsalı və bazar şəbəkələrinə paylanma, məhsuldarlıq və əlavə dəyərin artırılması üçün mövcud sistemin tamamilə dəyişdirilməsi və ya mövcud sistemdə müəyyən dəyişikliklər və düzəlişlər edilməsi kimi başa düşülməlidir. Qida məhsulları istehsalında innovasiyalara çəkilən xərclər müəssisənin öz vəsaiti hesabına olmuş, dövlətin heç bir maliyyə dəstəyi olmamışdır. Qida məhsulları istehsalı sektoru aqroemal sahəsinin ən böyük və çoxçeşidli sahəsidir və son 12 ildə bu sektorda innovativ məhsul və proseslərə qoyulan vəsait həddindən artıq azdır.

İçki istehsalında innovasiyalara xərclənən vəsaitləri təhlil etsək təxminən eyni mənzərə ilə rastlaşarıq. Belə ki, son 12 ildə, 2010-cu və 2020-ci və 2021-ci illər istisna olmaqla bu sahədə innovasiyalara 17588 min manat pul xərclənmişdir. Bu vəsaitin 2752 min manatı məhsul innovasiyalarına, qalanı isə proses innovasiyalarına xərclənmişdir. İnnovasiyalara qoyulmuş investisiyanın 16608 min manatı müəssisələrin öz hesabına, qalan vəsaitin mənbəyi isə göstərilməmişdir. Bu sektorda da dövlət tərəfindən heç bir maliyyə dəstəyi olmamışdır. Xərclənmiş vəsaitin əsas hissəsi, yəni, 94%-i texnoloji innovasiyalarla əlaqədar maşın və avadanlığın alınmasına, 5%-i yeni marketinq tədqiqatlarına, 1%-i proqram vəsaitlərinin alınmasına sərf edilmişdir. Təəccüblüdür ki, 2017-ci ildə innovasiyaya çəkilən bütün xərclər (151 min manat) son 12 ildə yeganə olan yeni marketinq tədqiqatlarına sərf edilmişdir.

Tütün məmulatları istehsalında da innovasiyaya çəkilən xərclər çox aşağı səviyyədədir. Son 12 ildə cəmi iki dəfə, 2010-cu ildə 166,9 min manat, 2019-cu ildə 26994,1 min manat innovasiyaya vəsait xərclənmişdir. Çəkilən bu xərclər məhsul

innovasiyalarına aiddir, yəni, bu vəsait məhsul çeşidlərinin artırılması və yeni məhsulların istehsalına qoyulmuşdur. Onu da qeyd etməliyik ki, bu sektorda innovasiya xərclərinin hamısı müəssisə tərəfindən qoyulmuşdur və digər aqroemal sahələrində olduğu kimi dövlətin heç bir maliyyə dəstəyi olmamışdır.

Cədvəl 3.3.2-dən o da məlum olur ki, son 12 ildə innovasiyaya çəkilən xərclər illər üzrə pərakəndə şəklindədir, yəni mütəmadi deyil. Belə ki, qida məhsulları sektorunda 2015, 2016 və 2018-ci illər innovasiyaya vəsait qoyulmamışdır. İçki istehsalında 2010, 2020, 2021-ci illər, tütün məmulatları istehsalında isə 2015, 2016, 2017, 2018, 2020, 2021 və 2022-ci illər heç bir investisiya qoyulmamışdır.

Bildiyimiz kimi, bütün dünya ölkələrinin iqtisadi siyasətlərinin əsas xətti və məqsədi rifahın yüksəldilməsini sürətləndirməkdir. Yüksək rifah iqtisadi artımı tələb edir, iqtisadi artım isə özlüyündə innovasiyaların tətbiqini tələb edir. Burada innovasiya prosesinin iqtisadiyyatın bütün sahələri üzrə geniş spektrdə tətbiqi başa düşülür. İnnovasiyalar təkcə yüksək texnoloji sahələrdə baş vermir, bu iqtisadiyyatın bütün sahələrinə aiddir. Aşağı texnologiyalı aqroemal sahəsinin müəssisələrində də məhsul və proses innovasiyaları tətbiq ediləndə daha uğurlu biznes qurulur və səmərəlilik xeyli artır.

İnkişaf etmiş ölkələrin ən böyük sektoru olan xidmət sektoru da innovasiyaya daha çox həssasdır və daha çox innovativdir.

Dövlət tərəfindən innovasiyalar dəstəklənməlidir, belə ki, texnologiyaların əldə edilməsinə dövlət dəstəyinin göstərilməsi, vergi güzəştlərinin verilməsi, əqli mülkiyyətə hüquqların ötürülməsinin liberallaşdırılması yolu ilə özəl biznesin innovasiya proseslərində iştiraka marağını artırmaq mümkündür. Təbii ki, aqroemal sahəsində innovasiyalara çəkilən xərclərin az olmasının və innovasiyalara mane olan səbəblər vardır.

Dövlət Statistika Komitəsi bu səbəblərlə əlaqədar 2022-ci ildə araşdırma apararaq aşağıdakı şəkildə verilmiş qaydada qruplaşdırmışdır.




**Şəkil 3.3.2 İnnovasiyalara mane olan amilləri dəyərləndirən müəssisələrin sayı**
Mənbə: Mənbə: DSK İqtisadi statistika "Sənaye" 2023 19.5.
https://www.stat.gov.az/source/industry/ əsasən müəllif tərtibatı

Şəkil 3.3.2-dən məlum olur ki, təsərrüfat subyektlərinin innovasiyaya vəsait qoyulmamasının əsas səbəbi öz pul vəsaitlərinin kifayət qədər olmaması olmuşdur. 27 müəssisə bunu əhəmiyyətli səbəb kimi, 13 müəssisə əsas və həlledici səbəb kimi, 8 müəssisə isə bunu az əhəmiyyətli səbəb kimi göstərmişdir. Dövlət tərəfindən maliyyə dəstəyinin kifayət qədər olmamasını 8 müəssisə əsas və həlledici səbəb kimi, 7 müəssisə əhəmiyyətli səbəb kimi, 15 müəssisə isə az əhəmiyyətli səbəb kimi göstərmişdir. Təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olmasını 3 müəssisə əsas və həlledici səbəb kimi, 16 müəssisə əhəmiyyətli səbəb kimi, 9 müəssisə az əhəmiyyətli səbəb kimi göstərmişdir. Yeniliklərin dəyərinin yüksək olmasını 4 müəssisə əsas və həlledici səbəb kimi, 17 müəssisə əhəmiyyətli səbəb kimi, 6 müəssisə az əhəmiyyətli səbəb kimi göstərmişdir. İnnovasiyaların tətbiqinin yüksək iqtisadi risk kimi qəbul edib, pul qoymayan 5 müəssisə bunu əsas və həlledici səbəb kimi, 14 müəssisə bunu əhəmiyyətli səbəb kimi, 10 müəssisə bunu az əhəmiyyətli səbəb hesab etmişlər. İnnovasiyalara çəkilən xərclərin geri qayıtma müddətinin uzun olmasının 3 müəssisə əsas və həlledici səbəb kimi, 10 müəssisə əhəmiyyətli səbəb

kimi, 19 müəssisə az əhəmiyyətli səbəb kimi göstərmişlər. Müəssisənin innovasiya potensialının aşağı olmasını 7 müəssisə əsas və həlledici səbəb kimi, 12 müəssisə əhəmiyyətli səbəb kimi, 8 müəssisə az əhəmiyyətli səbəb kimi göstərmişlər. İxtisaslı kadrların olmamasını 3 müəssisə əsas və həlledici səbəb kimi, 11 müəssisə əhəmiyyətli səbəb kimi, 19 müəssisə az əhəmiyyətli səbəb kimi ortaya qoymuşlar. Yeni texnologiyalar haqqında informasiyaların olmamasını 3 müəssisə əsas və həlledici səbəb kimi, 10 müəssisə əhəmiyyətli səbəb kimi, 11 müəssisə az əhəmiyyətli səbəb kimi göstərmişlər. Yeni məhsullara ehtiyacın olmamasını əsas və həlledici səbəb kimi göstərməmişlər, 10 müəssisə əhəmiyyətli səbəb kimi, 12 müəssisə az əhəmiyyətli səbəb kimi başa düşmüşlər.

Azərbaycanda innovasiyaların səviyyəsinin qənaətbəxş olmamasının əsas səbəblərindən biri elmin istehsaldan ayrı olmasıdır. Müəssisələrin maliyyə vəziyyətləri heç də ürəkaçan deyil və bu səbəbdən də tədqiqatlar və inkişaflar özəl sektorun investisiyaları hesabına deyil, ilk növbədə dövlət tərəfindən maliyyələşdirilməlidir. İş adamlarının innovasiyaya çox da həvəsli olmamasının səbəbi həm riskli olması və həm də bura çəkilən xərclərin səmərə verə biləcəyi, elm adamlarının elmi nailiyyətlərindən öz işlərində praktik məqsədlər üçün istifadə edə biləcəkləri barədə məlumatların olmamasıdır.

Bütün bunlardan belə qənaətə gəlmək olar ki, ölkədə innovasiya səviyyəsi aşağıdır və onu yüksəltmək üçün dövlətin qarşısında uzunmüddətli və təxirəsalınmaz vəzifələr durur.

- ilk növbədə innovasiya fəaliyyətinin normativ-hüquqi təminatının təkmilləşdirilməsi, innovasiyaların tətbiqinin stimullaşdırılması mexanizmlərinin təşkili və inkişafı;

- innovasiyalara, istehsalın inkişafına və nəticədə rəqabət qabiliyyətinin artırılmasına, eyni zamanda, elm tutumlu məhsulların ixracına güclü dövlət dəstəyi olmalıdır və bu dəstək sistemli şəkildə qurulmalıdır;

Azərbaycanda innovativ problemlərin həlli və əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə əlaqədar çox ciddi işlər aparılmalıdır. İnnovasiya mühitinin yaxşılaşdırılması, texnologiya transferinin inkişaf etdirilməsi və kiçik və orta

müəssisələrin innovativ fəaliyyətinin stimullaşdırılması və s. problemlər həllini gözləyir. Bu problemlərin kompleks həlli ölkəni dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə mövcud ciddi geriliyi aradan qaldırmağa və beynəlxalq reytinqlərində layiqli mövqe tutmağa kömək edəcəkdir.

### 3.4. Aqroemal sahəsinin ölkənin yüngül və yeyinti sənayesinin intensiv inkişafında mövqeyinin gücləndirilməsi.

Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının əhəmiyyətli hissəsi yüngül və yeyinti sənayesini xammalla təmin etmək üçün istifadə olunur. Yüngül və yeyinti sənayeləri kifayət qədər uzun müddət əvvəl, sənaye inqilabları dövründə yaranıb və "köhnə sənaye" adlanan birinci qrupa aiddir.

Həm yüngül sənaye və həm də yeyinti sənayesi mürəkkəb strukturlara malikdirlər. Yüngül sənaye – toxuculuq, tikiş, xəz-dəri, gön-dəri, ayaqqabı, trikotaj və xalçaçılıq sahələrindən ibarətdir. Yüngül sənaye istehsal strukturuna görə 3 hissəyə bölünür:

1) xammalın ilkin emalı (yun, kətan, pambıq, dəri emalı və s.)

2) yarımfabrikatların hazırlanması prosesi (boyama, əyirmə, toxuculuq, dəri, xəz və s.)

3) son məhsul istehsalı (tikiş, trikotaj, xalça, ayaqqabı, qalantereya və s.)

Yüngül sənayenin əsas aparıcı istehsal sahələri toxuculuq, geyim və ayaqqabı sahələridir.

Bu bölmədə bəhs edəcəyimiz mövzuda əsas məqsəd ölkədə kənd təsərrüfatı məhsullarının ilkin emalı və onların yüngül və yeyinti məhsullarının istehsalında və inkişafında rolunu göstərməkdir.

Yüngül sənaye həm ilkin xammal emal edən və həm də hazır məhsullar istehsal edən sənaye müəssisələrini özündə birləşdirən bir sahədir. Bu sənaye dünya ölkələrinin ixrac məhsulları arasında böyük paya malikdir və ölkələrin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında, məşğulluğun artırılmasında mühüm rol oynayır.

Bu sahənin sahibkarlar üçün əsas əhəmiyyəti ondan ibarətdir ki, qoyulmuş kapital daha tez özünü doğruldur və daha tez geri qayıdır.

"*Yüngül sənaye dünya iqtisadiyyatının aparıcı sahələrindən biridir. Onun xüsusiyyəti məhsullarına tələbatın davamlı artması səbəbindən daimi artandır. Buna görə də yüngül sənaye inkişaf etmiş ölkələrdə iqtisadiyyatın xammal sektoruna, inkişaf etməkdə olan ölkələrdə isə prioritet sahəyə çevrilmişdir. Bu sənaye bir çox ölkələrdə dövlət büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir, əhalinin məşğulluğuna, həyat səviyyəsinin yaxşılaşmasına və sosial gərginliyin azalmasına töhfə verir"* [130, s.107].

Azərbaycanda yüngül sənaye müəssisələri əsasən özəl sektorda fəaliyyət göstərir. Ölkədə müəssisələrin istehsal həcminə görə 2022-ci ildə toxuculuq sektorunda 27 iri və orta müəssisə, 16 kiçik müəssisə, 37 mikro müəssisə, geyim sektoru üzrə 9 iri və orta müəssisə, 20 kiçik müəssisə, 70 mikro müəssisə, dəri, dəri məmulatları və ayaqqabı üzrə 3 iri və orta müəssisə, 10 kiçik müəssisə, 16 mikro müəssisə fəaliyyət göstərir.

Toxuculuq sənayesi bu istehsal sahələrinin ən qədimidir və bu sahənin də əsas aparıcı istiqaməti pambıq, yun, ipək və kimyəvi liflər istehsalı təşkil edir.

Toxuculuq sənayesinin yaranması və inkişafı tarixən Avropada baş vermişdir. Ancaq 1950-ci illərdən başlayaraq Avropa ölkələrinin bu sənayedə istehsal payı durmadan azalır. Bunun əksinə olaraq inkişaf etməkdə olan ölkələrdə toxuculuq sənayesi sürətlə inkişaf etməyə daha çox meyllidir və bu vəziyyət əsasən ucuz işçi qüvvəsinin mövcudluğu hesabına baş verir. Bu səbəbdən müasir dünyada toxuculuq sənayesi 5 əsas mərkəzdə - Avropa, Şərqi Asiya, Cənubi Asiya, MDB ölkələri və ABŞ-da formalaşmışdır. Hazırda dünya üzrə toxuculuq sənayesi istehsal strukturuna görə təxminən belə formalaşmışdır – pambıq-67%, kimyavi liflər-20%, yun-10%, kətan-1,6%, digərləri-1,4%.

Geyim sənayesi yüksək əmək intensivliyi, məhsullara olan böyük tələbat və istehsal olunan məhsulların həddindən artıq müxtəlifliyi ilə xarakterizə olunan yüngül sənayenin aparıcı sahəsidir. Toxuculuq sənayesinin ucuz işçi qüvvəsi olan inkişaf

etməkdə olan Asiya və Latın Amerikası ölkələrinə istiqamətlənməsi bu ölkələrdə geyim sənayesinin əhəmiyyətini xüsusilə yüksəltmişdir.

Ayaqqabı sənayesi istehsal olunmuş məhsulların çeşidinin müxtəlifliyinə görə geyim sənayesindən bir qədər geri qalır. Bu sənaye üçün xammal spektri çox müxtəlifdir. Burada həm təbii və həm də sintetik dərilərdən istifadə edilir. Trikotaj sənayesində olduğu kimi ayaqqabı sənayesi məhsullarının istehsalının ilkin inkişaf mərhələsində də əsasən Avropa ölkələri üstünlük təşkil edirdi. Ancaq burada da, əsasən, ucuz işçi qüvvəsinin hesabına inkişaf etməkdə olan ölkələr, o cümlədən, Çin, Vyetnam, Tailand, İndoneziya və s. kimi ölkələr irəli çıxmağa başladılar. Hal-hazırda inkişaf etmiş ölkələrdə həqiqi dəridən hazırlanmış daha bahalı ayaqqabı istehsalı üstünlük təşkil edir. Avropanın natural dəridən hazırlanmış ayaqqabı istehsalında və ixracında İtaliya liderlik edir.

Deməli, Avropa trikotaj, geyim və ayaqqabı sahəsində kütləvi istehsala istiqamətlənmiş, sadə texnologiyalı məhsul istehsalında mövqelərini itirmiş, ancaq xüsusi dəbli, yüksək keyfiyyətli məhsulların, ayaqqabıların, geyimlərin, parçaların standartlarının istehsalında aparıcı rolunu qoruyub saxlamışdır.

Yeyinti sənayesi - hazır formada və ya yarımfabrikat şəklində yeyinti məhsulları istehsal edən bir sahə qrupudur və əsas xammal mənbəyi olan kənd təsərrüfatı sektoru ilə birbaşa bağlıdır.

Ərzaq istehsalının həcmi və keyfiyyəti bəşəriyyətin ərzaq probleminin həllinə birbaşa təsir göstərir. Yeyinti sənayesi məhsullarının istehsalı dünyanın bütün ölkələrində mövcuddur, ancaq ölkələr üzrə istehsallar həm inkişaf səviyyəsinə görə və həm də ixtisasına görə kəskin şəkildə fərqlənir.

Yeyinti sənayesinin spektrinə daxil olan sahələr kifayət qədər genişdir: ət və ət məhsulları, süd və süd məhsulları, şəkər, konserv, şirə, unçəkmə, balıq, qənnadı məmulatları və s.

İstifadə edilən xammalın xüsusiyyətinə görə sənaye sahələri iki qrupa bölünə bilər:

1. emal edilməmiş xammaldan istifadə edən sənaye sahələri (balıq, yağ, dənli bitkilər, konservlər, şirələr və s.);

2. emal edilmiş xammaldan istifadə edən sənaye sahələri (makaron, qənnadı məmulatları, çörəkbişirmələri və s.).

Ölkənin bütün şəhərləri yeyinti sənayesinin yerləşməsinə xüsusilə böyük təsir göstərir, çünki şəhərlərin əhalisi yeyinti sənayesi məhsullarının, o cümlədən, ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, çörək-bulka məmulatlarının və s. əsas istehlakçısıdır. Yeyinti sənayesi müəssisələrinin əsas hissəsi xammalın kompleks istifadəsini tullantıların tam emalı ilə birləşdirən zavodlardır. Məsələn, yağ-piy zavodunda bitki yağı, bərk piy, mayonez, marqarin, tullantılardan isə sabun, yuyucu vasitələr, qurutma yağı, qliserin və s. istehsal edilir.

İstənilən dövlətin yüngül sənayesi ölkənin dövlət siyasəti və strateji inkişafı sahəsində mühüm istiqamətlərdən biridir. Azərbaycanda yüngül sənaye dövlətin iqtisadi sabitliyinin qorunmasında, iqtisadi artım göstəricilərinin yaxşılaşdırılmasında, əhalinin rifah səviyyəsinin və zəruri istehlak malları və məhsullarla təmin edilməsində mühüm rol oynayır. Eyni zamanda, yüngül sənaye kənd təsərrüfatını gücləndirən bir strukturdur. Bu sahə yerli məhsullara əsaslanmadan inkişaf edə bilmir. Buna görə də yüngül sənayeni inkişaf etdirmək istəyən ölkələr həm də kənd təsərrüfatını paralel şəkildə inkişaf etdirməlidirlər.

Müstəqillik qazanılandan sonra, digər ölkələrlə iqtisadi əlaqələrin qəfil kəsilməsi ilə əlaqədar ölkənin bütün sahələrində olduğu kimi yüngül sənaye sektorunda da çox dərin böhran baş verdi. 1993-95-ci illərdən sonra yüngül sənaye məhsullarının istehsalında kəskin sürətdə azalma müşahidə olunmağa başladı. Ölkəyə ucuz idxal mallarının kütləvi axını başladı. Yerli yüngül sənaye malları xarici istehsalçılarla, xüsusilə də Çin və İran istehsalçıları ilə rəqabətdə çox geri qalırdılar. Yüngül sənayenin ÜDM-də payı sürətlə azalmağa başladı. Təəssüf ki, daxili bazarda idxal məhsulları bu günədək hökmranlıq edir.

Azərbaycanda yüngül sənaye istehsalının əsas məhsullarının istehsalının son 30 ildə, yəni ölkəmiz müstəqillik qazanandan sonrakı dövrdə olan istehsal dinamikası ümumi mənzərəyə aydınlıq gətirə bilər.

**Cədvəl 3.4.1 Yüngül sənaye üzrə bəzi məhsulların istehsal dinamikası**

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ parçalar mln.kv.m. | 150,9 | 59,5 | 0,7 | 3,5 | 1,8 | 9,9 | 30,0 | 22,5 |
| Corab məmulatı mln. ədəd | 37,8 | 0,3 | 0,7 | 3,0 | 2,0 | 3,7 | 3,0 | 3,7 |
| Xalça və xalçaçılıq məmulatı min.kv.m. | 2243 | 77 | 15,8 | 630[1] | 3,3 | 0,4 | 1,3 | 5,6 |
| Ayaqqabı mln. cüt | 15,2 | 0,8 | - | 0,3 | 0,3 | 0,1 | 0,5 | 1,4 |

Mənbə:DSK İqtisadi statistika "Sənaye" 2023 17. https://www.stat.gov.az/source/industry/ əsasən müəllif tərtibatı.

*1-fiziki şəxslərin fəaliyyəti daxil olmaqla*

Cədvəl 3.4.1-də Azərbaycanda bəzi yüngül sənaye məhsullarının son 32 ildəki istehsal dinamikası göstərilmişdir. DSK-da bu sahənin bütün istehsal olunmuş məhsulları haqqında məlumatlar çox məhduddur. Cədvəldə qeyd olunan yüngül sənayenin əsas məhsullarının istehsalının dinamikası onu göstərir ki, 1990-1995-ci illərin böhranından sonra bu sahə hələ də özünə gəlməmiş və ona görə də idxal məhsulları yerli bazarda dominant mövqe sərgiləyirlər. Belə ki, 1990-cı illər bütün növ parçalar istehsalı 150,9 mln. kv. metr təşkil edirdisə, 2022-ci ildə bu rəqəm 6,7 dəfə az, 22.5 mln. kv. metr təşkil edir. 2000-ci ildə parça istehsalı demək olar ki, tamamilə tənəzzülə uğramışdır və həmin ildən də istehsal 1990-cı il səviyyəsinə çatmasa da, qismən bərpa olunmağa başlamışdır. Son 2 ildə bu məhsulun istehsalı 24% azalmışdır.

Corab məmulatlarının istehsalında da eyni mənzərə ilə rastlaşırıq. 2022-ci ildə corab istehsalı 1990-cı ilə nisbətən 10 dəfə azalmış və bu sahə əsasən idxaldan asılı vəziyyətə düşmüşdür. Onu da qeyd etməliyik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi minimum istehlak səbətinin tərkibində adambaşına corab istehlakının norması il ərzində 5 cüt qəbul edilmişdir [19]. Deməli, yerli istehsal il ərzində norma ilə istehlak edilən corabın 0,7%-ni təmin edə bilir. Müasir istehlakçı tələbatına uyğun çorab istehsal etmək və idxaldan asılılığı azaltmaq üçün ölkənin potensialı böyükdür və bununla əlaqədar fəaliyyətin olmaması, daxili bazarda idxal məhsullarının dominantlıq etmələri başa düşülən deyil.

Azərbaycanda geyim bazarının bir hissəsini də korporativ geyimlər, yəni müəssisələrə məxsus formalar, uniformalar, xüsusi geyimlər təşkil edir. Korporativ geyimlər müəssisələrin sifarişi əsasında hazır parçadan məhsulların tikişindən və bu

geyimlərin üzərinə logoların vurulmasından ibarətdir. Bu məhsullara tələbatı olan sahələr kimi dövlət qurumları (səhiyyə sahəsi, hüquq-mühafizə sahəsi, hərbi sahə və s.), xidmət sektoru (restoran, otel, və s.), bank, sığorta və s digər sektorlar, elektronika, market mağazaları və s. aid etmək olar. Azərbaycanda bu fəaliyyəti həyata keçirən çoxsaylı özəl müəssisələr mövcuddur. İqtisadiyyatın daima böyüməsi və yenilənməsi səbəbilə, bu sahə potensialı da həmişə yüksək sahə olaraq qalır. Korporativ sahədə yerli bazara "Debet" və "Vostok" müəssisələrinin istehsal etdiyi məhsullar daha yüksək paya malikdir.

Azərbaycanda geyim məhsulları ilə məşğul olan əsas müəssisələr aşağıdakılardır: "Gilan Tekstil Parkı", "Bakı Tekstil Fabriki", "Bakı Tikiş Evi", "Alyans tekstil", "Mingəçevir Tekstil Parkı", "MKT" şirkəti, "Azani Tekstil", "Evim Tekstil". Bu müəssisələr müxtəlif geyim, o cümlədən, uşaq paltarları istehsal edirlər.

Yüngül sənaye məhsulları içərisində xalça və xalçaçılıq məmulatlarının istehsalı öz ağır günlərini yaşayır. Bir vaxtlar – 1990-cı ildə 2243 min kvadrat metr xalça istehsal olunurdu. Həmin illər Gəncə xalça fabriki fabrik üsulu ilə (konveyer üsulu) xalça istehsal edirdi. Təəssüf ki, bu fabrik 1995-ci ildən sonra öz fəaliyyətini dayandırmağa məcbur oldu. 2022-ci ildə xalça istehsalı 1990-cı ilə nisbətən 400 dəfə azalaraq 5.6 min kvadrat metr olmuşdur.

Son illər ölkədə "Azərxalça" ASC-nin tərkibində 21 xalça fabriki tikilmiş və ya yenidən quraşdırılaraq istifadəyə verilmişdir. Bunlar Bakı, Nardaran, Qobu, Qobustan, Şabran, Xaçmaz, Quba, İsmayıllı, Qəbələ, Kürdəmir, Beləsuvar, Lənkəran, Fizuli, Ağdam, Tərtər, Goranboy, Şəmkir, Tovuz, Ağstafa, Qazax və Naxçıvan xalça fabrikləridir. Adı çəkilən bu fabriklərdə xalçalar, əsasən əl əməyi ilə toxunur ki, bu da xalçanın maya dəyərinin yüksək olmasına səbəb olur. Ona görə də baha başa gəldiyi üçün rəqabətdə yerli məhsullar Çindən, İrandan, Türkiyədən və sairə ölkələrdən idxal olunan anoloji məhsullara uduzur.

Tədqiqat ilə əlaqədar "Azərxalça"nın filialı olan İsmayıllı xalça fabrikində olduq. Fabrikin direktoru Dilşad Hüseynova məlumat verdi ki, fabrik "Azərxalça" ASC-nin filiallarından biridir. ASC-nin səhmləri 100% dövlətə məxsusdur. Fabrikin

layihə gücü ildə 1800 kvadrat metr xalça istehsalıdır. Hal-hazırda fabrikdə 100 nəfər işçi çalışır. İşçilərin hamısı qadındır.




Mənbə: Foto İsmayıllı xalça fabrikində müəllif tərəfindən 2022-ci ildə çəkilmişdir.

Fabrik ildə 1200 kvadrat metr, yəni layihə gücünün 66%-i həcmində istehsal gücündə işləyir. Burada xalça istehsalı tamamilə əl əməyi vasitəsilə toxunur. Tam layihə gücündə işləməməsinin səbəbi xalça toxumağı bacaran mütəxəssislərin çatışmaması və əmək haqqının aşağı səviyyədə (ayda orta hesabla 300-350 manat) olmasıdır. Fabrik xammal ilə (hazır iplik) mərkəzləşmiş formada baş idarə tərəfindən təmin edilir. İstifadə olunan xammal (iplik) həm yerli və həm də idxal hesabına daxil olan (Türkiyə, İran, Çin) məhsullardır. Son illər fabrik ipək xalçaların istehsalına başlamışdır ki, bunun da xammalı, yəni ipək ipliklər yerli istehsal olan Şəki ipək fabrikinin istehsalıdır. İpək xalçaların istehsalı da əl əməyinə əsaslanır, yəni əl ilə toxunur. Fabrikin məhsul satışı ilə əlaqədar problemləri çoxdur. Əsas problem xalça istehsalında əl əməyindən geniş istifadə edilməsi nəticəsində maya dəyərinin yüksək olmasıdır. Bu səbəbdən də yerli qiymət amilində xalçalar rəqabətdə Çin, Türkiyə, İran və s. ölkələrdən idxal olunan anoloji məhsullara uduzur. Buna baxmayaraq yerli xalçalar hər kvadrat santimetrə düşən ilmələrin sıxlığına görə daha keyfiyyətlidir. Bu səbəbdən də müəyyən sifarişləri olur və bu sifarişlər hesabına fabrik fəaliyyət göstərir.

Onu da qeyd etməliyik ki, yuxarıda göstərdiyimiz səbəbə görə respublikada yeni açılmış həmin fabriklərin bir neçəsi məhsullarını sata bilmədiyi üçün artıq bağlanmışdır.




**Şəkil 3.4.1 Xalça və xalça məmulatlarının idxal-ixrac dinamikası. min dollar**
Mənbə: DSK "Azərbaycanın xarici ticarəti" 2023 s.76, 85
https://www.stat.gov.az/source/trade/ məlumatlarına əsasən müəllif tərtibatı

Şəkil 3.4.1-dən göründüyü kimi, xalça və xalça məmulatlarının ölkəyə idxalı mütəmadi olaraq artmışdır. Belə ki, 2022-ci ildə 1995-ci ilə nisbətən idxal 91 dəfə artaraq 18915,5 min dollara çatmışdır. Bunun müqabilində isə ixrac həmin dövr ərzində 5 dəfə azalaraq 219,3 min dollar olmuşdur. Eyni zamanda cədvəl 3.4.1.-dən də aydın olur ki, bu dövr ərzində yerli xalça istehsalı 60 dəfə azalaraq ildə 1300 kvadrat metrə çatmışdır. Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, ölkədə xalça istehsalı yaxşı durumda deyil və 25-30 il əvvəlki vəziyyətə çatmaq üçün çox işlər görülməlidir. Ölkənin xalça bazarı demək olar ki, tamamilə idxal mallarının əlindədir. Onu da qeyd etməliyik ki, 1995-2022-ci illər ərzində yun istehsalı təxminən 2 dəfə artaraq 8,9 min tondan 16,1 min tona çatmışdır. Dövlət Statistika Komitəsinin hesabatlarından belə məlum olur ki, istehsal olunmuş yunun mütləq əksəriyyəti fermerlərin şəxsi istifadəsində qalmışdır. Əslində isə ölkədə xalçaçılıq sahəsi düzgün tənzimlənmədiyi üçün istehsal olunmuş yun qoyunçuluqla məşğul olan fermerlərin əlində qalır, sata bilmirlər və bu qiymətli məhsul zay olub tullantıya gedir.

Ölkədə xalça istehsalı yüksək inkişaf potensialı olan ən önəmli və perspektivli sahələrdən biridir. Qeyd etdiyimiz kimi ölkə əhalisinin tələbatı əsasən idxal hesabına ödənilir. İdxal məhsullarında Çin və Türkiyə malları daha üstünlük təşkil edirlər. Ölkədə mövcud xalça fabriklərində əl ilə xalça toxunması üstünlük təşkil edir və bu

səbəbdən yerli xalçalar baha başa gəlir. Azərbaycanda fabrik (sənaye) üsulu ilə xalça istehsalı yeganə olaraq «Dadaş-N» MMC–yə məxsus xalça fabriki fəaliyyət göstərir və yerli xalça bazarında çox kiçik paya malikdir.

Eyni vəziyyəti ayaqqabı sənayesinə də aid etmək olar. Belə ki, ayaqqabı istehsalı 2022-ci ildə 1990-cı ilə nisbətən 11 dəfə azalmışdır. 1990-cı ildə 15,2 mln.cüt ayaqqabı istehsal olunurdu, 2022-ci ildə bu rəqəm 1,4 mln. cüt olmuşdur. Bu sahə də tamamilə idxaldan asılı vəziyyətə düşmüşdür.

İsmayıllı rayonunda 1995-ci ildən ayaqqabı istehsalı ilə məşğul olan fiziki şəxs Rüstəm Əhmədov ilə görüşdük. İstehsal etdiyi ayaqqabı brendi “Sandal” adlanır. İl ərzində 2000 cüt ayaqqabı istehsal edir. Hal-hazırda istehsalı azalıb və istehsalın azalması ilə əlaqədar işçilərin sayı da azalaraq cəmi 9 nəfər qalıblar. Ayaqqabı istehsalı üçün xammalı əsasən Yevlax rayonunda yerləşən “Gilan” dəri zavodundan alır. Bu zavodun məhsulları daha ucuz başa gəlir. Bundan əlavə Türkiyə və İrandan gələn xammaldan da istifadə edilir. Bu mallar daha keyfiyyətlidir və təbii ki, daha bahadır. Sahibkarın dediklərindən məlum olur ki, ölkədə ayaqqabı sənayesinin acınacaqlı duruma düşməsinin əsas səbəbi Çin və İranın ucuz ayaqqabılarının ölkənin ayaqqabı bazarını tamamilə zəbt etməsidir. Çox ucuz olduğu üçün yerli ayaqqabı istehsalçıları onlarla rəqabətə girə bilmirlər. Ölkənin ayaqqabı bazarı tənzimlənmir, yerli istehsalçıların maraqları qorunmur. İkinci əsas səbəb isə ayaqqabı tikən mütəxəssislərin çatışmamasıdır. İxtisaslı kadr ölkə ayaqqabı istehsalında ən böyük problemlərdən biridir. R.Əhmədovun dediklərindən: - *“Biz Çin və İran kimi güclü rəqiblərlə üz-üzəyik, rəqabətdə uduzuruq, nəticədə istehsalımız zəifləyir, gəlirlərimiz azalır və yüksək əmək haqqı verə bilmirik ki, bu da son nəticədə kadr potensialına mənfi təsir göstərir. Əl əməyindən daha çox istifadə edirik. Ayaqqabı istehsalı üçün lazım olan müasir avadanlıqları almağa risk edə bilmirik, çünki dövlətin bu cür riskləri tənzimləyən tədbirləri yoxdur. Bazar tənzimlənmələri ilə yerli sahibkarların maraqları qorunmalıdır və təəssüf ki, bu istiqamətdə əməli tədbirlər görülmür”.*

Azərbaycanda İsmayıllı rayonunda yerləşən “Sandal”dan başqa Mingəçevir, Gəncə, Şəki, Sumqayıt şəhərlərində də ayaqqabı istehsalı ilə məşğul olan müəssisələr fəaliyyət göstərir ki, bunlar da eyni problemi yaşayırlar. Bakı şəhərində yerləşən və

nisbətən istehsal həcmi daha böyük olan "Mazonello", "Bəyoğlu", "Marxal" və başqa yerli brendləri də misal göstərmək olar.

2022-ci ildə Çin və İrandan idxal olan ayaqqabı həcmi və qiymətlərinə baxsaq, yerli ayaqqabı istehsalçısı Rüstəm Əhmədovun sözlərini təsdiqləmiş oluruq.




**Şəkil 3.4.2 Çin və İrandan idxal olunan ayaqqabı. 2022-ci il**
Mənbə: DSK "Azərbaycanın xarici ticarəti" 2023 s.183. https://www.stat.gov.az/source/trade/ əsasən müəllif tərtibatı

Şəkil 3.4.2-dən göründüyü kimi, Azərbaycanda ayaqqabıya olan tələbatın əhəmiyyətli hissəsi bu iki ölkə tərəfindən ödənilir. Çindən idxal olunan ayaqqabıların hər cütünə orta hesabla 2,2 dollar və ya 3,74 manat, İran İslam Respublikasından daxil olan ayaqqabıların hər cütünə isə, orta hesabla 0,68 dollar və ya 1,15 manat ödənilir. İİR-dan idxal olan ayaqqabıların qiymətinin bu qədər ucuz olması təəccüb və şübhə oyadır və bu vəziyyəti qiymətlərin təhrif edilməsi qənaətinə də yozmaq olar. Ancaq göründüyü kimi həqiqətən də ölkə bazarına daxil olan bu məhsullar çox ucuzdur və yerli sahibkarların bu qiymətlərlə rəqabət aparması həddindən artıq çətindir. Nəzərə alsaq ki, minimum istehlak norması ilə adambaşına bir ildə 3 cüt ayaqqabı istifadə olunmalıdır, onda ölkə əhalisinin ayaqqabıya olan ehtiyacının 83%-i Çin və İrandan idxal olunan ayaqqabıların hesabına ödənilir. Ölkənin ayaqqabı bazarı bu iki ölkənin himayəsi altındadır, desək səhv etmərik.

Ayaqqabı istehsalında əsas xammal Bakı dəri qalantereya zavodu və Yevlax rayonunda yerləşən "Gilan" dəri emalı zavodudur. "Gilan" dəri emalı zavodu 2006-cı ildə istismara buraxılmışdır. Gündəlik 27 ton dəri (5000 gön) və 3000 kiçik gön parçaları istehsal həcminə malikdir. Zavod İtaliyada istehsal olunan ən son avadanlıqlarla təchiz olunub. Bu zavodda istehsal olunan bütün məhsullar

rəqabətqabiliyyətlidir, yüksək standartlara cavab verir və İtaliya, İspaniya, Türkiyə, Ukrayna və İran bazarlarına ixrac olunur. Amma müəssisənin indiki faktiki istehsal həcmi barədə hər hansı məlumat almaq imkanı yoxdur.

Azərbaycanda rayonlar üzrə dərilərin ət kəsimi sexlərindən və sallaqxanalardan toplanıb emala ötürülməsi ilə ayrı-ayrı fiziki şəxslər məşğul olurlar. Ancaq rayonlarda qəbul məntəqələri olmadığından, heyvan dərisinin böyük bir hissəsi, xüsusilə də, qoyun-quzunun dəriləri əksər hallarda tullantıya gedir.

**Cədvəl 3.4.2 Dəri üzrə istehsal və ixrac göstəriciləri. 2022-ci il**

| Göstəricilər | 2022-ci il |
|---|---|
| İstehsal: | |
| O cümlədən: | |
| Aşılanmış dəri. ton | 4344,7 |
| Hazır dəri. min kv.m. | 55,4 |
| İxrac: | |
| İribuynuzlu heyvan dəriləri. min əd. | 531,0 |
| Emal olunmamış qoyun və quzu dəriləri. min əd. | 1426,5 |
| Ölkə üzrə kəsim: | |
| İribuynuzlu mal-qara. min baş | 920,1 |
| Qoyun-quzu. min baş | 3735,9 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın xarici ticarəti" 2023 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasında müəllif tərtibatı

Cədvəl 3.4.2-dən göründüyü kimi, 2022-ci il ərzində kəsilən iri və xırdabuynuzlu mal-qara ilə istehsal olunmuş və idxal olunmuş dəri sayında böyük fərq var. Bu da yuxarıdakı fikri bir daha təsdiq edir ki, kəsilən heyvanların dərilərinin müəyyən hissəsi emal olunur. Onu da nəzərə almalıyıq ki, ölkəyə təkcə 2022-ci ildə 27 mln. dollar dəyərində emal olunmamış gön, aşılanmış dəri və dəri məmulatları idxal olunub.

Rayonlarda dəri yığımı ilə məşğul olan iş adamları fəaliyyət göstərirlər. Onlar dəriləri alıb yığırlar və müəyyən vaxt ərzində Yevlax dəri zavodu və Bakı dəri qalantereya zavodunun nümayəndələri rayonlardan bu dəriləri yığıb aparırlar.

Ölkədə mövcud olan heyvandarlıq bazası ayaqqabı sənayesini kifayət qədər dəri məmulatları ilə təmin edə bilmək iqtidarındadır. Bununla belə, bu dərilərin çox az hissəsi emala gedir və onun da əhəmiyyətli hissəsi ixrac olunur, nəticədə yerli istehsalçılar xaricdən gətirilən yarımfabrikatlar almalı olurlar ki, bu da hazır məhsulun maya dəyərini xeyli artırır.

Azərbaycanın yüngül sənaye məhsulları istehsalı üzrə 2022-ci ildə idxal-ixrac əməliyyatlarını nəzərdən keçirsək, ölkə üzrə bu sahənin mövcud durumu haqqında təsəvvür yaratmaq olar.

**Cədvəl 3.4.3 Yüngül sənaye məhsulları üzrə idxal-ixrac. 2022-ci il**

| Mal qrupları | İxrac min ABŞ dolları | İdxal min ABŞ dolları | Kənarlaşma + - |
|---|---|---|---|
| İpək | 1701,7 | 82,3 | +1619,4 |
| Yun, zərif və qaba heyvan tükü; at tükündən iplik və parça | 0,0 | 774,2 | -774,2 |
| Pambıq | 213760,3 | 7082,8 | +206667,5 |
| Digər bitki mənşəli toxuculuq lifləri; kağız iplik və kağız iplikdən parçalar | 0,0 | 6427,3 | |
| Kimyavi saplar, kimyavi toxuculuq materiallarından olan yastı və anoloji saplar | 623,4 | 46773,0 | -46149,6 |
| Kimyavi liflər | 48,7 | 20847,9 | -20799,2 |
| Pambıq, keçə və ya fetr və toxunmamış materiallar, xüsusi iplik, ciyə, kəndir, kanat və troslar və onlardan məmulatlar | 634,9 | 44950,7 | -44315,8 |
| Xalçalar və digər toxunma döşəmə örtükləri | 219,4 | 18915,5 | -18696,1 |
| Xüsusi parçalar; taftinqli toxuculuq materialları; krujevalar; qobelenlər; bəzək materialları; tikmələr | 248,1 | 9731,4 | -9483,3 |
| Hopdurulmuş, üzlüklü, təkrarlanmış toxuculuq materialları; texniki təyinatlı toxuculuq materialları | 23,6 | 9561,0 | -9537,4 |
| Maşınla və əllə toxunma trikotaj parçalar | 42,4 | 36751,4 | -36709,0 |
| Maşın və ya əl toxunuşlu trikotaj geyim əşyaları və geyim ləvazımatları | 878,5 | 167546,0 | -166667,5 |
| Paltar və geyim ləvazımatları, maşın və ya əllə toxunmuş trikotajdan başqa | 2042,3 | 123104,0 | -121061,7 |
| Digər hazır toxuculuq məmulatları; dəstlər; işlənmiş geyimlər və toxuculuq məmulatları; cır-cındır | 26459,3 | 40358,4 | -13899,1 |
| Ayaqqabılar, getrlər və anoloji məmulatlar; onların hissələri | 542,4 | 93119,0 | -92576,6 |
| Baş geyimləri və onların hissələri | 38,6 | 7944,3 | -7905,7 |
| | **247263,6** | **633969,2** | **-386705,6** |

Mənbə: DGK "Gömrük statistikası" 2022 https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda məlumatlarına əsasən müəllif tərtibatı

Cədvəl 3.4.3-dən məlum olur ki, ölkənin bu sahə üzrə ixracında xammalın xüsusi çəkisi mütləq üstünlük təşkil edir. Belə ki, təkcə pambıq ixracı yüngül sənaye üzrə xammal və məhsulların ixracının 86%-ni təşkil edir. Yüngül sənaye xammalı və məhsulu üzrə ixracımız cəmi 247 mln. dollar təşkil edir ki, bunun da 214 mln. dolları xammal kimi pambıq ixracının üzərinə düşür. Pambıq xammalının ixracının müqabilində dəfələrlə artıq qiymətə yüngül sənayenin hazır məhsullarını alırıq. Bu

sahə üzrə idxal və ixracı müqayisə etsək məlum olar ki, ölkə 247 mln. dollar dəyərində yüngül sənaye üzrə xammal və məhsul ixrac edir, 634 mln. dollar dəyərində isə bu sahənin xammal və məhsullarını idxal edir. İxracın tərkibində xammal, idxalın tərkibində isə hazır məhsullar mütləq üstünlük təşkil edir.[18]

Bu cədvəldən bir daha məlum olur ki, ölkədə yüngül sənayedə 1990-1995-ci illərdən sonra yaşanan böhran vəziyyəti hələ də davam edir. Ölkə ümumilikdə yüngül sənaye məhsulları üzrə idxaldan asılı vəziyyətdədir.

Bu gün ölkədə yüngül sənaye üzrə istehsal müəssisələrinin sayının kifayət qədər olmaması bu sahənin böyük həcmdə investisiyaya ehtiyacı olduğunu deməyə əsas verir. Qeyd edək ki, "*Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı üzrə müəssisələrin sayının kifayət qədər olmaması və bəzilərinin müasir tələbatdan geri qalması mövcud məhsulların istehsalında artım səviyyəsinin aşağı düşməsinə, kənd təsərrüfatı məhsullarının müəyyən hissəsinin itirilməsinə səbəb olur və istehlakçıların müxtəlif yerli məhsullarla təmin edilməsinə mənfi təsir göstərir. Bu baxımdan, mövcud imkanların tam şəkildə həyata keçirilməsini, xüsusən də biznes və rəqabət mühitinin yaxşılaşdırılmasını, istehsal olunan məhsulların itkisinin qarşısının alınmasını, mövcud bioloji potensialdan maksimum istifadəni, yalnız kənd təsərrüfatı məhsullarının istehsalını, onların hazır istehlaka çevrilməsini təmin etmək lazımdır*" [103, s.164].

Yeyinti sənayesi Azərbaycan iqtisadiyyatının strateji əhəmiyyətli sahələrindəndir. Onun əhəmiyyəti onunla müəyyən edilir ki, bu sahənin məhsullarının istehlakçıları ölkə sakinləridir və yeyinti sənayesi onları bu məhsulların idxal olunub olunmamasından asılı olmayaraq həyati əhəmiyyətli məhsullarla təmin edir. Buna görə də sənayenin hazırkı inkişaf səviyyəsi, tendensiyaları, problemləri və perspektivləri dövlət üçün çox əhəmiyyətlidir və daim diqqət mərkəzində saxlayır.

Hal-hazırda Azərbaycan bazarında yeyinti sənayesinin məhsullarının tədarükü tələbata uyğundur, ərzaq çatışmazlığı aradan qaldırılmışdır. Pərakəndə satış şəbəkələrin subyektləri vətəndaşlara geniş çeşiddə məhsullar təqdim edir, bu da hər bir istehlakçıya öz ehtiyaclarına və maliyyə imkanlarına uyğun məhsul çeşidini seçmək imkanı verir.

Azərbaycanda yeyinti sənayesini təşkil edən əsas sahələr aşağıdakı kimidir.




**Şəkil 3.4.3 Yeyinti sənayesinin əsas sahələri**
Mənbə: müəllifin tərtibatı

Şəkil 3.4.3-də yeyinti sənayesinin ümumiləşdirilmiş əsas sahələri əks etdirilmişdir. Bu sahənin ət, süd, balıqçılıq, unüyütmə, çörəkbişirmə və s. ənənəvi sahələri ilə yanaşı hazır yeməklərin istehsalı kimi müasir sahələri də yaranmışdır. Eyni zamanda şəkil 3.4.3-də göstərilən sahələrin özləri də ayrı-ayrılıqda bir çox çeşid alt sahələrə bölünürlər.

Yeyinti sənayesinin ən mühüm sahələrindən biri ət və ət məhsullarının emalı sənayesidir. Bu məhsul əhalinin qidalanmasında mühüm rol oynayır və strateji əhəmiyyəti çox önəmlidir.

Adambaşına ət və ət məhsullarının artması həmin ölkədə əhalinin həyat səviyyəsinin yüksəlməsinin göstəricilərindən biridir. Müasir dünyada ət və ət məhsullarının istehlak strukturunun dinamikasına nəzər salsaq, görərik ki, pəhrizli ətlərin, yəni quş ətlərinin istehlakı artmaqdadır.

Dünyanın ayrı-ayrı ölkələrində və regionlarında ət məhsullarına artan tələbat ət istehsalında əsas ərazi dəyişikliklərini müəyyən etmişdir. Belə ki, inkişaf etməkdə olan ölkələr artıq dünya ət istehsalının yarıdan çoxunu təmin edirlər. Son illər ət istehsalında Asiya ölkələrinin payı demək olar ki, iki dəfədən çox artmışdır. Buna ən

çox heyvan yem bazasının tədarükünü təmin edən bitkiçilikdə əldə olunan nailiyyətlər kömək edib.

Ət və ət məhsullarının istehsalı heyvandarlıqla birbaşa bağlıdır. Ona görə də ölkə əhalisinin bu qiymətli ərzaq ilə yüksək səviyyədə təmin edilməsi heyvandarlığın sürətli inkişafı şəraitində mümkündür.

Qeyd etməliyik ki, ət və ət məhsullarının istehsalı və istehlakı üzrə ölkəmizdə artan dinamika mövcuddur. Ancaq bu artım tempi ölkənin hazırki tələbləri baxımından yetərli deyil. Ət sənayesi kənd təsərrüfatı üzrə heyvandarlıq və bitkiçilik sahələrini, eyni zamanda sənaye istehsallarının əlaqələndirilmiş şəkildə inkişafını zəruri edən bir sektordur.

Ölkədə 2022-ci ildə bütün növ ət və ət məhsulları ilə adambaşına istehlak səviyyəsi 42,1 kq. olmuşdur. Adambaşına istehsal isə 36,5 kq. təşkil edir. Bu iki göstəricidən belə nəticə çıxır ki, əhalinin ət istehlakının 15%-i idxal hesabınadır. Ancaq burada hər il ölkəyə gətirilən və ətlik istiqamətdə kökəldilərək kəsilən iribuynuzlu mal-qaranın idxal çəkisi nəzərə alınmır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmiş minimum istehlak səbəti üzrə ərzaq normalarına görə, əmək qabiliyyətli yaşda əhali üçün 1 nəfərin illik ət və ət məhsullarının (balıq və balıq məhsulları istisna edilməklə) istehlak norması 32.9 kq., pensiyaçılar üçün 25.6 kq. və əmək qabiliyyətli yaşadək (16 yaşınadək) əhali üzrə isə 29.6 kq. müəyyən edilmişdir. Bu rəqəm orta hesabla 31,5 kq. səviyyəsinə bərabərdir və DSK bütün əhali üzrə orta hesabla bir nəfər üçün minimum istehlak normasını da 31.5 kq. səviyyəsini əsas götürmüşdür [19].

Məlumat üçün bildirməliyik ki, Ümumdünya Səhiyyə Təşkilatı bir nəfərə ət və ət məhsullarının istehlak normasını 78 kq səviyyəsində bəyan etmişdir. Azərbaycanda bu rəqəm qeyd etdiyimiz kimi 31,5kq. səviyyəsində, yəni ÜST-nin tövsiyyəsindən 2,5 dəfə aşağı səviyyədə qəbul edilmişdir.

Azərbaycanda 2022-ci ildə icmal ət və ət məhsullarının istehlakına əhali tərəfindən cəmi 3,8 mld. manat pul xərclənmişdir.

**Cədvəl 3.4.4 Azərbaycanın icmal ət və ət məhsullarının balansı 2022-ci il. ton.**

| | İlin əvvəlinə qalıq | İstehsal | idxal | Ehtiyatların cəmi | Sənaye ehtiyaclarına | Ərzaq məhsulu kimi (emal edilmədən | İxrac | İtkilər | İlin sonuna qalıq |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mal-qara və quş əti və ət məhsulları cəmi | 11140 | 368234 | 61544 | 440918 | 29333 | 424618 | 1554 | 3146 | 11600 |
| Mal əti və ət məhsulları | 3609 | 148568 | 11333 | 163510 | 27757 | 159303 | 76 | 511 | 3620 |
| Qoyun və keçi əti və ət məhsulları | 1256 | 89055 | 2728 | 93039 | - | 91162 | 1 | 585 | 1291 |
| Donuz əti və donuz əti məhsulları | 234 | 502 | 10334 | 11070 | 62 | 10720 | - | 98 | 252 |
| Quş əti və ət məhsulları | 6041 | 130109 | 37149 | 173299 | 1514 | 163433 | 1477 | 1952 | 6437 |

Mənbə: DSK "Azərbaycanın ərzaq balansları" 2023 s.39. https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 3.4.4-dən göründüyü kimi, 2022-ci ildə ümumi ət və ət məhsullarının ehtiyatlarının cəmi 440,9 min tondur və bunun 96%-i, yəni 424,6 min tonu emal edilmədən ərzaq məhsulu kimi istifadə edilmişdir. Qoyun və keçi əti tamamilə, quş ətinin isə 99%-i birbaşa ərzaq məhsulu kimi istehlaka yönəldilmişdir. İcmal balansında formalaşan mal ətinin 7%-i, yəni 11,3 min tonu idxal hesabınadır. Ölkədə icmal ərzaq balansına əsasən donuz ətinin 95%-i idxal olunur. 2022-ci ildə ölkədə cəmi 502 ton donuz əti istehsal olunub, 10,3 min ton isə idxal olunub. Quş əti üzrə də idxal böyük həcmdədir. Belə ki, 2022-ci ildə 165 min ton istehlak olunan quş ətinin 37 min tonu, yəni 22%-i idxal olunub.

Burada bir məsələni qeyd etməliyik ki, ölkəyə diri halda idxal olunan mal-qaranın əksər hissəsi ətlik məqsədi ilə kəsimə yönəldilmiş, amma bu göstərici DSK-nın müvafiq məlumatlarında nəzərə alınmamışdır.

Dünyada qəbul edilmiş standartlara əsasən, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün onun ümumi istehlak həcmində idxal 15%-dən çox olmaması zəruridir.

Ölkədə ət və ət məhsulları üzrə bu rəqəm 2022-ci ildə 14% olmuşdur. Eyni zamanda DSK-nin məlumatlarında ölkəyə idxal olunan diri mal-qara idxal olunan ət və ət məhsullarına şamil edilmir. Bunu da nəzərə alsaq deyə bilərik ki, hazırda ət və ət məhsullarının istehlakı müəyyən qədər idxaldan asılılıq ilə xarakterizə olunur.

Ölkədə əhalinin ət və ət məhsulları ilə fizioloji norma səviyyəsində təmin etmək üçün bir çox işlər görülməlidir. Bunun üçün yem bazasının strukturu köklü sürətdə yenidən qurulmalı, heyvanların kəsilməsi və ətin ilkin emalı, o cümlədən, ət və ət məhsullarının istehsalının optimal strukturu işlənib hazırlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkədə heyvandarlığın inkişafını prioritet məsələyə çevirmişdir.

Fərmanda deyilir: *son dövrlərdə istər regionlarda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin kəskin azalması, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir. Dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdəndir*[77].

Heyvandarlıq məhsullarının emalında "dəyər zənciri" prinsipinin tətbiq edilməsi, iri heyvandarlıq komplekslərinin və fermer təsərrüfatlarının yaradılması, güclü yem bazasının yaradılması, parsel formasında mədəni otlaqlar yaratma təcrübəsinin ölkədə tətbiq olunması zərurətə çevrilmişdir.






**Şəkil 3.4.4 Ət və ət məmulatları istehsalında dəyər zənciri**
Mənbə: müəllifin tərtibatı

Şəkil 3.4.4-də tərtib edilmiş dəyər zənciri ətlik istiqamətli heyvandarlıq təsərrüfatlarından başlayır və pərakəndə satışla başa çatır. Ətlik istiqamətli heyvandarlığın dəyər zənciri ətlik heyvandarlıq təsərrüfatları, diri heyvan satışı, ətin kəsimi, emalı və kolbasa məmulatlarının istehsalı, bazarlama və satış kimi həlqələrdən ibarətdir.

Ölkədə ət və ət məhsullarının daxili bazar qiymətlərini tənzimləmək üçün müəyyən güzəştlər tətbiq edilir. Vergi Məcəlləsindəki dəyişikliklərə əsasən 2020-ci ilin yanvarından etibarən Azərbaycanda heyvan ətinin satış dövriyyəsi 4 il müddətində ƏDV-dən azad olunub. Bu müddət emal edilmiş ət məhsullarına, o cümlədən, kolbasa və kolbasa məmulatlarına aid edilmir. 2017-ci il yanvarın 1-dən quş əti də 3 il müddətinə ƏDV-dən azad edilmişdir və Məcəlləyə edilən dəyişikliklə əlaqədar bu müddət daha 4 illiyə artırılıb. Paralel olaraq heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə olunan yem və yem əlavələrinin satışı ƏDV-dən azad edilib. Yemlərin də ƏDV-dən azad edilməsi müddəti 4 ildir.

Qidalanma xüsusiyyətlərinə görə süd ən mükəmməl qida növüdür. O, demək olar ki, mükəmməl bir qida balansına malikdir və ona görə də insan pəhrizinin

əhəmiyyətli bir hissəsini təşkil edir. Tədqiqatçılar hesablayıblar ki, süd və süd məhsullarının illik istehlakı bütün qida növlərinin təxminən 16%-ni təşkil edir.

Azərbaycan süd və süd məhsulları bazarı yerli istehsal və idxal hesabına formalaşır.

Son illərdə Azərbaycanda süd və süd məhsullarının əksər növlərinin istehsalında əhəmiyyətli artım müşahidə olunsa da, bu məhsulların idxalında azalma baş vermir.

**Cədvəl 3.4.5 Süd və süd məhsullarının idxal və ixrac dinamikası. min tonla**

| | 2007 | 2010 | 2015 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Süd və süd məhsulları: | | | | | | |
| İdxal | 191,6 | 647,2 | 366,0 | 461,3 | 417,5 | 489,9 |
| İxrac | 4,6 | - | 6,3 | 27,0 | 17,5 | 37,4 |
| Yağlılığı 1-6% olan süd və qaymaq: | | | | | | |
| İdxal | 9,3 | 13,0 | 8,7 | 8,9 | 10,1 | 8,1 |
| İxrac | 0,2 | 0,1 | 0,1 | 0,3 | 0,4 | 0,8 |
| Yağlılığı 6%-dən çox olan süd və qaymaq: | | | | | | |
| İdxal | 0,3 | 0,6 | 0,2 | 0,8 | 1,1 | 1,9 |
| İxrac | - | - | - | - | 0,2 | 0,2 |
| Kərə yağı: | | | | | | |
| İdxal | 4,4 | 20,9 | 10,9 | 15,0 | 13,7 | 17,3 |
| İxrac | - | - | 0,2 | 0,4 | 0,3 | 1,4 |
| Bütün növ pendirlər: | | | | | | |
| İdxal | 3,6 | 7,2 | 9,1 | 9,3 | 9,6 | 8,4 |
| İxrac | 0,5 | - | - | 2,0 | 1,1 | 0,5 |
| Qatıq, qaymaq, yoqurt, və s. süd məhsulları: | | | | | | |
| İdxal | 6,7 | 9,2 | 8,8 | 9,7 | 11,3 | 10,3 |
| İxrac | - | - | 0,4 | 0,6 | 0,1 | - |

Mənbə: DSK "Azərbaycanın xarici ticarəti" 2023 s.76, 85
https://www.stat.gov.az/source/trade/ əsasında müəllif tərtibatı

Cədvəl 3.4.5-dən göründüyü kimi, son 15 ildə (DSK-nın ərzaq balansları hesabatında göstəricilər 2007-ci ildən başlayır) ölkəyə idxal olunan süd və süd məhsullarının idxalı mütəmadi olaraq artmışdır. Belə ki, süd və süd məhsulları idxalı 2,6 dəfə, yağlılığı 6%-dən çox olan süd və qaymaq idxalı 6,3 dəfə, kərə yağı idxalı 3,9 dəfə, bütün növ pendirlər 2,3 dəfə, qatıq, qaymaq, yoqurt və s. süd məhsulları 1,5 dəfə artmışdır.

Bununla bərabər sevindirici haldır ki, bu məhsulların ixracı da artmışdır. Belə ki, süd və süd məhsullarının ixracı son 15 ildə 8,1 dəfə artaraq 37,4 min tona, yağlılığı 1-6% olan süd və qaymaq ixracı 4 dəfə artaraq 800 tona, kərə yağı ixracı 2015-ci ildən

başlayıb və 1400 tona çatmışdır. Bütün növ pendir məhsullarının ixracında son 3 ildə əhəmiyyətli sürətdə azalmalar müşahidə olunur. Belə ki, pendir ixracı 2022-ci ildə 2020-ci ilə nisbətən 4 dəfə azalmışdır.

Ölkədə 50-yə yaxın süd emalı müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələr əsasən Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Xırdalan, Şamaxı, Salyan, Siyəzən, Qəbələ, Bərdə, Zərdabda yerləşən müasir süd zavodlarıdır. “Atena”, “Palsüd”, “Milla”, “Azərsüd” və s. müasir standartlara cavab verən avadanlıqlarla təmin olunublar, süd və süd məhsulları istehsalında artıq ölkədə tanınmış brendlər sayılırlar.

Bu səbəbdən də istehsal olunmuş südün əhəmiyyətli hissəsi süd məhsullarının emalı üçün istifadə edilir. 2022-ci ildə istehsal və idxal edilən südün 97,8%-i emal edilmişdir, hansı ki, bu rəqəm 2010-cu ildə 65% idi.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi adambaşına süd və süd məhsulları istehlakı ildə 360 kq., o cümlədən, kərə yağı istehlakı 7,2 kq. səviyyəsindədir. Azərbaycanda bu rəqəm süd və süd məhsulları üzrə ÜST-nın tövsiyəsindən 28% az, yəni 259,3 kq., kərə yağının adambaşına istehlakı isə 1,9 dəfə az, yəni 3,8 kq. olmuşdur. Göründüyü kimi, ölkə vətəndaşları bu insan üçün vacib məhsul ilə tam qidalana bilmirlər. Onu da qeyd etməliyik ki, istehlak olunan süd və süd məhsullarının 19%-i idxal hesabına təmin olunur.

Azərbaycanda əhalinin süd və süd məhsulları ilə tam təmin olunmamasının bir sıra səbəbləri var. Hər şeydən öncə süd istehsalı ilə məşğul olan müəssisələr xammal çatışmamazlığı ilə üzləşirlər və bu da öz növbəsində istehsal olunan məhsulların qiymətinin artmasına təsir edir. Bundan əlavə süd zavodlarına verilən südün keyfiyyəti çox zaman qeyri-qənaətbəxş keyfiyyətə malik olur və bu da əlavə çətinliklər yaradır. Nəticədə, süd emalı müəssisələri quru süd və süni əlavələrdən istifadə etməyə məcbur olurlar ki, bu da son məhsulun qiymətinin artmasına səbəb olur.

Ölkədə süd istehsalının aşağı səviyyədə olmasının əsas səbəbi mövcud mal-qara sürüsünün tərkibində az məhsuldar olan yerli inəklərin çoxluq təşkil etməsidir. Ona görə də hər inəkdən sağılan süd göstəricisi çox aşağı səviyyədədir. Sürü tərkibini

məhsuldar cins inəklərin xeyrinə dəyişməklə ölkədə əhalinin süd və süd məhsulları ilə ÜST-nın tövsiyyəsinə uyğun təmin etmək olar. Bu tövsiyəni nəzərə alsaq, əhalinin tam təmin edilməsi üçün ölkədə ildə 3,6 mln. ton süd istehsal edilməlidir. Qeyd etməliyik ki, Azərbaycanda bu potensial mövcuddur, hər inəkdən məhsuldarlığı artırmaqla bu problemi həll etmək olar.

Şəkər sənayesi strateji sahədir. Şəkər qida məhsulu kimi çox əhəmiyyətlidir, eyni zamanda, qənnadı məmulatları, çörək-bulka, meyvə-tərəvəz konservləri, makaron, əczaçılıq və kimya sənayesi üçün xammal kimi istifadə olunur.

**Cədvəl 3.4.6 Şəkər və xammalının ehtiyatları və istifadəsi. min tonla**

| | 2007 | 2010 | 2015 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| **Şəkər istehsalı üçün xammal** | | | | | | |
| 1.İlin əvvəlinə qalıq | - | 1,5 | 6,4 | - | - | 24,8 |
| 2.İstehsal | 8,9 | 8,8 | 17,3 | 23,1 | 17,6 | 210.0 |
| 3.İdxal | 317,2 | 353,6 | 290,9 | 146,4 | 302,8 | 322,2 |
| Ehtiyatların cəmi | 326,0 | 364,0 | 371,7 | 171,5 | 320,4 | 557,1 |
| 1.Emal edilmişdir | 315,4 | 339,4 | 334,6 | 171,5 | 295,5 | 545,3 |
| 2.İlin sonuna qalıq | 10,6 | 24,6 | 37,1 | - | 24,8 | 11.7 |
| İstifadələrin cəmi | 326,0 | 364,0 | 371,7 | 171,5 | 320.4 | 557.1 |
| **Şəkər** | | | | | | |
| 1.İlin əvvəlinə qalıq | 136,9 | 49,5 | 56,8 | 394,6 | 498,0 | 560,0 |
| 2.İstehsal | 305,6 | 335,5 | 332,1 | 258,4 | 339,6 | 383,4 |
| 3.İdxal | 42,7 | 92,0 | 64,1 | 179,9 | 62,9 | 48,4 |
| Ehtiyatların cəmi | 485,2 | 477,0 | 453,1 | 832,9 | 900,5 | 991,8 |
| 1.Ərzaq məhsulu kimi istifadə edilmişdir | 261,6 | 221,9 | 206,6 | 267,8 | 273,2 | 275,8 |
| 2.İxrac | 157,8 | 211,8 | 224,1 | 65,7 | 65,3 | 62,8 |
| 3.İtkilər | 0,7 | 0,8 | 0,8 | 1,4 | 1,5 | 1,7 |
| 4.İlin sonuna qalıq | 65,1 | 42,5 | 21,7 | 498,0 | 560.0 | 651,5 |
| İstifadələrin cəmi | 485,2 | 477,0 | 453,1 | 832,9 | 900,5 | 991,8 |
| Şəkər emalında yerli xammalın payı %-lə | 3 | 3 | 5 | 13 | 6 | 39 |
| **Adambaşına şəkər istehlakı kq.-la** | 30,2 | 24,4 | 21,7 | 26,9 | 27,3 | 27,3 |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2023 3.19., 3.20.
https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 3.4.6-dan bəlli olur ki, son 15 ildə ölkədə şəkər xammalının istehsalının dinamikası "ziqzaq" formasındadır, yəni gah artır, gah azalır. 2020-ci ildə 2007-ci ilə nisbətən 2.6 dəfə artmış, 2021-ci ildə 26% azalmış, 2022-ci ildə isə yenidən kəskin olaraq, yəni 12 dəfə artmışdır. İstehsal ilə bərabər idxal da son 3 ildə əhəmiyyətli

sürətdə artmışdır. 2022-ci ildə şəkər xammalının idxalı 2020-ci ilə nisbətən 2.2 dəfə artmışdır.

Nəzərə almalıyıq ki, şəkər istehsalı Azərbaycanda yeni sahə sayılır və 2006-cı ildə İmişli şəkər zavodu istismara buraxılandan sonra bu sahə inkişaf etməyə başlamışdır.

Şəkər istehsalında 2020-ci ilədək geriləmə müşahidə olunurdu. Ancaq 2022-ci ildə şəkər istehsalında bir növ sıçrayış yarandı, yəni son iki ildə şəkər istehsalı 48% artmışdır. Cədvəldən məlum olur ki, 2020-ci ildə istehsalın azalmasının əsas səbəbi şəkər xammalının əhəmiyyətli sürətdə azalması olmuşdur. Əvəzində isə ölkəyə idxal olunan hazır şəkər məhsulu 2020-ci ildə 2007-ci ilə nisbətən 4,2 dəfə artaraq 179,9 min tona çatmışdır. Şəkər ixracı da əhəmiyyətli sürətdə azalmışdır. Belə ki, göstərilən dövr ərzində ixrac 2,4 dəfə azalaraq 65,7 min tona çatmışdır. Ölkədə adambaşına şəkər istehlakı da bu dövr ərzində 11% azalaraq 26,9 kq. səviyyəsinə çatmışdır. Ancaq son iki ildə şəkər istehsalında vəziyyət düzəlməyə başlanmış, istehsalda yerli xammalın xüsusi çəkisi əhəmiyyətli sürətdə artmışdır. Belə ki, 2021-ci ildə şəkər istehsalında yerli xammalın payı cəmi 6% təşkil edirdisə, bu rəqəm bir ildən sonra 39%-ə çatmışdır.

Ölkədə istehsal olunan şəkər istehsalında yerli xammalın payı 2007-ci və 2010-cu illər cəmi 3%, 2015-ci il 5%, 2020-ci ildə isə 13%, 2021-ci ildə 6% olmuşdur ki, bu rəqəm çox azdır. Belə nəticəyə gəlmək olardı ki, İmişli şəkər zavodunun fəaliyyəti tamamilə idxal olunan xammaldan asılı olmuşdur. İdxaldan asılı olan zavodun fəaliyyəti isə dayanıqlı ola bilməz. Ona görə də ölkədə şəkər çuğunduru sahəsini artırmaq lazımdır. Şəkər çuğunduru əkini fermerlər üçün çox gəlirli sahə olmasına baxmayaraq bu sahə inkişaf etməmişdir.

Şəkər çuğundurunun əkin sahəsini ölkə üzrə 30-35-min hektara çatdırmaqla İmişli şəkər zavodunun illik tələbatını ödəmək olar. Bunun üçün ölkədə həm iqlim şəraiti və həm də potensial mövcuddur.

Əsas problemlərdən biri əkin sahələrinin suvarma məsələləridir. Məlum olduğu kimi, şəkər çuğundurunun su tələbatı böyükdür. Suvarma lazım olan optimal səviyyədə olmayanda məhsuldarlıq aşağı düşür və fermerlərin gəlirləri də şox azalır.

İkinci səbəb ölkədə çuğunduryığan kombaynların çatışmamasıdır. Hər hektardan 40-60 ton çuğundurun əl ilə yığılması ağır zəhmət tələb edir və məhsulun maya dəyərini çox qaldırır və nəticədə fermerin gəliri azalır.

Bütün bu problemlərin həllində dövlət yaxından kömək etməlidir.

Unüyütmə sahəsi çörək-bulka və makaron istehsalı ilə bilavasitə bağlı olduğu üçün bunlara birlikdə baxmaq daha məqsədəuyğundur. Ölkədə unüyütmə sənayesinin idxaldan asılılığı böyükdür. Belə ki, təkcə 2022-ci ildə un və yarma istehsalı üçün 2,4 mln. ton buğda sərf edilmiş, eyni zamanda 1,3 mln. ton ərzaq buğdası idxal edilmişdir ki, bu da 53% deməkdir. Ancaq qeyd etməliyik ki, DSK-nın məlumatlarında un və yarma məhsulları ayrılmamış, ölkədə un istehsalına nə qədər buğda sərf edildiyi göstərilməmişdir. Mütəxəssislərin fikrinə görə, yerli buğdaların keyfiyyət göstəriciləri çörək istehsalı üçün lazım olan tələblərə tam cavab vermədiyi üçün 10-15% civarında ərzaq üçün istifadə edilir. Yerli istehsalın əsas hissəsi mal-qara yeminə sərf edilir.

Ölkədə adambaşına çörək istehlakı ildə 128,4 kq. təşkil edir ki, bu da ÜST-nin tövsiyələrinə uyğundur.

Yerli buğda sortları dəyişdirilərək çörək istehsalı üçün yararlı sortlarla əvəz etmək olar və bununla da strateji məhsul olan çörək istehsalının idxaldan asılılığı əhəmiyyətli sürətdə azalmış olar.

Makaron məmulatları istehsalında idxaldan asılılıq böyükdür. Belə ki, 2022-ci ildə 35,3 min ton makaron istehlakının 17 min tonu, yəni 49%-i idxal hesabına olmuşdur. Makaron istehsalı üçün lazım olan bərk buğda sortu əsasən Qazaxıstandan idxal edilir. Göründüyü kimi, ölkənin makaron bazarında idxal məhsulları dominant mövqe tutur.

Ölkədə makaron istehsalı üçün lazım olan bərk buğda sortunu yetişdirmək üçün bütün şərait mövcuddur və bu problemin həlli üçün dövlət dəstəyinə ehtiyac vardır.

Yem istehsalı ölkədə çox sürətlə inkişaf etmişdir. İri və xırda buynuzlu mal-qaranın və quşların baş sayının artımı ilə əlaqədar qüvvəli, kombinə edilmiş yemə tələbat çoxalmış və nəticədə bu sahə də bazarın təkidi ilə inkişaf etmişdir. 2005-ci ildə ölkədə cəmi 100 ton yem istehsal olunurdu. Bu rəqəm 2010-cu ildə 4,8 min tona,

2015-ci ildə 12,8 min tona və nəhayət 2022-ci ildə 130,6 min tona çatdırılmışdır. Yem istehsalının xammal mənbəyi əsasən yerli taxıl məhsuludur.

Azərbaycanda yağ-piy istehsalında Şirvan yağ-piy zavodu 1954-cü ildən fəaliyyət göstərir. Hal-hazırda “MKT İstehsalat Kommersiya” MMC-nin tərkibində “Şirvan Yağ Emalı zavodu” adı ilə fəaliyyət göstərir. Zavod istehsal və rafinasiya üçün lazım olan ən son texnologiya ilə təchiz olunmuşdur. İstehsal olunan çiyidin 12%-13%-i rafinasiya olunmuş yağ olaraq əldə edilməkdədir. Həmçinin, zavod pambıq çiyidindən soapstock (sabun), pambıq jmıxı və linter istehsal edir. Zavod məhsullarının böyük bir hissəsi Turkiyə, Qazaxıstan, Tacikistan və İrana ixrac olunur.

Hazır yeməklərin istehsalı qida sənayemizə son vaxtlar daxil olmuşdur. Hazır yeməklərin sifariş əsasında satışı karantin məhdudiyyəti dövrlərində daha çox inkişaf etməyə başladı. Əslində bu xidmət karantindən öncə Bakı, Sumqayıt və Gəncə şəhərlərində mövcud idi. Restoran və digər iaşə obyektlərindən pizza və s. yeməklərin sifariş verilməsi və evlərə çatdırılması az da olsa inkişaf etməyə başlamışdır. 2020-ci ildə əksər istehlakçılar karantin məhdudiyyətləri səbəbindən mağaza və restoranlardan ərzaq və hazır qida çatdırılması xidmətlərindən istifadə etməyə daha çox məcbur oldular. Bu, həm dünyada, həm də Azərbaycanda artıq dinamik inkişaf edən “Food Tech” seqmenti üçün güclü təkan oldu. Onun həcmi həm dünyada və həm də bizim ölkəmizdə dinamik şəkildə böyüməyə başlamışdır.

Ölkəmizdə bu sənayenin həcmi və digər göstəriciləri haqqında DSK-nin hesabatlarında ayrıca məlumat verilmir və ona görə də ancaq müşahidələr və vizual təhlillərə əsaslanaraq deyə bilərik ki, ölkənin paytaxt və digər iri şəhərlərində bu fəaliyyət növü dinamik inkişaf mərhələsinə keçmişdir. Artıq ABŞ və Çinin iri meqapolislərində hazır yemək istehsal edən zavodlar fəaliyyət göstərirlər.

Bu gün Azərbaycanın yüngül və qida sənayesi onun fəaliyyətinə əhəmiyyətli sürətdə mənfi təsir göstərən çoxlu ciddi problemlər yaşayır. Ölkə iqtisadiyyatında yüngül və qida sənayesi çox mühüm rol oynaya bilər və bunun üçün potensial çox yüksəkdir. Bu potensialdan dolğun və hərtərəfli istifadə edilməsi, regionlar üzrə paylanması onun ölkə iqtisadiyyatının lokomotivi missiyasını öz üzərinə götürməyə imkan verir. Təəssüf ki, bu yolda ciddi problemlər var və onların həll olunması

prioritet və təxirəsalınmaz məsələlərdəndir. Yüngül və yeyinti sənayenin əsas problemlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Aşağı səviyyəli texnoloji təchizat və bazar şəraitində təcrübənin olmaması yerli sənayenin rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə azaldır.

- Ölkə bazarında kifayət qədər dövlət tənzimlənməsinin və nəzarətin olmaması, onun ucuz və saxta məhsullarla doldurulmasına imkan verir.

- Maliyyələşdirmənin zəif səviyyəsi, banklardan uzunmüddətli kreditlərin çox qısqanclıqla verilməsi və bank faizlərinin yüksək olması sahibkarların və investorların bu sahəyə yatırım qoymasını çox zəiflədir.

- Azərbaycan istehlakçısının zəif iqtisadi imkanları ölkəyə çox ucuz daxil olan keyfiyyətsiz anoloji idxal məhsullarına üstünlük verməsi, yerli istehsal məhsullarında əl əməyinin üstünlük təşkil etməsi, müasir texnoloji avadanlıqların olmaması maya dəyərinə təsirsiz ötüşmür və nəticədə yerli məhsullar rəqabətdə idxal məhsullarına uduzurlar.

Bütün bu nöqsan və çatışmamazlıqların aradan qaldırılması və ölkənin yüngül və qida sənayesinin inkişafı üçün əməli addımlar atılmalıdır.

# IV FƏSİL. AQROEMAL SAHƏSİNİN İQTİSADİ İNKİŞAFININ QLOBAL İNKİŞAF MEYLLƏRİNƏ UYĞUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 4.1. Aqroemal sahəsinin səmərəli idarəetmə mexanizminin formalaşdırılması və təkmilləşdirilməsi

Azərbaycanda aqroemal sahəsi aqrar-sənaye kompleksinin ən mühüm həlqəsidir və yüngül sənayenin, trikotaj sənayesinin, yeyinti sənayesinin ilkin emal edilmiş (yarımfabrikat) xammalla təminatında, o cümlədən, əhalinin düzgün və balanslaşdırılmış qida rasionunun formalaşdırılması üçün kifayət qədər çeşiddə və həcmdə ərzaq məhsulları ilə təmin edilməsi məsələsinin həllində mühüm rol oynayır. Eyni zamanda, aqroemal sahəsi dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsində ən mühüm həlqədir ki, bu da öz növbəsində milli təhlükəsizliyin tərkib hissəsidir və ölkənin iqtisadi sabitliyini və siyasi müstəqilliyini, habelə dövlətin ərzaq təhlükəsizliyini təmin etmək qabiliyyətini xarakterizə edir.

Aqroemal sahəsinin müəssisələrinin idarəedilməsində layihə-proses yanaşması günümüzün tələbidir. Hər şeydən öncə layihə-proses yanaşmasının nə olduğunu bilməliyik. Layihə son nəticəni yaradan, zamanı məhdud olan birdəfəlik fəaliyyət toplusudur. Proses isə xammalı istehlak edərək və istehlakçıların tələbatını ödəyərək müəyyən nəticə yaradan proseslərin müntəzəm təkrarlanan ardıcıllığıdır.

Qlobal dünyada layihə və proseslərin idarə edilməsi 20-ci əsrin sonlarında istehsal və biznes subyektlərinin fəaliyyətində geniş şəkildə tətbiq və inkişaf etdirilməyə başlamışdır.

Proses yanaşmasını bu sxem kimi təsvir etmək olar:

planlaşdırma→ təşkiletmə → icra → nəzarət → marketinq

Qeyd etməliyik ki, layihə yanaşması aqroemal sahəsinin inkişafının stimullaşdırılması üçün çox münasibdir, çünki o, vaxt məhdudiyyəti altında konkret tapşırıqları həyata keçirməyə imkan verəcəkdir.

Ölkənin yerli ərzaq məhsullarının istehsalında, ərzaq ehtiyatlarının artırılması üçün həm real imkanlar, həm də bir çox həll olunmamış problemlər, o cümlədən, idxaldan asılılıq kimi problemlər mövcuddur. Ona görə də Azərbaycanda aqroemal sahəsi öz fəaliyyətinə və inkişafına dövlət təsirini tələb edir. Bildiyimiz kimi Azərbaycanın təbii-iqlim şəraiti çox müxtəlifdir. Ona görə də dövlət tənzimlənmələri zamanı aqroemal müəssisələrinin yerləşdiyi ərazilərin iqlim şəraiti, istehsal etdiyi məhsul və xammal bazalarının müxtəlifliyi, xüsusiyyətləri və bazarda iştirak səviyyələri nəzərə alınaraq onlara yanaşmanı əvvəlcədən müəyyənləşdirilməsini tələb edir.

Buna görə də aqroemal sahəsinin dövlət tənzimlənməsi metodlarının müxtəlifliyini aşağıdakı kimi qruplaşdırmaq, fikrimizcə, daha uyğundur.




**Şəkil 4.1.1 Aqroemal sahəsində müəssisələrin tənzimlənmə metodları**
Mənbə: müəllifin tərtibatı

Şəkil 4.1.1-də təsvir edilən tənzimlənmə üsulları əsasən 3 qrupa bölünür ki, bunlar aqroemal sahəsinin təsərrüfat subyektlərinin maraqlarından çıxış edən qoruyucu metodlar, dəstəkləyici metodlar və həvəsləndirici metodlardır.

Qoruyucu metodlar həm inzibati və həm də iqtisadi müdaxilələrlə tənzimlənir və bunların özləri də 3 qrupa ayrılır: 1. aqroemal müəssisələrinin müdafiəsi yönümlü üsullar, 2. Aqroemal sahəsinin inkişafında rol oynayan sahələrin müdafiəsi. Bu sahənin fəaliyyətində əsas rol oynayan və xüsusilə də xammal təchizatında əsas

ağırlıq kənd təsərrüfatının üzərinə düşür. 3. aqroemal sahəsi istehlakçılarının marağlarının qorunması.

Dəstəkləyici metodlar isə aqroemal müəssisələrinin bazar mövqelərinin, həmçinin, müəssisənin normal fəaliyyətini qorumağa və inkişaf etdirilməsinə istiqamətlənmişdir.

Aqroemal müəssisələrinin fəaliyyətinin stimullaşdırılması üçün həvəsləndirici metodlardan daha geniş istifadə edilir. Tənzimlənmənin bu metodu həm birbaşa, həm də dolayı yollarla reallaşır.

Aqroemal sahəsinin təsərrüfat subyektlərinin istehsalına birbaşa və dolayısı ilə dövlət dəstəyi həmin sahələrin daxili imkanlarından daha geniş istifadə etməyə, iqtisadi müstəqillik imkanlarının onlara verdiyi şərait, korporativ quruculuq formalarının məqsədəuyğun seçilməsi azadlığı və bazarlar uğrunda mübarizədə qüvvələrin inteqrasiyasına imkan verir.

Yuxarıda təklif olunan tənzimlənmə metodlarının təsnifatı əsasında Azərbaycanda aqroemal sahəsinin dövlət tənzimlənməsi üsullarının təhlili aşağıdakı nəticələri çıxarmağa əsas verir. Ölkədə aqroemal sahəsinin tənzimlənmələrində qoruyucu tədbirlər çox zəifdir və təsərrüfat subyektləri bazar problemləri ilə, xüsusilə də, xarici istehsalçıların daxili bazarda hökmranlığı ilə çox qarşılaşırlar və bu hal müəssisələr üçün böyük problemlər yaradır. Bu problem özünü ən çox ayaqqabı sənayesində, xalça istehsalında, geyim və trikotaj mallarında, şəkər xammalında, ərzaqlıq buğda istehsalında və s-də biruzə verir. Yerli bazarda bu sahələr üzrə yerli istehsalçıların mövqeləri həddindən artıq zəifdir. Xarici istehsalçıların yerli bazara təzyiqinin azaldılması və aradan qaldırılması ilə əlaqədar tədbirlər çoz zəifdir. Dövlət tənzimlənmələrində əsas səylər qoruyucu tədbirlərin həyata keçirilməsinə yönəldilməlidir. Ümumiyyətlə, aqroemal sahəsi müəssisələrinin fəaliyyətlərinin nəticələrinin yaxşılaşdırılması, səmərəliliyinin yüksəldilməsi üçün heç bir dəstəkləyici və həvəsləndirici tədbirlər həyata keçirilmir və bu müəssisələr bir növ taleyin axarına buraxılmışdır.

Tədqiqat zamanı ölkədə aqroemal sahəsinin mövcud vəziyyəti təhlil edilərkən məlum olmuşdur ki, yerli bazarda bir çox məhsullar üzrə idxal məhsullarının

dominantlığına son qoymaq və yerli məhsulların rəqabət qabiliyyətini yüksəltmək istiqamətində dövlətin müdaxiləsinə böyük ehtiyac vardır. Demək olar ki, tamamilə idxaldan asılı vəziyyətə düşmüş ayaqqabı sənayesində bu ehtiyac xüsusilə hiss olunur.

Göstərmişdik ki, təkcə 2022-ci ildə Azərbaycanda ət və ət məhsullarının istehsalı və satışı məqsədilə 920,1 min baş iribuynuzlu mal-qara, 3,7 mln. baş xırda buynuzlu heyvan kəsilmişdir. Bu hesabla 920,1 min ədəd iribuynuzlu heyvan, 3,7 mln. ədəd isə xırdabuynuzlu heyvan dərisi olmalı idi. Ancaq ölkədə kəsilmiş mal-qara gönlərinin təxminən 35%-i, kəsilmiş qoyun quzu dərilərinin isə 16%-i emal müəssisələri tərəfindən alınaraq təyinatına görə emal edilir. Əgər ixracı da nəzərə alsaq, DSK-nin hesabatlarında kəsilmiş qoyun-quzunun 54%-i görünür. Kəsimə getmiş xırdabuynuzlu mal-qara dərisinin 46%-i, yəni 1,7 mln. ədəd dəri ya şəxsi istifadəyə yönəlir, ya atılır, ya da rəsmi hesabatdan yayındırılır. Onu da qeyd etməliyik ki, emal olunmuş dərilərin də əksəriyyəti ixrac olunur. Son 5 ilin idxal və ixrac həcmi göstərir ki, ölkəyə hər il orta hesabla gön-dəri ixracından 11 mln. dollar valyuta daxil olur, ayaqqabı idxalına görə isə 73 mln. dollar valyuta sərf edilir.

Bu rəqəmlər bir daha sübut edir ki, yerli ayaqqabı istehsalının həcmini və keyfiyyətini artırmaq üçün potensialımız var və bundan səmərəli istifadə etmək üçün dövlətin müdaxiləsinə böyük ehtiyac vardır. Hər şeydən öncə ölkədə müasir avadanlıqlar və texnologiyalar əsasında işləyən dəri emalı zavodlarının sayı artırılmalıdır. Bunun üçün güzəştli kreditlər, müddətli vergi güzəştləri, qrantlar və s. həvəsləndirici tənzimlənmə metodlarından istifadə edilməlidir.

Eyni zamanda, kəsilmiş heyvan dərilərinin emal müəssisələrinə verilməsi üçün subsidiyalar tətbiq edilməlidir. Bu cür həvəsləndirici metodlar kəsilmiş heyvanların dərilərinin emaldan yayınmasının qarşısını ala bilər.

Ölkəyə idxal olunan ucuz və keyfiyyətsiz ayaqqabı məhsullarının qarşısı gömrük tənzimlənmələri ilə alınmalı, yerli məhsulların yerli bazarda mövqe tutması üçün şərait yaradılmalıdır. Qeyd etmişdik ki, son 5 ildə İran İslam Respublikasından idxal olunan ayaqqabıların hər cütünə orta hesabla 0,57 dollar (0,97 manat) ödənilmişdir. Bu ölkədən hər il 11 mln. cüt ayaqqabı idxal olunur ki, bu da ümumi

tələbatın 35%-i deməkdir. Göründüyü kimi, İran istehsalı olan ayaqqabılar ölkə bazarında dominantlıq edirlər. Yerli istehsalçıların bu qiymət müqabilində rəqabət apara bilmələri həddindən artıq çətindir və dövlət yerli bazarın qorunması ilə əlaqədar müdaxilə etməli, təxirəsalınmaz tənzimlənmə tədbirləri həyata keçirməlidir.

Nəhayət, müasir innovativ texnologiyalara əsaslanan ayaqqabı fabriklərinin qurulması istiqamətində dövlətin həvəsləndirici tədbirlərinin həyata keçirməsi tamamilə böhran vəziyyətdə olan bu sahənin dirçəldilməsi üçün güclü təkan olardı.

Son olaraq qeyd etməliyik ki, hökümət böhran vəziyyətində olan ayaqqabı sənayesinin dirçəldilməsi və inkişaf etdirilməsi üçün ciddi tədbirlər görməli, bütün kəsilmiş mal-qara və qoyun-quzunun dərilərinin emala cəlb edilməsi, yerli bazarda yerli məhsulların mövqelərinin yaxşılaşdırılması istiqamətində və ayaqqabı sənayesini inkişaf etdirilməsi və, nəhayət, idxaldan asılılığa son qoymaq üçün təsirli tənzimlənmə rıçaqlarından istifadə edilməlidir. Bu tənzimlənmələr reallaşarsa hər il ayaqqabı idxalı üçün ödənilən valyutanın böyük hissəsi ölkədə qalar, idxaldan asılılığa son qoyular və eyni zamanda ayaqqabı ixracına başlaya bilərik.

Ölkədə xalça sənayesi də böhran vəziyyətindədir. Baxmayaraq ki, son illər ölkənin müxtəlif regionlarında 21 yeni xalça fabriki tikilib istifadəyə verilmişdir, ancaq yerli xalça bazarında əsas mövqeləri Çin, Türkiyə və İrandan idxal olunan xalçalar tuturlar. Yerli xalçaların mövqeləri bazarda çox zəifdir. Əl ilə toxunduğu üçün yerli xalçaların maya dəyəri baha başa gəlir və təbii ki, qiyməti də yüksək olur. Məhz qiymət amilinə görə idxal olunan xalçalarla rəqabətə davam gətirə bilmirlər.

Azərbaycanda 2022-ci ilin sonunda 7,8 mln. baş qoyun-keçi mövcud olmuşdur. Bu rəqəm xalçaçılığın inkişafı üçün əsas amillərdən biridir. 2022-ci ildə 15,8 min ton yun istehsal olunmuşdur. Təəssüf ki, ölkədə bu potensialdan lazımi səviyyədə istifadə edilmir.

Xalçaçılıq sənayesinin böhrandan çıxa bilməməsinin əsas səbəbi istehsalda əl əməyindən istifadə edilməsidir. Fabrik (konveyer) üsulu ilə xalça istehsalı ilə ölkədə cəmi bir ədəd fabrik məşğul olur ki, onun da istehsal həcmi çox kiçikdir. Əl əməyi ilə toxunan xalçaların maya dəyəri baha başa gəlir və ona görə də qiymət amilində idxal olunan anoloji məhsullarla rəqabətdə məğlub olur. Azərbaycana idxal olunan bütün

xalçalar fabrik üsulu (konveyer) ilə istehsal olunur və bu səbəbdən maya dəyəri ucuz başa gəlir.

İkinci əsas səbəb ölkədə movcud olan qoyunların sürü dövriyyəsində qaba yunlu yerli qoyun cinslərinin çoxluq təşkil etməsidir. Həm xalça istehsalında və həm də trikotaj, geyim sənayesində qiymətli xammal sayılan zərif yun istehsalı çox azdır. Zərif yunlu cins qoyunlar (merinos və s.) ölkənin sürü dövriyyəsində azlıq təşkil edirlər.

Dövlətin dəstəyi ilə zərif yunlu qoyunçuluq təsərrüfatlarının yaradılması məqsədəuyğun olardı. Bu məqsədlə müəyyən dəstəkləyici, stimullaşdırıcı tənzimlənmə metodlarından istifadə etmək olar. Belə ki, zərif yunlu qoyunlardan bala alınmasına görə müəyyən miqdar subsidiya vermək olar. İstehsal olunan məhsulların satışında dövlətin müəyyən zəmanətlərinin olması və s. kimi həvəsləndirici müdaxilələrin tətbiqi daha məqsədəuyğun olardı.

Azərbaycanda yüngül sənayedə 1990-1995-ci illərdə başlamış böhran vəziyyət hələ də davam edir. Ölkə ümumilikdə yüngül sənaye məhsulları üzrə idxaldan asılı vəziyyətdədir. Belə ki, orta hesabla, 157 mln. dollar dəyərində xam pambıq ixrac edirik, əvəzində isə bu sahəyə aid 474,2 mln. dollarlıq hazır məhsul və yarımxammal idxal edirik.

Yüngül sənayenin inkişafında, o cümlədən, geyim və trikotaj məhsullarının istehsalında mövcud potensialdan tam istifadə edilmir. 2022-ci ildə 322 min ton pambıq, 15,8 min ton yun istehsal edilmişdir. Yun ilə əlaqədar problemləri yuxarıda qeyd etmişik. İstehsal olunan pambıq isə əsasən xammal şəklində ixrac olunur. Hər iki xammalı yerli istehsala yönəltməklə ölkədə yüngül sənayeni, o cümlədən, geyim və trikotaj sahəsini tam dirçəltmək olar, ölkəni idxaldan asılı vəziyyətdən azad etmək və nəhayət, xammal deyil, hazır məhsul ixrac edə bilərik. Bunun üçün ölkədə tələb olunan potensial mövcuddur.

Azərbaycanda yüngül sənayeni, o cümlədən, geyim və trikotaj sahəsini inkişaf etdirmək üçün bu sahəyə dövlətin güclü dəstəyi lazımdır. Tənzimlənmə mexanizmi işə salınmalı, investorları bu sahəyə cəlb etmək üçün stimullaşdırıcı və təşviqləndirici

tədbirlər görülməli, yerli iş adamlarının xeyrinə bazar və gömrük tənzimlənmələri işə salınmalıdır. Bu sahə yüksək ixtisaslı kadr və mütəxəssislərlə təmin edilməlidir.

Ölkədə idxaldan asılı sahələrin biri də şəkər xammalıdır. 2006-cı ildən İmişli şəkər zavodu fəaliyyətə başlayandan bü günədək xammal təminatı əsasən idxal hesabınadır. 2015-ci ildə emal olunmuş şəkər xammalının 95%-i, 2020-ci ildə 87%-i, 2022-ci ildə isə 65%-i idxal hesabına olmuşdur. Bu o deməkdir ki, İmişli şəkər zavodu şəkər istehsalına görə idxal xammalından asılıdır. 2020-ci ildə şəkər istehsalında yerli şəkər xammalının payının 13%-ə qalxması heç də yerli xammal istehsalının artımı ilə deyil, şəkər zavodunda hazır məhsul istehsalının təxminən 2 dəfə azalması ilə əlaqədar idxalın da azalması ilə izah etmək olar. Buna baxmayaraq, 2022-ci ildə şəkər istehsalında yerli xammaldan istifadə 36%-dək yüksəlmişdir. Bu o deməkdir ki, emal müəssisəsi şəkər istehsalında yerli xammala get-gedə üstünlük verməyə başlamışdır.

İmişli şəkər zavodunun tam istehsal gücü ilə fəaliyyət göstərməsi üçün hər il 300-350 min ton şəkər xammalı lazımdır. Ölkədə isə son 5 ili nəzərə alsaq, ortalama hər il cəmi 20 min ton şəkər xammalı istehsal olunur.

Şəkər çuğundurunun istehsalının genişləndirilməsi üçün əkin sahəsinin artırılması imkanları böyükdür. Əsas problemlərdən biri əkin sahələrinin suvarma məsələləridir. Bildiyimiz kimi, şəkər çuğunduru su sevən bitkidir və suya tələbatı böyükdür. Suvarma lazım olan optimal səviyyədə olmayanda məhsuldarlıq aşağı düşür və fermerlərin gəlirləri də azalır.

İkinci səbəb ölkədə çuğunduryığan kombaynların çatışmamasıdır. Hər hektardan 50-60 ton çuğundurun əl ilə yığılaraq nəqliyyata yüklənməsi ağır zəhmət tələb edir və nəticədə məhsulun maya dəyəri yüksəlir, fermerin gəliri isə azalır.

Bütün bu problemlərin həll edilməsi üçün dövlətin ciddi dəstəyinə ehtiyac vardır.

2022-ci ildə cəmi 5 min hektar şəkər çuğunduru əkilmişdir. Əkin sahəsi suvarma altı olmaq şərti ilə 6-7 dəfə artırılmalıdır. Fermerləri bu işə cəlb etmək üçün məhsulun zavod alış qiymətinə yenidən baxılmalı, satılan hər ton əmtəəlik şəkər çuğunduru üçün dövlət tərəfindən subsidiya verilməli, çuğunduryığan kombaynların

sayı çoxaldılmalı, əkin sahələrinin suvarılması üçün meliorasiya və irriqasiya tədbirləri görülməlidir.

Nəzərə alsaq ki, hər il şəkər xammalı idxalı üçün ortalama 200 mln. dollar vəsait sərf edilir, onda yuxarıda göstərdiyimiz problemlərin həll edilməsi dövlət üçün prioritet olmalıdır.

Azərbaycanda unüyütmə sənayesinin də idxaldan asılılığı çox böyükdür. Ölkədə un istehsalının 75%-85%-i idxal olunan ərzaq buğdası hesabınadır. Orta hesabla ölkədə hər il 2 mln. ton buğda istehsal olunur. Ancaq yerli buğdaların keyfiyyət göstəriciləri çörək istehsalı üçün lazım olan tələblərə tam cavab vermir və buna görə də az hissəsi ərzaq üçün istifadə edilir. Yerli istehsalın əsas hissəsi mal-qara və quş yeminə sərf edilir.

Azərbaycana Rusiya, Qazaxıstan, Ukrayna kimi ölkələrdən böyük miqdarda ərzaq buğdası idxal edilir. Həmin buğda, adətən, yumşaq sortlu buğda olur. Bizim ölkənin dəyirmanları yerli istehsalçıların istehsal etdiyi bərk buğda sortlarını üyüdə bilmir. Çünki bərk buğda sortları dəyirmanların mexanizmlərinə zərər verir. Ona görə də ölkədə taxıl, o cümlədən, buğda istehsalının kifayət qədər olmasına baxmayaraq dəyirmanlar idxal məhsullarına daha çox üstünlük verirlər.

Hər il ərzaq buğdasının idxalı üçün 300-350 mln. dollar vəsait sərf edilir. Son 5 ildə (2017-2022-ci illər) buğda idxalı üçün 2742 mln. manat vəsait ödənilmişdir. Eyni zamanda həmin müddət ərzində buğda istehsalı üçün 642,2 mln. manat subsidiya ödənilmişdir. Ödənilən subsidiyalar buğda idxalının azalmasına təsir etmir. Eyni zamanda buğdanın məhsuldarlığını da stimullaşdıra bilmir. Doğrudur son 5 ildə məhsuldarlıq müəyyən qədər artmış və 2022-ci ildə hər hektardan 31 sent.-ə çatmışdır. Ancaq bu rəqəm inkişaf etmiş ölkələrdəki anoloji rəqəmlərdən çox geri qalır.

İdxala ödənilən vəsaiti ölkədə saxlamaq, yerli buğda ilə un və çörək istehsal etmək üçün çox böyük resurslarımız mövcuddur. Öncə ölkədə rayonlaşdırılmış ərzaq buğdası sortlarının əkin sahələri genişləndirilməli, yüksək məhsuldarlığa nail olmaq üçün suvarma problemləri həll edilməlidir. Ərzaq buğdasını istehsal edib dəyirmanlara satan fermerlər üçün əmtəəlik məhsula görə müəyyən həvəsləndirmə və

təşviqləndirmə amilləri işə salınmalıdır və bununla da strateji məhsul olan un və çörək istehsalının idxaldan asılılığı əhəmiyyətli dərəcədə azalmış olar.

Un istehsalında olduğu kimi makaron məmulatları istehsalında da idxaldan asılılıq böyükdür. Təkcə 2022-ci ildə 35,3 min ton makaron istehlak edilmişdir ki, onun da 17 min tonu, yəni 49%-i idxal hesabına olmuşdur. Makaron istehlakının idxaldan asılılıq dərəcəsi 2021-ci ildə 57%, 2020-ci ildə isə 77% olmuşdur. Göründüyü kimi, makaron istehlakında idxaldan asılılıq yüksək temp ilə azalır.

Makaron istehsalı üçün lazım olan şüşəvari, bərk buğda sortları əsasən Qazaxıstandan idxal edilir, hansı ki, ölkədə makaron istehsalı üçün lazım olan bərk buğda sortunu yetişdirmək üçün bütün şərait mövcuddur və bu problemin həlli üçün dövlət dəstəyinə ehtiyac vardır. Un istehsalında idxaldan asılılığa son qoymaq üçün verilmiş tövsiyələri həm də makaron istehsalına aid etmək olar.

Üzümçülük və şərabçılıq Azərbaycan iqtisadiyyatının ən gəlirli sahələrindən biri sayılır. Hələ 1985-ci ildə, SSRİ-nin tərkibində olanda Azərbaycanda 267,8 min hektar üzüm plantasiyaları mövcud idi. Hər il 2 milyon ton civarında şərab üzümü istehsal olunub emal müəssisələrinə təhvil verilirdi.

Təəssüf hissi ilə qeyd etməliyik ki, həmin illərdə o vaxtki SSRİ rəhbərliyinin bədnam “Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri” adlı qərarı əsasında ölkəmizdə üzüm bağları kütləvi sürətdə məhv edilməyə başladı və minlərlə hektar üzüm plantasiyaları ləğv edilərək taxıl və digər kənd təsərrüfatı məhsullarının əkini ilə əvəz edildi.

Paralel olaraq xammalsız qalan şərab zavodlarının da dağıdılmasına başlandı. Onillərlə qazanılmış nailiyyətlər cəmi 2-3 ildə məhv edildi.

Bundan əlavə, müstəqilliyimizin ilk illərində Ermənistan tərəfindən işğal olunmuş torpaqlarda, təxminən, 40 min hektardan çox üzüm plantasiyaları məhv edildi.

Eyni zamanda, müstəqillik qazanılandan sonra iqtisadi münasibətlərin kəsilməsi, ənənəvi Rusiya, Ukrayna və digər bazarların itirilməsi və. s. şərabçılığa çox mənfi təsirini göstərdi.

Bütün bu səbəblər ölkədə şərabçılığın ağır böhran vəziyyətinə düşməsinə səbəb oldu.

Azərbaycanda üzümçülük və şərabçılığın əvvəlki şöhrətini qaytarmaq məqsədilə 2000-ci illərdən sonra bir çox dövlət tədbirlərinin həyata keçirilməsi başlanmışdır. 2002-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, eyni zamanda, üzümçülük və şərabçılığın da inkişafı üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" [33] və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" [34], Azərbaycan Respublikası Prezidenti tərəfindən 25 avqust 2008-ci ildə təsdiq olunan "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" [116] və nəhayət 2016-cı ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi" [6] adlı fərman ölkəmizdə ən gəlirli sahələrdən olan üzümçülüyün və şərabçılığın yenidən inkişaf etdirilməsi üçün bir təkan oldu.

Üzümçülüyün əkin sahələrini artırmaqla bu sahənin inkişafını 1985-ci il səviyyəsinə, yəni 220 min hektara çatdırmaq olar. Fikrimizcə, üzüm əkini sahəsinin genişləndirilməsi iqtisadi səmərəsi çox az olan taxıl əkini sahələrinin hesabına olmalıdır, necə ki, vaxtilə üzüm plantasiyaları məhv edilib taxıl əkini ilə əvəz edilmişdir.

Dünyada istehsal olunan üzüm məhsulunun 90%-ə qədəri emal edilir. Bu məhsuldan 60 addan çox qida məhsulları hazırlanır. Üzümdən alınan məhsullara şərabçılıq məhsullarını, üzüm şirələrini, mürəbbələri, marinadları, üzüm konsentratlarını, quru üzümü, və üzümün ikinci dərəcəli məhsullarını aid etmək olar.

Azərbaycan bazarının mövsümdən kənar dövrlərdə satılan üzüm məhsulunda idxal üstünlük təşkil edir. Mövsümdən kənar idxal olunan üzüm, əsasən, Türkiyə və İrandan gətirilir. Hər il bu məqsədlə, orta hesabla, təxminən 20 min ton civarında təzə üzüm idxal olunur. Azərbaycan əhalisini il boyu təzə üzüm ilə təmin etmək üçün imkanlar böyükdür. Onu da qeyd etməliyik ki, ölkədə istehsal olunan üzümün 55%-i birbaşa istehlaka gedən süfrə sortlu üzümdür. Mövsümdən kənar əhalini yerli üzüm

məhsulu ilə təmin etmək üçün iri üzüm saxlanma anbarları tikilə bilər və bu məhsul ilə nəinki yerli bazarı, həm də ənənəvi satış bazarı olan MDB ölkələrini il boyu təzə üzümlə təmin etmək olar.

Azərbaycan şərabının əvvəllər ixrac olunduğu ənənəvi Rusiya bazarında mövqeyini bərpa etmək üçün dövlət tənzimlənməsi sistem şəklində işlənməlidir. Hər şeydən öncə bu sahədə ölkədə rəqabətli mühit yaradılmalı, haqsız rəqabət və inhisarçılıq halları aradan qaldırılmalı, şərab istehsalı ilə məşğul olan sahibkarlar üçün bir çox həvəsləndirici amillərdən istifadə edilməlidir.

Hesablamalar göstərir ki, yuxarıda qeyd edilən tövsiyyələrə əməl olunarsa və bununla da Azərbaycan şərabının əvvəlki şöhrəti özünə qaytarılarsa, şərab istehsalı artan dinamika ilə inkişaf edərək hər il ölkəyə təxminən 2,5-3 milyard ABŞ dolları məbləğində valyuta gətirə bilər. Ona görə də alkoqollu içkilər, xüsusilə də şərabçılıq ölkə üçün iqtisadi effektliliyinə görə neft sektoru ilə müqayisə oluna bilər və büdcə gəlirlərinin təminatında neft sektoruna layiqli alternativ ola bilər. Bu səbəbdən də şərabçılıq ölkənin kənd təsərrüfatının inkişafında ən prioritet məsələlərdən biri olmalıdır [94, s.171].

Tütünçülük yüksək rentabelli sahələrdən biridir və iqtisadi əhəmiyyətinə görə heç də üzümçülükdən geri qalmır. 1990-1995-ci illərin böhranı tütünçülükdən də yan keçməmişdir. 2022-ci ildə 5,1 min ton tütün istehsal olunmuşdur ki, bu da 1990-cı il istehsal səviyyəsindən 10,4 dəfə aşağı göstəricidir.

Tütünçülüyün yenidən dirçəldilməsi məqsədilə "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının 2001-ci il 8 iyun tarixli Qanunu qəbul edilmişdir. Eyni zamanda, "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" qəbul edilmiş və bu proqram ölkədə bu istiqamətdə aparılan işlərin daha da sürətlənməsinə təkan vermişdir. [113]

2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabriki açılmışdır. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edir. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrik tam gücü ilə işləyərsə, hər il 11 milyard ədəd 3 növdə filtrli siqaret istehsal ediləcəkdir [67].

Tütün istehsalında həllini gözləyən problemlər çoxdur. Öncə qeyd etməliyik ki, yerli tütün istesalçılarından tütün ucuz alınır. DSK-nin illik hesabatlarından aydın olur ki, 2022-ci ildə tütünün hər tonu 5032 manata ixrac edilmişdir. Tütünün alış qiymətləri hər ton yaş tütünə 1-ci növ üçün 250 manat, 2-ci növ üçün isə 150 manat olmuşdur. Göründüyü kimi, tütün xammalını xaricə satan şirkətlərin əldə etdikləri mənfəətlə tütün yetişdirən fermerlərin mənfəətləri arasında böyük fərq və ədalətsiz bölgü mövcuddur.

İlk olaraq qeyd etməliyik ki, 2022-ci ildə idxal olunan 1 qutu (20 əd.) siqaret orta hesabla 0,41 dollar və ya 0,70 manat səviyyəsində olmuşdur. Bu rəqəm hər il cüzi dəyişir. Təəccüblüsü odur ki, 2022-cu ildə yerli siqaret fabrikləri siqaretin bir qutusunu (20 əd.) 0,15 dollara ixrac etmişdir ki, manata çevirəndə 0,26 manat deməkdir. Ölkədə satılan siqaretin pərakəndə satış qiyməti isə bundan dəfələrlə çoxdur. Yerli siqaret istehsalçılarının gəlirinin əsas hissəsini yerli bazar təmin edir.

Bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, tütün məmulatlarını emal edən müəssisəsinin daxili bazarda öz məhsullarının satışının təşkili, həm də idxal-ixrac əməliyyatları azad bazar qanunlarına, daha dəqiq desək rəqabətqabiliyyətlilik prinsiplərinə əsaslanmır. Həm tütünün alış qiymətləri, həm də siqaretin pərakəndə satış qiymətləri tələb-təklif əsasında deyil, diqtə ilə formalaşır. Nəticədə qiymət və keyfiyyətlə əlaqədar rəqabətlilik mühiti aradan qalxmış olur. Rəqabət olmayan yerdə isə həmişə tənəzzül olar.

Tütünçülükdə daha bir problem toxumçuluğun zəif təşkil edilməsi ilə bağlıdır. Burada çətinliklər çoxdur. Bütün ölkəni toxumla təmin etmək üçün cəmi bir təsərrüfat və onun 5-6 ha. tütün toxumçuluq sahəsi mövcuddur. Bu sahəyə diqqət artırılmalı, tütün istehsalçılarının yüksək keyfiyyətli tütün şitili ilə təminatında olan problemlər həll olunmalıdır.

Ölkədə fəaliyyət göstərən siqaret fabriklərinin xammal bazarları elə tənzimlənməlidir ki, yerli tütünə daha çox üstünlük verilsin. Hazırda siqaret fabriklərində yerli xammala maraq demək olar ki, yoxdur və ucuz başa gələn idxal xammalına və tütünün sənaye əvəzedicilərinə daha çox üstünlük verilir. Nəzərə alınmalıdır ki, ölkənin tütünçülük istehsalı bundan çox ziyan çəkir, minlərlə

tütünçülüklə məşğul əhali məcburən başqa fəaliyyət növlərinə üz tuturlar. Yerli tütün istehsalının artırılması stimullaşdırılmalı, xaricdən xammal və tütünün sənaye əvəzedicilərinin gətirilməsi dövlət tərəfindən iqtisadi rıçaqlar və gömrük müdaxiləsi ilə tənzimlənməlidir.

Tütünün fermerlərdən satınalma qiymətləri ən azından iki dəfə qaldırılmalı, siqaret fabrikləri gəlirlərin bölüşdürülməsində kəndli və fermer təsərrüfatlarının xeyrinə güzəştə getməlidirlər. Tütünün fermerlərdən alış qiyməti ilə ixrac qiyməti arasında olan fərq, eyni zamanda, ölkədə siqaret məmulatlarının pərakəndə satış qiymətlərinin kəskin artması buna imkan verir.

*"Tütünçülüklə məşğul olan rayonlarda müasir tipli tütün qurutma qurğularının və talvarlarının, o cümlədən, fermentasiya zavodlarının bərpa edilib istifadəyə verilməsi məqsədəuyğun olardı"* [99, s. 62].

Çay bitkisi isti və rütubətli şəraitdə yaxşı bitir və yüksək məhsul verir. Ona görə də Azərbaycanda çayçılıq üçün olduqca əlverişli şərait var və xüsusilə də cənub bölgəsinin bərəkətli torpaqlarında yetişən çay yarpaqları öz tərkibindəki göstəricilərə görə yalnız dünyanın ən keyfiyyətli çayları ilə müqaisə oluna biləcək səviyyədədir.

Müstəqillik qazanılandan sonra bu sahə də tənəzzül etməyə başlamışdır. Belə ki, 1990-cı illərdən etibarən ölkədə çay sahələri və istehsalı tədricən azalmağa başlamışdır. 2022-cu ildə çay plantasiyalarının sahəsi 1000 hektar, məhsul istehsalı 1000 ton olmuşdur, hansı ki, 1990-cı ildə çay plantasiyalarının sahəsi 13,4 min hektar, istehsal isə 30,7 min ton olmuşdur. Hal-hazırda Azərbaycanda hər il 15 min ton çay içilir ki, yerli istehsal bunun cəmi 4%-ni ödəyə bilir, qalanı idxal hesabına ödənilir. Çaya olan istehlak tələbatı demək olar ki, tamamilə idxaldan asılı vəziyyətə düşüb.

Azərbaycanda çayçılığın təşkilinin, çay istehsalının tənzimlənməsinin və çay məhsullarının keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edən "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanunu 2002-ci ildə qəbul edilmişdir. 2018-ci ildə çayçılığın inkişaf etdirilməsi, çay məhsullarına tələbatın yerli istehsal hesabına təmin olunması, çayçılığın ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə "Azərbaycan

Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Müvafiq Dövlət Proqramı Azərbaycanda çayçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, çay istehsalına marağın artırılmasına yönəldilmişdir.

Ölkədə Azərbaycan çayının əvvəlki şöhrətini qaytarmaq üçün imkanlar genişdir. Hər şeydən öncə çay plantasiyalarının sahəsi artırılmalı və bununla əlaqədar dövlətin təşviqləndirmə siyasəti olmalıdır. Çay əkildikdən 7-8 il sonra məhsul verməyini nəzərə alaraq, dövlət tərəfindən həmin müddət ərzində fermerlərə yaşayış minimumu həcmində kompensasiya ödənilməli, güzəştli kreditlər, subsidiyalar və s. həvəsləndirici və təşviqləndirici tədbirlər görülməlidir.

Fikrimizcə, ümumilikdə ölkə üzrə çay plantasiyalarının sahəsini 6 min hektara çatdırmaq olar. Bunun üçün ölkənin cənub bölgələrində mövcud torpaq-iqlim şəraiti çay bitkisinin yetişdirilməsi tələblərinə tam cavab verir. Çay plantasiyalarının sahəsinin genişləndirilməsi iqtisadi səmərəsi çox az olan taxıl əkini sahələrinin hesabına olmalıdır, necə ki, vaxtilə çay plantasiyaları məhv edilib taxıl əkini ilə əvəz edilmişdir.

Eyni zamanda, hökmən bazarın qorunması siyasəti həyata keçirilməlidir ki, çayımızı yerli bazarda sata bilək. Azərbaycan çayı ekoloji baxımdan daha təmiz və daha faydalı çay sayılır.

*"Ölkədə mövcud olan ənənəvi çay sortları yeni salınacaq çay plantasiyalarının tinglərlə təmin edilməsində etibarlı mənbə ola bilər. Çayçılıqla məşğul olan rayonlara uyğun əkin materialı üçün rayonlaşdırılmış sortların düzgün seçilməsi müasir tipli çay plantasiyalarının salınmasında əsas şərtdir. Ona görə də dövlət hesabına bu sahəyə xidmət edən xüsusi tingçilik təsərrüfatı yaradılmalı və fermerləri rayonlaşdırılmış və keyfiyyətli çay tingləri ilə təmin etməlidir"* [95, s.50].

Nəzərə alsaq ki, hər il əhalinin tələbatının ödənilməsi üçün çayın idxalına, ortalama 50-52 mln. dollar vəsait ödənilir, onda yerli çay istehsalının artırılması istiqamətində ciddi işlər görülməlidir.

Meyvə və tərəvəzçilik Azərbaycanın kənd təsərrüfatında ixtisaslaşmış sahələrdəndir. Bu sahənin emalı meyvə-tərəvəz konservləri və meyvə-tərəvəz şirələri kimi iki əsas aparıcı sektora bölünür.

Azərbaycanda meyvəçiliyin və meyvə emalının inkişaf etdirilməsi ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiqlənən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"ndə öz əksini tapmışdır [6]. Sənəddə qeyd edilir ki, növbəti 10 ildə Azərbaycanda bəzi bitkiçilik məhsulları ilə yanaşı meyvə istehsalının artırılması və həmin məhsulların emalı sənayesində rəqabət qabiliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Quru meyvə-tərəvəz məhsullarının və şirəsinin istehsalı üçün müasir emal müəssisələrinin yaradılması stimullaşdırılacaq.

Ölkədə meyvə şirələri istehsalında xammal təminatında və quru meyvə məhsulu üzrə idxaldan asılılıq böyükdür. Meyvə şirələri üçün xammal meyvə püresi formasında idxal olunur, emal sənayesində nar istisna olmaqla yerli meyvələrdən az istifadə edilir. Son illər meyvə şirələrinin adambaşına istehlakında sabit artım yoxdur. Belə ki, 2012-ci ildə ildə 3,2 kq. adambaşına meyvə şirəsi istehlak edilirdisə, bu rəqəm 2022-ci ildə 13% azalaraq 2,7 kq. olmuşdur, 2022-ci ildə isə 2012-ci ilə nisbətən 25% artaraq 4,0 kq.-a çatmışdır. Meyvə konservlərində isə əksinə, adambaşına istehlak sabit olaraq artaraq 19,2 kq-a çatmışdır. Ölkədə meyvə emalı məhsullarının, xüsusilə də, təbii şirələrin istehlak səviyyəsi aşağıdır. İstehlakın aşağı səviyyədə olması meyvə emalı sektorunun rentabelli sahə kimi qala bilməsinə problemlər yaradır.

Onu da qeyd etməliyik ki, DSK-nin illik hesabatlarında meyvə emalına aid məlumatlara rast gəlmək olmur. Ona görə də istehsal olunmuş ayrı-ayrı məhsulların emalda iştirak səviyyəsini müəyyən etmək olmur. Bu məlumatlar çox önəmlidir və aqroemal sahəsinin potensialını müəyyən etməyə imkan verir. Bu səbəbdən də statistik hesabatlarda ölkədə istehsal olunmuş meyvənin emalda iştirak payı ilə bağlı məlumatların əks olunmasına ehtiyac vardır.

Meyvə və tərəvəz emalında xammal asılılığını minimuma endirmək üçün dövlət tərəfindən bir çox tədbirlərin görülməsi zəruri məsələlərdəndir. Hər şeydən öncə

seleksiya işinin və torpaqların keyfiyyətinin yaxşılaşdırılması vasitəsilə meyvəçilikdə məhsuldarlığın artımına nail olunmalıdır. Hazırda Azərbaycanda meyvə bağlarının orta məhsuldarlığı təxminən 71 sentnerdir və bu dünya üzrə orta göstəricidən təxminən 50% aşağıdır.

Meyvə və tərəvəz emalı sektorunnda insan sağlamlığı üçün zəruri və geniş istehlak potensialına malik məhsul çeşidlərinin (qurudulmuş meyvələr, təbii meyvə şirələrinin əsas xammalı olan püre və konsentrantlar) idxalından asılılığının aradan qaldırılması üçün dövlətin tənzimlənmə metodları həyata keçirilməlidir. Bura meyvə bağlarının genişləndirilməsinin, xüsusilə, sənaye meyvəçiliyinin inkişafı üçün həvəsləndirici tədbirlərin görülməsi, gömrük, vergi, güzəştli kreditlər və s. tənzimlənmə alətləri aiddir. Meyvəçilik rayonlarında kiçik ölçülü meyvə emalı zavodlarının qurulması daha məqsədəuyğun olardı və hökümət kiçik biznes strukturlarını bu işə cəlb etmək üçün həvəsləndirici tədbirlər görməlidir.

Azərbaycanda istehsal edilən ət və süd məhsullarının istehsalı istehlakçıların tələbatı ilə adekvat deyil. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyə etdiyi ildə adambaşına ət və ət məhsulları 70,1 kq., süd və süd məhsulları istehlakı 404 kq., o cümlədən, kərə yağı istehlakı 7,2 kq. səviyyəsində olmasına baxmayaraq ölkəmizdə bu rəqəm 2022-ci ildə ət və ət məhsulları üzrə 1,7 dəfə az, yəni 42,1 kq., süd və süd məhsulları üzrə 36% az, yəni 257,6 kq., kərə yağının adambaşına istehlakı isə 1,8 dəfə az, yəni 4,0 kq. səviyyəsində olmuşdur. Göründüyü kimi, ölkə əhalisi insan üçün vacib olan bu məhsullar ilə tam qidalana bilmirlər. Onu da qeyd etməliyik ki, 2022-ci ildə istehlak olunan ət və ət məhsullarının 14%-i (ölkəyə ət istiqamətli kəsim üçün gətirilən iribuynuzlu mal-qara istisna olmaqla), süd və süd məhsullarının 21%-i idxal hesabına təmin olunur.

Ət və ət məhsullarının istehlakının aşağı səviyyədə olmasının bir səbəbi ölkədə ət və ət məhsullarının qiymətlərinin yüksək, əhalinin gəlirlərinin isə aşağı səviyyəsi ilə də əlaqələndirmək olar.

Həmçinin, ət və süd məhsullarının istehsalının aşağı səviyyədə olmasının digər səbəbi mövcud mal-qara sürüsünün tərkibində az məhsuldar olan yerli inəklərin əksəriyyət təşkil etməsidir. Sürü tərkibini məhsuldar cins inəklərin xeyrinə

dəyişməklə məhsuldarlığı qaldırmaq olar və bu da ölkədə əhalinin ət və süd məhsulları ilə təminatını xeyli yüksəldər.

Heyvandarlığın intensiv texnologiyalar əsasında inkişaf etdirilməsi, iri və müasir texnologiyalarla təmin edilmiş heyvandarlıq komplekslərinin təşkili, yem bazasının gücləndirilməsi, dağlıq zonalarda yay otlaqlarının səhralaşmasının qarşısının alınması, otlaqların məhsuldarlığının artırılması, bazar qiymətlərinin tənzimlənməsi, sürü tərkibinin yüksək məhsuldar cins mal-qaranın xeyrinə dəyişdirilməsi üçün həvəsləndirmə və təşviqləndirmə tədbirlərinin görülməsi və nəticədə məhsuldarlığın artırılması qarşıda duran əsas məqsədlər kimi qəbul edilməlidir.

Balıq məhsulları insan üçün zəruri qida sayıldığı üçün, balıqçılıq ölkənin aqroemal sahəsinin aparıcı sektorlarından biri sayılır. Azərbaycanda 2022-ci ildə adambaşına balıq istehlakı 7,6 kq. olmuşdur. Əvvəlki illərdə də bu rəqəm təxminən 7 kq. səviyəsində olmuşdur. Ümumdünya Səhiyyə Təşkilatı bu məhsul üzrə illik istehlak normasını 21 kq. tövsiyyə etmişdir.

Əslində istehsal edilən məhsullar tələbatı ödəmir, ona görə də balıq məhsullarının qiymətləri əhalinin orta gəlirlərinə adekvat deyil, bahadır və bütün əhali qrupları üçün əlçatan deyil.

Ölkədə bu sahədə imkanlar çox böyükdür. Xəzər dənizi ilə təxminən 500 km-dən çox olan təmas xətti, eyni zamanda, ölkə ərazisindən axan Kür və Araz çayları, Mingəçevir, Sarıgöl, Şəmkir su anbarları və bir çox kiçik təbii və süni göllər bu potensialın göstəriciləridir.

Son 22 ildə (2000-2022-ci illər) dövlətin balıqçılığa münasibətində müsbət dinamika hiss olunmur. Belə ki, hələ 2000-ci ildə balıq vətəgələrində 531 mln. körpə balıqlar yetişdirilərək təbii su hövzələrinə və su anbarlarına buraxılmışdır. Təəssüf ki, 2022-ci ildə bu rəqəm 121 dəfə azalaraq, 4,4 mln. miqdarına düşmüşdür.

Dövlətin balıqçılığa münasibəti dəyişməli, körpə balıqların yetişdirilib su hövzələrinə buraxılması işi yenidən bərpa olunmalı, bununla da məhsul təklifi yüksəlməli, qiymətlərin səviyyəsi əhalinin bütün təbəqələri üçün əlçatan olmalıdır.

Hazır yeməklərin istehsalı və satışı qida sənayesinə son vaxtlar daxil olmuşdur. Bu sahə ölkədə Covid-19 virusu ilə əlaqədar karantin məhdudiyyəti dövrlərində daha

çox inkişaf etməyə başladı. Əslində bu xidmət karantindən öncə Bakı, Sumqayıt və Gəncə şəhərlərində mövcud idi. Restoran və digər iaşə obyektlərindən pizza və s. hazır yeməklərin sifariş verilməsi və evlərə çatdırılması az da olsa mövcud idi. Karantin məhdudiyyətləri səbəbindən insanların məcburən evlərə qapadılması (faktiki ev dustaqlığı) bu xidmətin inkişafında bir təkan oldu. Nəticədə həm bütün dünyada, o cümlədən, Azərbaycanda hazır yeməklər ("Food Tech") seqmenti güclü inkişaf edərək, həcmi dinamik şəkildə böyüməyə başladı. Qlobal "Food Tech" bazarı daha da sürətlə böyüyür. İndi ona illik qlobal sərmayəsi 75-90 milyard dollar həcmində qiymətləndirilir və 2022-ci ildə qoyulan ümumi sərmayə 250 milyard dolları keçmişdir.

Texnologiyanın inkişafı, çatdırılma xidmətləri, onlayn satışlar istehlakçıların rahat olduğu yerdə yeməyə alışmasına səbəb olub. Pandemiya bu tendensiyanı daha da gücləndirdi. İnkişaf etmiş ölkələrdə evlərdə yemək hazırlamaq tendensiyası sürətlə azalır və yerini hazır yeməklər almağa verir. Müasir inkişaf dövründə insan üçün ən dəyərli amil olan zamanın qənaət edilməsi hazır yemək kateqoriyasının böyüməsi üçün ilkin şərt olmuşdur. Yeməklərin keyfiyyətinə və çeşidinə tələbat da artmışdır. İndi inkişaf etmiş ölkələrdə hazır yeməklər bazarı hər zövqə, pəhrizə və fəlsəfi baxışlara görə sonsuz sayda yeməklər təklif edir.

Artıq ABŞ, Avropa və Çinin iri meqapolislərində hazır yemək istehsal edən zavodlar fəaliyyət göstərməyə başlamışdır.

Hesab edirəm ki, qlobal dünyanın kiçik bir parçası olan Azərbaycandan bu inkişaf tendensiyası yan keçməyəcək və hökümətin Bakı, Gəncə və Sumqayıt kimi böyük şəhərlərində hazır yeməklər istehsal edən mini zavodların qurulması istiqamətində müəyyən proqram və fəaliyyətləri olmalıdır.

Hesab edirik ki, yerli aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsi və dəstəklənməsi konsepsiyasının praktiki həyata keçirilməsi bütövlükdə Azərbaycanın milli iqtisadiyyatının böyüməsinə, iqtisadiyyatın xam neft satışından asılılığının azalmasına bilavasitə kömək edəcəkdir.




**Şəkil 4.1.2 Yerli aqroemal sahəsinin tənzimlənməsi və dəstəklənməsi konsepsiyasının ölkənin milli iqtisadiyyatına təsirinin sxemi**
Mənbə: Müəllifin tərtibatı

Şəkil 4.1.2-dən də göründüyü kimi, aqroemal sahəsinin dövlət tənzimlənmələri bu sahə üzrə istehsal olunan məhsulların həcminin və keyfiyyətinin yüksəldilməsinə, anoloji məhsulların isə idxalının azaldılması istiqamətində daha da təkmilləşir. Aqroemal məhsullarının, xüsusilə də, yeyinti məhsulların həcminin və keyfiyyətinin yüksəldilməsi, paralel olaraq keyfiyyətsiz və mənşəyi məlum olmayan anoloji məhsulların idxalının azalması ölkədə əhalinin həyat keyfiyyətinə bilavasitə müsbət təsir göstərir və bu da öz növbəsində uzunömürlülüyə, xəstəliklərin azalmasına və insan kapitalının inkişafına müsbət təsir göstərir. Son nəticədə isə dövlət tənzimlənmə sisteminin hədəf götürdüyü kimi ölkənin iqtisadi artımının dinamikasına müsbət təsir göstərir.

Dövlət öz ölkəsinin iqtisadiyyatına həmişə təsir göstərmiş və müasir bazar iqtisadiyyatında miqyasının və əlaqələrin artması ilə əlaqədar olaraq bu rolu xeyli gücləndirmişdir. Ona görə də aqroemal sahəsinin dövlət tənzimlənmələri hər şeydən öncə müəssisələrin resurs bazalarının möhkəmlənməsinə istiqamətlənməlidir. Burada güzəştli vergitutma və kreditləşmə, büdcə subsidiyaları, gömrük tənzimlənmələri, qiymət sisteminin təkmilləşdirilməsi, yerli istehsalçıların qanunvericiliklə müdafiəsi,

dövlət proteksionizmi, idarəetmə və maliyyə tənzimlənmələri, innovativ layihələrin uyğunlaşmasına dəstək, innovativ layihələrin risk sığortasını dəstəkləmək və s. məsələlər elə tənzimlənməlidir ki, son nəticədə, iqtisadi artımın və rifahın yüksəlməsinə töhfə verə bilsin.

## 4.2. Aqroemal sahəsinin inkişafının maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi

Maliyyə-kredit siyasəti dövlət funksiyalarını yerinə yetirmək naminə maliyyə münasibətlərindən istifadə etmək üçün tədbirlər məcmusu deməkdir. Eyni zamanda bu tədbirlər məcmusu dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir və burada milli iqtisadiyyatın inkişafının əsas prioritet istiqamətləri konkretləşdirilir. Bir sözlə, iqtisadiyyatın maliyyə-kredit tənzimlənməsi pul, kredit və maliyyə siyasəti vasitəsilə həyata keçirilir.

Bildiyimiz kimi, iqtisadiyyatın sabit və dayanıqlı inkişafı üçün kənd təsərrüfatı məhsullarının istehsalının həcminin artırılması və keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, onun emalının mövcud olması və inkişafı zəruridir. Respublikada aqroemal sahəsinin inkişafı üçün hər cür şərait və böyük ehtiyatlar mövcuddur və eyni zamanda ən çox köklü sürətdə yenilənməsinə ehtiyacı olan bir sahədir. Aqroemal sahəsinin, o cümlədən, əsasən bu sahədən qaynaqlanan yüngül və yeyinti sənayesinin inkişafı hökümətin prioritet vəzifəsi olmalıdır ki, onun həlli əhalinin məşğulluğunun və həyat səviyyəsinin, büdcənin gəlir potensialının yüksəldilməsini təmin edəcəkdir.

Təhlillərimizdən göründüyü kimi, aqroemal sahəsinin müasir inkişaf mərhələsində məhsulların istehsalının və emalının qeyri-sabitliyi, onunla əlaqəli sənaye müəssisələrinin maraqlarının tarazlığının pozulması ilə xarakterizə olunur. Ona görə də bu məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyəti aşağı düşmüş, yerli bazarda bir çox mal qrupları üzrə idxal məhsulları hegemonluq edir. Ölkəmizdə aqroemal məhsullarının ixracı xammal yönümünü alır. Xarici istehsalçıların rəqabət təzyiqi artır, bazarımızı getdikcə daha müxtəlif və ucuz ərzaq məhsulları ilə təmin edir. Dövlət aqroemal sahəsinin iqtisadi proseslərinin zəif

tənzimlənməsini təmin edir və istehsal olunan məhsulların rəqabət qabiliyyətinə praktiki olaraq təsir göstərmir.

Ona görə də aqroemal sahəsinin inkişaf etdirilməsi, yüngül və yeyinti sənayesinin işinin yenidən qurulması, xüsusilə də, ixracyönümlü sahələrinin stimullaşdırılması və tarazlı inkişaf yolu ilə dövlət tərəfindən tənzimlənməsi bu sahənin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması probleminin həllinin ən mühüm şərtidir. Təhlillərdən göründüyü kimi, yeyinti və emal sənayesi məhsullarının istehsalı və emalı daimi və fəal dövlət tənzimlənməsinə ehtiyacı olan sahədir.

Aqroemal sahəsinin inkişafı onun maliyyə resurslarının kifayət qədər olmasından çox asılıdır və onun təsərrüfat sisteminin fəaliyyətinin aspektlərindən biridir və texniki təchizat səviyyəsini, maddi istehsalın səmərəliliyini, davamlılığını və sonda rəqabətqabiliyyətliliyini müəyyən edir.

Aqroemal sahəsinin dövlət tənzimlənmələri mexanizminin təkmilləşdirilmələri aşağıdakı əsas istiqamətləri əhatə etməlidir:

**Cədvəl 4.2.1 Aqroemal sahəsində dövlət tənzimlənmələrinin əsas istiqamətləri**

| Müəssisənin fəaliyyətində əsas proseslər | Dövlət tənzimlənmə vasitələrinin təkmilləşdirilməsinin əsas istiqamətləri |
|---|---|
| Xammal təminatında | - yerli kənd təsərrüfatı istehsalının həcminin və keyfiyyətinin artırılması;<br>- yerli kənd təsərrüfatı xammalı bazarında qiymətlərin sabitləşməsi və optimallaşdırılması siyasəti |
| İstehsal | -aqroemal müəssisələrinin əsas istehsal fondlarının yenilənməsinin stimullaşdırılması;<br>innovativ texnologiyalardan istifadənin stimullaşdırılması; |
| Satış | - təkmilləşdirmə:<br>• yerli aqroemal məhsulları bazarının tənzimlənməsi;<br>• antiinhisar tənzimlənmə alətləri;<br>• yerli istehsalşıların maraqlarının müdafiəsi məqsədi ilə gömrük-tarif siyasətinin tənzimlənməsi;<br>- ixracyönlü məhsul istehsalı məqsədi ilə effektiv həvəsləndirmə vasitələrinin yaradılması |
| Loqistika | -yanacağın qiymətlərini sabitləşdirməklə nəqliyyat xidmətlərinin qiymətlərinin optimallaşdırılması;<br>- yeni logistik texnologiyaların tətbiqi ilə saxlama anbarlarının effektliliyinin artırılması;<br>- nəqliyyat infrastrukturunun inkişafı; |
| Marketinq | - aqroemal məhsulları bazarında qiymətlərin optimallaşdırılması və sabitləşdirilməsi; |

| | |
|---|---|
| Maliyyə təminatı | - kreditlərin, o cümlədən, uzunmüddətli kreditlərin əlçatanlığının təmin edilməsi;<br>- faktorinq xidmətinin yaradılması və inkişaf etdirilməsi;<br>- aqroemal sahəsinin az rentabelli və iqtisadi cəhətdən geridə qalmış alt sahələrinə maliyyə dəstəyi;<br>- özəl kapitalın aqroemal sahəsinə daha aktiv cəlb edilməsi; |

Mənbə: müəllifin tərtibatı

Cədvəl 4.2.1-dən göründüyü kimi, tənzimlənmə aləti kimi subsidiyalaşma, subvensiya və dotasiya verilməsi göstərilməmişdir. Bildiyimiz kimi, hər üç alət qeyri-bazar metodudur ki, dünya ölkələri bu üsullardan tədricən imtina edir və yerini tənzimlənmənin bazar alətlərinə verir. Fikrimizcə, bu daha düzgündür, yəni "ehtiyacı olana balıq vermə, balıq tutmağı öyrət" prinsipi daha effektli, daha davamlı və rəqabətqabiliyyətli olur.

Aqroemal sahəsində dövlət tənzimlənməsi mexanizmləri içərisində dövlət dəstəyi ən təsirli vasitə olaraq qalır. Ümumiyyətlə, dövlət dəstəyinə ehtiyacı olan müəssisələri 3 qrupa bölmək olar.

1. dövlət dəstəyinə ehtiyacı olan və zərərlə işləyən müəssisələr
2. dövriyyə kapitalı zəif olan və kiçik gəlirlə işləyən müəssisələr;
3. istehsalı genişləndirmək üçün investisiyalara ehtiyacı olan və gəlirlə işləyən müəssisələr.

Zərərlə işləyən müəssisələr ölkə və ya hər hansı iqtisadi rayon üçün yüksək sosial-iqtisadi əhəmiyyətə malikdirsə, o zaman dövlətin qoruyucu tənzimlənmə üsulları işə düşməli, müəssisənin ayaqda qalması üçün dəstəkləyici tədbirlər görülməlidir.

Fikrimizcə, aqroemal sahəsinə dövlət dəstəyi mexanizmi elə qurulmalıdır ki, ilk növbədə idxalı əvəzləyən milli məhsulların istehsalını və ən səmərəli istehsal sahələrinin inkişafı stimullaşdırılsın, onların resurs təminatı və geniş təkrar istehsalı təmin edilsin.

Araşdırmalar göstərir ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində verilən subsidiyaların təkmilləşdirilməsinə ehtiyac var, çünki bu subsidiyalar məhsuldarlığın artmasını, məhsulun keyfiyyətinin yüksəldilməsini və rəqabətqabiliyyətliliyin gücləndirilməsini stimullaşdırmır. Subsidiyalar əkin sahəsinə görə verildiyi üçün

maraq əkin sahəsinin genişləndirilməsinə, yəni ekstensiv inkişafa yönəlmiş, məhsuldarlıq, keyfiyyət kimi göstəricilər arxa plana düşmüşdür. Bunu ölkədə təxminən bir milyon hektar taxıl əkini müqabilində hələ də keyfiyyətli ərzaq buğdası istehsal edə bilməməyimiz və yerli ərzaq buğdası bazarının idxaldan asılı vəziyyətdə olması və uzun illər məhsuldarlıq rəqəmlərinin aşağı səviyyədə olması sübut edir. Təkcə, 2022-ci ildə dövlət büdcəsi vəsaiti hesabına, ümumilikdə 159,5 mln. manat məbləğində subsidiya verilmişdir.

Belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatına ayrılan subsidiyalar bitkiçilikdə əkin sahəsinə görə verildiyi üçün məhsuldarlığın artmasına, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına stimul yaratmayıb.

Döğrudur, 2019-cu ildə "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı olmuşdur. Bu Fərmana əsasən bitkiçilik sahəsində verilən subsidiyalarda müəyyən dəyişikliklər edilmiş, tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun hər kiloqramına görə əkin subsidiyasına əlavələr verilməyə başlanmışdır [42]. Bundan əlavə 19 iyul 2022-ci il tarixdə Ölkə Prezidenti "Ərzaq buğdası ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərman imzalamışdır. Fərmanda ərzaqlıq buğda istehsal edilərək Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətinə məhsul subsidiyası veriləcəkdir. Fermerlər bu subsidiyanı almaq üçün müəyyən şərtləri yerinə yetirməlidirlər. Burada əsas tələb ərzaq buğdasının əkin sahəsində müasir innovativ suvarma sistemlərinin quraşdırılmasıdır. Onu da qeyd etməliyik ki, bu cür suvarma qurğuları fermerlərə baha başa gəlir və bu şərtlərin sadələşdirilməsi zərurəti ortaya çıxır. Fikrimizcə, satılan buğdaya veriləcək məhsul subsidiyalarında yeganə sənəd emal müəssisələrinin qayimələrinin olması kifayət edər. Məlum məsələdir ki, emal müəssisələri keyfiyyətsiz və çörək istehsalı üçün yaramayan buğdanı fermerlərdən satın almazlar.

Azərbaycanda kənd təsərrüfatına verilən subsidiyaların son nəticəyə görə, yəni əmtəəlik məhsula görə verilməsi həm məhsuldarlığı stimullaşdırar və həm də torpaqdan daha effektli istifadəyə gətirib çıxarardı. Ona görə də, fikrimizcə, ölkədə

subsidiyaların verilməsi mexanizminə bir daha yenidən baxılmalı, bitkiçilikdə əkin sahəsinin həcminə görə yox, heyvandarlıqda alınan hər baş buzova görə yox, sadələşdirilmiş formada əmtəəlik məhsula görə verilməsi daha məqsədəuyğun olardı. Subsidiyaların son nəticəyə görə, daha doğrusu, əmtəəlik məhsula görə verilməsi məhsuldarlığın və keyfiyyətin artması istiqamətində stimul yaradardı.

Azərbaycanda aqroemal müəssisələrinə birbaşa subsidiyalar və dövlət dəstəyi yoxdur, hansı ki, bu sahə kənd təsərrüfatının lokomotivi kimi onun inkişafında, eyni zamanda ölkənin ərzaq təhlükəsizliyində rolu əvəzedilməzdir. Fikrimizcə, aqroemal sahəsinin bir çox sektorları üzrə çəkilən xərclərin müəyyən bir hissəsinə dövlət tərəfindən birdəfəlik dəstək verilməlidir ki, bunlara aqroemal müəssisələrində istehsalın yeni texnologiyalarla əvəz edilməsi zamanı müasir texnoloji avadanlıqların, o cümlədən, təmizləyici qurğuların alınması, ekoloji təmiz məhsul istehsal edən müəssisələrin əmtəəlik məhsul satışını aid etmək olar.

Yuxarıda göstərdiyimiz kimi, dünya təcrübəsində kənd təsərrüfatına dövlət dəstəyinin azaldılması, ixrac məhsullarına subsidiyaların verilməsinin ləğv edilməsi tendensiyası müşahidə olunur. Kanada, Yeni Zelandiya, Avstraliya, Latın Amerikası ölkələrində kənd təsərrüfatı ticarətinin liberallaşdırılmasına daha çox üstünlük verilir. Subsidiyaların bazar tənzimlənmələri ilə əvəz edilməsi fermerlərin məhsuldarlığı artırmaq, maya dəyərini aşağı salmaq, kəmiyyət və keyfiyyət göstəricilərini yaxşılaşdırmaq haqqında düşünməyə vadar edir və adlarını qeyd etdiyimiz ölkələrdə susbsidiyaların ləğv edilməsi ilə buna nail olublar.

Aqroemal sahəsinin ikinci qrup müəssisələri dövriyyə kapitalı olmayan, ancaq kiçik rentabellik səviyyəsinə malik olan müəssisələrdir. Bu cür müəssisələr üçün dövriyyə vəsaitlərinin çatışmazlığı probleminin həlli effektiv kredit sistemi vasitəsilə təmin edilə bilər. Ancaq hal-hazırda ölkədə mövcud bankların təklif etdiyi yüksək faizli və qısa müddətli kreditlər problemin kredit vasitəsi ilə həllini istisna etmişdir. Bu cür müəssisələr faktiki olaraq bu imkanlardan məhrumdurlar, çünki bu faiz dərəcələri çox zaman müəssisənin rentabellik səviyyəsindən yüksək olurlar.

Dövriyyə vəsaitinin çatışmaması problemini güzəştli və uzun müddətli kreditləşmə yolu ilə həll etmək olar. Eyni zamanda, dövlət bu cür müəssisələrə dəstək

məqsədilə faktorinq proqramı da yarada bilər. Bu məqsədlə faktorinq xidməti göstərmək üçün regionlar üzrə yaradılmış kredit təşkilatları olmalıdır və bu iş onlara həvalə edilməlidir. Həmçinin bütün regionlarda filialları olan və fəaliyyətdə olan istənilən banka da həvalə etmək olar.

Onu da qeyd etməliyik ki, keçən əsrin sonlarında faktorinq əməliyyatları Aİ ölkələrində çox geniş yayılmış və hətta kommersiya kreditlərini sıxışdırmağa başlamışdır.

Müəssisəyə farkotinq xidməti göstəriləndə onun gələcək gəliri, yəni maliyyələşmədən sonrakı gəliri nəzərə alınır, bank kreditləşməsi zamanı isə müəssisənin keçmiş gəliri və müəssisənin faktiki sağlam maliyyə vəziyyəti nəzərə alınır.

Azərbaycanda mövcud olan aqroemal sahəsində fəaliyyət göstərən və maliyyə mənbəələri çox zəif olan orta və kiçik təsərrüfat subyektlərinin geniş spektri üçün bu çox vacibdir və onların istehsal həcminin böyüməsi üçün maliyyələşmə asan və əlçatan olur. Faktorinq həm də satış həcmini artırmaq üçün məqsədyönlü bir alətdir və satış həcminin artırılması da öz növbəsində maya dəyərinin aşağı düşməsinə və, nəhayət, istehsal olunan məhsulun bazarda rəqabətə davamlı olmasına təsir edir. Bütün bunların müqabilində faktorinq maliyyələşməsi prosesi zamanı güzəştli şərtlərlə maliyyə resurslarının verilməsi şəffaf və tənzimlənən olmalıdır.

Azərbaycanda güzəştli kreditlər əsasən İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu və Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatının Kreditləşməsi üzrə Dövlət Agentliyi tərəfindən verilir. Hər iki qurum sahibkarlığın inkişafına, təsərrüfat subyektlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasına kömək göstərmək və prioritet istiqamətlər üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə ciddi köməklik göstərirlər. Verilən kreditlərin layihə tələbatlarının həcmindən asılı olaraq faiz dərəcələri 3-5 % arasında, kredit müddəti isə 3-10 il arasında dəyişir. Hər iki qurum kreditlərin verilməsini müvəkkil banklar və bank olmayan kredit təşkilatları vasitəsilə həyata keçirirlər.

Güzəştli kreditlərin verilməsində Sahibkarlığın İnkişafı Fondunun kredit portfelinin həcmi daha böyükdür. Fondun başlıca fəaliyyət istiqamətlərinə ölkənin

sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarların layihələrini maliyyələşdirmək, beynəlxalq təcrübələrin öyrənilməsində araşdırmalar aparmaq və sahibkarlara çatdırmaq, sahibkarların yeni bazarlara çıxış imkanlarını öyrənmək, maarifləndirmə və məsləhət xidmətləri göstərmək daxildir [13].

Fond tərəfindən fəaliyyət göstərdiyi bütün illərdə (01 yanvar 2023-cü il tarixədək) 3 mld. manatdan çox güzəştli kredit verilmişdir ki, bundan 45,6 min sahibkar bəhrələnmişdir. Kredit verilmiş bu layihələrin ümumi həcmi 6,7 mld. manat olmuşdur ki, bu da təqdim edilmiş layihələrin 45%-nin güzəştli kreditlər vasitəsilə həyata keçirilməsi deməkdir.

Təəssüf hissi ilə qeyd etməliyik ki, son 6 ildə fondun kredit portfeli əhəmiyyətli sürətdə azalmağa başlamışdır. 2014-cü ildə sahibkarlara 295 mln. manat güzəştli kredit verilmişdir və bu rəqəm 2022-ci ildə 131 mln. manata düşmüşdür.

ASK-nın inkişafında bu kreditlərin böyük rol oynamasını nəzərə alaraq, kredit portfelinin əvvəlki səviyyəyə yüksəldilməsi daha məqsədəuyğun olardı. Həm Milli Bankda mövcud olan ehtiyat fondu və həm də Neft Fondunun mövcud ehtiyatları bu imkanların varlığını göstərir. Eyni zamanda, qeyd etməliyik ki, güzəştli kreditlərin avadanlıq alınması üçün nəzərdə tutulan faiz dərəcələri 9%-dir və bu kənd təsərrüfatı məhsulları istehsalı üçün verilən güzəştli kreditlərin faiz dərəcələrindən yüksəkdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və Inkişaf Agentliyi tərəfindən müvəkkil banklar və kredit təşkilatları vasitəsilə 2022-ci ildə 4 minədək hüquqi və fiziki şəxslərə 47 mln. manat güzəştli kreditlər verilmişdir. Kreditlər əsasən heyvandarlıq, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatlarının inkişafı sahələrinə yönəldilmişdir [15].

Bununla bərabər kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığının, suvarma sistemləri avadanlıqlarının güzəştli şərtlərlə satışı və lizinqinin maliyyələşdirilməsi məqsədilə 37,3 mln. manat kredit və 73,6 mln manat güzəşt məbləği, damazlıq heyvanların güzəştli şərtlərlə satışı və lizinqinin maliyyələşdirilməsi məqsədilə 136 min manat kredit və 16644 min manat güzəşt məbləği ayrılmışdır [15].

Azərbaycanda aqroemal sahəsinin təhlili göstərir ki, bu sahə, xüsusilə də, yüngül sənaye, o cümlədən, trikotaj, geyim sektorları ən çox investisiyaya ehtiyacı olan sahələrdir. Obrazla ifadə etsək, aqroemal sahəsi investisiya üçün xam torpaqdır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hesabatlarında göstərilir ki, dünya əhalisi 2050-ci ildə 9,1 mld. nəfərə çatacaq ki, bu da 2020-ci ilə nisbətən 17% artım deməkdir. Əhalini ərzaq məhsulları ilə təmin etmək üçün bu günkü ərzaq məhsullarının istehsal həcmi orta hesabla 60% artmalıdır [182].

Təbii ki, bu artıma əməl etmək zərurəti Azərbaycandan da yan keçməyəcək və ərzaq məhsullarının artımına, bir sözlə, ərzaq təhlükəsizliyinə nail olmaq üçün əsas mənbə investisiyalardır. Sahibkarlar, iş adamları, investorlar aqroemal sahəsinə o vaxt sərmayə qoyarlar ki, qoyulan vəsait tezliklə öz bəhrəsini versin və geri qayıtsın. İnvestisiyanın tezliklə geri dönməsi isə dövlətin düzgün maliyyə-kredit tənzimlənmələri hesabına təmin oluna bilər. Ona görə də yerli özəl sektorun investisiyaları bütün mərhələlərdə, xüsusən də, ilkin mərhələdə dövlət tərəfindən dəstəklənməlidir. Adətən ilkin investisiyalar daha çox risk altında olur və kənar dəstəyə, yəni dövlət dəstəyinə daha çox ehtiyacı olur. Bunun üçün ilk növbədə aqroemal sahəsinin istehsalçıları üçün əlverişli investisiya mühiti yaradılmalı, sağlam rəqabət dəstəklənməli, məmur sahibkarlığına son qoyulmalıdır. Güclü tənzimləyici baza və optimal vergitutma investorlar üçün cəlbedici mühitin yaradılmasında əsas elementlərdən sayılır. Ölkədə düzgün iqtisadi siyasət qurulmazsa, əhəmiyyətli investisiyalar belə istənilən nəticəni verməyəcək. İnkişaf etməkdə olan ölkələr üçün, o cümlədən, Azərbaycan üçün də xarakterik olan orta və kiçik sahibkarların, investorların, fermerlərin üzləşdiyi riskləri azaltmaq çox vacibdir.

Ölkədə mövcud bankların kənd təsərrüfatı və emalı sektoruna çox da həvəsli kredit vermədiyini nümayiş etdirdiyi bir şəraitdə, dövlət tərəfindən dəstəklənən və innovativ bir alət kimi xüsusi sərmayələri cəlb edən özəl investisiya fondlarının yaradılması məqsədəuyğundur. Burada kiçik sahibkarlar assosiasiyaları da investisiya üçün vəsait toplamaqda faydalı ola bilər.

İnvestorları cəlb etmək üçün infrastrukturun və kənd təsərrüfatı istehsalı və emalı sahəsində elmi-tədqiqat işlərinə dövlət sərmayəsinin artırılması çox vacibdir.

Birbaşa xarici investisiyaları ölkənin aqroemal sahəsinə cəlb etmək üçün əlverişli şərait yaratmaq lazımdır ki, bu da bu sektorun aktual problemlərindən biridir. Xarici investorlar üçün müəyyən təminatlar və güzəştlər olmalı, məsələn, torpaq sahəsinə və digər təbii sərvətlərə, binalara, tikililərə və digər daşınmaz əmlaklara hüquqi təminatlar, o cümlədən, gömrük rüsumlarının ödənilməsində müəyyən güzəştlər və s. verilməlidir.

İnvestisiyalar sərmayədarlar tərəfindən aqrar-sənaye biznesinin ən səmərəli fəaliyyət göstərdiyi, yüksək gəlirli kənd təsərrüfatı məhsullarının istehsalının və emalının təşkil olunduğu obyektlərə qoyulur. Ona görə də düşünürük ki, investisiyaları cəlb etmək üçün ölkə üzrə aqroemal sahəsinin bütün aspektlərini, sahənin inkişaf perspektivlərini, planlaşdırılması və işlənməsini, təsərrüfat sxemini, məhsul satışı şəbəkəsinin və istehlak tələbatının qiymətləndirilməsini və potensial rentabelliyin hesablanmasını əks etdirməli olan investisiya layihələri hazırlanmalıdır.

Vençur investisiyalarını da aqroemal sahəsinə qoyulan ən əhəmiyyətli sərmayələr kimi göstərmək olar. Bu investisiya forması birbaşa innovasiya ilə bağlıdır və istehsalatda əlavə dəyər yaratmaq üçün riskli innovativ yüksək gəlirli layihələrin və ya sürətlə inkişaf edən sənayelərdə orta hesabla üç ildən beş, bəzən yeddi ilədək olan layihələrin maliyyələşdirilməsinə yönəldilir. Ənənəvi klassik investisiyalardan fərqli olaraq vençur investisiya modeli hər bir konkret şirkətdə investisiyaların yüksək ehtimal olunan itkisini ehtiva edir. İnvestisiya itkisi burada təxminən 50%-dən çoxdur. Mənfəətlilik isə ən uğurlu investisiyaların yüksək gəliri sayəsində əldə edilir.

İlk dəfə vençur kapitalının yaranması və tətbiqi 1946-cı ildə Amerika Tədqiqat və İnkişaf Korporasiyasının (American Research & Development Corporation) yaradılması ilə hesab olunur. Bu korporasiyanın yaradılması ideyasını Boston Federal Ehtiyat Bankının sədri Ralf Flanders irəli sürmüşdür. Flanders bu qurumun yaradılmasını belə izah etmişdir: "*Bizə aşağıdan yeni güc, enerji və qabiliyyət lazımdır. Biz nəhəng etimad resurslarımızın kiçik bir hissəsini dəstək axtaran yeni ideyalarla birləşdirməyə* borcluyuq" [171].

1960-cı illərdən sonra vençur biznesinin dinamik inkişafı digər ölkələrin maliyyə qurumlarının diqqətini cəlb etdi və onun dünyanın iqtisadi həyata tətbiqi genişlənməyə başladı. 1973-cü ildə ABŞ-da Milli Vençur Kapitalı Assosiasiyası (National Venture Capital Association – NVCA) yarandı. Bu təşkilatın fəaliyyəti əsasən vençur sərmayədarlarının və inkişaf etməkdə olan şirkətlərin maraqlarının qorunmasına yönəldildi. Ona görə də ABŞ həmişə vençur kapitalı sahəsində lider olub [153].

Avropada vençur biznesi də ABŞ-dan xeyli az olsa da, fəal şəkildə inkişaf edir. Böyük Britaniya vençur kapitalının tətbiqinə görə Avropada liderdir. İsrail dünyada vençur kapitalı müəssisələrinin inkişafına görə xüsusi yer tutur.

Rusiyada Vençur İnnovasiya Fondu yaradılmışdır ki, bunun da əsas məqsədi ölkənin yüksək texnologiyalı müəssisələrinə investisiya qoymaq, vençur fondlarına kapital qoyuluşlarını dəstəkləməkdir.

Azərbaycanda vençur kapitalı ilə əlaqədar konkret hüquqi baza olmasa da, bu məsələlər dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi olan innovasiya siyasəti ilə tənzimlənir. Bu məqsədlə də "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya" Dövlət Proqramının qəbul olunmuşdur ki, bu da yeni iqtisadi modellərin, innovasiyaların, texnoloji biznes-inkubatorları dəstəkləmək və yeni texnoparkların yaradılmasını əhatə edən innovasiya infrastrukturunun formalaşdırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur [106].

"*Aqrar sahənin torpaq vergisindən başqa digər vergilərdən azad olunması, kənd təsərrüfatı və qida sənayesində istifadə olunmaq məqsədilə ölkəyə idxal olunan müəyyənləşdirilmiş məhsul və avadanlıqlar üçün gömrük rüsumu və ƏDV*-nin aradan *qaldırılması və aqrar sektora verilən subsidiyalar vençur kapitalın bu sahəyə cəlb olunması üçün imkanlar yaradır"* [73, s.208].

Bütün bunlara baxmayaraq, Azərbaycanda vençur investisiyaları geniş vüsət ala bilməmişdir. Bunun səbəbini ölkədə bir çox, bir-biri ilə bağlı olan amillərlə izah etmək olar:

- ölkə sahibkarları daha çox ənənəvi məhsul istehsalına üstünlük verirlər, çünki bu biznesdə risk səviyyəsi çox aşağıdır. Ölkədə yerli sərmayə kapitalı çox aşağı

səviyyədədir. Buna görə də investorlar riskli sahələrə sərmayə qoymaqdan çəkinərlər. Biz yuxarıda qeyd etmişdik ki, vençur layihələri çox yüksək risklidir.

- vençur sərmayələri üçün əlverişli mühitin olmasının əsas atributlarından biri yerli fond birjası və qiymətli kağızlar bazarının olmasıdır. Təəssüf ki, bizim ölkədə bu sahədə ciddi durğunluq hökm sürür.

- intellektual mülkiyyət bazarının aşagı səviyyədə olması, vençur kapitalı ilə innovasiya biznesi arasında əlaqənin zəif olması, vençur biznesi haqqında informasiyanın zəif olması, real iqtisadiyyat subyektləri ilə elmi müəssisələr arasında əlaqənin çox zəif olması, vençur layihələri həyata keçirə biləcək ixtisaslı menecerlərin az olması və, nəhayət, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi bazanın olmaması.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vençur biznesinin uğurlu inkişafı üçün, xüsusilə də, onun ilkin mərhələsində aktiv dövlət dəstəyi lazımdır. Məhz dövlət dəstəyi nəticəsində vençur investisiyası inkişaf edə bilər.

Hər şeydən öncə, vençur fəaliyyətini tənzimləyən normativ – hüquqi baza yaradılmalıdır.

Eyni zamanda ölkədə vençur biznesini inkişaf etdirmək üçün maliyyə mənbəələri araşdırılmalıdır. Fikrimizcə, vençur kapitalı üçün ən önəmli mənbəələrdən biri ölkənin Dövlət Pensiya Fondu olardı. Bu təcrübə bir çox ölkələrdə, o cümlədən, ABŞ-da uğurla tətbiq edilir.

Böyük həcmli aktivlərə malik təsərrüfathesablı dövlət qurumlarını, daha doğrusu, Dövlət Neft Şirkəti-Socarı, Dövlət Neft fondunu vençur kapitalının mümkün mənbələrinə aid etmək olar. Bu strukturlar geniş investisiya imkanlarının olması səbəbindən vençur kapitalının əsas mənbələrindən birinə çevrilə bilərlər.

Ölkədə son illər fəaliyyət göstərməyə başlamış sənaye parkları da investisiya üçün çox cəlbedicidir. Bu cür qabaqcıl inkişaf ərazilərində iqtisadi fəaliyyətə üstünlük verilməsi bu cəlbediciliyi daha da artırır. Belə ki, ilk illərdə sənaye parkları rezidentlərinə vergi və ƏDV güzəştləri verilir, inzibati maneələr azdır və s. bu kimi dəstəkləyici tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı [35], Bakı şəhər Balaxanı Sənaye Parkı [46], Mingəçevir Sənaye Parkı [82] ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı baxımından təqdirəlayiq nümunələr hesab olunur.

Ölkə başçısı hələ 2013-cü ildə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"ni təsdiqləyən fərman imzalamışdır. Bu sənəd sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm baza sənədidir [90].

Bu sənaye parklarının rezidenti olan şirkətlər 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən və parkda istifadə məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azad ediliblər. Bütün bu güzəştlər texnoparklarda hər hansı bir biznesə daha rahat başlamaq üçün təşkil olunur. Burada sahibkarların rahat şəkildə istifadə edə biləcəyi avadanlıqlar quraşdırılır. Texnoparklar həmçinin bir və ya bir neçə universitetin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya dolayısı ilə əlaqədar olub yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulmasına şərait yaradır.

Azərbaycanda kənd ipoteka kreditləşməsi mexanizmi yoxdur, yəni özəl istifadələrdə olan torpaqların əsas istehsal vasitəsi kimi bazar dövriyyəsinə daxil edilmir. Nəticədə həmin torpaqlar kreditin təminatı ola bilmir və bu da sahibkarların işini çox çətinləşdirir.

Ona görə də ASK-da ümumi investisiya mühitinin yaradılması hər şeydən önəmlidir. Bu günə qədər əksər kənd təsərrüfatı strukturları investorlar üçün cəlbedici deyil, çünki onlar yalnız gəlirlilik səviyyəsi daha yüksək olan sahələrə sərmayə yatırırlar. Bu vəziyyətdə kənd təsərrüfatının köklü sürətdə modernləşdirilməsi və ona investisiyaların cəlb edilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsi zəruridir.

Aqroemal sektorunun inkişafı həm innovasiyaların tətbiqinə, həm də investisiyaların cəlb edilməsinə fokuslanmış innovasiya-investisiya modeli əsasında reallaşmalıdır. Bu cür modelin qurulması sahənin müəssisələrinin inkişafına, daha

səmərəli fəaliyyətinə və rəqabətə davamlı olmasına səbəb olar, eyni zamanda, anoloji məhsulların idxaldan asılılığını azaltmış olar.

Aqroemal sahəsində kiçik və orta sahibkarlıq subyektlərinin bazar rəqabətinə davam gətirməsi və ayaqda qalması üçün daha çox dəstək verilməlidir. Məlum məsələdir ki, istehsalı və emalı özündə birləşdirən bu kiçik müəssisələr iri aqroholdinqlərlə bərabər rəqabət apara bilməzlər. Onagörə də bu sahibkarlıq subyektləri üçün bazar boşluqlarının tapılması və istifadə edilməsi daha düzgün və perspektivli ola bilər. Ona görə də kiçik kənd təsərrüfatı emalı müəssisələrinin fəaliyyətinin stimullaşdırılmasına dövlət dəstəyi mexanizmlərinin məhz bu istiqamətlərə yönəldilməsi daha düzgün olardı.

Dövlət öz ölkəsinin iqtisadiyyatına, xüsusilə də, kənd təsərrüfatı və emalı sektoruna həmişə təsir göstərmiş və müasir bazar iqtisadiyyatında miqyasın və inteqrasiyanın artması ilə əlaqədar olaraq bu rolu mütəmadi olaraq gücləndirir.

## 4.3. Aqroemal sahəsinin dayanıqlı inkişafının təmin edilməsinin dövlət tənzimlənməsi

Araşdırmalar göstərir ki, ASK-nın təsərrüfat subyektlərində xərclərin müəyyən hissəsinin kompensasiyası üçün ayrılan subsidiyalar bu sektorun inkişafına mane olan əsas problemləri həll etmir. Güzəştli kreditləşmənin artırılması, kənd təsərrüfatı istehsalının artırılması üzrə cari vəzifələrin həlli ilə büdcə subsidiyaları mexanizmindən istifadəyə yönəldilməsi aqrar və aqroemal sektorun infrastrukturunun inkişafına təkan vermir. Maliyyə bazarları və bu sahəyə qoyulmuş investisiyalar ölkənin aqroemal sahəsinin inkişafı üçün kifayət qədər yetərli deyil. Burada dövlət tənzimlənməsi sistemi bir çox məsələləri, o cümlədən, institusional strukturda baş verən dəyişiklikləri nəzərə almalıdır. Ölkədə iqtisadi mühitin yaradılması dövlət tənzimlənmələrinin əsasını təşkil edir. Biznesin aparılması üçün, sahibkarlıq fəaliyyətinin, xüsusilə də, orta və kiçik sahibkarlıq subyektlərinin inkişafına əlverişli mühitin yaradılmasının təmin edən fəaliyyət göstərilməlidir. Eyni zamanda aqroemal

sahəsinin təsərrüfat subyektləri ilə digər qurumlar arasında qarşılıqlı əlaqənin istiqamətləndirici funksiyasını yerinə yetirilməlidir. Bu cür tənzimlənmə sisteminin işləməsi həm onun idarə olunması xərclərini azaltmağa, həm də dövlət tərəfindən ayrılan vəsaitlərin səmərəliliyinin daha da artırılmasına kömək edəcək.

Bir çox məhsullar üzrə, xüsusilə də, yüngül sənaye məhsulları üzrə idxaldan asılılıq böyükdür və hökümət burada balanslaşdırılmış və dayanıqlı inkişafa nail olmaq üçün dövlət tənzimləmə mexanizminin əsas istiqamətini idxalın əvəzlənməsi prosesinə yönləndirməlidir.

*“Dövlət tənzimlənmələri sisteminin effektiv işləməsi üçün dövlət-özəl tərəfdaşlığının əhəmiyyəti böyükdür və bununla bağlı ölkədə hüquqi-normativ baza formalaşdırılmalıdır. Bu normativ hüquqi baza ilk növbədə “Dövlət-özəl sektor əməkdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanunundan, tenderlərin keçirilməsi qaydalarından, dövlət-biznes əməkdaşlığına dair müqavilələrdən və digər normativ sənədlərin qəbulundan ibarət olmalıdır”* [143, s.5].

Aqrar sənayenin ixrac potensialını inkişaf etdirən perspektivli amillərdən biri də brendləşmədir. Azərbaycanın özəl sektorunda fəaliyyət göstərən “Paşa” holdinq, “Azərsun” holdinq və s. kimi iri həcmli aqroemal məhsulları istehsalçıları bu məsələnin öhdəsindən layiqincə gəlirlər və brendlərini dünya bazarında təbliğ edə bilirlər. Ancaq burada dövlətin rolu ayrı-ayrı rayonların və ya iqtisadi rayonların brendləşdirilməsi sistemini yaradaraq inkişaf etdirməsi daha məqsədəuyğun görünür.

Akademik dairələrdə iri həcmli təsərrüfat subyektlərinin daha effektiv fəaliyyət göstərməsini nəzərə alaraq dövlət dəstəyinin daha çox bu istiqamətə yönləndirilməsi təqdir olunur. Bu fikirləri bölüşürük və iri təsərrüfat subyektlərində məhsulun maya dəyərinin nisbətən daha ucuz və daha böyük həcmli, istehsalın isə daha səmərəli olduğu fikrinə şərik oluruq. Bu cür təsərrufat subyektləri bazarın tələbatını daha dolğun ödəyə bilirlər və rəqabətə davamlı olurlar. Ancaq burada kiçik və orta həcmli fermer təsərrüfatlarını kənara qoymaq düzgün deyildir. Tənzimlənməsi mexanizminin fəaliyyəti elə qurulmalıdır ki, dövlət dəstəyinin istiqaməti iri və ya kiçik həcmli subyektlərə deyil, vəsaitdən daha səmərəli istifadə edən, rəqabət qabiliyyətli subyektlərə verilsin. Kiçik və orta sahibkarlıq subyektləri bazar şəraitində daha çevik

və daha mütəhərrik fəaliyyət göstərir, bazar təlatümlərinə, istehlakçı zövqünün dəyişməsinə daha tez reaksiya verə bilirlər. Ərzaq təhlükəsizliyi və istehsalın səmərəliliyi həm də kiçik idarəetmə formalarının mövcudluğu və inkişaf etdirilməsi fonunda əldə edilə bilər. Bu səbəbdən bütün dünya ölkələrində, o cümlədən Azərbaycanda orta və kiçik sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi üçün müxtəlif proqramlar, tədbirlər həyata keçirilir.

"*Azərbaycanın aqrar sektorunda fəaliyyət göstərən təşkilatların əksəriyyətinin kiçik iqtisadi və fiziki ölçüləri və bir sıra marketinq funksiyalarını yerinə yetirərkən üzləşdikləri çətinliklər bu təsərrüfatlar arasında əməkdaşlığı qaçılmaz edir. Bu funksiyaların təkcə kiçik təsərrüfatlar tərəfindən həyata keçirilməsi onların xərclərinin artmasına və beləliklə, istehsal, satış və marketinq fəaliyyətinin səmərəliliyinin azalmasına səbəb olur*" [173, s.520].

Dünya ölkələrinin təcrübəsi göstərir ki, kənd təsərrüfatı kooperativləri kiçik idarəetmə formalarının inkişafında mühüm rol oynayır, belə ki, fermer təsərrüfatları bu kooperasiyalarda birləşəndə və istehsal və emal birlikdə olanda effektlilik daha yüksək olur. Kooperativlərin üzvləri olan fermerlər öz satış şəbəkələrini yaradırlar ki, bu da istehsal olunan məhsulların paylanması üçün yeni logistik kanallar yaratmaq və məhsulların satışını təmin etməklə yanaşı, həm də istehsalçılara xeyli əlavə gəlir gətirir. İstehsal ilə emalın birləşdiyi kooperasiyalar işlərini "tarladan istehlaka" sistemi ilə qururlar ki, bu da məhsul istehsalında həm əlavə dəyər yaradır və həm də istehlakçıya çatdırılma prosesi daha çevik aparılır. Azərbaycanda bu cür koopertivlərin zərurəti səmərəlilik baxımından daha aktualdır.

Fərdi və kiçik təsərrüfatlardan fərqli olaraq iri təsərrüfatların mövcudluğu kənd təsərrüfatı məhsullarının maya dəyərinin azalması, məhsul həcminin artırılması üçün əsas vasitələrdən biridir. Bu istiqamətdə kooperasiyaların rolu əvəzedilməzdir. Ancaq dövlətin dəstəyi olmazsa, kiçik təsərrüfat formalarının inkişafı üçün mühüm əhəmiyyət kəsb edən kooperasiyaların inkişafında müəyyən çətinliklər yaranacaqdır. Ona görə dövlət tənzimlənmələrində kooperasiyalara dövlət dəstəyi ümdə məsələlərdəndir.

“*Azərbaycanda aqrar sektorun inkişafında aqroparklarla yanaşı, təşkilati-hüquqi forma kimi kooperativlər də böyük rol oynaya bilər. Lakin ölkədə nədənsə kooperativ hərəkatı zəif inkişaf edir. Halbuki inkişaf etmiş ölkələrdə kooperativlər kənd təsərrüfatının inkişafında ən güclü vasitə hesab edilir. Kooperativləşməni stimullaşdırmaq məqsədilə Kanadada, Yaponiyada və Avropa İttifaqı ölkələrində kooperativlərə güzəştli kreditlər verilir, əlverişli vergilər tətbiq edilir, fermerlərə məxsus geniş emal və ticarət müəssisələri yaradılır”* [61, s.9].

Ölkədə kooperativləşməni sürətləndirmək üçün fermerlər arasında təbliğat-təşviqat işləri genişlənməli və dövlətin bu istiqamətdə təşviqləndirici və stimullaşdırıcı tədbirləri həyata keçirilməlidir.

### 4.3.1. İşğaldan azad edilmiş ərazilərin repatriasiyasının aqroemal sahəsinin inkişafına təsiri

Azərbaycan üçün ərzaq təhlükəsizliyinin təmin edilməsinin və idxaldan asılılığın əhəmiyyətli sürətdə azaldılmasını şərtləndirən əsas məsələlərdən biri 2020-ci ildə işğaldan azad edilmiş ərazilərimizdə iqtisadiyyatın yenidən qurulması, inkişafı və bu torpaqların tezliklə əkin dövriyyəsinə qatılması perspektividir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində bu ərazilərin yenidən məskunlaşması, aqroemal müəssisələrinin yenidən və müasir texnologiyalar əsasında bərpa edilməsi çox böyük rol oynayacaq.

Məlum olduğu kimi, 1990-1993-cü illərdə Dağlıq Qarabağın və onun ətrafında olan yeddi rayonun Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilməsi nəticəsində ərazilərimizin 20%-i işğal altında qaldı, həmin ərazilərdə yaşamış bir milyona kimi soydaşlarımız qaçqın vəziyyətinə düşərək ölkənin digər rayonlarında məskunlaşdılar. Bu işğal 30 il davam etdi, nəticədə ölkənin ASK-i üçün çox önəm daşıyan və həmin ərazilərdə qurulmuş infrastruktur tamamilə məhv edildi, aqroemal müəssisələri dağıdıldı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri məhv oldu, bundan əlavə, 104,3 min hektar əkin sahəsi, 280 min hektar meşə, 1 milyon hektara yaxın məhsuldar torpaqlar, 1200 kilometr

irriqasiya sistemi sıradan çıxarıldı, 220 min baş iribuynuzlu mal-qara aparıldı. Bu işğal ölkənin iqtisadiyyatına, xüsusilə də, kənd təsərrüfatı və emalı sektoruna çox ağır zərbə vurdu.

**Cədvəl 4.2.1 İşğal altında olmuş rayonların 1990-cı il üzrə bəzi iqtisadi göstəriciləri**

| | Əkin sahələri min ha. | Kolxoz və sovxozların sayı, vahid | K/t müəssisələrin sayı, vahid | İribuynuzlu mal-qaranın sayı. Min baş | Qoyun və keçi, min baş | Məşğul əhalinin sahı, min nəfər | Həmin rayonların k/t məhsul üzrə xüsusi çəkisi, % |
|---|---|---|---|---|---|---|---|
| DQMV | 43,6 | 121 | 135 | 83,3 | 206,3 | 28,3 | x |
| Ağdam | 18,1 | 29 | 39 | 38,8 | 174,1 | 37,5 | 4,9 |
| Cəbrayıl | 11,3 | 35 | 41 | 24,9 | 115,5 | 17,4 | 4,6 |
| Fizuli | 17,2 | 41 | 47 | 33.5 | 128,8 | 27,3 | 4,6 |
| Kəlbəcər | 0,9 | 40 | 48 | 33,7 | 115,6 | 10,9 | 1,8 |
| Qubadlı | 6,4 | 39 | 45 | 18,0 | 24,6 | 12,3 | 1,6 |
| Laçın | 3,6 | 49 | 53 | 40,2 | 243,7 | 11,2 | x |
| Zəngilan | 3,4 | 18 | 24 | 16,3 | 34,4 | 11,4 | |
| Cəmi | 104,5 | 372 | 432 | 289,7 | 1043,0 | 156,3 | 3,5 |

Mənbə: DSK Statistik məcmuə 1995 müvafiq hesabatları əsasında müəllif tərtibatı

Cədvəl 4.3.1 göründüyü kimi, işğal altında olan rayonlar vaxtilə ölkənin kənd təsərrüfatında əhəmiyyətli rol oynamışdır.

Nəhayət, 2020-ci ilin sentyabrında Azərbaycanın Milli Ordusu ermənilərin növbəti təxribatlarını dəf edərək, əks hücuma keçdilər və işğal altında olan torpaqlarımızı azad etdilər. *"Təbii ki, Azərbaycan öz torpaqlarını sadəcə olaraq azad edib dayanmaq fikrində deyil, onları diriltmək, dövlətin siyasi, iqtisadi və mədəni həyatına yenidən qovuşdurmaq əzmindədir"* [174, s.699]

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir və bununla əlaqədar ölkə başçısı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalamışdır [69].

İşğaldan azad edilmiş ərazilər kənd təsərrüfatını inkişaf etdirmək baxımından böyük potensiala malikdir.

*"Müəyyən edilmişdir ki, işğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqlar keyfiyyət xüsusiyyətlərinə və məhsuldarlıq qabiliyyətinə görə respublikanın digər regionları ilə müqayisədə yüksək xüsusi çəkiyə malikdir. Ərazinin torpaq-iqlim xüsusiyyətləri burada kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin yüksək və səmərəli inkişafına imkan verir"* [115. s.43].

Aqroemal sahəsinin inkişaf etdirilməsi baxımından işğaldan azad edilmiş ərazilərimizin əhəmiyyəti çox böyükdür. İşğal nəticəsində məhv edilmiş müəssisələrin bərpa edilməsi ölkədə kənd təsərrüfatının və onun lokomotivi olan aqroemal sahəsinin inkişafında çox böyük rol oynayacaqdır.

"*Ölkənin iqtisadi inkişafı baxımından dövlətin ən mühüm vəzifələrindən biri işğaldan azad edilmiş ərazilərdə yeyinti məhsulları istehsalının iqtisadi vasitələrlə tənzimlənmə konsepsiyasının işlənib hazırlanması, xüsusən müvafiq maliyyə-kredit, qiymət, vergi, investisiya, sığorta və xarici iqtisadi siyasətin həyata keçirilməsini, yerli əmtəə istehsalçılarına dövlət yardımı sisteminin formalaşdırılmasını və tətbiqini tələb edir"* [65, s.128].

Dağlıq Qarabağ və ətraf rayonların işğalı 30 il öncə baş vermişdir və bu dövr ərzində ölkənin işğaldan kənar 80% ərazilərinin infrastruktur sahələrinin hər birində böyük dəyişikliklər və inkişaf baş vermişdir. Ona görə də işğal olunmuş ərazilərdə əvvəllər mövcud olmuş infrastruktur elementlərinin, aqroemal müəssisələrinin, sənayenin əvvəlki formada bərpası nə texnoloji, nə də iqtisadi nöqteyi-nəzərdən məqsədəuyğun deyildir.

"*Ona görə də konfliktsonrası reabilitasiyanın gedişində, qabaqlar mövcud olan obyektlərin bərpa edilib işə salınması ilə yeni inşaat optimal bir tərzdə uzlaşdırılmalıdır. Konfliktsonrası reabilitasiyanın bu iki forması arasındakı kəmiyyət nisbəti bir sıra amillərin təsiri altında müəyyənləşir"* [79, s.35].

İşğaldan öncə fəaliyyətdə olan kənd təsərrüfatı və aqrar sənaye müəssisələrinin rayonlar üzrə mövcudluğuna nəzər salsaq, ölkənin iqtisadiyyatına necə ağır zərbə

dəydiyini və bir çox kənd təsərrüfatı və aqroemal məhsulları üzrə idxaldan asılı qalmağımızın səbəbini təsəvvür etmək olar.

Ağdam rayonu ölkədə ən inkişaf etmiş kənd təsərrüfatı rayonlarından biri olmuşdur. İşğaldan öncə 18 min hektar əkin sahəsi, 38,8 min baş iribuynuzlu mal-qara, 174 min baş qoyun-keçi mövcud idi və 29 kolxoz və sovxoz, 39 kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərirdi. Burada pambıqçılıq, üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıq inkişaf etmişdir. İşğal ərəfəsində ət kombinatı, yağ-pendir, konserv və şərab zavodları, daş karxanası və bir çox başqa müəssisələr fəaliyyət göstərmişdir. Ağdam taxıl istehsalına ğörə rayonlar arasında ölkədə birinci üçlüyə daxil idi. Taxılçılıqla yanaşı, şərabçılıq da burada çox inkişaf etmişdir. “Ağdam” portfeyn şərabı keçmiş Sovet İttifaqında çox məşhur idi. Rusiyada yaşlı və orta nəsil bu məşhur çaxırı indi də məmnunluqla xatırlayırlar.

Hal-hazırda işğalçılar tərəfindən tamamilə xarabalıqlara çevrilmiş rayonun yenidən reabilitasiyası prosesi çox sürətlə gedir. Ağdam rayonunun iqtisadiyyatında üzümçülük və şərabçılıq sahələrinin inkişaf etdirilməsi və aparıcı mövqe tutmasını daha məqsədəuyğun hesab edirik, çünki bu rayonun təbii iqlim şəraiti şərab sortlu üzüm yetişdirilməsi üçün çox əlverişlidir. “Ağdam” portfeyn şərabının yenidən istehsalı və keçmiş ənənəvi bazarlara qaytarılması ölkənin ixrac məhsulları içərisində əhəmiyyətli yer tutardı.

Bunun üçün həmin ərazilərdə ənənəvi texniki sort üzüm plantasiyalarının yenidən salınması və müasir texnoloji avadanlıqlarla təmin edilmiş şərab zavodlarının tezliklə tikilib istifadəyə verilməsi məqsədəuyğun olardı.

Bəzən şərab istehsalçıları arasında belə bir fikirə rast gəlmək olur ki, artıq Rusiya istehlakçılarının şərab haqqında tələbləri dəyişmiş, portfeyndən çox, təbii şərablara daha çox meyl edirlər. Bu fikirlərlə razı deyilik, belə ki, əgər marketinq işi düzgün qurulsa, indi də həmin məhsulun bazarda alıcısını tapmaq mümkündür. Hər şeydən öncə “Ağdam” portfeyninin məşhurluğunun səbəblərini araşdırıb tapmaq və onları müasirləşdirmək lazımdır. Həmin məhsul ənənəvi istehlakçılarına əvvəlki dadı və müasir brend olaraq təqdim edilməlidir. İnsanlarda nostalji hisslər yaradıb,

məhsulu müasir formada, ənənəvi dadda bazara çıxarmaq olar. Burada marketinq bacarığı tələb olunur. Bacarıq varsa, tələb yaratmaq mümkündür.

Bundan əlavə Ağdam rayonunda pambıqçılıq və pambıq emalı zavodları, iplik və tikiş fabrikləri, ət və süd kombinatları, dəri emalı zavodları, unüyütmə və yem dəyirmanlarının qurulması və istifadəyə verilməsi rayonun inkişaf perspektivi üçün ən önəmli sahələr sayıla bilər.

Fizuli rayonunun iqtisadiyyatında əsas yeri yetərincə suvarma sisteminə malik olan kənd təsərrüfatı tutmuşdur. İşğaldan öncə burada 17,2 min hektar əkin sahəsi, 33,5 min baş iribuynuzlu mal-qara, 129 min baş qoyun keçi mövcud idi və 41 kolxoz və sovxoz, 47 kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərirdi. Burada da taxılçılıq, üzümçülük, heyvandarlıq, quşçuluq və baramaçılıq yüksək inkişaf etmişdir. İşğaldan öncə iri həcmli heyvandarlıq kompleksləri fəaliyyət göstərmişdir. Aqroemal sahəsi rayonun iqtisadiyyatında mühüm yer tutmuşdur. Pambıqtəmizləmə, yağ-pendir, bir neçə üzüm emalı zavodu, toxuculuq fabriki, daş karxanaları və başqa müəssisələr fəaliyyət göstərmişdir. Rayonda şərab sortlu üzüm plantasiyaları və bir neçə şərab zavodları fəaliyyət göstərirdi ki, bunların məhsulları Rusiyaya və Sovet İttifaqının digər respublikalarına ixrac edilirdi. Fizuli rayonunun da təbii iqlim şəraiti Ağdam rayonu kimi üzümçülük üçün çox əlverişlidir. Ona görə də bu rayonda da texniki sort üzüm plantasiyalarının yenidən əkilməsi və müasir tipli şərab zavodlarının qurulması daha məqsədəuyğundur.

Cəbrayıl və Zəngilan rayonlarının iqtisadiyyatlarının əsas sahəsi – kənd təsərrüfatı, daha dəqiq desək, üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq olmuşdur. İşğal olunmamışdan öncə mal-qara kökəltmə, quşçuluq və baramaçılıq təsərrüfatları fəaliyyət göstərmişdir. Sənayedə xalçaçılıq, həmçinin üzüm emalı zavodu, çörək, yağ-pendir zavodları, ət kəsim sexləri və s. mövcud olmuşdur. Bu rayonların reabilitasiya perspektivində texniki sort üzüm plantasiyalarının yenidən salınması, müasir şərab zavodlarının tikilməsi, heyvandarlığın bərpa edilməsi, müasir ət və süd kombinatlarının, un dəyirmanlarının tikilməsi, yunun ilkin emalı, dəri emalı müəssisələri və sənaye tipli xalçaçılığın qurulması və s. daha məqsədəuyğun olardı.

Qubadlı, Laçın və Kəlbəcər rayonları dağlıq relyefə malikdir və iqtisadiyyatlarının əsasını kənd təsərrüfatı, yəni taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil etmişdir. İşğal öncəsi dövrlərdə bu rayonlarda çörək kombinatları, üzüm emalı zavodları, yağ-süd zavodları, toxuculuq sexləri, inkubator quşçuluq fabrikləri, balıqyetişdirmə vətəgəsi, meşə təsərrüfatı mövcud idi. Bu rayonların reablitasiya perspektivində iqtisadiyyatın rayonlaşmış ənənəvi sahələrinin yenidən qurulması vacibdir. Hər üç rayon dağlıq ərazilərdə yerləşdiyi üçün heyvandarlıq, xüsusən də, zərif yunlu qoyunçuluq burada daha effektli ola bilər. Buna paralel olaraq heyvandarlıq məhsullarının emalı müəssisələrinin – müasir texnologiyalara malik ət və süd kombinatları, yun emalı və iplik zavodlarının, sənaye tipli xalçaçılıq fabriklərinin qurulması daha məqsədəuyğun olardı. Eyni zamanda şərab sortlu üzüm plantasiyalarının yenidən salınması və üzüm emalı zavodlarının tikilməsi, tütünün ilkin emalı olan fermentasiya zavodlarının qurulması bu rayonların ixrac tipli məhsulların istehsalına rəvac verərdi.

Kəlbəcər rayonunda yerləşən məşhur "İstisu" mineral suyunun istehsalının bərpası və istehlakçılara çatdırılması ən perspektivli məsələlərdən biridir. Həmçinin bu rayonlarda müalicə və ov turizminin perspektivi də böyükdür.

İşğaldan azad edilmiş Şuşa şəhəri ölkənin mədəni paytaxtı elan edilmişdir. Bu şəhərin turizm və kurort təsərrüfatı kimi perspektivi daha böyükdür.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinə ciddi töhfə verəcəkdir. Xüsusən də, ərzaq buğdası, heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq, aqroemal sahəsinin inkişafına ciddi təkan verəcəkdir. İşğal ərəfəsində işğal olunmuş rayonların ərazisində 40 min hektar üzüm plantasiyaları, onlarla şərab zavodları, pambıqtəmizləmə zavodları və s. emal müəssisələri mövcud idi. Bunların yenidən qurulub fəaliyyətə başlaması ölkə iqtisadiyyatında əhəmiyyətli artıma səbəb olacaqdır. Azərbaycanın mineral su ehtiyatlarının 35-40%-i işğal altında qalmışdır. Bu suların yenidən istehsala qaytarılması, qablaşdırılaraq istehlakçılara çatdırılması, həm də bu ərazilərdə kurort-rekreasiya zonalarının yaradılması perspektivi də mümkün və zəruridir.

İşğaldan azad edilmiş ərazilərə qoyulan investisıyaların mənbəyi təkcə dövlət olmalı deyil. Özəl investisiyaları həmin ərazilərin bərpasına cəlb etmək lazımdır və bunun üçün ilk görüləsi iş torpaq islahatının aparılması, torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsi, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarının təmin edilməsindən ibarət olmalıdır. Çünki özəl investisiyalar, adətən, əksəriyyəti özəl mülkiyyətə qoyulur. Bu prizmadan yanaşsaq torpaq islahatının aparılması, əkinə yararlı sahələrin xüsusi mülkiyyətə verilməsi işğaldan azad edilmiş ərazilərin məskunlaşması baxımından ən təxirəsalınmaz məsələlərdən biridir.

Bəs uzun müddət işğalda qalmış və hələ məskunlaşmamış kəndlərdə bu islahatlar necə aparılmalıdır?

Hesab edirik ki, hər rayon üzrə torpaq islahat komissiyaları yaradılmalıdır və bu komissiyalar ayrı-ayrı kəndlər üzrə dövlət, bələdiyyə və özəl torpaqların ümumi həcmini müəyyən etməlidir. Kəndlilərə paylanılacaq əkinə yararlı torpaqların ümumi həcmi müəyyən edildikdən sonra işğaldan öncə həmin kəndlərdə yaşamış sakinlərin sayına bölünərək bir nəfərə düşən əkin sahəsi müəyyən edilməlidir. Alınan rəqəm həmin vaxtlar mövcud olmuş ailələrdəki insanların sayına vurularaq püşkatma üsulu ilə torpaq əraziləri ailələrə paylanmalıdır. Torpaqların püşkatma üsulu ilə bölünməsi ona görə zəruridir ki, çox zaman paylanılacaq torpaqların yerləşmə ərazisi və münbitliyinin müxtəlifliyi pay torpağı alanlar arasında müəyyən mübahisələrə səbəb olur. Bu baxımdan püşkatma üsulu bir çox mübahisələrin qarşısını alır. Məlum məsələdir ki, aradan keçən uzun illər nəticəsində ailələrdə dünyasını dəyişən və yeni doğulanlar olmuşdur. Bu məsələlərin həllinə dövlət qarışmır, mövcud varislik haqqında qanun əsasında ailələrin öz öhdələrinə buraxılır.

Torpaq islahatları ilə yanaşı kənd sakinlərinə öz ata-baba yurdlarının yenidən inşa etmələrinə icazə verilməli və bu evlərin sakinlər tərəfindən tikilməsi üçün dövlət hər ailəyə müəyyən həcmdə (20-30 min manat) yardım etməlidir. Tikilən evlərin layihələndirilməsi məsələləri sakinlərin zövqləri və maliyyə imkanlarına görə öz ixtiyarlarına buraxılmalıdır.

Eyni zamanda sahibkarlıq fəaliyyətini stimullaşdırmaq üçün hökümət tərəfindən bir çox həvəsləndirici tənzimlənmə tədbirləri görülməlidir. Bunun üçün həmin

ərazilərdəki bütün iqtisadi fəaliyyət növləri müəyyən müddət ərzində vergi və gömrük rüsumlarından azad edilməsi, böyük həcmli və uzun müddətli güzəştli kreditlərin verilməsi, biznes risklərinin və investisiyaların hökümət tərəfindən sığortalanması və s. həvəsləndirici və təşviqləndirici tədbirlərin görülməsi məqsədəmüvafiq olardı. Bu tədbirlər görülərsə, nəinki azad edilmiş ərazilərin yerli əhalisi, eləcə də respublikanın digər ərazilərində yaşayan iş adamlarının bu regionda sahibkarlıq fəaliyyətini stimullaşdıracaq, eləcə də, əslən bu zonalardan olan xeyli imkanlı iş adamları öz bizneslərini azad edilmiş ərazilərə köçürməkdə maraqlı olacaqlar.

Bu güzəştlər xarici investorlara da aid edilməlidir. Xüsusilə, İran, Türkiyə, Rusiya kimi yaxın qonşuların şirkətlərinin regiona cəlb edilməsi gələcəkdə ermənilərin yersiz iddialarının qarşısının alınmasına müsbət təsir göstərmiş olardı.

### 4.3.2. Azərbaycanın ÜTT-yə daxil olmasının aqroemal sahəsinə təsiri

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olması ölkə iqtisadiyyatının inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiyası, birbaşa xarici investisiyaların cəlb edilməsi üçün çox önəmlidir. ÜTT-nin məqsədi beynəlxalq ticarətin liberallaşdırılması və dövlətlər arasında bu ticarətin tənzimlənməsidir.

MDB ölkələrindən cəmi 3 ölkə - Azərbaycan, Türkmənistan və Özbəkistan bu təşkilata üzv olmamışlar.

ÜTT-də qəbul edilmiş tənzimləmə üsulları işıqforun rənglərinə uyğun "səbətlər"lə işarələnir: yaşıl (icazə verilir), sarı (dövlət dəstəyinin azaldılması) və qırmızı (qadağandır.)

**Cədvəl 4.3.1 ÜTT çərçivəsində tənzimlənmələr**

| "Yaşıl səbət" | "Sarı səbət" | "Qırmızı səbət" |
|---|---|---|
| Konsaltinq və informasiya təminatı | Dotasiya | ixrac subsidiyaları və digər ixrac dəstəyi |
| Kadr hazırlığı | xərclərin bir hissəsinin kompensasiyası | Ixrac kvotaları |
| sığorta | lizinq fondu xərcləri | marketinq və beynəlxalq nəqliyyat xərclərinin |

| | | |
|---|---|---|
| | | subsidiyalaşdırılması |
| ətraf mühitin mühafizəsi | kapital qoyuluşunun maliyyələşdirilməsi | |
| Fitosanitar və baytarlıq tədbirləri | bazar qiymətlərindən yüksək qiymətlərlə satınalma | |
| kənd təsərrüfatı məhsullarının satışına kömək | güzəştli kredit | |
| Infrastrukturun təkmilləşdirilməsi | | |

Mənbə: ÜTT-nin məlumatları əsasında müəllifin tərtibi

Cədvəl 4.3.1-dən də göründüyü kimi, kənd təsərrüfatı məhsulları ilə əlaqədar “qırmızı səbət”, yəni qadağalar yoxdur. Bu onunla əlaqədardır ki, bütün dünya ölkələri ərzaq təhlükəsizliyi ilə əlaqədar olaraq bu sahəyə daim xüsusi diqqət yetirirlər və bu hal ÜTT-nin tənzimlənmə siyasətində də özünü büruzə verir. Ancaq cədvəldəki “sarı səbətdə” göstərilən azalma öhdəliyi səviyyəsindən artıq daxili dəstək qadağandır. Onu da qeyd etməliyik ki, Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün müəyyən istisnalar da mövcuddur və ərzaq təhlükəsizliyi istiqamətində bir çox sərbəst qərarlar qəbul etmək səlahiyyətləri verilir [184].

Azərbaycan bu təşkilata daxil olmaq üçün hələ 1997-ci ildə rəsmi müraciət etmişdir. Bu günədək nəticəsiz danışıqlar gedir və razılaşma alınmır.

Ölkənin ÜTT-yə daxil olması akademik dairələrdə fikir ayrılığına səbəb olmuşdur. Bəzi alimlər hesab edirlər ki, bu təşkilata daxil olmaq yerli istehsalçıları çətin duruma sala bilər və idxal olunan məhsullar ilə bazarda rəqabət aparmaq çox çətinləşər.

Bu yanaşmanı düzgün hesab etmirik və hesab edirik ki, qısa müddət ərzində müəyyən çətinliklərin olacağı gözlənilsə də, bunlar çox tez aradan qalxacaq və nəzərə almaq lazımdır ki, dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin böyük əksəriyyəti bu üzvlükdən əhəmiyyətli sürətdə yararlanırlar. Ona görə də hesab edirik ki, ölkəmizin ÜTT-yə üzvlüyünün orta və uzunmüddətli perspektivində əldə edəcəyi mənfəət və iqtisadiyyatın artım templəri və rifahın daha da yaxşılaşması baxımından bu təşkilata daxil olmamızı təxirəsalınmaz məsələ kimi zəruri edir.

ÜTT-yə daxil olmağa və ticarətin liberallaşdırılmasına qarşı çıxış edənlər üçün ölkənin ixrac məhsullarının strukturu daha tutarlı cavab olardı.




**Şəkil 4.3.1 Ölkə ixracının əmtəə quruluşu 2022-ci il**
Mənbə: DGK Statistik hesabatlar 2022
https://customs.gov.az/uploads/foreign/2022/2022_12.pdf?v=1674644815 əsasında müəllif tərtibatı

Şəkil 4.3.1-dən göründüyü kimi, ölkənin ixracı əsasən təbii resurslardan və neft məhsullarından ibarətdir. İxracın cəmi 8%-i qeyri-neft məhsullarının payına düşür. Onu da qeyd edək ki, ixrac olunan qeyri-neft sektoru əsasən xammaldan (pambıq, tütün, ipək, aşılanmış dəri və emal olunmamış gön və s.) və kənd təsərrüfatının emal olunmadan birbaşa istehlaka gedən məhsullarından (pomidor, xurma, gilas, fındıq və s. meyvə-tərəvəz məhsulları) ibarətdir. Daha dəqiq ifadə etsək, qeyri-neft məhsullarının ixracında meyvə-tərəvəz 23%, pambıq lifi 6%, pambıq iplik 1%, elektrik enerjisi 4%, digərləri isə 66% təşkil edir.

Ona görə də ÜTT-yə daxil olmaq milli məhsulların ixrac yönümlü olmasına qorxu yaratmır, əksinə, kənd təsərrüfatı məhsullarının emalı və ixrac yönümlü olması üçün daha böyük perspektivlər vəd edir.

Sualı belə qoysaq daha düzgün olar: bəs ÜTT-yə daxil olmamaq bizə nə verir? İlk növbədə deməliyik ki, dünya ölkələri artıq başa düşüblər ki, iqtisadiyyatda, o cümlədən, ticarətdə proteksionist siyasət nəticəsində heç bir ölkə iqtisadi yüksəlişə nail olmayıb. Fikrimizcə, ÜTT-yə üzv olmamağımız ölkəyə aşağıdakı problemləri gətirə bilər.

1. Daxili bazar qiymətləri çox vaxt dünya qiymətlərindən yüksək olur və bu da yerli istehsalçıların fəaliyyətinə mənfi təsir göstərir. Belə ki, istehsalçı görəndə ki, ölkədəki qiymətlər xarici bazar qiymətlərindən yüksəkdir, onda daxili bazarla

kifayətlənir və istehsal etdiyi məhsulun ixracı üçün marağı azalır və bu da xarici bazar axtarışının fəallığını azaldır.

Bu səbəbdən də ölkənin qeyri-neft sektorunun ixracı çox azdır. Buna əyani misal göstərmək olar ki, 2019-cu ildə Azərbaycanın qeyri-neft sektorunda cəmi ixrac (neft və neft məhsullarının ixracı nəzərə alınmadan) 1,8 mld. dollar, 2021-ci ildə artaraq 2,6 mld. dollar olmuşdur. Həmin ildə əhalisi və ərazisi bizim ölkədən çox az olan və qeyri-neft ölkələri olan Gürcüstanda ixrac 4,2 mld. dollar, Ermənistanda 3,0 mld. dollar, Moldovada isə 3,1 mld. dollar olmuşdur. Azərbaycanda bu rəqəm 2022-ci ildə artaraq 3 mld. dollara çatmışdır. Bu ölkələrlə Azərbaycanın qeyri-neft sektorunun müqayisə olunmasının səbəbi onlarda neft istehsalının olmaması və ÜTT-nin üzvü olmalarıdır.

Başqa bir misal. 2022-ci ildə ölkədə istehsal edilən siqaretin ixrac qiyməti hər qutusu 0,11 dollar, yəni milli valyuta ilə 0,19 manat təşkil etmişdir. Daxili bazarda istənilən siqaret qutusunun qiyməti dəfələrlə yüksək, yəni, orta hesabla, 2,55 manat təşkil edir. Şəkərin ixrac qiyməti 0,70 dollar, yəni 1,19 manat, daxili bazar qiyməti daha yüksəkdir.

2. Sənədsiz məhsul idxalı (qaçaqmalçılıq) artır. Qaçaqmal idxalı, yəni malların gömrük rüsumlarından yayınması, mal partiyasında həcmlərinin müəyyən hissəsinin göstərilməməsi və malların qiymət təhrifləri kimi başa düşülür. Burada vergi və gömrük ödəmələrindən yayınmaq əsas səbəb ola bilər. Təkcə ayaqqabı idxalı ilə əlaqədar bir misal göstərək. 2022-ci ildə İran İslam Respublikasından 8 mln. cüt, Çin Xalq Respublikasından isə 13 mln. cüt ayaqqabı idxal edilmişdir. İdxal olunmuş İran ayaqqabısının hər cütü ortalama 0,68 dollar, yəni 1,15 manata, Çin ayaqqabısının hər cütü isə ortalama 2,2 dollara, yəni 3,74 manata sənədləşdirilmişdir, hansı ki, DSK-nin pərakəndə qiymətlər haqqında həmin ilin hesabatlarına nəzər salsaq görərik ki, yerli bazarda bu ayaqqabılar dəfələrlə baha, yəni bir cütü ortalama 25,8 manata satılır. Yaxud tədqiqatlar zamanı digər bir hala rast gəlinir ki, idxal olunan bəzi məhsulların idxal həcmlərində idxal edən ölkənin statistik göstəriciləri ilə bizim ölkənin statistik göstəriciləri üst-üstə düşmür, fərq yaranır. İdxal olunan dərman vasitələri və tibbi avadanlıqların qiymətləri də dünya ölkələrinə nisbətən yüksəkdir.

3. Bir çox inhisarçı emal müəssisələrinin xammal bazarında haqsız qiymət diktəsi. Emal təyinatlı yerli kənd təsərrüfatı məhsullarını kütləvi istehsal edən fermerlərin mövcud emal müəssisələrindən başqa, alternativ satış seçimi yoxdur. Bu məhsullara pambıq, şərab sortlu üzüm, şəkər çuğunduru, tütün, fındıq, meyvə-tərəvəz və s. aiddir. Bunların alış qiymətləri dünya ölkələrinin alış qiymətlərindən çox ucuzdur. Pambıqçılıq üzrə tədqiqatın 2.2 fəslində göstərdiyimiz kimi, 2022-ci ildə fermer bu sahəyə qoyduğu hər 100 manat vəsaitin müqabilində 112 manat, emal müəssisəsi isə 200 man. qazanır. Bu çox ədalətsiz bölgüdür.

Bu hal tütünün, şəkər çuğundurunun, fındığın, şərab sortlu texniki üzümün, meyvə və tərəvəzin alış qiymətlərində də mövcuddur.

4. İdxal məhsulları üzərində lobbiçiliyə şərait yaradır. İdxal olunan məhsulların inhisarlaşması əsasən ayrı-ayrı məhsullara və ya məhsul qrupuna lobbiçilik fəaliyyəti ilə baş verir və bu fəaliyyət lobbiçilik edən şəxslərə böyük gəlir gətirir. Nəticədə bu sahələr üzrə istehsalçıların yaradılması və inkişaf etdirilməsi üçün stimul azalır, keyfiyyətin yüksəldilməsi, maya dəyərinin aşağı salınması, rəqabət qabiliyyətinin artırılması kimi amillər sıradan çıxır. Bütün bunlar iqtisadi artım tempinin və xalqın rifahının aşağı düşməsinə gətirib çıxarır.

5. Ölkəyə xarici investisiyaların qoyulmasına maraq azalır. ÜTT-nin üzvü olmaq həm də iqtisadi azadlığın səviyyəsini əhəmiyyətli dərəcədə qaldırır ki, bu da birbaşa xarici investisiyaların cəlb edilməsi üçün çox əhəmiyyətlidir. ÜTT üzvü olan ölkələrdə investorlar daha həvəslə sərmayə yatırırlar, bunun da əsas səbəbi investisiyaların qorunması öhdəliyinin olmasıdır.

Aqrar sahədə dövlət-özəl əməkdaşlığının inkişafı üçün ölkənin ÜTT-yə qəbulu sürətlənməli və tezliklə dünya ticarətinin 98%-nin reallaşdığı, dünyanın 160-dan çox dövlətin üzv olduğu və yararlandığı bu təşkilatdan yararlanmalıyıq. Artıq demək olar ki, bütün postsovet ölkələrinin əksəriyyəti bu təşkilatın üzvüdürlər və yararlanırlar.

"*Azərbaycanın ÜTT-yə daxil olması olduqca vacibdir, çünki daxili bazarda müəyyən stabillik yaranar, məhsul bolluğu yaranar, məmur inhisarçılığının və monopoliyanın müəyyən qədər qarşısı alınar. ÜTT-yə daxilolma ölkə ticarətini, iqtisadiyyatının tamamilə liberallaşmasına gətirib çıxara bilər. ÜTT-nin əsas*

*məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, bununla da iqtisadi inkişafın artırılması və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır"* [105, s.223].

ÜTT üzvü olmaq iqtisadiyyatın digər sahələri kimi aqroemal sahəsinin inkişafına da təsirsiz ötüşməyəcək. Ilk növbədə, qeyd etməliyik ki, ölkənin trikotaj, geyim, xüsusilə də, gön-dəri və ayaqqabı sənayesi məhsulları üzrə idxaldan asılılıq çox yüksəkdir. Bu sahənin restrukturizasiyasına, yenidən qurulmasına ehtiyac böyükdür və bunun üçün əsas mənbə birbaşa xarici investisiya ola bilər. ÜTT üzv dövlətlərinə qoyulan investisiyaların qorunması öhdəliyi təkcə həmin dövlət tərəfindən deyil, eyni zamanda bu nüfuzlu beynəlxalq təşkilat tərəfindən də həyata keçirilir.

Azərbaycan ÜTT-yə daxil olarkən dövlətdən verilən subsidiyaların azaldılmasına razılıq verməyə məcbur olacaq, çünki bu təşkilat kənd təsərrüfatı subyektlərinə subsidiya verilməsini yox, onların bazar alətlərindən daha düzgün istifadəyə etməsinə üstünlük verir. Bu o deməkdir ki, ölkə istehsalçıları əmək məhsuldarlığını sürətlə artırmaq və məhsulun keyfiyyətini yaxşılaşdırmaq istiqamətində daha aktiv fəaliyyət göstərməlidirlər. Bu istiqamətdə inkişaf etmiş ölkələrin təcrübəsi var və ondan yararlanmaq zəruridir. Yerli məhsulların keyfiyyətinə tələblər yüksəkdir və ölkənin kənd təsərrüfatının istehsalçılarının fəaliyyət istiqamətlərindən biri bu problemə yönləndirilməlidir.

Burada tək məhsuldarlığın artırılması və keyfiyyətin yüksəldilməsi ilə problem qurtarmır. Kütləvi istehsal olunan kənd təsərrüfatı məhsullarının emal müəssisələri tərəfindən satınalma qiymətləri çox aşağıdır. Bu qiymətlər bazar tələblərinə uyğun tələb-təklif əsasında deyil, konkret diktə əsasında formalaşır. Xüsusilə, pambığın satınalma qiymətləri qonşu İran və Türkiyədən təxminən 3 dəfə azdır. Hökümət daha optimal qiymət siyasəti yeritməli, inhisar mövqeyi tutmuş emal müəssisələrinin yox, istehsalçıların mövqelərindən çıxış etməlidir. Bunun üçün emal müəssisələrinin sayı artırılmalı və haqsız rəqabətə son qoyulmalıdır. Belə olduqda ÜTT-nin subsidiyalar ilə əlaqədar tələbləri əslində mənasını itirəcək və problem həllini tapmış olacaq.

*"Kənd təsərrüfatı məhsullarının idxal tarifləri baxımından vəziyyəti yaxşılaşdırmaq üçün ölkənin ÜTT-yə daxil olması ən vacib məsələlərdən biridir. ÜTT-yə daxil olmaq həm də idxalda inhisarçılığı aradan qaldıracaq, idxal tarifləri beynəlxalq gömrük tariflərinə uyğunlaşdırılacaq. Eyni zamanda idxal imtiyazları ÜTT-yə üzv ölkələrə şamil edilir"* [144, s.75].

Bütün bu təhlil və analizləri nəzərə alaraq deyə bilirik ki, ÜTT-yə üzv olmağımız, iqtisadiyyatın açılması və ticarətin liberallaşdırılması ümumilikdə ölkə iqtisadiyyatına, o cümlədən, aqroemal sahəsinin inkişafına güclü təkan olacaqdır.

### 4.3.3. Aqroemal sahəsində klasterlərin yaradılması və inkişafının perspektivləri

Ölkədə aqroemal sahəsinin inkişaf etdirilməsi istiqamətində müxtəlif birliklərin, kooperasiyaların, assosiasiyaların və digər mütərəqqi idarəetmə formalarının və strukturlaşmanın əhəmiyyəti böyükdür. Ən mütərəqqi idarəetmə formalarından biri kimi klasterləri misal göstərmək olar.

*"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"-nın əsas vəzifələri içərisində prioritet sahələr üzrə ərazi-istehsal klasterlərinin yaradılması ümdə məsələlərdən biri kimi qarşıya qoyulmuşdur"* [20].

Ölkənin iqtisadi fəaliyyət sahələrində klasterlərin yaradılması və inkişafı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ndə əsas istiqamət kimi qeyd edilmişdir.

"Klaster" anlayışının yaradıcısı hesab olunan M. Porterə görə, *"Klaster və ya sənaye qrupu, müəyyən bir ərazidə fəaliyyət göstərən və ümumi fəaliyyətləri ilə xarakterizə olunan coğrafi cəhətdən bir-birinə bağlı olan şirkətlər və əlaqəli təşkilatların tamamlayıcı qrupudur"*[137 s.207].

Ölkənin ASK-nin, eləcə də, aqroemal sahəsinin inkişafında klasterlərin tətbiqi böyük rol oynaya bilər. Nə üçün aqroemal sahəsinə ənənəvi idarəetmə sistemi ilə deyil, klasterlərin obyektivindən baxmalıyıq? Bu suala yenə də M.Porterin sözləri ilə cavab verək:

*Bu, ilk növbədə, klasterlərin rəqabətin mahiyyətinə və rəqabət üstünlüklərinin əldə edilməsi mənbələrinə daha uyğun olması ilə bağlıdır. Klasterlər mühüm əlaqələrə, sənayelər arasında bir-birini tamamlamalarına, texnologiyanın yayılmasına, bacarıqlara, məlumatlara, firmanın və sənayenin marketinq və müştəri tələblərinə dair məlumatlılıq baxımından sənayelərdən üstündür. Bu cür əlaqələr rəqabət, məhsuldarlıq və xüsusilə yeni biznesin və innovasiyanın istiqamətini və yerini müəyyən etmək üçün əsasdır* [137 s.213].

Dünyanın bir çox iqtisadçı alimləri klaster anlayışına müxtəlif yanaşmalar sərgiləmişlər. İqtisad elmlər doktoru, professor T.Əliyevin yanaşması maraqlı və əhatəlidir: *"klaster – coğrafi əlamətinə görə uzlaşan və sıx kooperasiya əlaqəsində olan, istehsalın səmərəliliyinə və fasiləsizliyinə təminat yaradan innovativ inkişafına təkan verən, rəqabət qabiliyyətli məhsul istehsal etməyə (xidmət göstərməyə) hədəflənən, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan kiçik, orta və iri sahibkarlıq subyektlərinin (dövlət, özəl, qeyri-hökümət), elmi və təhsil təşkilatlarının, maliyyə qurumlarının, standartlaşdırma orqanlarının, loqistika sisteminə daxil olan şəbəkələrin, ticarət birliklərinin təmərküzləşməsi üzrə mütərəqqi idarəetmə forması və innovasiya infrastrukturudur"* [56, s.18].

Klasterlər üçün innovativ xarakterli olması, aktorlar arasında əlaqə və qarşılıqlı təsirin olması, rəqabət və kooperasiyanın mövcudluğu xarakterik xüsusiyyətlərdəndir. Son məhsula görə məsuliyyət və öhdəlik onlar arasında kooperasiyanı formalaşdırır.

Beynəlxalq aləmdə klasterlər iqtisadiyyatda keçən əsrin 90-cı illərindən tətbiq edilərək geniş miqyas almağa başlamışdır. İnkişaf etmiş ölkələrdə klasterlər çox aktualdır və bu yanaşmaya çox önəm verilir. 2000-ci ildən başlayaraq AB-nin 26 ölkəsində klasterlərin inkişafı üzrə milli proqramlar işlənməyə başlanmışdır. Bəzi Avropa ölkələrində (Norveç, Danimarka) klaster menecerləri hazırlanması istiqamətində xüsusi proqramlar fəaliyyət göstərirlər. Avropa Klaster Observatoriyası [157], Avropa Klaster Siyasəti Forumu [158], Avropa Klaster Alyansı [159], Klasterlər üzrə İnnovasiya Platforması [167] kimi qurumlar yaranmış və bu təsisatlar informasiya, bilik və bacarıqların artırılması, regionlar üzrə klasterlərin xəritəsini, klasterlər arasında təcrübə mübadiləsini, məsləhət və s. xidmətləri həyata keçirirlər.

*“Artıq AB ölkələri üzrə məşğul əhalinin 38%-i klasterlərə daxil olan müəssisə və təşkilatlarda işləyirlər. Bu rəqəm bəzi regionlarda 50% həddini aşır. ABŞ-da iqtisadi fəal əhalinin 36%-i bu təşkilatda birləşmiş müəssisələrdə çalışırlar. İtaliyada sənaye klasteri sənaye məşğulluğunun 40%-ni, Böyük Britaniyada 154 regional klaster, regional məşğulluğun 40%-ni təşkil edir, Niderlandda 12 klaster sənaye üzrə ÜDM-in 30%-ni verir. Dünyanın ən nəhəng klasteri İtaliyada fəaliyyət göstərir ki, bura 9000 müəssisə və təşkilat daxildir”* [156].

Hesab edirik ki, Azərbaycan şəraitində aqroemal sektorunda mövcud potensialdan daha dolğun istifadə etmək məqsədilə regionlarda istehsal sahələrinə uyğun olaraq müxtəlif sektorial klasterlər yaratmaq olar. Bu klasterlərdə “istehsal-saxlama-emal-satış” prosesi bir çətir altında birləşəcək və qarşılıqlı fəaliyyətləri nəticəsində maya dəyəri azalacaq, xammal təminatı və satış problemləri aradan qalxacaqdır. Burada aqroemal müəssisələri yuxarıda qeyd etdiyimiz klasterlərin mərkəzi aktoru rolunda olur və həm istehsala, həm loqistikaya və həm də istehlaka təsir göstərə bilirlər. Klasterlər həm sektorial və həm də çoğrafi ərazilər üzrə təşkil edilə bilərlər.

Aşağıdakı şəkildə “Şərab” klasterinin optimal hesab etdiyimiz struktur quruluşunu verməyə çalışmışıq.




**Şəkil 4.3.2 “Şərab” klasterinin struktur quruluşu**
Mənbə: müəllifin tərtibatı

Şəkil 4.3.2-də sektorial klaster kimi müəllif tərəfindən tərtib edilmiş və "Şərab" adlandırılmış klasterin strukturu verilmişdir. Burada emal müəssisəsi, yəni şərab zavodu mərkəzi aktor rolundadır, eyni zamanda, klasterin tərkibində olan subyektlərin fəaliyyətini tənzimləyir.

Aqroemal klasterlərinin təşkili ölkədə bu sektorun davamlı və sürətli inkişafına səbəb olacaqdır. Bir çətir altında iri istehsal birləşmələri yaranacaq ki, bu da kənd təsərrüfatı məhsullarının və xammalın dərindən emalı səviyyəsinin yüksəlməsinə, maya dəyərinin azalmasına və sonda səmərəliliyin yüksəldilməsinə səbəb olacaqdır. Ölkənin ixrac potensialı əhəmiyyətli dərəcədə artacaq, daxili ərzaq bazarında idxal məhsullarının mövqeyi zəifləyəcək, əsas məhsullar üzrə tələbat (çörək və çörək məhsulları, ət, süd, şəkər, bitki yağı, trikotaj, ayaqqabı, geyim və s.) əsasən yerli istehsal hesabına təmin olunacaqdır.

*"Klasterlərin formalaşması və inkişafını təmin etmək üçün ona mane olan amilləri müəyyən edib aradan qaldırmaq lazımdır. Beynəlxalq təcrübələrin təhlili göstərir ki, ərazi klasterlərinin inkişafına mane olan bir sıra xarakterik amillər mövcuddur. Bu amillər respublikamıza da xasdır. Respublikamızda klasterlərin formalaşmasına mane olan əsas amil əlverişli biznes mühitinin zəif olmasıdır"* [91, s.109].

Hesab edirik ki, ölkə iqtisadiyyatında, xüsusilə də, ASK sferasında klasterlərin böyük əhəmiyyətini nəzərə alaraq, dövlət regionların klaster əsasında inkişafı strategiyasını hazırlamalı və tətbiqinə başlamalıdır. Klasterlərin əsas meyarlarını, prinsiplərini və nəticələrini qiymətləndirməyə imkan verən, perfomans göstəricilərini əks etdirən strategiya və xəritələrin olmaması şəraitində klasterlərin müvəffəqiyyət qazanması və genişlənməsi çətin olar. Bunun üçün ilk növbədə ölkənin bütün regionlarının klaster potensialı təhlil edilməli və əhəmiyyətli klaster hədəfi olan regionlar müəyyənləşməlidir. Ölkənin elmi tədqiqat institutları, universitetləri və digər elm ocaqları bu məsələlərə cəlb edilməlidir. Məhz, beynəlxalq təcrübədən yararlanaraq, AB ölkələri kimi klasterlər üzrə milli proqramların işlənib hazırlanması daha səmərəli nəticələrə gətirib çıxarardı.

Dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi iqtisadiyyatın aqroemal sektorunda dövlətin tənzimləyici rolunun iqtisadi effektinin azalmasının qarşısını alacaq, cəmiyyətin mənafeyinə və ərzaq təhlükəsizliyi problemlərinin sosial məsələlərinin həllini aktivləşdirəcəkdir.

# NƏTİCƏ

1. Tədqiqatın sonunda bu nəticəyə gələ bilərik ki, dövlətin Aqrar Sənaye Kompleksinin tənzimlənməsindən kənarlaşdırılması ölkə iqtisadiyyatı üçün bir çox xoşagəlməz nəticələrə gətirib çıxarar. Ona görə də bu sahədə dövlət tənzimlənməsi zəruridir və mövcud təkmilləşmənin təkmilləşdirilməsinə ehtiyac vardır.

2. Tədqiqatda aparılmış araşdırmalar göstərir ki, aqroemal sahəsinə qoyulan investisiyalar özlərini tez bir zamanda doğruldurlar. Ona görə də hesab edirik ki, yerli məhsulların rəqabətədavamlı olmaları üçün aqroemal sahəsində innovasiya-investisiya modelinin tətbiqi daha səmərəlidir. Yeyinti və yüngül sənayenin yenidən qurulması və bu sahəyə innovasiya xarakterli investisiyaların cəlb edilməsi münbit investisiya mühitindən çox asılıdır. Hesab edirik ki, investisiyaların qorunması, sığortalanması, sərmayə qoyulmuş müəssisələrin istehsal gücünə çatması üçün həmin müddət ərzində bir çox güzəştlərin tətbiq edilməsi zəruridir.

3. Ölkədə kənd təsərrüfatına ayrılan subsidiyalar əsasən aqrar sektorda kəmiyyət göstəricilərinə görə, yəni əkildiyi hektara görə verilir. Bu hal ən çox taxıl, üzüm və meyvə istehsalında özünü büruzə verir. Bu cür subsidiyalaşdırılma son nəticədə məhsuldarlığın artmasına, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına stimul yaratmır. Ona görə də, fikrimizcə, ölkədə kənd təsərrüfatına subsidiyaların verilməsi mexanizmi təkmilləşdirilməli, kəmiyyət göstəricilərinə görə deyil, əmtəəlik məhsula görə verilməsi daha məqsədəuyğun olardı. Bu həm də məhsuldarlığın və keyfiyyətin artması istiqamətində güclü stimul yaradar, idxalın azaldılmasına səbəb olardı.

4. Azərbaycanda aqroemal müəssisələrinə birbaşa dövlət dəstəyi və vergi güzəştləri verilmir, hansı ki, bu sahə kənd təsərrüfatının inkişafında ən önəmli rol oynayır, eyni zamanda ölkənin ərzaq təhlükəsizliyində rolu da əvəzedilməzdir.

Fikrimizcə, aqroemal sahəsinin bir çox sektorları üzrə çəkilən xərclərin müəyyən bir hissəsinə dövlət tərəfindən birdəfəlik dəstək verilməlidir ki, bunlara aqroemal müəssisələrində istehsalın yeni texnologiyalarla əvəz edilməsi zamanı müasir texnoloji avadanlıqların, o cümlədən, təmizləyici qurğuların alınması, ekoloji təmiz məhsul istehsal edən müəssisələrə əmtəəlik məhsul satışını aid etmək olar.

5. Aqroemal sahəsində fəaliyyət göstərən bir qrup müəssisələr var ki, onların dövriyyə kapitalı çox azdır və ona görə də kiçik rentabellik səviyyəsinə malikdirlər. Məlum məsələdir ki, hal-hazırda ölkə banklarının təklif etdiyi yüksək faizli və qısa müddətli kreditlər bu problemin kredit vasitəsi ilə həllini istisna edir. Ona görə də bu cür müəssisələr faktiki olaraq bu imkanlardan məhrumdurlar, çünki çox zaman bankın faiz dərəcələri müəssisənin rentabellik səviyyəsini üstələyir.

Bu problemi effektiv kredit sisteminin bir nümunəsi olan **faktorinq xidməti** vasitəsilə həll etmək daha məqsədəmüvafiqdir. Aqroemal sahəsində fəaliyyət göstərən və maliyyə mənbəələri çox zəif olan orta və kiçik təsərrüfat subyektlərinin geniş spektri üçün faktorinq xidməti çox vacibdir və bu xidmət nəticəsində onların istehsal həcminin böyüməsi üçün maliyyələşmə asan və əlçatan olur.

Fikrimizcə, dövlət tərəfindən bu cür problemlərin həlli istiqamətində dəstək məqsədilə faktorinq proqramı yaradılması məqsədəuyğun olardı. Faktorinq xidməti göstərmək üçün regionlar üzrə yaradılmış kredit təşkilatları olmalıdır və bu iş onlara həvalə edilməlidir. Həmçinin bütün regionlarda filialları olan və fəaliyyətdə olan istənilən banka da bu işi həvalə etmək olar.

6. Vençur kapitalını aqroemal sahəsinə qoyulan ən əhəmiyyətli sərmayələr kimi göstərmək olar. Bu investisiya forması birbaşa innovasiya ilə bağlıdır və istehsalatda əlavə dəyər yaratmaq üçün riskli, innovativ, yüksək gəlirli layihələrin və ya sürətlə inkişaf edən sənayelərdə orta hesabla 3-5, bəzən 7 ilədək olan layihələrin maliyyələşdirilməsinə yönəldilir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vençur biznesinin uğurlu inkişafı üçün, xüsusilə də, onun ilkin mərhələsində aktiv dövlət dəstəyi lazımdır. Məhz dövlət dəstəyi nəticəsində vençur investisiyası daha yaxşı inkişaf edər, risk səviyyəsi azala bilər.

Bunun üçün ilk növbədə ölkədə vençur fəaliyyətini tənzimləyən normativ – hüquqi baza yaradılmalıdır. Fikrimizcə, vençur kapitalı üçün ən önəmli mənbəələrdən biri ölkənin Pensiya Fondu olardı. Böyük həcmli aktivlərə malik dövlət qurumlarını da (Dövlət Neft Şirkəti-Socar, Dövlət Neft fondu və s.) vençur kapitalının tətbiq edilməsi üçün mümkün mənbələrə aid etmək olar. Bu strukturlar, xüsusilə də, Dövlət

Neft fondu geniş investisiya imkanlarına malikdir və bu səbəbdən də vençur kapitalının əsas mənbələrindən birinə çevrilə bilərlər.

7. 2020-ci ildə işğaldan azad edilmiş Dağlıq Qarabağ və ətraf rayonları ölkənin kənd təsərrüfatını inkişaf etdirmək baxımından böyük potensiala malikdir. Bu ərazilərdə ASK-nin istehsal strukturları bərpa edilərkən ilk növbədə rayonların kənd təsərrüfatı məhsullarının strukturuna və istehsal potensialına uyğun aqroemal müəssisələri yaradılmalıdır. Çünki, məhz aqroemal müəssisələri kənd təsərrüfatı məhsullarının istehsal-istehlak zəncirində əsas mərkəzi həlqəni təşkil edir. Bu rayonlarda pambıq emalı zavodları, iplik və tikiş, trikotaj fabrikləri, ət və süd kombinatları, şərab zavodları, yun emalı zavodları, sənaye tipli xalçaçılıq fabrikləri, dəri emalı zavodları, unüyütmə və yem dəyirmanlarının qurulması, mineral su zavodları və s. inkişaf perspektivi üçün ən önəmli sahələr sayıla bilər. Xankəndi şəhərində ayaqqabı fabrikinin bərpa edilib istismara buraxılması çox məqsədəuyğun olardı.

İşğaldan azad edilmiş torpaqların bərpası təkcə büdcə hesabına olmalı deyil. Bunun üçün sahibkarlar, xüsusən də, ölkənin şəhər və rayonlarında məskunlaşmış, sahibkarlıq fəaliyyəti ilə məşğul olan azad edilmiş rayonların sakinləri bu işə cəlb edilməlidirlər. Azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətini stimullaşdırmaq üçün hökümət bir çox həvəsləndirici tənzimlənmə tədbirlərini görməlidir. Bu tənzimlənmələrə müəyyən müddət ərzində vergi və gömrük güzəştləri, iri məbləğli və uzun müddətli güzəştli kreditlər, investisiyaların və biznes risklərinin dövlət tərəfindən sığortalanması və s.-lərin aid edilməsi məqsədəmüvafiq olardı.

Bu tədbirlərin görülməsi nəinki azad edilmiş ərazilərin yerli əhalisini, eləcə də respublikanın digər ərazilərində yaşayan iş adamlarının bu regionda sahibkarlıq fəaliyyətini stimullaşdıracaq, eləcə də əslən bu zonadan olan xeyli imkanlı şəxslər, öz bizneslərini azad edilmiş ərazilərə köçürməkdə maraqlı olacaqlar.

8. Paralel olaraq ilk növbədə respublikanın bütün ərazilərində başa çatmış, işğal səbəbindən burada həyata keçirilə bilməmiş torpaq islahatı aparılmalı, digər bölgələrdə olduğu kimi burada da əkinə yararlı torpaqlar sakinlərə paylanmalıdır. İşğaldan azad edilmiş rayonların sakinlərinə paylanacaq torpaq sahələri təbii ki, boş

qalmayacaq, sahibləri tərəfindən istifadə ediləcək, kənd təsərrüfatı məhsulları istehsal ediləcək və bu da həmin ərazilərin daha sürətlə məskunlaşmasına çox güclü təkan olacaqdır.

9. Azərbaycan Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmalıdır. Bu status ölkə iqtisadiyyatının inkişafına, onun dünya iqtisadiyyatına inteqrasiyasına, birbaşa xarici investisiyaların cəlb edilməsinə yeni nəfəs verər. ÜTT-yə daxil olmaq həm də aqroemal sahəsinin inkişafı üçün də çox zəruridir.

Fikrimizcə, ÜTT-yə daxil olmaq:

- Daxili bazarda mövcud qiymətlərin xarici bazar qiymətlərinə nisbətən yüksək olmasının qarşısını alacaq;
- Qaçaqmal (malların gömrük rüsumundan yayınması, mal həcmlərinin müəyyən hissəsinin sənədləşdirilməməsi, malların qiymət təhrifləri və s.) idxalının qarşısı alınacaq;
- Emal təyinatlı yerli kənd təsərrüfatı məhsullarının emal müəssisələri tərəfindən aldığı çox aşağı alış qiymətlərinin müəyyən qədər qarşısı alınacaq;
- Bəzi idxal mallarının qiymət və həcm təhrifləri kimi neqativ hallar müəyyən qədər aradan qalxacaq, sərhəd-gömrük xidmətlərində şəffaflıq yüksələcək;
- İdxal məhsullarının inhisarlaşması və ya idxal olunan ayrı-ayrı mal və mal qruplarına lobbiçilik fəaliyyətləri müəyyən qədər aradan qalxacaq;
- Ölkəyə birbaşa xarici investisiyaların həcmi artacaq;

10. Azərbaycanda klasterlərin formalaşması və inkişafı ölkənin iqtisadi nüfuzunun artırılması və dünya bazarında mövqeyinin yaxşılaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, Azərbaycanda yerli aqrar istehsalın və emalının genişləndirilməsi, resurs potensialından daha səmərəli istifadə edilməsi, rəqabət qabiliyyətinin yüksəldilməsi, ixrac potensialının gücləndirilməsi məqsədilə ayrı-ayrı sahələr üzrə regional və sektorial klasterlərin yaradılması zəruridir. Bu klasterlər taxılçılıq, şəkər istehsalı, pambıqçılıq, bitki yağları istehsalı, tütünçülük, üzümçülük və şərabçılıq üzrə və s. yaradılması daha məqsədəuyğun olardı. Bu cür strukturlarda "istehsal-emal-saxlama-satış" prosesi vahid bir çətir altında birləşəcəkdir. Burada aqroemal müəssisələri yuxarıda qeyd etdiyimiz klasterlərin mərkəzi aktoru rolunda

olur və həm istehsala, həm loqistikaya və həm də istehlaka təsir göstərə bilirlər. Təklif etdiyimiz bu klasterlər həm sektorial və həm də çoğrafi ərazilər üzrə təşkil edilə bilərlər.

Eyni zamanda hesab edirik ki, ölkə iqtisadiyyatında, xüsusilə də, ASK sferasında klasterlərin böyük əhəmiyyətini nəzərə alaraq, dövlət regionların klaster əsasında inkişaf strategiyasını hazırlamalı və konkret olaraq, inkişaf etmiş ölkələrdə olduğu kimi klasterlərin inkişafı ilə əlaqədar dövlət proqramları qəbul edilməlidir.

11. Azərbaycanda kənd ipoteka kreditləşməsi mexanizmi yoxdur, yəni özəl istifadələrdə olan torpaqların əsas istehsal vasitəsi kimi bazar dövriyyəsinə daxil edilmir. ASK-nın təsərrüfat subyektlərinin torpaq sahəsi olduğu halda və başqa əmlak təminatı olmadığı üçün bu imkandan istifadə edə bilmirlər. Kənd ipoteka kreditləşməsinin, o cümlədən, əkinaltı torpaqların əsas istehsal vasitəsi kimi dövriyyəyə daxil olmamasının əsas səbəbi iqtisadiyyatın digər sahələri ilə müqayisədə bu cür fermer təsərrüfatlarının daha az rəqabətqabiliyyətli olmasıdır.

Fikrimizcə, məhz dövlətin dəstəyi ilə bu torpaqların ipoteka kreditləşməsi mexanizmi işə salınmalı, banklar qarşısında öhdəlik zəmanəti funksiyasına sahib olmaq üçün dövlət təminatı olmalıdır.

12. Dövlət tənzimlənmələrində sərt vergitutma siyasətindən mülayim şəraitə keçirilməlidir və problemin bu cür həllinin başqa alternativi yoxdur. Xüsusilə də, yeyinti sənayesində mülayim vergitutmaya keçid zəruridir və bu sektorun əhalinin qidalanması üçün əhəmiyyətini əsas götürmək lazımdır.

13. Aqroemal müəssisələrində aşağıda göstərilən hallarda vergi güzəştləri tətbiq edilməlidir:

- müəssisənin əldə etdiyi gəlirin yeni innovasiyaların tətbiqi və texnoloji inkişafı üçün investisiyalara, yəni yeni işlənmələrə və texniki cəhətdən yeni təchizata sərf olunan hissəsinin tam vergitutma bazasından çıxarılması. Belə fərz edək ki, hər hansı bir aqroemal müəssisəsinin bir ildə bir milyon manat gəliri olmuş və bu gəlirin 500 min manatı yenidən müəssisəyə müasir texnoloji xəttlərin alınmasına xərclənmişdir. O zaman gəlirdən vergi tutulması üçün baza rəqəm 1 mln. manat deyil, müəssisənin inkişafı üçün xərclənən hissə çıxıldıqdan sonra yerdə qalan 500 min manat olması

daha məqsədəuyğun olardı. Bu da sahibkarların öz bizneslərini genişləndirməyi və innovasiyaların tətbiqini stimullaşdırardı.

- müəssisədə istehsalın azalması baş verərsə, onun qarşısının alınması məqsədilə, iş yerlərinin qorunması və yaradılması naminə tam, qismən və müəyyən müddətə vergidən azadetmələr tətbiq edilməlidir;

14. Aqroemal sahəsində gömrük tənzimlənmələri təkmilləşdirilməsi məqsədəuyğun olardı və zəruridir:

- ölkənin daxili bazarının aqroemal sahəsinin məhsulları ilə təmin edə bilən yerli istehsalçılar üçün gömrük vasitəsilə tənzimlənməsi və mühafizəsi zəruridir. Gömrük vasitəsilə daxili bazarın mühafizəsi demək olar ki, aqroemal sahəsinin bütün məhsullarına şamil edilməlidir;

- istehsal edən ölkədən asılı olmayaraq ayrı-ayrı aqroemal məhsullarına, o cümlədən, ərzaq məhsullarının idxalına tarif kvotalarının tətbiqi, habelə xüsusi tariflər tətbiq olunması məqsədəmüvafiq olardı. Xüsusi tariflərin tətbiqinin əsas məqsədi daxili bazarın qorunması və bununla da yerli istehsalçıların inkişafına nail olmaqdır.

15. Azərbaycanda şərab sortlu üzüm plantasiyalarının əkin sahəsinin genişləndirilərək, 1985-1990-cı illər səviyyəsinə çatdırılması daha məqsədəmüvafiqdir. Azərbaycan şərabının əvvəlki şöhrətinin qaytarılması üçün ölkədə potensial böyükdür və bu potensial işə salınarsa, ölkəyə şərab və üzüm məhsulları ixracından hər il, təxmini hesablamalara görə 2,5-3 mld. dollar vəsaitin daxil olmasına imkan verərdi. Fikrimizcə, aşağıdakı tövsiyyələr bu sahənin yenidən bərpa edilərək göstərilən səviyyəyə çatdırılmasında əhəmiyyətli rol oynaya bilər:

- Ölkə üzrə şərab sortlu üzüm plantasiyalarının əkin sahəsini 220 min hektara çatdırmaq. Fikrimizcə, üzüm plantasiyalarının genişləndirilməsi iqtisadi səmərəsi çox az olan taxıl sahələrinin hesabına olmalıdır, necə ki, vaxtilə üzüm plantasiyaları ləğv edilərək taxıl əkini ilə əvəz edilmişdir. Taxıl əkini sahəsinin azalması hesabına yaranmış taxıl itkisini taxılın məhsuldarlığını inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşdırmaqla bərpa etmək olar.

- Ölkədə müasir tipli şərab zavodlarının sayı yetərincə deyil. Müasir tələblərə cavab verən, yeni texnologiyalara malik şərab zavodlarının sayının artırılmasına ciddi ehtiyac var. Şərab zavodlarının sahiblərinin əksəriyyəti, məhdud da olsa, yerli bazarla kifayətlənirlər. Azərbaycan şərabının əvvəllər ixrac olunduğu ənənəvi Rusiya və Ukrayna bazarında mövqelərini bərpa etmək üçün dövlət tənzimlənmələri sistem şəklində işlənməlidir. Hər şeydən öncə bu sahədə rəqabətli mühit yaradılmalı, haqsız rəqabət və inhisarçılıq halları aradan qaldırılmalı, şərab istehsalı ilə məşğul olan sahibkarlar üçün bir çox həvəsləndirici amillərdən istifadə edilməlidir. Şərab istehsalında sahibkarlıq və rəqabət mühitinin düzgün qurulması, şərab emalı zavodlarının sayının artması deməkdir, şərab zavodlarının sayının artması şərab sortlu üzüm xammalı bazarının böyüməsi deməkdir, bazarın böyüməsi isə şərab sortlu üzüm plantasiyaların artmasına səbəb olacaqdır.

- Azərbaycanın üzümçülük bölgələrində rayonlaşdırılmış ənənəvi və məhsuldar texniki üzüm tinglərini yetişdirən tingçilik təsərrüfatlarının qurulmasının əhəmiyyəti böyükdür. Rayonlaşdırılmış məhsuldar, ənənəvi texniki sortlar səmərəliliyin yüksəldilməsində əsas amildir. Ona görə də dövlət himayəsi altında respublikada yüksək məhsuldar üzüm tinglərini yetişdirən tingçilik təsərrüfatlarının yaradılması işinin yenidən qurulması və inkişaf etdirilməsi məqsədəuyğun və zəruridir.

- Üzümçülük müəssisələri üzümdən alınan digər məhsulların istehsalını artırmalıdırlar. Bunlardan ən əsası birbaşa istehlaka gedən süfrə sortlu üzümdür ki, ilboyu qorunub saxlanılaraq istehlaka verilməsində böyük tələbat vardır. Eyni zamanda, üzümdən kişmiş, marinadlar, mürəbbələr, bəhməz, şərq şirniyatları, üzüm şirələri, digər spirtsiz (alkoqolsuz) içkilər alınır ki, bu məhsullar insanların qida rasionunda öz əhəmiyyəti ilə fərqlənirlər. Azərbaycanda da iri üzüm saxlanma anbarları tikilə bilər və ənənəvi satış bazarı olan MDB ölkələrini il boyu təzə üzümlə təmin etmək olar. Halbuki, Azərbaycan bazarının özündə mövsümdən kənar dövrlərdə satılan üzüm, əsasən, Türkiyə və İrandan gətirilmiş olur. Təkcə 2021-cı ildə 20,6 min ton üzüm idxal olunmuşdur [94].

16. Tədqiqat işində tütünçülük sahəsi ətraflı araşdırılmış, bu sahənin inkişaf etdirilməsi üçün aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir:

- Ölkədə fəaliyyət göstərən siqaret fabriklərinin xammal bazarları elə tənzimlənməlidir ki, yerli tütünə daha çox üstünlük verilsin. Hazırda siqaret fabriklərində yerli xammala maraq demək olar ki, yoxdur və ucuz başa gələn idxal xammalına və tütünün sənaye əvəzedicilərinə daha çox üstünlük verilir. Ölkənin tütün istehsalı ilə məşğul olan fermerlər bundan çox ziyan çəkir, minlərlə tütünçülüklə məşğul əhali məcburən başqa fəaliyyət növlərinə üz tuturlar.

- Xaricdən gətirilən tütün məmulatlarının və xammalının keyfiyyətinə nəzarət edən bir qurum və müvafiq laboratoriyanın yaradılması məqsədəmüfaviq olardı. Keyfiyyətsiz və ucuz tütün xammallarının idxalına məhdudiyyətlər qoyulmalıdır.

- Tütünün satınalma qiymətləri ən azından iki dəfə qaldırılmalı, siqaret fabrikləri gəlirlərin bölüşdürülməsində kəndli və fermer təsərrüfatlarının xeyrinə güzəştə getməlidirlər.

- Tütünçülüklə məşğul olan rayonlarda müasir tipli tütün qurutma qurğularının və talvarlarının, o cümlədən, fermentasiya zavodlarının bərpa edilib istifadəyə verilməsi məqsədəuyğun olardı [99].

17. Pambığın əkin sahələri 2 dəfə artırılmaqla 1981-1985-ci illər səviyyəsinə olmasa da, ölkə üçün optimal variant kimi 200 min hektara çatdırmaq olar. Pambıq əkinlərinin sahəsi məhz vaxtilə pambıq əkilmiş və sonradan təyinatı dəyişdirilərək taxıl və başqa bitkilərlə əvəz edilmiş əkinlərin hesabına olmalıdır. Fermerlərin və digər pambıq istehsalçılarının taxıl və digər bitkilərə üstünlük vermələri pambığın alış qiyməti və suvarma problemlərində axtarmaq lazımdır. Ona görə də pambığın satınalma qiymətləri ən azından 2 dəfə qaldırılmalı, pambıq emalı zavodları gəlirlərin bölüşdürülməsində ədalətlilik prinsipi göstərərək pambıq istehsalçılarının xeyrinə güzəştə getməlidirlər.

Pambıq sahələrinin suvarma işləri yenidən təşkil olunmalı, külli miqdarda su itkisinə və torpaqların duzlaşmasına səbəb olan “selləmə” suvarma üsulundan imtina edilməli, müasir və daha qənaətli olan suvarma (damcı üsulu) sistemləri tətbiq

olunmalıır. Eyni zamanda pambıqçılıqda, xüsusilə də, pambıq yığımı zamanı əl əməyi tamamilə aradan qalxmalı və bunun üçün pambıqyığan kombaynların sayı artırılmalıdır [93].

Baxmayaraq ki, Azərbaycanda pambıq istehsal olunur, ancaq, xammalı pambıq olan geyim və digər yüngül sənaye məhsulları üzrə ölkə idxaldan asılı vəziyyətdədir. Azərbaycanda yüngül sənayeni, o cümlədən, geyim və trikotaj sahəsini inkişaf etdirmək üçün bu sahəyə dövlətin güclü dəstəyi lazımdır. Geyim sənayesini dirçəltmək üçün investorları bu sahəyə cəlb etməli, stimullaşdırıcı və təşviqləndirici tədbirlər görülməli, yerli iş adamlarının xeyrinə bazar və gömrük tənzimlənmələri işə salınmalıdır. Bu sahə yüksək ixtisaslı kadr və mütəxəssislərlə təmin edilməlidir.

18. Azərbaycanda hər şeydən öncə çay plantasiyalarının sahəsi artırılmalıdır. Fikrimizcə, ümumilikdə ölkə üzrə çay plantasiyalarının sahəsini 6 min hektara çatdırmaq olar. Bunun üçün ölkənin cənub bölgələrində mövcud torpaq-iqlim şəraiti çay bitkisinin yetişdirilməsi tələblərinə tam cavab verir.

Çay əkildikdən 7-8 il sonra məhsul verməyi nəzərə alınaraq, dövlət tərəfindən həmin müddət ərzində fermerlərə yaşayış minimumu həcmində kompensasiya ödənilməli, güzəştli kreditlər, subsidiyalar və s. həvəsləndirici və təşviqləndirici tədbirlər görülməlidir.

Azərbaycan çayı ekoloji baxımdan daha təmiz və daha faydalı çay sayılır. Eyni zamanda, gömrük tənzimlənmələri, bazarın qorunması siyasəti həyata keçirilməlidir ki, çayımızı yerli bazarda sata bilək.

Müasir tipli çay plantasiyalarının salınması məqsədilə rayonlaşdırılmış əkin materialları düzgün seçilməlidir. Bunun üçün dövlət hesabına bu sahəyə xidmət edən xüsusi tingçilik təsərrüfatı yaradılmalı və fermerləri rayonlaşdırılmış və keyfiyyətli çay tingləri ilə təmin etməlidir [95].

19. Azərbaycanda unüyütmə sənayesinin də idxaldan asılılığı çox böyükdür. Bunun əsas səbəbi odur ki, yerli buğdaların keyfiyyət göstəriciləri çörək istehsalı üçün lazım olan tələblərə tam cavab vermir və buna görə də az hissəsi ərzaq üçün istifadə edilir. Yerli istehsalın əsas hissəsi mal-qara və quş yeminə sərf edilir.

Hər şeydən öncə rayonlaşdırılmış ərzaq buğdası toxumu yetişdirilən, elmi tədqiqatlara söykənən toxumçuluq təsərrüfatlarının yaradılması məqsədəuyğun olardı.

Paralel olaraq yüksək məhsuldarlığa nail olmaq üçün ərzaq buğdasının əkin sahələrinin suvarma problemləri həll edilməlidir [98].

20. Azərbaycanda makaron məmulatlarının idxaldan asılılığını əhəmiyyətli sürətdə azaltmaq olar və bu istiqamətdə ölkədə imkanlar böyükdür. Hər şeydən öncə makaron istehsalı üçün lazım olan şüşəvari, bərk buğda sortlarını yetişdirmək lazımdır ki, bunun üçün ölkədə potensial mövcuddur. Eyni zamanda un istehsalında idxaldan asılılığa son qoymaq üçün verilmiş tövsiyyələri həm də makaron istehsalına da aid etmək olar.

21. Meyvə və tərəvəz sektorunu araşdırarkən məlum oldu ki, burada ən böyük problem geniş istehlak potensialına malik olan qurudulmuş meyvələrin və bu sahənin əsas xammalı olan püre və konsentrantların idxaldan asılılığıdır. Fikrimizcə, bu asılılığı aradan qaldırmaq üçün aşağıdakı tədbirlər görülməlidir:

- ölkədəki mövcud meyvə bağları genişləndirilməli, xüsusilə də, sənaye (intensiv) meyvəçiliyinin inkişafı üçün həvəsləndirici və təşviqləndirici tədbirlər görülməlidir.
- İstehsalçılar tərəfindən meyvə emalı zavodlarına satılan əmtəəlik məhsullara görə subsidiyaların verilməsi tətbiq olunmağa başlanmalıdır.
- Sənaye meyvəçiliyinin salınması üçün güzəştli kreditlər verilməlidir.
- Meyvəçilik rayonlarında kiçik həcmli meyvə emalı zavodlarının qurulması daha məqsədəuyğun olardı və hökümətin güzəştli kreditləri və s. həvəsləndirici tədbirləri bu istiqamətə yönləndirilməlidir.
- Meyvə emalı məhsulları üzrə minimum qida normaları hökümətin qəbul etdiyi minimum istehlak səbətinə daxil edilməmişdir. Bu qidaların istehlak səbətinə daxil edilməsi daha düzgün olardı.
- Rəsmi statistik hesabatlarda ölkədə istehsal olunmuş meyvə və tərəvəzin çeşidlər üzrə emala gedən hissəsi haqqında heç bir məlumat yoxdur. Ona görə də meyvə istehsalının çeşidlər üzrə birbaşa istehlaka və emala gedən hissələri haqqında

və emal məhsullarının istehlakı haqqında detallı məlumatların verilməsinə ehtiyac vardır.

22. Azərbaycanda şəkər istehsalı üçün lazım olan şəkər xammalı idxaldan asılı vəziyyətdədir. Ölkədə şəkər xammalının idxaldan asılılığını aradan qaldırmaq üçün şəkər çuğundurunun əkin sahəsinin artırılması imkanları böyükdür və hökümətin düzgün tənzimlənmə mexanizmi işə salınarsa, problem həllini tapa bilər:

- Şəkər çuğundurunun əkin sahəsi genişləndirilərək 35 min hektara çatdırılmalıdır. Bunun üçün fermerlərdə maraq yaratmaq məqsədi ilə bu məhsulun alış qiymətinə yenidən baxılmalı və artırılmalıdır.

- Şəkər çuğunduru istehsalında ən böyük problem olan suvarma məsələsi dövlətin dəstəyi ilə tam həll edilməlidir.

- Şəkər çuğunduru istehsalında əl əməyinin aradan qaldırılması üçün və məhsulun maya dəyərinin aşağı salınması məqsədi ilə çuğunduryığan kombaynların sayı artırılmalıdır [92].

23. Azərbaycanda ət-süd məhsullarının adambaşına istehlakı ÜST-nın tövsiyyə etdiyi rasion normasından çox aşağıdır. Azərbaycan insanı həyati vacib olan bu məhsullar ilə yetərincə qidalanmır. Ölkədə bu problemi həll etmək üçün imkanlar vardır. Məlum olduğu kimi mövcud mal-qara sürüsünün tərkibində az məhsuldar olan yerli heyvanlar əksəriyyət təşkil edir. Mövcud mal-qaranın sürü tərkibi əsaslı sürətdə məhsuldar cins mal-qaranın xeyrinə dəyişdirilməsi məhsuldarlığın yüksəlməsinə və ölkə əhalisinin ət və süd məhsulları ilə təminatının əhəmiyyətli sürətdə artmasına səbəb olar. Araşdırmalar göstərir ki, əgər ölkədə mövcud mal-qaranın sürü tərkibi tamamilə cins heyvanların xeyrinə dəyişdirilərsə, o zaman sürünün baş sayını əhəmiyyətli dərəcədə azaltmaq, istehsalı isə təxminən 2-2,5 dəfə artırmaq olar. [96, 97].

24. Balıq və balıq məhsulları insan üçün zəruri qida sayılır. Bütövlükdə, dövlətin balıqçılığa münasibəti dəyişməlidir.

- Hər şeydən öncə körpə balıqların yetişdirilərək su hövzələrinə buraxılması işi gücləndirilməli, sayı ən azından 2000-ci ilin səviyyəsinə çatdırılmalıdır. 2000-ci

ilədək, balıq vətəgələrində hər il orta hesabla 530 mln. körpə balıqlar yetişdirilərək təbii su hövzələrinə və su anbarlarına buraxılırdı.

- Neftçala və digər bölgələrdə Sovet dövründə fəaliyyət göstərmiş balıq və balıqyetişdirmə zavodlarının işləri bərpa edilməli, bu sahədə hər bir sahibkarın normal fəaliyyət göstərməsi üçün sağlam rəqabət mühiti yaradılmalı, balıqçılıq sahəsində monopoliya aradan qaldırılmalıdır.

25. Azərbaycanda gön-dəri emalında vəziyyət ürəkaçan deyil. Ölkədə ayaqqabı sənayesində idxaldan asılılıqdan qurtulmaq üçün imkanlar çox böyükdür və bu potensialdan istifadə etmək üçün aşağıdakı tövsiyələrimizi məqsədəuyğun hesab edirik:

- Hər şeydən öncə ölkənin hər bir regionunda müasir avadanlıqlar və texnologiyalar əsasında işləyən kiçik həcmli dəri emalı zavodları qurulmalı və fəaliyyətə başlamalıdır. Bu cür mini zavodlar regionlarda kəsilmiş iri və xırdabuynuzlu mal-qara dərilərinin tədarükündə daha çevik fəaliyyət göstərəcək və bu sahədə itkilərin azalması minimum səviyyəyə düşəcəkdir. Kiçik həcmli bu zavodların hər bir rayonda olması daha məqsədəuyğun olardı. Bunun üçün güzəştli kreditlər, müddətli vergi güzəştləri və s. həvəsləndirici tənzimlənmə metodlarından istifadə edilməlidir.

- Müasir innovativ texnologiyalara əsaslanan ayaqqabı fabriklərinin qurulması istiqamətində dövlətin həvəsləndirici tənzimlənmə tədbirlərinin həyata keçirməsi tamamilə böhran vəziyyətdə olan bu sahənin dirçəldilməsi üçün güclü təkan olardı. İşğaldan azad edilmiş Xankəndi şəhərində ayaqqabı fabrikinin müasir texnologiyalar əsasında yenidən bərpası bu sahənin dirçəldilməsi üçün böyük töhfə olardı.

- Ayaqqabı idxalı zamanı bazarın qorunması və yerli istehsalçıların mənafeyinə uyğun gömrük tənzimlənmələri həyata keçirilməlidir.

26. Yun istehsalı və xalçaçılıq aqroemal sahəsinin mühüm sektorlarından biridir. Baxmayaraq ki, ölkədə 16 min ton civarında yun istehsal olunur, yerli xalça və xalça məmulatları bazarında demək olar ki, tamamilə idxal məhsulları dominantlıq edir. Ölkədə xalça sənayesi böhran vəziyyətdədir, eyni zamanda bu vəziyyətdən çıxmaq

üçün imkanlar da çox böyükdür. Bunun üçün aşağıdakı tövsiyələrin reallaşmasını məqsədəuyğun hesab edirik:

- Azərbaycanda xalça istehsalında əsasən əl əməyindən istifadə edilir. Bu da məhsulun baha başa gəlməyinə səbəb olur və qiymət amilində anoloji idxal olunan məhsullarla rəqabətdə uduzur. Ona görə də ölkədə müasir texnoloji avadanlıqlara malik olan fabrik üsulu (konveyer) ilə xalça istehsalı kütləvi hal almalıdır. Hökümətin tənzimlənmə siyasəti fabrik üsulu ilə istehsal edilən xalçaçılıq istiqamətinə yönəldilməlidir. Ölkədə mövcud olan və xüsusilə də, son illərdə istifadəyə verilmiş xalça fabriklərinin istehsal texnologiyaları yenidən qurularaq bu istiqamətə yönləndirilməlidir. Bu istiqamətdə güzəştli kreditlərin verilməsi, avadanlıqların alınması üçün dövlət dəstəyi və s. kimi həvəsləndirici tədbirlər görülməlidir.

- Ölkədə xalçaçılıq və trikotaj sənayesi zəif inkişaf etdiyi üçün qoyunçuluq təsərrüfatlarında istehsal olunan yun satılmır və bu qiymətli xammal çox vaxt tullantı kimi atılır. Yunun alınması, emal edilərək satışının təşkil edilməsi məsələlərini hökümət öz boynuna götürməlidir. Hər bir halda ölkədə xalça və trikotaj sənayesində baş verən durğunluq qoyunçuluqla məşğul olan fermerlərin günahı deyil və onlar zərər çəkməli deyillər.

- Ölkədə mövcud qoyun sürülərində qaba yunlu yerli qoyunlar əksəriyyət təşkil edirlər. Zərif yunlu qoyun cinslərinin sayı artırılmalıdır. Zərif yunlar həm xalça istehsalında və həm də trikotaj, geyim sənayesində qiymətli xammal sayılırlar. Dövlətin dəstəyi ilə zərif yunlu qoyunçuluq təsərrüfatlarının yaradılması məqsədəuyğun olardı.

- Zərif yun istehsalının artırılmasında stimul yaratmaq məqsədi ilə əmtəəlik zərif yuna görə subsidiyaların verilməsi daha məqsədəuyğun olardı [100].

27. Azərbaycanda yüngül sənayenin inkişafında, o cümlədən, geyim və trikotaj məhsullarının istehsalında mövcud imkanlardan istifadə edilmir. İstehsal olunan pambıq xammalını yerli istehsala yönəltməklə ölkədə yüngül sənayeni, o cümlədən, geyim və trikotaj sahəsini tam dirçəltmək olar, ölkəni idxaldan asılı vəziyyətdən azad

etmək və, nəhayət, xammal deyil, hazır məhsul ixrac edə bilərik. Bunun üçün ölkədə tələb olunan potensial mövcuddur.

Bu sahəni inkişaf etdirmək üçün dövlətin güclü dəstəyi lazımdır. Tənzimlənmə mexanizmi işə salınmalı, investorları bu sahəyə cəlb etmək üçün stimullaşdırıcı və təşviqləndirici tədbirlər görülməli, idxal məhsullarında məmur lobbiçiliyi kimi hallar aradan qaldırılmalı, yerli iş adamlarının xeyrinə bazar və gömrük tənzimlənmələri işə salınmalıdır. Bu sahə yüksək ixtisaslı kadr və mütəxəssislərlə təmin edilməlidir.

28. Hazır yeməklər istehsalı ilə əlaqədar qeyd etməliyik ki, artıq dünyada hazır yemək istehsalı ("Food Tech") bazarı çox sürətlə böyüyür. ABŞ, Çin və Avropanın iri şəhərlərində hazır yemək istehsal edən zavodlar fəaliyyət göstərməyə başlamışdır.

Hesab edirəm ki, qlobal dünyanın kiçik bir parçası olan Azərbaycandan bu inkişaf tendensiyası yan keçməyəcək və hökümətin Bakı, Gəncə və Sumqayıt kimi böyük şəhərlərdə hazır yeməklər istehsal edən mini zavodların qurulması və bu istiqamətdə hökümətin müəyyən tənzimlənmə fəaliyyəti və proqramının olması məqsədəuyğun olardı.

Yekun olaraq qeyd etməliyik ki, tədqiqatda göstərilən təklif və tövsiyələr həyata keçirilərsə, 2035-cu ilədək emal məhsulları və yüngül sənaye məhsulları istehsalı ümumilikdə 2020-ci il göstəricisindən 2,5 dəfə artar və 13000 mln. manat dəyərində məhsul buraxılışına nail ola bilər. Bu artım ayrı-ayrı mal qrupları üzrə aşağıdakı qaydada proqnozlaşdırılır.

Qida məhsulları istehsalı 2020-ci ildə 3884,3 mln. manat olmuşdur və 1,8 dəfə artaraq 2035-ci ildə 7000 mln. manat, içki istehsalı 427,6 mln.manat olmuşdur və 8,2 dəfə artaraq 3500 mln. manat, toxuculuq sənayesi 240,9 mln. manat olmuşdur və 1,7 dəfə artaraq 400 mln. manat, geyim istehsalı 112,8 mln. manat olmuşdur və 4,4 dəfə artaraq 500 mln. manat, dəri və dəridən hazırlanan məmulatlar, ayaqqabı istehsalı 25,8 mln. manat olmuşdur və 23,2 dəfə artaraq 600 mln. manat olmasını proqnozlaşdırmaq olar.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1. Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri / İ.Alıyev. – Bakı: “Elm”, – 2008. - s.400.

2. Allahverdiyev, H. B. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Dərslik / H.B.Allahverdiyev K.S.Qafarov, Ə.M.Əhmədov - Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, – 2012 – s. 508

3. Azərbaycan rəqəmlərdə 1995 AR DSK – Bakı: “Səda” nəşriyyatı, - 1996. – s.259.

4. Azərbaycanın statistik göstəriciləri” AR DSK – Bakı: “Səda” nəşriyyatı, – 2001. – s.561.

5. Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının qanunu. / [Elektron resurs] // 18 fevral 1995-ci il. № 976. / Bakı: URL: http://www.e-qanun.az/framework/9164

6. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. / [Elektron resurs] // Bakı: 2016. - 177s. URL: https://president.az/az/articles/view/22110

7. Antiinhisar fəaliyyəti haqqında: / Azərbaycan Respublikasinin qanunu / [Elektron resurs] // Bakı: - 1993, № 526. - URL: https://e-qanun.az/framework/8249

8. Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında // Azərbaycan Respublikasinin Qanunu: / [Elektron resurs] // Bakı şəhəri, - 31 may 2016-cı il: - №261-VQ. - URL: https://e-qanun.az/framework/33306

9. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında / Azərbaycan Respublikasi Prezidentinin fərmanı. / [Elektron resurs] // Bakı şəhəri: - 25 dekabr 2009-cu il №203. - URL: https://e-qanun.az/framework/18936

10. Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında. Azərbaycan Respublikasinin Qanunu. / [Elektron resurs] // Bakı şəhəri, - 29 may 1998-ci il - №120. - URL: https://e-qanun.az/framework/3730

11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin strukturu / [Elektron resurs] // URL: https://competition.gov.az/az/page/haqqimizda/struktur

12. Azərbaycan Respublikasının Konstitusiyası // 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir (2002-ci il avqustun 24-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklər, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklər). – Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, – 2016, – 85 s.

13. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu. Güzəştli kreditlərin şərtləri. / [Elektron resurs] // URL: https://edf.gov.az/uploads/daxili%20qaydalar/Minimal_telebler.pdf

14. Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. Haqqımızda. / [Elektron resurs] // URL: https://smb.gov.az/az/nav/haqqimizda

15. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi. Haqqımızda. / [Elektron resurs] // URL: http://akia.gov.az/az/content/136.html, http://akia.gov.az/az/content/9-37.html

16. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) İnnovasiya yönümlü aqrar sahənin inkişafı yolları. / B.Ataşov. – Bakı: “Kooperasiya” nəşriyyatı, – 2017. - s. 478

17. Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. / [Elektron resurs] // – Bakı şəhəri: 11 oktyabr 2021-ci il. URL: https://president.az/az/articles/view/53407

18. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. Hesabat dövrü 2020-ci il. / [Elektron resurs} // Dövlət Gömrük komitəsi. - URL: https://customs.gov.az/uploads/foreign/2020/2020_12.pdf?v=1640608671

19. “Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli 118 nömrəli qərarında dəyişiklik edilməsi haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. / [Elektron resurs] // Bakı: - 6 iyun 2014-cü il №182. URL: https://e-qanun.az/framework/27834

20. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / [Elektron resurs] // 26 dekabr 2014-cü il. URL: https://president.az/az/articles/view/13900

21. Azərbaycanın kənd təsərrüfatı: / [Elektron resurs] // Azərbaycan Respublikası DSK. Bakı: 2022. – 8,35MB. – URL: https://www.stat.gov.az/source/agriculture/

22. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu. Hesabatlar. / [Elektron resurs] // URL: https://edf.gov.az/az/content/22

23. Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. Hesabatlar. / [Elektron resurs] // URL: https://smb.gov.az/az/nav/hesabatlar

24. Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət proqramı. Azərbaycan Respublikası Prezidentinin

2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. / [Elektron resurs] // URL: https://president.az/az/articles/view/26017

25. Abbasov, V.H. Aqrar sahədə iqtisadi tənzimlənmənin aktual problemləri Dərslik / V.H.Abbasov. – Bakı: MBM -2012. - 424 s.

26. Abbasov, V. H. Qida sənayesi sahələrinin inkişaf prioritetləri / V.Abbasov, T.Qorçiyeva // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı - 2020, № 1 (31) – s.122-131.

27. Azərbaycanın xarici ticarəti AR DSK. Statistik məcmuə / [Elektron resurs] // Bakı: - 2022. URL: https://www.stat.gov.az/source/trade/

28. Azərbaycanda sənaye AR DSK. Statistik məcmuə / [Elektron resurs] // Bakı: 2022. – URL: https://www.stat.gov.az/source/industry

29. Azərbaycanın ərzaq balansları AR.DSK. Statistik məcmuə / [Elektron resurs] // Bakı: 2022. – URL: https://www.stat.gov.az/source/food_balances/

30. Azərşəkər Haqqımızda / [Elektron resurs] // Bakı: 2022. - URL: https://azsf.az/page/about-us

31. Azərbaycan rəqəmlərdə AR DSK Statistik məcmuə / [Elektron resurs] // Bakı: 2022. – URL: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

32. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə Azərbaycan Respublikasi Prezidentinin fərmanı /[Elektron resurs] // Bakı: 25 dekabr 2019-cu il № 902. – URL: https://e-qanun.az/framework/44018

33. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 11 fevral 2004-cü il № 24 – URL: https://e-qanun.az/framework/4797

34. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 14 aprel 2009-cu il.№ 80 – URL: https://e-qanun.az/framework/16721

35. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 4 may 2009-cu il № 255. – URL: https://e-qanun.az/framework/17199

36. “Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikasi Prezidentinin sərəncami / [Elektron resurs] // Bakı şəhəri: - 23 oktyabr 2004-cü il №467. – URL: https://e-qanun.az/framework/5801

37. Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun fəaliyyətinin təmin edilməsi və “İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 23 iyul 2021-ci il № 1411. – URL: https://e-qanun.az/framework/47918

38. Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 23 oktyabr 2004-cü il № 468. –URL: https://e-qanun.az/framework/5802

39. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üçün yaradılmış Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 27 avqust 2018-ci il № 431. URL: https://www.e-qanun.az/framework/39902

40. Azərbaycan Respublikasında təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi qaydaları haqqında. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı / [Elektron resurs] // Bakı şəhər: - 15 avqust 1996-cı il № 109. URL: https://e-qanun.az/framework/13997

41. Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı / [Elektron resurs] // Bakı: - 10 yanvar 2019-cu il № 881. URL: https://e-qanun.az/framework/41201

42. Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı / [Elektron resurs] // Bakı şəhəri: 27 iyun 2019-cu il № 759. – URL: https://e-qanun.az/framework/42750

43. Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / [Elektron resurs] // Bakı şəhəri, 15 iyul 2021-ci il. – URL: https://president.az/az/articles/view/52463

44. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri Azərbaycan Respublikası Prezidentinin Sərəncamı \\[Elektron resurs]\\ Bakı şəhəri 02 fevral 2021-ci il. - https://president.az/az/articles/view/50474

45. Balayev, R. Ə. Aqrar sahədə rəqəmsal mühitin formalaşmasinin əsas amilləri və təcrübi aspektləri // - Bakı: - Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 1 (31). – s.93-100.

46. Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: 28 dekabr 2011-ci il. № 1947. – URL: https://e-qanun.az/framework/22839

47. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq Qərb”Nəşriyyat evi, – c.4. - 2012. - 592 s.

48. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.1. - 2012. - 612 s.

49. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.2. - 2012. - 632 s.

50. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.3. - 2012. - 608 s.

51. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.5. - 2012. - 632 s.

52. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Letterpress” nəşriyyat evi, – c.6. - 2015. - 716s.

53. Çayçılıq haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 17 dekabr 2002-ci il № 402-IIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/5525

54. Davudova, R. İ. Azərbaycan Respublikası nümunəsində ev təsərrüfatlarının istehlakı, ÜDM və dövlət gəlirləri arasında qarşılıqlı əlaqələrin vec modeli vasitəsi ilə qiymətləndirilməsi\ R. Davudova\ Bakı: AMEA-nın xəbərləri İqtisadiyyat seriyası

yurnalı\ - 2019. №4. s.18-30 / [Elektron resurs] // URL: https://economics.org.az/images/fotos/xeberler_pdf/2019_4/3.Revane.pdf

55. Əhmədov, M. A. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. / M.A.Əhmədov, A.C.Hüseyn - Bakı: "İqtisad Universiteti", – 2011. - 120 s.

56. Əliyev, T. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf / T.Əliyev. – Bakı: "Elm və Bilik" – 2019. - 535 s.

57. Harrington Emerson "Səmərəliliyin 12 prinsipi" 1911. / [Elektron resurs] // tərt. edən. Industrial Engineering Knowledge Center, Нараяна Рао KVSS. – 2021. 11 avqust - URL: http://nraoiekc.blogspot.com/2016/07/the-twelve-principles-of-efficiency.html

58. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasinin Qanunu. [Elektron resurs] // Bakı: - 2 iyun 1995-ci il. № 1049. URL: https://e-qanun.az/framework/9475

59. Hüseynov, T. H. Azərbaycanin milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika / T.Hüseynov. – Bakı: "Elm" – 2015. – 466 s.

60. Hüseyn, R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları / R.Z.Hüseyn. - Bakı: Avropa, - 2018, - 408 s.

61. Hüseynov, T. H. Mövcud reallıq kənd təsərrüfatı kooperativlərinə yeni yanaşma tələb edir. // Azərbaycan qəzeti, - 2022, 02 sentyabr, - s.9

62. Xəlilov, H. A. Kənd təsərrüfatinda enerji istehlaki: səmərəlilik və dayaniqliliq kontekstlərində baxiş // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktiki jurnal – 2020.№4(34). – s.64-68.

63. Xəlilov, H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti / H.A. Xəlilov. - Bakı: "Mütərcim", - 2005. - 228 s.

64. İbrahimov, İ. H. Aqrar sahənin iqtisadiyyatı / İ.H.İbrahimov. – Bakı: "Printing" Company MMC mətbəəsi, - 2016. – s. 655

65. İbrahimov, İ. H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. / İ.H.İbrahimov. – Bakı: "Kooperasiya" nəşriyyatı, - 2022. - s.239

66. "İlham Əliyev Lənkəranda "Astaraçay" MMC-nin çay plantasiyalarına baxıb" / [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı: 2017-ci il 02 sentyabr. URL: https://president.az/az/articles/view/25101

67. İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib / [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev/ Bakı: 16 noyabr 2018. – URL: https://president.az/az/articles/view/30736

68. "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxs. Struktur. / [Elektron resurs] // Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin veb-saytı. - URL: https://mincom.gov.az/az/view/organization/35/

69. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: 10 dekabr 2021. URL: https://e-qanun.az/framework/48628

70. Quliyev, E. A. Aqrar iqtisadiyyat / E.A.Quliyev. Bakı: "Kooperasiya" nəşriyyatı, - 2015. – s. 320.

71. Quliyev, E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri / E.A.Quliyev. Bakı: "Elm", - 2013. - s.151.

72. Qlobal rəqabətqabiliyyətlilik indeksi-2020: Azərbaycanın mövqeyinin yaxşılaşdırılması: / tərt. ed. AMEA İqtisadiyyat institutu G.Yüzbaşıyeva və başqaları - Bakı: "Elm və bilik". – 2021. - s.204.

73. Qasımlı, V. Ə. İqtisadi modernizasiya / V.Ə.Qasımlı – Bakı: - SAM – 2014. – 312 s.

74. Qafqaz konserv zavodu. Tariximiz / [Elektron resurs] // veb-sayt. - URL: https://www.qafqazkonserv.az/haqqimizda

75. Qəbələ konserv zavodu. Gilan holdinq / [Elektron resurs] // veb-sayt. – URL: https://gilanholding.com/industries/Qebele+Konserv+Zavodu+100

76. Qiymət indeksi AR DSK. Statistik məcmuə / [Elektron resurs] // URL: https://www.stat.gov.az/source/price_tarif/

77. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - 06 dekabr 2016-cı il. - URL: https://president.az/az/articles/view/21953

78. Meybullayev, M. X. İqtisadi təhlükəsizlik nəzəruyyəsi / X. Meybullayev, S. Mikayılova – Bakı: "İqtisad universiteti", - 2015 – 373s.

79. Müzəffərli, (Imanov) N. Azərbaycanin post-konflikt ərazilərinin bərpasi: konseptual əsaslar / N.Müzəffərli (İmanov), E.İsmayılov – Bakı: Qafqaz, - 2010. – 270s.

80. Məmmədli, O. Milli İqtisadiyyatın tənzimlənməsi. Dərslik. - O.Məmmədli, M.İsmayılov, F.İsmayılov – Bakı: "MBM", - 2008. - 560 s.

81. Məmmədov, E. Y. İstehlak bazarinin idarə edilməsi. Dərslik / E.Məmmədov. – Bakı: - "İqtisad Universiteti" Nəşriyyatı. – 2019. - 204 səh.

82. Mingəçevir Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 26 fevral 2015-ci il № 1077. – URL: https://e-qanun.az/framework/29430

83. Nuriyev, Ə. X. Davamlı və tarazlı regional inkişaf / Ə.X.Nuriyev. - Bakı: Avropa. – 2017. – 242 s.

84. Narın tarixi. Aznar / [Elektron resurs] // AZNAR QSC. URL: https://aznar.az/az/factory/history_aznar/

85. Pambıqçılıq haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 11 may 2010-cu il № 1012-IIIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/19873

86. Ramazanov, S. Çayçılıq, Dərslik. / S.Ramazanov, İ.Kərimov – / [Elektron resurs] // Bakı: 2019. - 64 s.
URL: https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/cayciliq.pdf

87. Salahov, S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. / S.Salahov - Bakı: - Nurlar" - 2004. - 504 s.

88. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasinin

Qanunu. / [Elektron resurs] // Bakı: - 2 iyul 2013-cü il № 714-IVQ. URL: https://e-qanun.az/framework/26449

89. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasinin Qanunu. / [Elektron resurs] // Bakı: - 15 dekabr 1992-ci il URL: https://e-qanun.az/framework/7920

90. "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiqi barədə Azərbaycan Respublikasi Prezidentinin Fərmani / [Elektron resurs] // Bakı: - 24 aprel 2013-cü il. № 865. - URL: https://e-qanun.az/framework/25657

91. Sadıqov, Ş. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi-2018: Azərbaycan sənayesində klasterlərin yaradılması və inkişafı istiqamətləri / Ş.Sadıqov. - Bakı: "Elm və Bilik" – 2021. – 130s.

92. Sadıqov, Y.M. Azərbaycanda aqroemal sahəsinin müasir vəziyyəti və inkişaf perspektivləri / Y.M.Sadıqov. - Bakı: Avropa. – 2018. – 86s.

93. Sadıqov, Y. M. Azərbaycanda pambıqçılıq və emalı // - Bakı: AMEA İqtisadiyyat institutu "İqtisadi artım və ictimai rifah" elmi publisistik jurnalı, - 2021. №2. - s. 81- 91

94. Sadıqov, Y. M. Üzümçülük və şərabçılığın inkişaf perspektivləri // - Bakı: Kooperasiya universiteti "Kooperasiya" yurnalı, - 2021. №1. - s. 171-179.

95. Sadıqov, Y. M. Azərbaycanda çay sənayesi: dünəni bu günü sabahı // - Gəncə: ADAU "Elmi əsərlər", - 2021. №2. - s.44-51

96. Sadıqov, Y. M. Azərbaycanda ət və ət məhsulları istehsalı: mövcud durum və inkişaf istiqamətləri // - Bakı: AMEA İqtisadiyyat institutu "İqtisadi artım və ictimai rifah" yurnalı, - 2021.№ 3. - s.19-30

97. Sadıqov, Y. M. Azərbaycanda süd istehsalı və emalı: mövcud vəziyyət və inkişaf perspektivləri // - Bakı: BBU "Audit" elmi-praktik jurnalı, - 2021.№2 – s.89-99.

98. Sadıqov, Y. M. Azərbaycanda taxıl və çörək-bişirmə sənayesi: Mövcud durum və perspektivlər" // - Bakı: AMEA Iqtisadiyyat institutu AMEA-nın xəbərləri Iqtisadiyyat seriyası, - 2021 №1. - s. 97-104.

99. Sadıqov, Y. M. Azərbaycanda tütün istehsalı və emalının inkişaf istiqamətləri // - Bakı: Aqrar Tədqiqatlar Mərkəzi “Kənd Təsərrüfatının İqtisadiyyatı” yurnalı, - 2021. № 2(36) - s.57-63.

100. Sadıqov, Y. M. Azərbaycanda yunçuluq və xalçaçılıq // - Bakı “Azərbaycan xalçaları” elmi-publisistlik yurnalı, - 2018. Cild 8. №-27. - s.50-58.

101. Sadıqov, Y. M. Aqrar-emal sahəsi. Mövcud durum və dayanıqlı inkişaf // - Bakı: AMEA İqtisadiyyat institutunun “Elmi əsərlər” jurnalı, - 2017. №2. - s.186-193.

102. Sadıqov, Y. M. Ərzaq təhlükəsizliyi və aqrar sahə. İnkişaf perspektivləri // “Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri” mövzusunda elmi-praktik konfransın materialları, - Bakı: Kooperasiya universitetinin mətbəəsi - 1-2 iyun, -` 2018. - s.271-275.

103. Sadıqov, Y. M. Emal sahəsinin mövcud durumu və inkişaf istiqamətləri // “Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” Respublika elmi konfransının materialları, - Naxçıvan: Naxçıvan Dövlət Universitetinin mətbəəsi. - 29 fevral-01mart, - 2021. - s.163-168.

104. Sadıqov, Y.M. Qlobal Ərzaq təhlükəsizliyi indeksində (əlçatanlıq subindeksi üzrə) Azərbaycanın mövqeyinin qiymətləndirilməsi və yaxşılaşdırılması yolları // - Bakı: AMEA İqtisadiyyat institutunun “Elmi əsərlər” elmi jurnalı, - 2019. № 6. - s.268-278.

105. Sadıqov, Y. M. Aqrar sahədə dövlət – özəl əməkdaşlığının inkişafında dövlətin yeri və rolu // - Bakı: AMEA İqtisadiyyat institutunun “Elmi əsərlər” jurnalı, - 2019. №5. - s. 222-230.

106. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 21 dekabr 2011-ci il. № 548. URL: https://e-qanun.az/framework/22726

107. Sovxoz və kolxozların islahatı haqqında Azərbaycan Respublikasinin Qanunu / [Elektron resurs] // Bakı şəhəri: - 18 fevral 1995-ci il.№ 978. URL: https://e-qanun.az/framework/9207

108. “Torpaq islahatı” haqqında Azərbaycan Respublikasının Qanunu. / [Elektron resurs] // Bakı şəhəri: - 16 iyul 1996-cı il. № 155-IQ. - URL: http://www.e-qanun.az/framework/4207

109. “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikasının Qanunu / [Elektron resurs] // Bakı şəhəri: - 30 may 2003-cü il. - URL: https://e-qanun.az/framework/2335

110. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasinin Qanunu / [Elektron resurs] // Bakı şəhəri: - 15 dekabr 1998-ci il № 590-IQ. - URL: https://e-qanun.az/framework/5038

111. “Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi haqqında” AR Nazirlər Kabinetinin Qərarı. /Elektron resurs] // Bakı şəhəri: - 25 dekabr 2001-ci il.№20. URL: https://e-qanun.az/framework/2931

112. Taxıl haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 16 iyun 2000-ci il № 898-IQ qəbul edilmişdir. / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/631

113. Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 8 iyun 2001-ci il № 138-IIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/2697

114. Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 19 oktyabr 2001-ci il № 208-IIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/1021

115. Vəliyev, A.H. İşğaldan azad olmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı elmi-praktik jurnal – 2020. №4 (34), - s.38-44.

116. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 25 avqust 2008-ci il № 3004. – URL: https://e-qanun.az/framework/15320

**Türk dilində**

117. YAVUZ, F. TE Tarım Politikası Ders Notları / Fahri Yavuz Atatürk Üniversitesi Ziraat Fakültesi Yayınları No: 252 Tarım Ekonomisi Bölümü 2021. – s.401.

**Rus dilində**

118. Абалкин, Л. И. Стратегический ответ России на вызовы нового века / Л.И.Абалкин, И. А. Погосов, Н. Г. Гловацкая. - Москва: Экзамен, - 2004. – 606 с.

119. Агибалов А.В. Состояние финансового обеспечения государственной поддержки АПК //А.В. Агибалов, О.С. Капцова// Финансовый вестник. – Moskva: - 2016. - № 1 (32). - с. 72-80.

120. Александрова, О. А. Господдержка аграрной экономики США // Финансы.- Москва: - 2012. №3. - с. 67-71.

121. Блауг М. Экономическая мысль в ретроспективе. / М.Блауг. - Москва: - Дело, - 1994. - 34 с.

122. Богданов, Д. Д. Институциональные аспекты регулирования ценового поведения доминирующей фирмы / [Электронный ресурс] // Таврический научный обозреватель. — 2015. — № 1. — с. 15-16. URL: file:///C:/Users/User/Downloads/institutsionalnye-aspekty-regulirovaniya-tsenovogo-povedeniya-dominiruyuschey-firmy.pdf

123. Баутин, В. М. Инновационная экономика: содержание, место и роль инноваций // Москва: Известия ТСХА, - 2014. № 2, - с. 102-117. URL: file:///C:/Users/User/Downloads/innovatsionnaya-ekonomika-soderzhanie-mesto-i-rol-innovatsiy.pdf

124. Воронов, Д. С. Оценка конкурентоспособности множества предприятий / [Электронный ресурс] // Д. С. Воронов // г. Екатеринбург: Вестник УрФУ. Серия: Экономика и управление. — 2015. — № 2. — С. 24-40. URL: https://elar.urfu.ru/bitstream/10995/55158/1/vestnik_2015_2_002.pdf

125. Гринберг, Р.С. Мифы о свободном рынке должны уйти в прошлое // Экономика для человека: социально-ориентированное развитие на основе

прогресса реального сектора: Материалы Московского экономического форума. - Москва: - Культурная революция,- 27-mart-06 aprel. -2014. - с. 15-18.

126. Годовой отчет Всемирной Организации Здравоохранения о деятельности за 2019 г. / [Электронный ресурс] // Рим: 29 июня — 3 июля 2020 года URL: https://executiveboard.wfp.org/document_download/WFP-0000116971

127. Дагаев, А. Государственные гарантии для малого инновационного бизнеса / А. Дагаев // Проблемы теории и практики управления, - Moskva: – 2016. № 2. – с. 81-88.

128. Давлетгареев, Н. Р. Давлетгареева, Т. Б. Пути повышения конкурентоспособности предприятий / [Электронный ресурс] // Проблемы управления рыночной экономикой: межрегиональный сборник научных трудов. (Материалы конференций) — Томск: - Изд-во ТПУ, - 2015.— с. 76-81. URL: https://core.ac.uk/download/pdf/53083032.pdf

129. Евдошенко В.В. Государственное регулирование и поддержка агропромышленного комплекса в условиях реализации политики импортозамещения / В.В. Евдошенко, А.Д. Котенев // Kant.- Ставропол: - 2016. - № 1 (18). - с. 102-106.

130. Епанчинцева С.Э. Развитие легкой промышленности: опыт зарубежных стран / С.Э.Епанчинцева // Вестник КазЭУ. - Алматы – 2012. – No 3. – с. 107–114. https://articlekz.com/article/13924

131. Кондратьев В.Б. Обрабатывающая промышленность секреты и тенденции, прямые инвестиции / [Электронный ресурс] // ИМЭМО РАН 8(136), - 2013, - с. 38-44 URL:
https://www.imemo.ru/publications/info/obrabativayushtaya-promishlennosty-sekreti-i-tendentsii-tekst-vb-kondratyev-pryamie-investitsii-2013-8-s-41-45

132. Маршалл, А. Принципы экономической науки: [Электронный ресурс] / создатель https://www.library.ru/ Moskва: - 594 с. URL: https://web.archive.org/web/20220401083810id_/http://www.library.fa.ru/files/Marshall.pdf

133. Моламусов З.Х., Мисаков А.В. “Формирование конкурентной среды и конкурентных отношений” / [Электронный ресурс] // Экономические вестник Ростовского государственного университета 2018 Том 6-3 URL: https://cyberleninka.ru/article/n/formirovanie-konkurentnoy-sredy-i-konkurentnyh-otnosheniy/viewer

134. Международный Стандарт ISO 9000 Системы менеджмента качества основные положения и словарь / [Электронный ресурс] // CERT Akademy Москва: 2015. – URL:

https://iso-management.com/wpcontent/uploads/2018/09/ISO-9000-2015.pdf

135. Об усилении борьбы с пьянством. Указ Президиум Верховного Совета СССР / [Электронный ресурс] // Москва: - 16 мая 1985 года N 2458-XI URL: https://docs.cntd.ru/document/9007335

136. Оукен В. Основные принципы экономической политики. — Moskva: Прогресс, - 1995. — с.496.

137. Портер М. Конкуренция: [учебн. пособие,пер. с англ.] – Moskba: Издательский дом «Вильямс»,- 2001. – 495 с.

138. Радионова, И. А. Современные тенденции развития промышленности мира / И.А.Радионова, Т.В. Кокуйцева – Москва: - Изд-во РУДН, - 2014. – с.222.

139. Райзберг, Б.А. “Современный экономический словарь” / Б.А. Райзберг, Л.Ш. Лозовский, Е.Б. Стародубцева; 6-е изд., перераб. и доп. – Москва: ИНФРА-М. - 2011. - 157 с.

140. Сельское хозяйство в странах СНГ 2015-2020 Статистический сборник / [Электронный ресурс] // Москва: 2021, - с.326. URL: http://www.cisstat.info/0base/frame-rus.htm

141. Смит, А. Исследование о природе и причинах богатства народов / Адам Смит; отв. ред. Л. И. Абалкин ; пер. с англ., ввод.ст., коммент. Е. М. Майбурда. - Москва: - Наука,- 1993. - 569 с.

142. Садыгов, Ю. М. Аграрно-перерабатывающая промышленность в Азербайджане и направления ее устойчивого развития / [Электронный ресурс] // Science and Global Studies: тезисы докладов VIII Международной научной

конференции Прага, Чехия: 17 мая 2021. URL: https://www.inter-nauka.com/issues/conf-2021/may/7258

143. Садыгов, Ю. М. “Место и роль государства в развитии государственно-частного партнерства в Азербайджане” / [Электронный ресурс] / Science an d Global Studies: тезисы докладов VII Международной научной конференции (Прага, Чехия, «15» апреля 2021 года)

URL: https://www.inter-nauka.com/issues/conf-2021/april/7089

144. Садыгов, Ю. М. Азербайджан и Глобальная Продовольственная Безопасность: Позиции и Перспективы. / Ю.Садыгов, Ф.Рустамов, Л.Исаева // Научный журнал “Фундаментальные исследования” Экономические науки. Москва: - 2021.№ 5. – с.75-80.

URL: https://fundamental-research.ru/ru/article/view?id=43041

145. Скидельски Р. Джон Мейнард Кейнс. 1883-1946. Экономист, философ, государственный деятель / Р. Скидельски; Пер. с англ. Демида Васильева. – Москва: Московская школа политических исследований, - 2005. - Т. 1. -784 с. https://biblio.school/wp-content/uploads/2021/12/Skidelski-R._Dzhon-Mejnard-Kejns-1883-1946_ekonomist-filosof-gosudarstvennyj-deyatel-Tom-1.pdf

146. Rубилин, А. И. Ценовая политика в аграрном секторе экономики / А.И. Rубилин, В.В. Сидоренко, А.Б. Мельников, [и др.] // [Электронный ресурс] // Международный сельскохозяйственный журнал 2019 -№ 1 (367) – с. 8-11 URL: https://cyberleninka.ru/article/n/tsenovaya-politika-v-agrarnom-sektore-ekonomiki

147. Фридман, М. Капитализм и свобода / [Электронный ресурс] // M.Fridman Пер. с англ. Москва : Новое издательство, - 2006. - 240 с.

URL: https://gtmarket.ru/files/book/milton-friedman-capitalism-and-freedom.pdf

148. Фридман, М. Свобода выбирать: наша позиция /[Электронный ресурс] // М. Фридман, Р.Фридман. - Moskva: - Новое издательство, - 2007. – с.356. URL: https://nonews.co/wp-content/uploads/2016/02/Fridmen_-_Svoboda_vybirat.pdf

149. Фролова, О.А. Система государственной поддержки сельского хозяйства в современных условиях / О.А. Фролова, Е.А. Бессонова, С.Ю. Петрова // Вестник Курской государственной сельскохозяйственной академии. - 2013. - № 8. - С. 28-31.

150. Фархутдинов, Р. А. Сущность конкурентоспособности” / [Электронный ресурс] www. Cyberleninka.ru / Москва: - 2020. - с.99-129. URL: https://cyberleninka.ru/article/n/suschnost-konkurentosposobnosti/viewer

151. Харченко, Е.В. Государственное регулирование национальной экономики. Учебное пособие для студентов высших учебных заведений / Е.В. Харченко, Ю.В. Вертакова. – Москва: Кнорус, - 2019. - 326 с.

152. Черчилл, У. Собрник произведений. / У. Черчилл, - Москва,полит.изд., - 1948. – с.560.

**İngilis dilində**

153. About Us. The National Venture Capital Association (NVCA) website / [Electronic resource] // Washington: - URL: https://nvca.org/about-us/

154. Agriculture improvement act of 2018. Public law 115–334—dec. 20, 2018 / [Electronic resource] // Congress: - URL: https://www.congress.gov/115/plaws/publ334/PLAW-115publ334.pdf

155. Byukenen C. “Public Finance in Democratic Process: Fiscal Institutions and Individual Choice” / [Electronic resource] // Liberty Fund 1999 p.336 / URL: https://www.econlib.org/library/Buchanan/buchCv4.html, URL: https://storage.googleapis.com/catalog.libertyfund.org/PDFPreview/Buchanan_PublicFinance_1724_preview.pdf

156. European Clusters alliance The common voice for european clusters / [Electronic resource] / URL: https://clustersalliance.eu/

157. European Cluster Observatory. Home. website. / [Electronic resource] // URL: https://clustercollaboration.eu/tags/european-cluster-observatory

158. European Cluster Policy Forum. / [Electronic resource] // European Union: - 2018. - URL:https://www.nca.cz/media/ai2jiqmk/1stecpf_input_paper.pdf

159. European Clusters Alliance. website. / [Electronic resource] // Brussels: 2022 – URL: https://clustersalliance.eu/

160. Food and Agriculture Organization of the United Nations (FAO) / [Electronic resource] / URL: https://www.fao.org/documents/card/ru/c/cb4477en/

161. French Economy Dashboard / [Electronic resource] // INCEE URL: https://www.insee.fr/en/outil-interactif/5543645/details/70_SAC/71_AGR/71A_Figure1

162. FAO statistics. Statistical yearbook 2022 / [Electronic resource] // URL: https://www.fao.org/3/cc2211en/cc2211en.pdf

163. Farmers Credit System Insurance Corporation, FCSIC, General information / [Electronic resource] // - URL: https://www.fcsic.gov/about/general-information#

164. Gilder, George Wealth and poverty Toronto; New York : Bantam Books. – 1981. – 392 P. URL: https://archive.org/details/wealthpoverty00gild/page/n387/mode/2up

165. "Global Innovation Index 2022" World Intellektual Property Organization / [Electronic resource] / URL: https://www.wipo.int/edocs/pubdocs/en/wipo-pub-2000-2022-en-main-report-global-innovation-index-2022-15th-edition.pdf

166. Global Innovation Index 2020 INSEAD / [Electronic resource] // The Business School for the World. URL: https://www.insead.edu/sites/default/files/assets/dept/globalindices/docs/GII-2020-report.pdf

167. Innovation platform./ [Electronic resource]// European Cluster Collaboration Platform. European Union, 2023. URL: https://clustercollaboration.eu/tags/innovation-platform

168. Monetary Policy, Taxation, and International Investment Strategy, Canto, Victor A; Laffer, Arthur B., Quorum Books, Connecticut. 1990. - 386 P.

169. Porter M. E. Development strategies for the 21st century social progress and competitive growth //Social Progress Imperative, Asuncion, Paraguay.[online]

Retrieved from: URL: https://www.slideshare.net/slideshow/20130905-spi-paraguay-comp-presentation-final-for-web-26062594/26062594

170. Perroux F.A. New concept of development: Basic tenets / F.A. Perroux. -London, Canberra, 1983. – 212 p. (Yaxud) URL: https://books.google.az/books?id=4hKsAgAAQBAJ&printsec=frontcover&redir_esc=y#v=onepage&q&f=false

171. Ralph E. Flanders. Federal Reserve History / [Electronic resource] // URL: https://www.federalreservehistory.org/people/ralph-e-flanders

172. Sadigov, Y. M. Person-centered approach effectiveness in human resource management in the agriculture of Azerbaijan / [Electronic resource] // Y.Sadigov, Sh.Guliyeva, N.Guliyeva, (and ets.) // Journal of eastern european and central asian research. Minneapolis, USA: - 2021. Vol.8. No.2. - s.267-279.

URL: https://ieeca.org/journal/index.php/JEECAR/article/view/713/324

173. Sadigov, Y. M., Gurbanov, A. A. Aspects of development of agricultural cooperation in Azerbaijan // [Electronic resource] / VIII International Scientific and Practical Conference "İnternational scientific innovations in human life", - Manchester, UK. - February 16-18, 2022. - art.520 URL: https://sci-conf.com.ua/wp-content/uploads/2022/02/INTERNATIONAL-SCIENTIFIC-INNOVATIONS-IN-HUMAN-LIFE-16-18.02.22.pdf

174. Sadigov, Y. M., Gurbanov, A. A. The main directions of economic rehabilitation of the regions of Azerbaijan liberated in the post-conflict period // [Electronic resource] / VII International Scientific and Practical Conference "Modern directions of scientific research development", - Chicago, USA: - December 22-24, - 2021. - art.699. URL: https://sci-conf.com.ua/wp-content/uploads/2021/12/MODERN-DIRECTIONS-OF-SCIENTIFIC-RESEARCH-DEVELOPMENT-22-24.12.21.pdf

175. Sun Tea International. Sun Tea Azərbaycan / [Elektron resurs] // URL: https://azersun.com/en/activity-fields/qida/sun-tea-cay-fabriki

176. Sustainability in German Viticulture. Wines of Germany / [Electronic resource] // Deutsches Weininstitut GmbH URL:

https://www.germanwines.de/knowledge/viticulture-winemaking/sustainability-in-german-viticulture/

177. Taxation and Customs Union / [Electronic resource] // European Comission. Brussels: - URL: https://taxation-customs.ec.europa.eu/customs-4/calculation-customs-duties/customs-tariff/eu-customs-tariff-taric_en

178. The sveriges riksbank prize in economic sciences in memory of Alfred Nobel 1994. / [Electronic resource] // The Nobel Prize, URL: https://www.nobelprize.org/prizes/economic-sciences/1994/summary/

179. The sveriges riksbank prize in economic sciences in memory of Alfred Nobel 1996. / [Electronic resource] // The Nobel Prize, URL: https://www.nobelprize.org/prizes/economic-sciences/1996/summary/

180. The sveriges riksbank prize in economic sciences in memory of Alfred Nobel 2001. / [Electronic resource] // The Nobel Prize, URL: https://www.nobelprize.org/prizes/economicsciences/2001/summary//

181. UN DP Human Development Reports / [Electronic resource] // URL: https://hdr.undp.org/data-center/country-insights#/ranks 2020

182. UN Food and Agriculture Organization (FAO) report [Electronic resource] URL: https://www.fao.org/3/k5986r/k5986r.pdf

183. World Economic Forum https://www.weforum.org/ Global competitiveness index 2019 [Electronic resource] URL: https://www.weforum.org/reports/global-competitiveness-report-2019/

184. What is the WTO? World Trade Organization / [Electronic resource] //
URL: https://www.wto.org/english/thewto_e/whatis_e/whatis_e.htm

## ƏLAVƏLƏR

**Əlavə 1.Azərbaycanda əsas aqroemal məhsullarının istehsalı müstəqilliyin ilk illərində**

| | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 |
|---|---|---|---|---|---|---|
| Ət(o cümlədən I kateqoriya köməkçi ət məhsulları) min ton | 61,1 | 48,1 | 28,2 | 17,8 | 10,2 | 5,5 |
| Kolbasa məmulatı min ton | 17,3 | 13,9 | 77 | 9,5 | 3,9 | 1,9 |
| Ət yarımfabrikatları min ton | 8,4 | 3,7 | 3,0 | 1,7 | 0,4 | 0,4 |
| Balıq ovu və digər dəniz məhsulları hasilatı min ton | 41,7 | 39,7 | 31,2 | 22,2 | 19,2 | 9,8 |
| Yeməli balıq məhsulları, balıq konservləri daxil olmaqla min ton | 25,1 | 23,8 | 14,5 | 5,9 | 5,0 | 4,1 |
| Mal-qara yağı min ton | 3,0 | 3,1 | 2,9 | 2,3 | 1,4 | 1,5 |
| Üzlü pendir min ton | 17,0 | 16,1 | 9,5 | 7,6 | 4,6 | 2,3 |
| Üzlü süd məhsulları (süd hesabı ilə) min ton | 202,7 | 175,4 | 81,1 | 49,8 | 40,3 | 10,2 |
| Marqarin məhsulları min ton | 19,1 | 18,3 | 10,2 | 6,0 | 3,6 | 1,0 |
| Bitki yağı min ton | 40,7 | 36,2 | 22,5 | 14,2 | 9,6 | 11,7 |
| Konservlər mln.şərti banka | 653,5 | 628,1 | 508,4 | 333,1 | 186,1 | 82,0 |
| Makaron məmulatı min ton | 23,1 | 22,8 | 16,9 | 14,3 | 10,0 | 4,9 |
| Mineral sular mln.yarımlitr | 161,0 | 97,6 | 13,7 | 6,5 | 1,5 | 1,0 |
| Duz min ton | 99,3 | 84,7 | 21,9 | 3,8 | 6,8 | 4,0 |
| Xalça və xalçaçılıq məmulatı min kv. m. | 2243 | 2446 | 1417 | 539 | 241 | 77 |
| Alkoqollu içkilər mln.dekalitr | 4,8 | 3,6 | 2.3 | 1,2 | 0,6 | 0,2 |
| Papiros və siqaretlər mld.əd. | 6,5 | 7,3 | 4,9 | 5,3 | 3,2 | 2.0 |

Mənbə: AR DSK “Azərbaycanın sənayesi” 1990-1995-ci illərin məlumatları əsasında müəllif tərtibatı [3]

**Əlavə 2. 1995-1999 cu illər bəzi aqroemal məhsullarının istehsal dinamikası**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Ət (o cümlədən köməkçi ət məhsulları) min ton | 5,5 | 15,0 | 12,5 | 13,7 | 13,5 |
| Balıq, balıq konservləri daxil olmaqla min ton | 4,1 | 3,5 | 4,1 | 3,1 | 5,1 |
| Kərə yağı min ton | 0,8 | 4,4 | 4,3 | 4,8 | 4,9 |
| Üzlü süd məhsulları (süd hesabı ilə) min ton | 10,2 | 195,5 | 199,0 | 219,0 | 223,2 |

Mənbə: AR DSK "Azərbaycanın sənayesi" 1995-2000-ci illər məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 3. Kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin dinamikası min ha.**

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi əkin sahələri | 1462,5 | 1207,9 | 1041,5 | 1327,9 | 1541,3 | 1585,4 | 1630,9 | 1624,0 |
| Dənlilər və dənli paxlalı bitkilər | 583,4 | 609,4 | 648,2 | 802,3 | 968,0 | 952,1 | 989,1 | 985,7 |
| O cümlədən: Buğda | 368,6 | 418,7 | 495,4 | 591,5 | 657,7 | 539,7 | 588,4 | 547,2 |
| Texniki bitkilər | 282,1 | 227,0 | 118,2 | 132,0 | 52,6 | 38,7 | 122 | 125,2 |
| O cümlədən: Pambıq | 263,9 | 210,4 | 101,2 | 112,4 | 30,2 | 18,7 | 100,3 | 104,3 |
| Tütün | 14,8 | 8,0 | 8,1 | 2,8 | 1,4 | 1,4 | 3,1 | 2,4 |
| Şəkər çuğunduru | | | | | | 4,9 | 5,0 | 5,0 |
| Üzüm | 181,4 | 97,7 | 14,2 | 9,6 | 15,4 | 16,1 | 16,1 | 15,7 |
| Çay | 13,3 | 11,4 | 5,4 | 2,9 | 0,6 | 1,0 | 1,1 | 1,0 |
| Kartof, bostan və tərəvəz bitkiləri | 74,7 | 49,4 | 136,1 | 179,7 | 178,8 | 166,0 | 143,6 | 140,3 |
| Yemlik bitkilər | 522,3 | 322,1 | 139,0 | 213,9 | 384,5 | 428,6 | 376,2 | 372,8 |

Mənbə: AR DSK "Azərbaycanın kənd təsərrüfatı" 1990, 1995, 2000, 2005, 2010, 2015, 2020, 2022-ci illər məlumatları əsasında müəllif tərtibat

**Əlavə 4. Azərbaycanda əsas kənd təsərrüfatı məhsullarının istehsal dinamikası.**

| Göstəricilərin adı | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2022 | 2022-ci il %-lə | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | 1990 | 2000 | 2010 |
| Əhalinin orta illik sayı mln.nəfər | 7,1 | 7,6 | 8,0 | 8,6 | 9,1 | 9,7 | 9,9 | 10,0 | 10,1 | 10,1 | 10,1 | 142% | 126% | 111 % |
| Taxıl istehsalı min.t. | 1413,6 | 921,4 | 1540,2 | 2126,7 | 2000,5 | 2999,4 | 2808,6 | 3309,2 | 3538,5 | 3257,1 | 3077,5 | 218% | 200% | 154 % |
| Adambaşına düşən taxıl kq. | 199,1 | 121.2 | 192,5 | 247,3 | 219,8 | 309,2 | 283,7 | 330,9 | 350,3 | 322,5 | 304,7 | 153% | 158% | 153 % |
| Buğda min t. | 911,9 | 625,6 | 1174,7 | 1565,8 | 1308,9 | 1687,7 | 1818,7 | 2014,9 | 2171,5 | 1867,3 | 1687,5 | 185% | 144% | 129 % |
| Adambaşına düşən buğda kq. | 128,4 | 82,3 | 146,8 | 182,1 | 143,8 | 174,0 | 183,7 | 201,5 | 215,0 | 184,9 | 167,1 | 130% | 114% | 116 % |
| Kartof min t. | 185,2 | 155,5 | 469,0 | 1083,1 | 953,7 | 839,8 | 913,9 | 898,9 | 1004,2 | 1037,6 | 1074,3 | 580% | 229% | 113 % |
| Adambaşına düşən kartof kq. | 26,1 | 20,5 | 58,6 | 125,9 | 104,8 | 86,6 | 92,3 | 89,9 | 99,4 | 102,7 | 106,3 | 407% | 181% | 101 % |
| Şəkər çuğunduru min.t. | - | - | - | 36,6 | 251,9 | 184,3 | 410,1 | 277,2 | 218,5 | 233,8 | 210,6 | - | - | 84% |
| Meyvə-giləmeyvə min t. | 367,4 | 324,4 | 477,0 | 625,7 | 729,5 | 888,4 | 954,8 | 1010,8 | 1099,7 | 1133,1 | 1253,1 | 341% | 263% | 172 % |
| Adambaşına düşən meyvə giləmeyvə kq. | 51,7 | 42,7 | 59,6 | 72,8 | 80,2 | 91,6 | 96,4 | 101,1 | 108,9 | 112,2 | 124,1 | 240% | 208% | 155 % |
| Bostan məhsulları min t. | 74,0 | 73,0 | 98,0 | 363,8 | 433,6 | 484,5 | 438,1 | 401,9 | 447,6 | 448,1 | 469,3 | 634% | 479% | 108 % |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Adambaşına düşən bostan məhsulları kq. | 10,4 | 9,6 | 12,3 | 42,3 | 47,6 | 49,9 | 44,3 | 40,2 | 44,3 | 44,4 | 46,5 | 447% | 378% | 98% |
| Ət istehsalı min.t. | 175,5 | 82,0 | 108,7 | 149,6 | 244,9 | 298,6 | 316,8 | 326,0 | 335,7 | 346,0 | 368,2 | 210% | 339% | 150 % |
| Adambaşına düşən ət istehsalı kq. | 24,7 | 10,8 | 13,6 | 17,4 | 26,9 | 30,8 | 32,0 | 32,6 | 33,2 | 34,3 | 36,5 | 148% | 268% | 136 % |
| Süd istehsalı min t. | 970,4 | 826,5 | 1031,1 | 1251,9 | 1535,7 | 1924,5 | 2024,1 | 2080,4 | 2150,8 | 2192,5 | 2264,7 | 233% | 220% | 147 % |
| Adambaşına düşən süd istehsalı kq. | 136,7 | 108,7 | 128,9 | 145,6 | 168,8 | 198,4 | 204,5 | 208,0 | 212,9 | 217,1 | 224,2 | 164% | 174% | 133 % |
| Yumurta istehsalı mln.əd. | 985,3 | 471,2 | 542,6 | 874,6 | 1178,6 | 1552,9 | 1714,0 | 1676,2 | 1827,1 | 1906,2 | 2018,1 | 205% | 372% | 171 % |
| Adambaşına yumurta ist. əd. | 139 | 62 | 68 | 102 | 130 | 160 | 173 | 168 | 181 | 189 | 199,8 | 144% | 294% | 154 % |
| Yun (fiziki çəki) min tonla | 11,2 | 9,0 | 10,9 | 13,1 | 15,6 | 17,0 | 16,0 | 15,8 | 16,1 | 16,1 | 15,8 | 141% | 145% | 101 % |
| Pambıq istehsalı min t. | 542,9 | 274,1 | 91,5 | 196,6 | 38,2 | 35,2 | 207,5 | 233,6 | 295,3 | 336,8 | 322,5 | 59% | 352% | 844 % |
| Üzüm istehsalı min t. | 1196,4 | 308,7 | 76,9 | 79,7 | 129,5 | 157,1 | 152,8 | 167,6 | 201,8 | 208,0 | 212,6 | 17% | 276% | 164 % |
| Tütün istehsalı min t. | 52,9 | 11,7 | 17,3 | 7,1 | 3,2 | 3,5 | 5,3 | 6,3 | 6,0 | 6,9 | 5,1 | 10% | 46% | 159 % |
| Çay istehsalı min t. | 30,7 | 9,4 | 1,1 | 0,74 | 0,54 | 0,58 | 0,78 | 0,87 | 0,93 | 0,93 | 1,0 | 0,3% | 91% | 185 % |

Mənbə: AR DSK-nın "Azərbaycanın kənd təsərrüfatı", "Azərbaycanın ərzaq balansları" 1990, 1995, 2000, 2005, 2010, 2015, 2020, 2022-ci il məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 5. ÜTT-nin əsas normativ-hüquqi bazası**

| Sənədin adı | Qısa xülasə |
|---|---|
| Tariflər və Ticarət üzrə Baş Saziş 1947-ci il | Xidmətlərin, malların ticarətinin əsas rejimini və bu sahədə ÜTT üzvlərinin hüquq və vəzifələrini müəyyən edir. |
| Tariflər və Ticarət üzrə Baş Saziş 1994-cü il | Xidmətlərin, malların ticarətinin əsas rejimini və bu sahədə ÜTT üzvlərinin hüquq və vəzifələrini müəyyən edir. |
| Aqrar-sənaye kompleksi haqqında Saziş | kənd təsərrüfatı məhsullarının ticarətinin dövlət tənzimlənməsinin əsas xüsusiyyətlərini, habelə bu sahədə istehsala və ticarətə dövlət dəstəyi tədbirlərinin tətbiqi mexanizmlərini müəyyən edir. |
| Geyim və tekstil məhsulları üzrə Saziş | Geyim və toxuculuq ticarətinin dövlət tənzimlənməsinin əsas xüsusiyyətlərini müəyyən edir. |
| Sanitariya və fitosanitar standartlarının müəyyən edilməsi və tətbiqi haqqında Saziş | Dövlətin sanitar və fitosanitar nəzarəti tədbirlərinin tətbiqi üçün əsas şərtləri müəyyən edir. |
| Ticarətdə əsas texniki maneələr haqqında Saziş | Məhsul və xidmətlər üçün standartların, texniki reqlamentlərin, sertifikatlaşdırma prosedurlarının tətbiqi üçün əsas şərtləri müəyyən edir. |
| Ticarətlə bağlı investisiya tədbirləri haqqında Saziş | Bəzi ticarət siyasəti tədbirlərinin tətbiqini qadağan edir, hansı ki, bunlar xarici investisiyalara pis təsir göstərər, Tariflər və Ticarət üzrə Baş Sazişin (TTBS) "Milli rejim" maddəsinə zidd olaraq qiymətləndirilə bilər. |
| TTBS VII Maddəsinin Tətbiqi haqqında Saziş1994-cü il (Malların Gömrük Qiymətləndirilməsi) | Malların gömrük dəyərinin qiymətləndirilməsinin əsas qaydalarını müəyyən edir. |
| Göndərmə öncəsi yoxlama müqaviləsi | Göndərmə öncəsi yoxlamaların təşkili üçün əsas şərtləri müəyyən edir |
| Malların və xidmətlərin mənşəyi qaydaları haqqında müqavilə | Müəyyən edir ki, malların və xidmətlərin mənşəyi qaydaları dedikdə, bu malların və xidmətlərin mənşə ölkəsini müəyyən edən qanunlar, qaydalar və qaydalar məcmusu başa düşülür. |
| İdxal Lisenziyalaşdırma Prosedurları haqqında Saziş | İdxalın lisenziyalaşdırılması üçün əsas prosedurları, formaları və qaydaları müəyyən edir/ |
| Subsidiyalar və kompensasiya haqları haqqında müqavilə | Subsidiyaların təşkili və tətbiqi üçün əsas şərtləri və prosedurları və subsidiyalara qarşı mübarizəyə yönəlmiş tədbirləri müəyyən edir. |
| TTBS VI Maddəsinin Tətbiqi haqqında Saziş (antidempinq) 1994-il | Dempinqlə mübarizə tədbirlərinin tətbiqi üçün əsas şərtləri və prosedurları müəyyən edir. |
| Qoruyucu tədbirlər haqqında müqavilə | Artan idxala qarşı tədbirlərin tətbiqi üçün əsas şərtləri və prosedurları müəyyən edir. |

Mənbə: https://www.wto.org/index.htm əsasında müəllif tərtibatı

**Əlavə 6. Qida məhsullarının tövsiyə olunan istehlakı, kq/il/adam**

| Ərzaq qrupları | ÜST normativləri | Rusiyanın normativləri | Belarusiyanın normativləri |
|---|---|---|---|
| Çörək və makaron məmulatları una çevrilməklə | 120,5 | 95-105 | 94,3 |
| Kartof | 96,7 | 95-100 | 122,6 |
| Tərəvəz və bostan məhsulları | 140,3 | 120-140 | 136,5 |
| Meyvə və giləmeyvələr | 80,3 | 90-100 | 81,2 |
| Ət və ət məhsulları cəmi | 70,1 | 70-75 | 68,9 |
| Süd və süd məhsulları ( südə çevrilməklə) | 404 | 320-340 | 350,9 |
| Yumurta | 243 əd. | 260əd. | 256əd. |
| Balıq və balıq məhsulları | 18,4 | 18-22 | 21,3 |
| Şəkər | 36,5 | 24-28 | 30,6 |
| Bitki yağları | 13,1 | 10-12 | 11,4 |

Mənbə: http://www.gnicpm.ru/UserFiles/norma_2010_diet.pdf,
http://www.belstat.gov.by/uploads/bgd_files/1400846577126327.zip,
https://www.who.int/ru/news-room/fact-sheets/detail/healthy-diet əsasında müəllif tərtibatı

**Əlavə 7. Pambıq məhsulu üzrə fermer və emal müəssisələrinin gəlirlərinin hesablanması 2022-ci il**

2,5 ton xam pambıq = 1 ton pambıq lifi +1,2 ton çiyid
2,5 ton xam pambıq = 1500-1600 manat fermerə çatır.
Dünya bazarında pambıq lifinin hər tonu 1360 $, yəni,2320 manat.
Hər ton çiyidin qiyməti 400 manat civarında müəyyənləşir.
Xam pambığın ilkin emal xərci (2,5 ton üçün) – 170-180 manat
Pambıq emalı zavoduna 2,5 ton xam pambıqdan 2720 m.-1600m.-180m.=920m
Deməli 2,5 ton pambıqdan fermerin ümumi gəliri 1500-1600 manat olur. Bura pambığın başa gəlməsinə çəkilən xərclər də daxildir. (şumlama, suvarma, yığım, daşınma, toxum və s. xərclər.)
Mənbə: müəllifin tərtibatı

**Əlavə 8. Ölkəyə idxal olunan iribuynuzlu diri mal-qaranın statistikası. baş.**

| 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| 119044 | 104847 | 74809 | 51574 | 49878 |

Mənbə: DSK “Azərbaycanın xarici ticarəti” məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 9 Aqroemal məhsullarının istehsal həcmi və ona təsir edən amillər. mln.man.**

| | Aqroemal sahəsində məhsul istehsalının həcmi | Aqroemal sektorunda əsas kapitala yönəldilən investisiyaların miqdarı | Aqroemal sahəsində yaranmış əlavə dəyərin həcmi | k\t məhsullarının istehsal həcmi | k\t-na qoyulan investisiyaların miqdarı | k\t əsas fondların həcmi | Əhalinin pul gəlirlərinin həcmi |
|---|---|---|---|---|---|---|---|
| | y | X1 | X2 | X3 | X4 | X5 | X6 |
| 2008 | 1544,9 | 77,3 | 281,9 | 3505,9 | 336,5 | 4521,9 | 20734,4 |
| 2009 | 1695,2 | 69,2 | 510,0 | 3805,5 | 266,6 | 4868,1 | 22601,1 |
| 2010 | 2117,1 | 71,7 | 548,3 | 3877,7 | 431,0 | 5039,8 | 25607,0 |
| 2011 | 2299,4 | 88,0 | 596,6 | 4524,2 | 437,3 | 5271,4 | 30524,6 |
| 2012 | 2769.9 | 162,9 | 674,0 | 4844,6 | 648,8 | 5611,9 | 34769,5 |
| 2013 | 2518,1 | 177,6 | 674,0 | 5244,6 | 574,3 | 5852,3 | 37562,0 |
| 2014 | 2666,8 | 107,0 | 707,9 | 5225,8 | 363,9 | 6106,4 | 39472,2 |
| 2015 | 2532,5 | 111,6 | 681,1 | 5635,3 | 355,4 | 6355,2 | 41744,8 |
| 2016 | 3230,1 | 68,5 | 738,7 | 5632,4 | 325,1 | 6891,2 | 45395,1 |
| 2017 | 3302,4 | 152,8 | 819,2 | 6580,0 | 617,8 | 7141,2 | 49187,9 |
| 2018 | 3401,9 | 296,6 | 818,9 | 7010,0 | 764,4 | 7441,1 | 53103,7 |
| 2019 | 4266,8 | 196,8 | 1066,0 | 7836,7 | 769,5 | 8379,9 | 56769,0 |
| 2020 | 4747,9 | 268,8 | 1450,2 | 8428,9 | 520,6 | 8524,0 | 55754,1 |
| 2021 | 5664,4 | 239,1 | 1531,3 | 9163,4 | 341,9 | 9230,3 | 57206,8 |
| 2022 | 6222,8 | 253,0 | 1707,8 | 10984,2 | 408,0 | 10118,4 | 69163,0 |

Mənbə: DSK-nin hesabatları əsasında müəllif tərtibatı

## İXTİSARLAR VƏ ŞƏRTİ İŞARƏLƏRİN SİYAHISI

AAK – Ali Attestasiya Komissiyası

Aİ – Avropa İttifaqı

AB – Avropa Birliyi

ABŞ– Amerika Birləşmiş Ştatları

AMEA – Azərbaycan Milli Elmlər Akademiyası

ASK – Aqrar Sənaye Kompleksi

AR – Azərbaycan Respublikası

AKIA – Aqrar Kredit və İnkişaf Agentliyi

BMT –Birləşmiş Millətlər Təşkilatı

DSK – Dövlət Statistika Komitəsi

DKK – Dövlət Kömrük Komitəsi

ETTKİ – Elmi Tədqiqat və Təcrübə-Konstruktor İşləmələri

ƏDV – Əlavə Dəyər VergiSİ

İİİ – İnsan İnkişafı İndeksi

İN - İqtisadiyyat Nazirliyi

KOBİA – Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

KOB – Kiçik və Orta Biznes

Qİİ – Qlobal İnnovasiya İndeksi

MDB – Müstəqil Dövlətlər Birliyi

NK – Nazirlər Kabineti

NVKA (NVCA) – Milli Vençur Kapitalı Assosiasiyası

SİF – Sahibkarlığın İnkişaf Fondu

ÜƏMT – Ümumdünya Əqli Mülkiyyət Təşkilatı

ÜDM - Ümumi Daxili Məhsul

ÜİF - Ümumdünya İqtisadi Forumu

ÜST – Ümumdünya Səhiyyə Təşkilatı

ÜTT – Ümumdünya Ticarət Təşkilatı

YTM – Yüksək Texnoloji Məhsullar